**Azərbaycan Respublikası Milli Elmlər Akademiyası**
**Akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu**

**<u>İLKİN ƏNVƏR oğlu ƏLİMURADOV</u>**

# IX-X ƏSRLƏR AZƏRBAYCANLI HƏDİSŞÜNAS ALİM ƏHMƏD HARUN OĞLU ƏL-BƏRDİCİ (BƏRDƏLİ)

**BAKI-2015**

*Azərbaycan Milli Elmlər Akademiyası*
*akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun*
*Elmi Şurasının qərarı ilə çap olunur.*

**Elmi redaktor:** **Vasim Məmmədəliyev**
*filologiya üzrə elmlər doktoru, professor,*
*akademik, AMEA-nın həqiqi üzvü,*
*BDU, İlahiyyat fakültəsinin dekanı*

**Rəyçilər:** **Aslan Həbibov**
*ilahiyyat üzrə fəlsəfə doktoru*

**Elvüsal Məmmədov**
*fəlsəfə üzrə fəlsəfə doktoru*

İlkin Əlimuradov. **"IX-X əsrlər azərbaycanlı hədisşünas alim Əhməd Harun oğlu Əl-Bərdici (Bərdəli)".**
Bakı, "Araz" nəşriyyatı, 2015, 184 s.

*Əhməd Harun oğlu əl-Bərdici (Bərdəli) hədisşünas alim, öz dəsti-xətti, elmi üslubu və metodu ilə hədis tarixinin "Qızıl dövrü" adlandırılan hicri III (miladi IX) əsrə yenilik gətirməyə nail olmuş azərbaycanlı din alimlərindən biridir. Monoqrafiyada ümumiyyətlə İslam, Qurani-Kərim və hədis tarixindən, xüsusilə isə əl-Bərdicinin həyatından, təhsilindən, elmi fəaliyyətindən, nüfuzundan bəhs edilmiş, onun əsərləri geniş şəkildə təhlil edilmiş, müxtəlif əlyazma nümunələri monoqrafiyaya əlavə edilmişdir. İslam ilahiyyatının hədis sahəsində kifayət qədər aktual mövzuları əhatə edən altı əsərin müəllifi olan Əhməd Harun oğlu əl-Bərdici (Bərdəli) hicrətin 301 (m.914)-ci ilinin ramazan ayında, Bağdad şəhərində vəfat etmişdir.*

**İSBN 978-9952-8285-2-8**

©AMEA Şərqşünaslıq İnstitutu, 2015

# M Ü N D Ə R İ C A T


**ÖN SÖZ** 5

**GİRİŞ**.......................................................................... 7

**I Fəsil. İlahi vəhylər–Qurani-Kərim və hədis**........... 18

1.1.İslam dininin təşəkkül tapması................................ 18

1.2. Qurani-Kərim......................................................... 25

1.3. Hədis və sünnə....................................................... 30

- İlk hədis fəaliyyətləri
- Hədislərin yazılışı və ilk yazılı hədislər; Məhəmməd peyğəmbərin diplomatik məktubları, sədaqət hədisləri, hədis səhifələri
- Hədis ilə bağlı bəzi elmi mərkəzlər; Mədinə, Məkkə, Kufə, Bəsrə, Şam, Misir
- Hədislərin tədvin, təsnif edilməsi və ilk hədis əsərləri
- Hədis tarixində çiçəklənmə dövrü

**II Fəsil. Əhməd ibn Harun əl-Bərdicinin həyat və yaradıcılığı**................................................................ 65

2.1. Azərbaycanlı mühəddislər...................................... 65

2.2. Əhməd ibn Harun əl-Bərdicinin həyatı.................. 82

- Adı, soyadı, dünyaya gəlişi və vəfatı
- Təhsili, müəllimləri və tələbələri

2.3. Əhməd ibn Harun əl-Bərdicinin elmi fəaliyyəti ... 101

- Əsərləri
- Əl-Bərdicinin hədis sahəsindəki rolu

**III Fəsil. Əhməd ibn Harun əl-Bərdici hədisşünas alim kimi**........................................................... 106
3.1. Əl-Bərdicinin “Cuzun fihi mən rəva ənin-Nəbi minəs-səhabə fil-kəbair” əsəri........................................ 106
- “Kəbair” ifadəsinin mənası
- Böyük günahlardan bəhs edən kitablar
- Əl-Bərdicinin “Kəbair” əsərinin tam adı
- Əsərin həqiqətən əl-Bərdici tərəfindən yazılmasını təsdiqləyən dəlillər
- Əsərin əhatə etdiyi mövzu
- Əsərin əhəmiyyəti
- Müəllifin əsərdə tətbiq etdiyi metod
- Əsərin əlyazma nüsxəsi
- Əsərin raviləri
- Əsər haqqında varid olmuş rəvayətlər
- Əsərin hazırki vəziyyəti
3.2. Əl-Bərdicinin “Təbəqatul-əsma əl-mufrədə minəs-səhabə vət-tabiin və əshabil-hədis” əsəri........................ 122
- Təbəqat üslubunda yazılmış ən məşhur əsərlər
- Əl-Bərdicinin “Təbəqat” əsəri və yazılma səbəbi
- Əsərin təqdimatı və müəllifin metodu
- Əl-Bərdicinin “Təbəqat” əsəri ilə bağlı iradlar və tənqidi fikirlər
- Əsərin əlyazma nüsxələri
- Əsərin təhqiq və çap olunması

**Nəticə**............................................................................ 147
**İstifadə olunmuş ədəbiyyat siyahısı**............................ 154
**Əlavələr**.......................................................................... 170

## ÖN SÖZ

Mənbələrdən aldığımız məlumatlara görə çox qədim tarixə malik olan Bərdə şəhəri 1500 il bundan əvvəl Qafqazın ən böyük şəhərlərindən biri olmuşdur. Bərdə ərazisində aparılan arxeoloji tədqiqatlar şəhərin tarixinin eramızdan əvvəlki dövrlərdən başladığını deməyə əsas verir. Azərbaycan ərazisindəki Albaniya dövlətinin iri yaşayış məntəqəsi olmuş Bərdə, qədim türk tayfalarının məskəni hesab edilir. IX əsrdə çiçəklənmə dövrünə qədəm qoyan Bərdə, xüsusilə XII əsrə qədər Azərbaycanın inzibati, dini və iqtisadi mərkəzi olmuşdur. Gözəl təbiəti ilə dahi Nizami Gəncəvinin diqqətini cəlb edən Bərdə şairin dilində şerə çevrilmiş, tərif edilmişdir.

Şübhəsiz ki, çoxəsirli və zəngin tarixə malik Bərdənin adının əbədiləşməsində şəhər sakinlərinin müstəsna elmi fəaliyyətləri böyük rol oynamışdır. Belə ki, istər ölkə daxilində, istərsə də, Azərbaycanın hüdudlarından kənarda Azərbaycan elmini yüksək səviyyədə təmsil edən bərdəli alimlər daim elmi ictimaiyyətin diqqət mərkəzində olmuş və onların əsərləri böyük rəğbətlə qarşılanmışdır.

Qələminin gücü ilə elm tarixinin yaddaşına həkk olunmuş bərdəli alimlərdən biri də, Əhməd Harun oğlu əl-Bərdici-Bərdəlidir. Şərqdə elmin, eləcə də Bərdənin çiçəkləndiyi bir dövrdə, IX əsrdə dünyaya gələn əl-Bərdici şərəfli ömür yolu keçmiş və görkəmli alim kimi ad qazanmışdır. Orta əsrlərin, eləcə də, sonrakı dövrlərin nüfuzlu alimləri tərəfindən təqdir edilən əl-Bərdicinin əsərləri İslam dininin əsas mənbələrindən biri hesab edilən hədislər və hədis raviləri ilə bağlıdır. Alimin əsərlərini tədqiq edən mütəxəssislərin qənaətinə görə əl-Bərdici qeyd olunan sahədə orijinal əsərlər yazmış və bu sahədə öz dəst-xətti ilə seçilmişdir. Müxtəlif tarixi və dini mənbələrdə əl-Bərdicinin altı əsərinin olduğu bildirilir. Lakin təəssüf ki, bərdəli alimin yalnız iki əsəri dövrümüzə qədər gəlib çatmış, digər əsərlərin aqibəti isə naməlum qalmaqda davam edir.

Monoqrafiyada orta əsrlərdə Azərbaycan mədəniyyətinə dair dəyərli məlumatlar öz əksini tapmışdır. Müəllif orta əsrlərin azərbaycanlı hədisşünasları haqqında ümumi məlumat vermiş, əl-Bərdici yaradıcılığını isə xüsusi şəkildə tədqiq etmişdir. Əsərdə əl-Bərdicinin həyatı, təhsili, müəllimləri, tələbələri, elmi fəaliyyəti haqqında geniş məlumat verilmiş və alimin əsərləri təhlil edilmişdir. Əl-Bərdicinin dövrümüzə qədər gəlib çatmış əsərlərinin əlyazma nüsxələri, onların hazırkı vəziyyəti haqqında dəqiq məlumatların verilməsi və ilk dəfə olaraq Azərbaycan oxucusuna alimin əsərlərinin çoxəsirli əlyazma nüsxələrinin surətlərinin təqdim edilməsi monoqrafiyanın əhəmiyyətini artıran amillərdəndir. Xüsusilə qeyd etmək lazımdır ki, ölkəmizdə azərbaycanlı alim Əhməd Harun oğlu əl-Bərdicinin-Bərdəlinin elmi fəaliyyəti müfəssəl şəkildə ilk dəfə İ.Ə.Əlimuradov tərəfindən araşdırılmış və xarici tədqiqatçıların əl-Bərdici ilə bağlı tənqidi fikirlərinə elmi şəkildə münasibət bildirilmişdir.

Milli, mənəvi dəyərlərimizin öyrənilməsinə, eləcə də, onların qorunmasına və gələcək nəsillərə düzgün çatdırılmasına həmişəki kimi bu gün də böyük ehtiyac vardır. Bununla əlaqədar olaraq tədqiqatçılarımız tarix və mədəniyyətimizi daha dərindən öyrənməyə həvəslə səy göstərir, yeni-yeni faktların, məlumatların üzə çıxarılımasına nail olurlar. İ.Ə.Əlimuradovun **“IX-X əsrlər azərbaycanlı hədisşünas alim Əhməd Harun oğlu əl-Bərdici (Bərdəli)”** adlı monoqrafiyası elm tariximizin, mədəniyyətimizin öyrənilməsində xüsusi əhəmiyyətə malikdir. Ümid edirəm ki, İ.Əlimuradovun bu əsəri sayəsində Azərbaycan oxucusu ərəb və qeyri-ərəb  müəlliflərinin dəfələrlə müraciət etdiyi əl-Bərdici yaradıcılığına yaxından bələd olacaq və ondan faydalanacaqdır.

**Gövhər Baxşəliyeva**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, millət vəkili, AMEA-nın müxbir üzvü, f.ü.e.d., professor*

# GİRİŞ

Qurani-Kərim, o cümlədən Məhəmməd Peyğəmbərin sünnəsi–hədisləri islam teologiyasının əsasını təşkil edir. Buna görə də, müsəlmanlar ilk olaraq Qurani-Kərimi daha sonra isə Peyğəmbərin hədislərini öyrənməyə, eləcə də öyrətməyə böyük səy göstərmişlər. Bu sahəni özlərinə tədqiqat obyekti seçmiş müsəlman alimlərin nümayiş etdirdiyi yüksək əzmkarlıq sayəsində hədis mövzusuna həsr olunmuş olduqca qiymətli əsərlər yazılmışdır. Həmin əsərlər müasir dövrümüzdə qələmə alınan hədis kitabları üçün mənbə rolunu oynayır. Hədis tarixindən bəhs edən mənbələrdə hədis ilə bağlı gündən-günə inkişaf edən fəaliyyətlərin hicri III (miladi IX) əsrdə daha yüksək olduğu bildirilir. Bu əsr hədis tarixinin "Qızıl əsri" adlandırılmışdır. Buxari, Müslüm, Nisai, Tirmizi, İbn Macə, Əbu Davud və s. görkəmli hədis alimləri məhz bu əsrdə yaşamış və İslam dinində Qurani-Kərimdən sonra əsas mənbə hesab edilən məşhur əsərlərini yazmışlar.

İslam dini ilə bağlı elmi fəaliyyətlərdə ərəblərlə yanaşı, əslən ərəb olmayan müsəlmanların da fəallığı danılmaz faktdır və bu fəallıq hədis sahəsində də aydın şəkildə müşahidə olunur. Bununla əlaqədar olaraq deyə bilərik ki, İslam dini Ərəbistan Yarımadasının hüdudlarından çıxaraq çoxsaylı millətlərin ümumi dininə çevrilmiş və müxtəlif müsəlman xalqları, o cümlədən də azərbaycanlılar ərəbdilli ədəbiyyatın həm din, həm də başqa sahələrində fəal iştirak etmişlər. Məsələn, Azərbaycan filosoflarından Əbülhəsən Bəhmənyar, Şihabəddin Sührəvərdi, Eynəlqüzat Miyanəci, Əfzələddin Hunəci, Siracəddin Urməvi [21, 10-72], şairlərindən İsmayıl ibn Yəssar, Musa Şəhavat və Əbulabbas əl-Əsma [14, 36, 37], filoloqlarından Əbülfəth əl-Həmədani və Xətib Təbrizi [15, 245-247] ərəb elminə, mədəniyyətinə və ümumiyyətlə İslam aləminə böyük töhfələr bəxş etmişlər.

Bununla yanaşı, həyat və yaradıcılıqları hədis tarixinin çiçəklənmə dövrünə təsadüf etmiş azərbaycanlı hədis alimlərindən Əbul-Fadl ər-Rəbi ibn Yəhya əl-Üşnani əl-Marağı əl-Bəsri (v.h.224/m.838), Əbu Əli əl-Hüseyn ibn Səfvan ibn İshaq ibn İbrahim əl-Bərzəi (v.h.240/m.854), Əbu Hamid Əhməd ibn İbrahim əl-Mərağı (h.III/m.IX əsrin sonu h.IV/m.X əsrin əvvəlləri), Əbu Əli Harun ibn Musa əl-Üşnani əl-Həmədani (v.h.270/m.884-ci ildən sonra), Galib ibn Məhəmməd əl-Bərdəi (h.III/m.IX əsr), Əbu Məhəmməd əl-Həsən ibn Əli ibn Malik ibn Əşrəs ibn Abdulla ibn Müncab əl-Üşnani əş-Şeybani (v.h.278/m.891), Əbu Əli Əhməd ibn Məhəmməd ibn Bişr ibn Saad əl-Mərəndi (əl-Mərəsdi) (v.h.286/m.899), Əhməd ibn Əli əl-Bərdəi (h. III/m.IX əsr), Əbu Osman Səid ibn Amr ibn Ammar ibn Osman əl-Bərzəi (əl-Bərdəi) əl-Əzdi (v.h.292/m.905),Yusif ibn əl-Hüseyn ət-Təbrizi (v.h.III/m.IX əsr) kimi mühəddisləri misal göstərə bilərik.

Orta əsrlərdə, xüsusən, Ərəbistan Yarımadası ilə müqayisədə Azərbaycan ərazisində ilahiyyat elmləri yüksək inkişaf etməmişdir. Bu fakt neçe-neçə Azərbaycan vətəndaşının İslam dininin yayıldığı ölkələrdə təsis edilmiş dini elm mərkəzlərinə müraciət etmələrinə səbəb kimi göstərilə bilər.

Elmi fəaliyyətini araşdırdığımız, Əbu Bəkr Əhməd ibn Harun ibn Rəvh əl-Bərdici əl-Bərzəi ən-Nisaburi əl-Hafiz əl-İmam əl-Hüccə (h.230/301-m.845/915) kimi tanınan azərbaycanlı hədisşünas alim, öz dəsti-xətti, üslub və metodu ilə hədis tarixinin "Qızıl dövrü" adlandırılan hicri III (miladi IX) əsrə yenilik gətirməyə nail olmuş din alimlərindən biridir. O, vaxtilə Kür çayı sahilində Bərdə-Dərbənd (Bab əl-Əbvab) karvan yolu üstündə mühüm ticarət məntəqəsi olmuş qədim Bərdənin 14-18 fərsəxliyində yerləşən orta əsr Azərbaycan şəhəri olmuş Bərdicdə dünyaya gəlmişdir. Haqqında danışılan bölgəyə mənsub ikinci

bir müəllifin tanınmadığı bildirilir. [116, 24; 147, I, 314; 200, I, 449] Əhməd ibn Harun əl-Bərdicinin doğulduğu tarix dəqiq bilinmir. Onun həyatından bəhs edən mənbələr haqqında danışılan alimin hicri 230 (m.845)-cu ildə və ya bundan əvvəl doğulduğunu bildirir. [111, VIII, 84; 94, VI, 64; 138, XIV, 122; 83, IV, 6]

Əl-Bərdicinin elmi fəaliyyətindən danışan İslam alimləri onun barəsində daim müsbət fikirdə olmuş, mənfi fikir söyləməmişlər. Aidiyyətli mənbələrdə onun dürüst, etibarlı, nəcib, zehni açıq və s. kimi xüsusiyyətlərə malik olduğu bildirilir.

"Əl-Kəbair" (Böyük günahlar), "Təbəqatul-əsma əl-mufrədə minəs-səhabə vət-tabiin və əshabil-hədis" (Səhabə, tabiun və hədisçilərin nadir adlarından bəhs edən təbəqat kitabı), "Mərifətul-muttəsil minəl-hədis vəl-mursəl vəl-məqtu və bəyanut-turuq əs-səhihə" (Müttəsil, mürsəl və məqtu növ hədislərin bilinməsi və doğru rəvayət zəncirinin bəyan edilməsi), "əl-Mərasil" (Mürsəl hədislər), "əl-Fəvaid" (Faydalar) və "əl-Cərh və ət-tədil" (Cərh və tədil−Hədis ravilərinin dəyərləndirilməsi) kitabları kimi İslam ilahiyyatının hədis sahəsində kifayət qədər aktual mövzuları əhatə edən əsərlərin müəllifi olan Əhməd ibn Harun əl-Bərdici hicrətin 301 (m.914)-ci ilinin Ramazan ayında, Bağdad şəhərində vəfat etmişdir. [138, XIV, 123; 139, II, 247; 154, 316]

İslam alimləri ilahi vəhyin bəşəriyyətə çatdırılmasında mühim əhəmiyyət kəsb edən iki vasitə–Qurani-Kərim və hədis ilə bağlı qiymətli əsərlər ərsəyə gətirmişlər. Hədisşünaslıq sahəsindəki fəaliyyətini işıqlandırmağa çalışdığımız azərbaycanlı alim Əhməd ibn Harun əl-Bərdici hədis sahəsini özünə tədqiqat obyekti seçmiş və bu istiqamətdəki müstəsna xidmətləri sayəsində adının əbədiləşməsinə müvəffəq olmuşdur. Lakin çox təəssüf ki, onun elmi zəkasının məhsulu olan bütün əsərləri dövrümüzə qədər gəlib çatmamışdır. Belə ki, onun tarixə məlum altı əsərindən

yalnız ikisi– həm aktuallığı, həm də orijinallığı ilə seçilən “əl-Kəbair” və “Təbəqatul-əsma əl-mufrədə minəs-səhabə vət-tabiin və əshabil-hədis” adlı əsərləri dövrümüzə qədər gəlib çatmışdır. Digər dörd əsərə gəlincə isə, onlar haqqında məlumatlara yalnız müxtəlif mənbələrdə rast gəlmək mümkündür. Yuxarıda qeyd olunan əsərlərin dövrümüzə qədər gəlib çatması müəllifin hədis fəaliyyətinin araşdırılmasında müstəsna rol oynayır.

Ərəb dilinin ən əzəmətli abidəsi hesab edilən Qurani-Kərim əsrlər boyu ərəb və qeyri-ərəb din alimlərinin, filoloqların, dinşünasların tədqiqat obyekti olmuşdur. Qurani-Kərim və habelə İslam dininin ana qaynaqlarından hesab edilən hədislə bağlı elmi araşdırmaları respublikamızda da inkişaf etdirmək zərurəti günbəgün artmaqdadır. Bu baxımdan İslam dininin əsaslarından olan hədisin elmi şəkildə tədqiqinə xüsusi diqqət yetirilməlidir. Din pərdəsi altında fəaliyyət göstərən, müxtəlif qeyri-dini məqsədlərə xidmət edən təriqət və cərəyanların bütün dünyada sərhədlər tanımadığı bir dövrdə, hər cür xurafat, batil inanclar və günahsız insanların ölümünə səbəb olan amansız terrorçuluqdan uzaq İslam dinini elmi nöqteyi-nəzərdən öyrənməklə xalqı hal-hazırda müasir dünyamızda müşahidə olunan təhlükələrdən qorumaq zərurəti gündəmdədir.

Elmin digər sahələrində olduğu kimi ilahiyyat, eləcə də dinşünaslıq sahəsində xalqımızın kifayət qədər məlumata sahib olmadığı azərbaycanlı din alimlərinin həyat və yaradıcılıqlarının araşdırılmasına böyük ehtiyac vardır. Ərəbdilli dini ədəbiyyatda “Tək isimlər” mövzusundan bəhs olunarkən ilk istinad edilən, eyni zamanda İslam dininin qətiyyətlə qadağan etdiyi günahları əhatə edən hədisləri ehtiva edən ilk müstəqil kitabın müəllifi olan azərbaycanlı hədisşünas alimi, Əhməd Harun oğlu əl-Bərdicini (Bərdəlini) xalqımız tanımalı və elmi fəaliyyətindən yararlan-malıdır. Haqqında danışılan alimin tərbiyəvi əhəmiyyət kəsb edən

“əl-Kəbair” əsəri milli mentalitetimizə, əxlaqi dəyərlərimizə zidd, eləcə də cəmiyyətin qınaq obyekti olan əməl və davaranışların qarşısının alınmasında faydalı ola bilər. Belə ki, əl-Bərdici qeyd olunan əsərində Məhəmməd peyğəmbərin hədislərinə istinad etməklə intihar etmək, yetimin malına göz dikmək, yalançılıq, iftira, valideynin üzünə ağ olmaq, əxlaqsızlıq və s. kimi əməllərin İslam dinində böyük günah olduğunu bildirərək müvafiq hədislərə əsaslanmışdır.

Əl-Bərdicinin ərəb dilində olan iki əsəri dövrümüzə qədər gəlib çatmış və həmin əsərlərdən biri ölkəmizdən kənarda, qeyri-azərbaycanlı tərəfindən çap edilmişdir. Lakin bu əsərlərin azərbaycanlı oxuculardan uzaqda olmasını, haqqında danışılan alimin digər əsərinin isə əlyazma şəklində olub ölkəmizin sərhədlərindən kənarda mühafizə olunmasını nəzərə alaraq düşünürük ki, hədisşünaslıq fəaliyyəti ilə hədis sahəsində özünəməxsus yeri olan azərbaycanlı din aliminin əsərlərini əldə edib çap etdirməkdə gecikməyimizə baxmayaraq, nəsillərdən-nəsillərə ötürülməklə dövrümüzə qədər gəlib çatmış materiallar əsasında tədqiqat apararaq əl-Bərdicini Azərbaycan oxucusuna tanıtmaqla vətəndaşlıq borcumuzu yerinə yetirmiş, eləcə də sözün əsl mənasında milli dinşünaslığımıza töhfə vermiş olarıq. Habelə əl-Bərdicinin həcmcə kiçik olmalarına baxmayaraq dövrümüzə qədər gəlib çatmış əsərlərinin təhlil edilərək, müəllifin elmi fəaliyyətinin müfəssəl şəkildə araşdırılaraq Azərbaycan oxucusuna təqdim edilməsi monoqrafiyanın əhəmiyyətini artıran amillərdəndir.

Əl-Bərdicinin “Təbəqat” əsərinin əlyazma nüsxələrindən götürülmüş nümunələr kitabın sonunda təqdim edilir. Azərbaycanlı hədisşünas alim əl-Bərdicinin hədis sahəsindəki fəaliyyətini araşdırmaqda mühüm rol oynamış bu nümunələr əl-Bərdici haqqında daha dəqiq təsəvvürün yaradılması üçün əlverişli vasitə olacağına ümid edirik.

Tədqiqatın məqsədi IX-X əsrlərdə yaşamış, hədis tarixində kifayət qədər şöhrət qazanmış, elmi fəaliyyəti görkəmli hədis alimləri tərəfindən yüksək qiymətləndirilmiş azərbaycanlı alim Əhməd ibn Harun əl-Bərdicinin hədisşünaslıq sahəsindəki fəaliyyətini araşdırmaqdan ibarətdir. Ümid edirik ki, bu monoqrafiya milli dinşünaslığımız, xüsusilə də azərbaycanlı din alimlərinin tanıdılması nöqteyi-nəzərindən xüsusi əhəmiyyət kəsb edəcək.

Monoqrafiyanın əhatə etdiyi mövzuları aşağıdakı kimi ümumiləşdirmək olar:

- İslam dininin təşəkkül tapması, Qurani-Kərim, hədis və sünnə;
- Hədis sahəsindəki ilk fəaliyyətlər, hədislərin yazılması və ilk yazılı hədislər;
- Hədis ilə bağlı bəzi elmi mərkəzlər, hədislərin tədvin, təsnif edilməsi və ilk hədis əsərləri;
- Hədis tarixində çiçəklənmə dövrü;
- Azərbaycanlı hədisşünas alimlər, Əhməd ibn Harun əl-Bərdicinin həyat və yaradıcılığı;
- Əl-Bərdicinin elmi fəaliyyəti, əsərləri və hədisşünaslıq sahəsindəki rolu;
- Əl-Bərdicinin [Cuzun fihi mən rəva ənin-Nəbi minəs-səhabə fil-kəbair] (Səhabələrin Peyğəmbərdən nəql etdiyi kəbair (böyük günahlar) mövzusuna dair rəvayətlərini ehtiva edən cüz) əsərinin ətraflı şəkildə təhlil edilməsi;
- Əl-Bərdicinin [Təbəqatul-əsma əl-mufrədə minəs-səhabə vət-tabiin və əshabil-hədis] (Səhabə, tabiun və hədisçilərin nadir adlarından bəhs edən təbəqat kitabı) əsərinin ətraflı şəkildə tədqiq edilməsi;

Monoqrafiyanın nəzəri əsasını azərbaycançılıq ideologiyası təşkil edir və o hədisşünaslıq sahəsində qəbul olunmuş elmi-nəzəri metodlara əsaslanır. Elmi üsullar indiyədək görkəmli

alimlər tərəfindən ümumiyyətlə hədis və xüsusilə də hədis rəvayəti sahəsində əldə edilmiş elmi-nəzəri nailiyyətlərə istinadən tətbiq edilmişdir.

IX-X əsrlərdə yaşamış azərbaycanlı alimin elmi fəaliyyətini araşdırmaq şərəfli və məsuliyyətli bir işdir. Nəzərə almaq lazımdır ki, haqqında danışılan alim Azərbaycandan kənarda yaşamışdır və onun bütün yaradıcılığı ərəb dilindədir. Bununla da aydın olur ki, belə bir əhəmiyyətli işin öhdəsindən gəlməkdən ötrü, təbii olaraq, çoxlu sayda elmi ədəbiyyatdan, xüsusən, ərəbdilli ədəbiyyatdan istifadə etmək vacibdir. Respublikamızda mövcud olan, Azərbaycan dilində yazılmış elmi ədəbiyyatda əl-Bərdici ilə bağlı ümumi məlumatlara rast gəlinsə də, sözügedən alimin xüsusən hədisşünaslıq fəaliyyəti işıqlandırılmamışdır. Mövzunun hədisşünaslıqla bağlı olduğunu, ərəb ədəbiyyatında haqqında danışılan alimin hədisşünas alim, mühəddis (hədisçi) kimi məşhur olmasını, habelə, onun tarixə məlum bütün əsərlərinin ərəb dilində qələmə alındığını və bu sahədə aparılmış bütün tədqiqatların əsasında orijinal ərəb dilli qaynaqların durduğunu nəzərə alaraq tədqiqat işimizi əsasən ərəbdilli mənbələr üzərində aparmağı münasib görərək qarşıya qoyulan məqsədə nail olmağa çalışmışıq. Bundan əlavə, tədqiqatın yerinə yetirilməsi üçün Azərbaycan, Türk, İngilis, Rus, Fars və Ərəb dillərində yazılmış əsərlərə istinad edilmişdir. Müasir müəlliflərdən görkəmli akademik mərhum Z.Bunyadov, akademik V.Məmmədəliyev, Z.Məmmədov, M.Qənbərli, Talat Koçyigit, İ. Karaçam, Abdulğəni ibn Abdulxaliq, Həsən İbrahim Həsən, Məhəmməd ibn Matar əz-Zəhrani, Əkrəm əl-Öməri, Səkinə əş-Şihabi, Məhəmməd ibn Turki ət-Turki eləcə də V.Minorski, E.A. Belyayev, O.Q. Bolşkov, V.Qirqas, Rəcəbəli Məzlumi, Abbas Şuştəri, Əqiqi əl-Bəxşayşi, Məhəmməd Əli Tərbiyət kimi alimlərin İslam dini, İslam tarixi, Qurani-Kərim, hədis və azər-

baycanlı din alimləri ilə əlaqədar yazdıqları əsərlərdən istifadə edilmişdir. Məhəmməd peyğəmbərin həyatı, Qurani-Kərimin nazil edilməsi, İslam dininin təşəkkül tapması, Qurani-Kərimin toplanması, müshəf şəklinə salınması, ilk hədisşünaslıq fəaliyyətləri, tədqiqatın əsas obyekti olan Əhməd ibn Harun əl-Bərdicinin hədis fəaliyyətinin araşdırılması kimi məsələlərə aydınlıq gətirməkdən ötrü əl-Bərdicinin dövrümüzə qədər gəlib çıxmış iki əsəri ilə yanaşı orta əsr alimlərindən Buxari (h.194/m.810-h.256/m.870), Müslüm (h.204/m.819- h.261/m.875), Nisai (h.215/m.830- h.303/m.915), Əbu Davud (h.202/ m.817- h.275/ m.888), İbn Macə (h.207/ m.822- h.273/ m.886), Tirmizi (h.209/ m.824- h.279/ m.892), İbn Mənzur, əs-Siyuti (v. h.911/ m.1506), əl-Xətib əl-Bağdadi (v. h.463/ m.1071), Əhməd ibn Hənbəl (h.164/ m.780- h.241/ m.855), İbn Saad (v. h.230/ m.845), əl-Bəlazuri (v. h.279/ m.892), əz-Zəhəbi (v. h.748/ m.1347), İbn Quteybə (v. h.276/ m.889), ər-Razi (v. h.327/ m.938), əl-Əsqəlani (v. h.852/ m.1448), ət-Təbəri (v. h.310/ m.922), Əbu Yəla (v. h.446/ m.1054), ət-Təbərani (v. h.360/ m.971), İbn əl-Əsir (v. h.630/ m.1233), Əbu Bəkr əl-Baqillani, əz-Zərkəşi (v. h.794/ m.1392), İbn Kəsir (v. h.774/ m.1373), Yaqut əl-Həməvi (v. h.626/ m.1229), əs-Səmani (v.h.562/ m.1167) və s. kimi alimlərin mövzu ilə əlaqədar qələmə aldıqları məşhur əsərlərindən istifadə edilmişdir.

Monoqrafiyanın elmi yeniliyi milli dinşünaslıqda ilk dəfə olaraq azərbaycanlı hədisşünas alim Əhməd ibn Harun əl-Bərdicinin hədis sahəsindəki fəaliyyətinin onun tərəfindən ərəb dilində qələmə alınmış təxminən on əsrlik tarixə malik, biri əlyazma olmaqla iki əsəri əsasında elmi şəkildə tədqiq edilməsindən ibarətdir. Belə ki, monoqrafiyada milli dinşünaslığımızda ilk dəfə olaraq azərbaycanlı mühəddis əl-Bərdicinin elmi fəaliyyəti, hədis sahəsindəki rolu müəyyənləşdirilmiş, əsərləri

təhlil edilmiş və ona qarşı yönəldilmiş bəzi iradların əsassız olduğu məntiqə uyğun, elmi dəlillərlə sübuta yetirilmişdir.

Tədqiqat mövzusunun işlənmə dərəcəsinə gəlincə, əldə etdiyimiz məlumatlara əsasən əl-Bərdicinin İslam dininin qətiyyətlə qadağan etdiyi böyük günahlardan bəhs edən "əl-Kəbair" əsəri Səudiyyə Ərəbistanı Krallığının Məlik Səud Universitetinin elm xadimi, tədqiqatçı alim Məhəmməd ibn Turki ət-Turki tərəfindən təhqiq edilmişdir. O, əl-Bərdicinin həyatından və yaradıcılığından geniş şəkildə bəhs edən bir tədqiqat işi yazdığını bildirmişdir. Bu tədqiqat işi hələ işıq üzü görməmişdir. Bundan əlavə, İmam Məhəmməd İbn Səud adına İslam Universitetinin Usuluddin (Dinin Əsasları) Fakültəsi, Sünnə və Sünnə Elmləri bölməsində Əhməd Muəbbəd Abdulkərimin elmi rəhbərliyi ilə Aduləziz ibn Həməd əl-Məşəl tərəfindən " الحافظ البرديجي محدثا وتحقيق كتاب طبقات الأسماء المفردة - Mühəddis əl-Hafiz əl-Bərdici və nadir adlardan bəhs edən Təbəqat kitabının təhqiqi" adlı magistr dissertasiyası yazılmış və hicri 1403/1983-cü ildə müdafiə edilmişdir. Çox təssüf ki, səylərimizə baxmayaraq sözügedən dissertasiyanı əldə edə bilmədik.

Azərbaycanlı müəlliflərdən Z.Məmmədov "Orta əsr Azərbaycan filosof və mütəfəkkirləri" adlı kitabında əl-Bərdici haqqında məlumat vermişdir.

Əhməd Harun oğlu Əl-Bərdicinin elmi irsinə müraciət edən digər alim isə Suriyalı tədqiqatçı xanım Səkinə əş-Şihabidir. Əl-Bərdicinin əsrlər boyu hədis mütəxəssisləri və digər oxucular tərəfindən əlyazma şəklində istifadə etdiyi "Təbəqaat" əsəri adıçəkilən suriyalı tədqiqatçı tərəfindən təhqiq edilmiş və çapa hazırlanmışdır. Əsər ilk dəfə 1987-ci ildə  tədqiqat, tərcümə və nəşr müəssisəsi olan "Dar Təlas" tərəfindən Dəməşqdə çap olunmuşdur.

Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin müəllimi Qoşqar Səlimli PROF.DR.Nebi Bozkurtun elmi rəhbərliyi ilə “Hicri I-IX əsirlərdə azərbaycanlı mühəddislər” mövzusuna dair dissertasiya yazmış və 2005-ci ildə Türkiyə Cümhuriyyətinin Mərmərə Universitetində adıçəkilən elmi işi müdafiə edərək alimlik dərəcəsi almışdır. Q.Səlimlinin tədqiqat obyekti müəyyən dövrdə yaşamış azərbaycanlı hədisşünaslarla bağlı olmuş və həmin alimlər haqqında ümumi məlumatları əhatə etmişdir. Həmin dissertasiyada əl-Bərdici haqqında müxtəsər məlumatlar mövcuddur. Bundan əlavə, Türkiyə Cümhuriyyətinin Mərmərə Universitetinin azərbaycanlı magistrantı Rüfət Şirinov da, haqqında danışılan alimin elmi yaradıcılığına dair araşdırma aparmış, “Azərbaycanlı mühəddis əl-Bərdicinin həyatı və əsərlər” mövzusunda Prof.Dr. İsmail Lütfi Çakanın elmi rəhbərliyi ilə magistr işi yazaraq 2005-ci ildə müdafiə etmişdir.

Yuxarıda qeyd olunan elmi araşdırmalar çox əhəmiyyətlidir və bu araşdırmaların bizim tərəfimizdən aparılan araşdırmaya müsbət təsirləri böyükdür. Lakin nəzərə almaq lazımdır ki, Respublikamızda ilk dəfə olaraq bu monoqrafiyada əl-Bərdicinin həyatı, elmi fəaliyyəti ətraflı şəkildə əhatə olunmuş və əvvəlki tədqiqatlardan fərqli olaraq alimin yaradıcılığı ilə bağlı elmi tənqidlərə və müzakirələrə geniş yer verilmişdir.

Monoqrafiya Azərbaycan ilahiyyatçılarının hədis sahəsindəki rolunu, təsirini və qələmə aldıqları əsərlərin əhəmiyyətini araşdıran gələcək tədqiqatlara elmi və metodoloji zəmin yarada bilər. Onun kompozisiyasından oxşar problemlərə dair tədqiqatların aparılmasında, nəticələrindən isə milli dinşünaslıqla bağlı dərslik, dərs vəsaitlərinin hazırlanmasında, BDU-nun Şərqşünaslıq və İlahiyyat fakültələrində hədisşünaslıq, eləcə də, ərəb dilində yazmış azərbaycanlı alimlərin elmi fəaliyyətləri ilə bağlı xüsusi kursların aparılmasında istifadə edilə bilər.

Monoqrafiya AMEA akad. Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutu "Din və ictimai fikir tarixi" şöbəsində müzakirə edilərək çapa layiq görülmüşdür.

Monoqrafiya giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələr bölümündən ibarətdir.

# I FƏSİL.
# İLAHİ VƏHYLƏR–QURANİ-KƏRİM VƏ HƏDİS

## 1.1. İslam dininin təşəkkül tapması

Müsəlman dini təfəkkürünə görə bütün kainatı yoxdan var edən Allah bəşər övladı ilə mələklər, peyğəmbərlər və müqəddəs kitablar vasitəsilə əlaqə yaratmışdır. Allahdan qəbul etdiyi təlimatları, əmr və qadağaları insanlara çatdırmaqla mükəlləf olan hər bir peyğəmbərin dövrünə uyğun ilahi möcüzəsi olmuşdur. Allahın ən son əmr və qadağalarını təbliğ etmək missiyası verilmiş peyğəmbər Məhəmməd peyğəmbər, ilahi kəlamların ən mükəmməli, Məhəmməd peyğəmbərin möcüzəsi isə Qurani-Kərimdir. [113, 7]

Məhəmməd peyğəmbər babaları İbrahim və İsmayıl peyğəmbərlər tərəfindən inşa edilmiş ən qədim məbədin – Kəbənin mövcud olduğu müqəddəs şəhər olan Məkkədə dünyaya gəlmişdir. Qeyd etmək lazımdır ki, Kəbə Süleyman peyğəmbər tərəfindən Qüdsdə inşa edilmiş məbəddən daha qədimdir. [18, 28] Məhəmməd peyğəmbərin həyatı ilə əlaqədar mənbələrdən əldə etdiyimiz məlumata görə 569-cu ildə həbəşistanlı vali Əbrəhə Kəbəni dağıtmaq və şəhər əhalisinə xristian dinini zorla qəbul etdirmək məqsədilə fillərə süvari olmuş böyük bir hərbi dəstə ilə Məkkənin üzərinə yerimiş, lakin caynaqlarında odlu daşlar gətirmiş quşlar onun bu məqsədinin həyata keçməsinə imkan verməmişdir. [90, 76; 18, 28] Bu hadisəni Allah Qurani-Kərimin "əl-Fil" surəsində belə təsvir edir: "(Ya Peyğəmbər!) məgər Rəbbinin fil sahiblərinə (Kəbəni dağıtmaq üçün fillərlə Məkkənin üstünə gəlmiş hərbi ordusuna) nələr etdiyini görmədinmi?! Məgər (Rəbbin) onların hiyləsini boşa çıxartmadımı?! Onların üstünə

qatar-qatar quşlar (əbabil quşları) göndərdi. (O quşlar) onlara bişmiş gildən düzəldilmiş (möhkəm xırda) daşlar atırdı. (Rəbbin) onları (həşərat tərəfindən) yeyilmiş əkin yarpağına (saman çöpünə) döndərdi!”.

Məhəmməd peyğəmbərin (s.a.v) doğum tarixi haqqında müxtəlif fikirlər vardır. Lakin əksər tarixçilərin yazdığına görə yuxarıda qeyd olunan hadisədən iki ay sonra, yəni 569-cu il (Fil ilinin) rəbiül-əvvəl ayının on ikisində, həftənin bazar ertəsi günü, səhərə yaxın Məhəmməd peyğəmbər dünyaya gəlmişdir. [101, I, 195; 18, 28; 174, II, 412; 193, 45; 97, II, 214, 215] Həmin gecə bəzi qeyri-adi hadisələrin cərəyan etdiyi rəvayət olunur. Kəbədəki bütlərin üzləri üstə yıxılmaları, Mədaindəki Sasani sarayının bir qisminin dağılması, iranlıların min ildən bəri daima yanan atəşgahlarının sönməsi, Sava gölünün quruması və bir çox digər hadisələrin həmin gecə baş verdiyi qeyd olunur. [18, 28, 29; 174, II, 420-422; 97, II, 222]

Məhəmməd peyğəmbər dünyaya gəlməmişdən əvvəl atası Abdulla həyatdan köçür. Bəzi tarixçilər Abdullanın, oğlu Məhəmmədin (s.a.v) dünyaya gəlişindən sonra vəfat etdiyini yazırlar. Atadan yetim qalmış Məhəmməd (s.a.v) əvvəl anası Aminə ilə tək qalır. Aminə də vəfat etdikdən sonra o, babası Əbdül Müttəlibin himayəsində yaşayır. Təxminən 8-9 yaşlarında olduğu vaxt Məhəmmədin (s.a.v) babası da vəfat edir və o, əmisi Əbu Talibin evində, onun himayəsində böyüməyə başlayır. Övladlarının sayının çox olmasına və maddi vəziyyətinin ağır olmasına baxmayaraq Əbu Talib ona çox yaxşı baxır. [101, I, 205-216; 18, 29; 193, 46-48] Bir müddət çobanlıq edən Məhəmməd [101, I, 203] on yaşına çatdığı zaman əmisi ilə birlikdə ticarət karvanı ilə Suriyaya səfər edir. İyirmi dörd yaşında isə gələcək həyat yoldaşı, Məkkənin varlı qadınlarından olan Xədicənin ticarət mallarını satmaq üçün həmin ölkəyə bu

dəfə tək səfər edir. O, ticarətdə və hərəkətlərində çox dürüst idi. Bütün bu keyfiyyətlərinə görə məkkəlilər onu "əl-Əmin" (Etibarlı, əmanət edilən) adlandırırdılar. [89, 151; 18, 29] Həm daxilən, həm də zahirən ən yüksək keyfiyyətlərə malik olan Məhəmməd peyğəmbəri, Allah Elçisinin şairi kimi tanınmış Həssan ibn Sabit ona həsr etdiyi mədhiyyələrinin birində belə vəsf edir:

*Səndən yaxşısını heç vaxt gözüm görməyib,*
*Səndən gözəlini heç bir ana doğmayıb.*
*Hər eyibdən xali xəlq olunmusan sən,*
*Elə bil ki, necə istəmisən, elə də xəlq olunmusan sən.*

[187, 66; 112, 34]

Məhəmməd peyğəmbər (s.a.v) otuz beş yaşında ikən, 604-cü ildə böyük bir yanğın və sonra da güclü bir yağış nəticəsində Kəbə güclü ziyana məruz qalır. Böyük çətinliklə Kəbəni yenidən bərpa etmək mümkün olur.

Allah evinin içərisində 360 bütün olması Məhəmməd peyğəmbəri çox narahat edirdi. O, zaman keçdikcə maddi, dünyəvi həyat sürməkdən çəkinməyə başlayır. [18, 29, 30] Məhəmmədin gerçək yuxular görməsi, yəni Onun gördüyü bütün yuxuların həqiqətə çevrilməsi vəhyin ilkin forması kimi izah olunur. O, müəyyən gecələrdə Hira dağında bir mağaraya çəkilərək ibadət etməyə başlayır. [30-vəhiy babı] İbn Kəsir Məhəmməd peyğəmbərin hər il bir ay, Ramazan ayı boyunca babası kimi şəhər kənarındakı Hira dağının bir mağarasında inzivaya çəkildiyini öz təfsir kitabında qeyd etmişdir. [18, 30]

Məhəmməd peyğəmbərin Hira dağında, mağarada ibadət etməsi haqqında səhih rəvayətlər mövcuddur. Bununla belə, onun hansı şəriət üzrə, necə ibadət etməsi məsələsi alimlərin diqqətindən yayınmamışdır. Bu ibadətin İbrahim peyğəmbərin və ya ondan sonra gələn peyğəmbərlərin şəriəti üzrə olması ehtimalı

istisna olunmur. Beləliklə, O, növbəti dəfə Hira mağarasında Allaha ibadət etdiyi zaman orada əvvəllər qarşılaşmadığı bir hadisə ilə qarşılaşır. Bu Allahın mələk Cəbrayıl vasitəsilə insanların öz içlərindən seçdiyi Elçisinə səmavi kitabların sonuncusunun ilk ayələrinin nazil edilməsi hadisəsi idi. Allahın əmri ilə yer üzünə enmiş mələk Ona:

" Oxu!"– deyir. Məhəmməd peyğəmbər: "Mən oxumaq bilmirəm" – cavabını verir.

Allah elçisi bu hadisəni belə rəvayət edir: "Bu zaman mələk məni taqətim kəsilənədək sıxdı, sonra isə məni buraxıb yenə "oxu" dedi. Mən də, "oxumaq bilmirəm"-dedim. O, məni ikinci dəfə taqətim kəsilənədək sıxdı. Sonra məni buraxıb, yenə "oxu"-dedi. Mən də, "oxumaq bilmirəm"-dedim. Nəhayət üçüncü dəfə məni sıxdıqdan sonra məni buraxıb: "(Ya Peyğəmbər! Qurani-Kərimi bütün məxluqatı) yoxdan yaradan Rəbbinin adı ilə (bismillah deyərək) oxu! O, insanı laxtalanmış qandan yaratdı. (Ya Peyğəmbər!) Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi (O Rəbbin ki) insana bilmədiklərini öyrətdi". ( əl-Ələq, 1-5) dedi.

Bundan sonra Məhəmməd peyğəmbər evə qayıdır. Bu hadisə onu qorxutmuş və onun mübarək ürəyini titrətmişdi. O, həyat yoldaşı Xədicə bint Xuveylidin yanına gələrək: "Mənim üstümü örtün, mənim üstümü örtün" – deyir. Allah elçisinin qorxusu keçənədək onun vücudunu sarıyıb, örtürlər. Sonra O, baş verən hadisəni Xədicəyə danışaraq belə deyir: "Özüm özümdən qorxdum." Xədicə: "Elə demə, Allaha and olsun ki, Allah heç vaxt Səni utandırmaz. Çünki Sən qohum-əqrəbaya baxansan, öz işini görməyə aciz olanların yükünü çəkənsən, kasıba əl tutar, kimsənin qazandırmayacağını ona qazandıransan, qonağın qulluğunda duransan və haqq yolunda meydana gələn hadisələrdə xalqa yardım edənsən" – deyir. Bundan sonra Xədicə Allahın

elçisini əmisi oğlu Varaqa ibn Nofəl ibn Əsəd ibn Abduluzzanın yanına gətirir. Cahiliyyə dövründə xiristian dinini qəbul etmiş Varaqa, İncildən Allahın izn verdiyi miqdarda bəzi şeyləri İbrani dilində yazmağı bacaran, qoca, kor bir kişi idi. Xədicə ona: "Əmim oğlu, dinlə, bax gör qardaşın oğlu nə söyləyir" – deyir. Varaqa: "Nə deyəcəksən, qardaşım oğlu?" – deyə soruşduqda Məhəmməd peyğəmbər başına gələnləri ona danışır. Bundan sonra Varaqa ona: "Bu gördüyün Allahın Musaya göndərdiyi Namusdur. Kaş Sənin dəvət (din təbliği) günlərində cavan olardım! Kaş qövmün sənə qarşı çıxdığı zaman sağ olaydım!" – deyir. Allah elçisi: "Onlar mənə qarşı çıxacaqlar?" – deyə soruşduqda o, "bəli, elə bir kəs yoxdur ki, Sənin söylədiklərini söyləsin (vəhyi təbliğ etsin) və düşmənçiliklə üzləşməsin. Əgər Sənin dəvət (din təbliği) günlərinə yetişsəm, Sənə əlimdən gələn köməyi edəcəyəm" – cavabını verir. Bu hadisədən cox keçmədən Varaqa dünyasını dəyişir. [30-vəhy babı]

"Vəhy" sözünün leksik mənası "gizli səs", "gizli danışıq", "gizli işarə", "pıçıltı", "rəmz" və "ilham" deməkdir. Allah peyğəmbər seçdiyi insanlara üç formada vəhy etmişdir: 1) Allah bu və ya digər fikri peyğəmbərin ürəyinə salır, yaxud gizli bir səslə ona təqdim edir və ya həmin fikri ona çin olan yuxuda bildirir; 2) Peyğəmbər Allahı görmədən ondan gələn nidanı açıq-aydın eşidir, yəni orada heç bir vasitə olmadan (hicab arxasından) Allahla danışır; 3) Allah öz hökmlərini peyğəmbərə mələk vasitəsi ilə göndərir. [16, 5]

Peyğəmbərlərə mələk vasitəsi ilə vəhy nazil olması çox çətin bir işdir. Bu zaman peyğəmbərlər özlərindən gedir, bəşəri duyğulardan uzaqlaşır, onların xarici aləmlə əlaqəsi kəsilir. Onlar mənən Allah dərgahına tərəf yüksəlib fövqəlbəşər xüsusiyyətlər kəsb edir, vəhyi qəbul etməyə hazır vəziyyətdə olurlar. Məsələn, Məhəmməd peyğəmbərə mələk Cəbrayıl vasitəsi ilə vəhy nazil

olduğu zaman onun ağzı köpüklənər, rəngi saralar və o, əbasını başına çəkib bayılarmış. Peyğəmbər özünə gəldikdə ona nazil olan vəhyi olduğu kimi ətrafdakılara oxuyar, mənasını izah edərmiş. Mələyin siması o qədər qəribədir ki, insan onu əyani şəkildə görməyə tab gətirə bilməz. Buna görə də Allahın əmri ilə istədiyi şəklə düşə bilən bu nurani varlıq peyğəmbərlərə adətən adi insan qiyafəsində nazil olmuşdur. Peyğəmbərin səhabələri belə, vəhyin ağırlığına tab gətirə bilməz, bu zaman zəng cingiltisi və ya arı vızıltısına bənzər bir səs eşidərək özlərini itirər, qeyri-adi vəziyyət alıb əllərini belə tərpədə bilməzdilər. Rəvayətə görə, bir dəfə Məhəmməd peyğəmbər dəvə belində gedərkən ona vəhy nazil olmuş, dəvə vəhyin ağırlığına tab gətirə bilməyib ayaqları üstə yerə çökmüşdür. [16, 5]

Allah yalnız Məhəmməd peyğəmbərə deyil, habelə digər peyğəmbərlərinə də vəhy nazil etmişdir. [199, 28] Bunu Qurani-Kərim belə ifadə edir: "(Ya Məhəmməd!) Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy göndərdiyimiz kimi, sənə də vəhy göndərdik. Biz İbrahimə, İsmayıla, İshaqa, Yaquba və onun övladlarına, İsaya, Əyyuba, Yunusa, Haruna və Süleymana da vəhy göndərdik. Biz Davuda da "Zəbur"u verdik. (Biz) peyğəmbərlər (göndərdik). Onların bəzisinin əhvalatını bundan əvvəl sənə danışdıq, bəzisinin əhvalatını isə söyləmədik və Allah Musa ilə sözlə (arada heç bir başqa vasitə olmadan) danışdı". (Ən-Nisa, 163-164)

İlk vəhy nazil olduğu zaman Məhəmməd peyğəmbər sağlam mənbələrin verdiyi məlumata görə 40 yaşında (610-cu il) olmuşdur. Vəhyin başlanğıc günü həftənin bazar ertəsinə təsadüf etmişdir. Ayın hansı gününə gəlincə isə bu haqda müxtəlif məlumatlar mövcuddur. Qurani-Kərimin nüzulunun ayın məhz hansı gününə təsadüf etməsi xüsusunda ixtilaf olsa da həftənin bazar ertəsi, ayın isə Ramazan ayı olması əksər İslam alimləri

tərəfindən təsdiqlənmişdir. Müslüm Əbu Qətadədən belə rəvayət etmişdir: “Peyğəmbərdən bazar ertəsi günü oruc tutmaq barədə soruşduqda o, belə cavab vermişdir: Mən o gün doğuldum və həmin gün mənə Quran nazil olmağa başladı”. İbn İshaq: “Allah Rəsuluna Quran nazil olmağa ramazan ayında başlamışdır” – demişdir. Qurani-Kərimin Ramazan ayında, Qədr gecəsində nazil edilməsi barədə Quranın müvafiq surələrində ayələr vardır. “İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) Ramazan ayında nazil edilmişdir…” (əl-Bəqərə, 185); “Həqiqətən, Biz onu (Quranı) Qədr gecəsi (lövhi-məhfuzdan dünya səmasına) nazil etdik!” (əl-Qədr, 1)

Məhəmməd peyğəmbərə (s.a.v) nazil olan ilk ayələrdən sonra vəhy mələyinin onunla görüşməsində bir fasilə yaranır. Sanki bu fasilə Peyğəmbərin böyük ilahi xəbərdən aldığı təəssüratdan özünə qayıtması üçün nəzərdə tutulmuşdur. Sonradan mələk Cəbrayıl yenidən Məhəmmədlə görüşərək Allahın dini təbliğ etmə əmrini ona çatdırmışdır. Bundan sonra o, islam dinini öz yaxınları, daha sonra isə Məkkə əhli arasında yaymağa başlayır. Bunu görən Məkkə müşrikləri Peyğəmbəri və onun tərəfdarlarını təqib etməyə başlayırlar. Vəziyyətin ağırlaşmasını hiss edən Məhəmməd peyğəmbər bir qrup müsəlmana Həbəşistana hicrət etməyi əmr edir və köç edənlərlə Həbəş kralı Nəcaşəyə bir məktub da göndərir. Məkkə kafirlərinin Nəcaşədən müsəlmanları geri almaq niyyəti boşa çıxdıqdan sonra, onlar Peyğəmbəri, ailəsini və Məkkədəki müsəlmanları təqib etməyə başlayırlar. Bundan sonra həyat müsəlmanlar üçün daha da çətinləşir. Bu müddət təxminən üç il davam edir. Düşmənlər tərəfindən qoyulan məhrumiyyətlər Peyğəmbərin həyat yoldaşı Xədicənin, eləcə də əmisi Əbu Talibin vəfatına səbəb olur. Bundan sonra məkkəli müsəlmanlar kiçik zümrələr şəklində Mədinəyə hicrət etməyə

başlayırlar. Nəhayət, 622-ci ildə Məhəmməd Peyğəmbərin Mədinəyə böyük hicrəti baş verir. Hal-hazırda xüsusən müsəlman ölkələrində geniş istifadə olunan hicri tarix hesablaması bu hadisədən sonra meydana çıxmışdır. 622-ci il hicri tarixin ilk ili hesab olunur. Məhəmməd peyğəmbərin hicrətindən sonra Məkkə müşrikləri ilə hicrət etmiş müsəlmanlar arasında ziddiyyət daha da artır. [18, 30, 31; 10, 200-203]

Məhəmməd peyğəmbər hicrətin 10 (m.632)-cu ilində özünün islami əsaslar daxilindəki ilk və son həccini (Vida Həcci) yerinə yetirmək üçün Məkkə şəhərinə daxil olur. Məkkədən qayıdarkən həcc məqsədilə Ərəbistanın hər tərəfindən gəlib toplanmış 140000-ə qədər müsəlman qarşısında xütbə söyləmək imkanı əldə edir. Bu xütbə müsəlmanlar üçün bir “İnsan haqları bəyannaməsi” idi. Məhəmməd peyğəmbər ziyarətini sona çatdırıb Mədinəyə qayıtdıqdan sonra, xəstələnib yatağa düşür. Bir neçə gündən sonra, 632-ci ilin rəbiül-əvvəl ayının 11-də vəfat edir. [167, 219; 18, 31, 32]

## 1.2. Qurani-Kərim

Ərəb dilində قرأ [qaraə] felinin məsdər forması olan “Quran” kəlməsinin mənası “oxumaq”, “tələffüz etmək”, daha doğrusu Allah tərəfindən Məhəmməd peyğəmbərə nazil olan sözlərin oxunması, tələffüz edilməsi deməkdir. [16, 7]

“Quran” kəlməsinin bu mənada işlədilməsinə Qurani-Kərimin özündə də rast gəlinir. Allah “əl-Qiyamə” surəsinin 17-18-ci ayələrində buyurur:

إِنَّ عَلَيْنَا جَمْعَهُ وَقُرْآنَهُ (17) فَإِذَا قَرَأْنَاهُ فَاتَّبِعْ قُرْآنَهُ (18)

(Çünki onu (sənin qəlbində) cəm etmək, (dilində) oxutmaq Bizə aiddir. Biz onu (Cəbrayılın dili ilə) oxutduğumuz zaman oxunmasını diqqətlə dinlə).

İlk ayələri Allahın “oxu” əmri ilə başlayan Qurani-Kərim Allah tərəfindən həm də “Quran” adlandırılmış və bu da Allah kəlamının xüsusi isminə çevrilmişdir.

إِنَّا أَنْزَلْنَاهُ قُرْآنًا عَرَبِيًّا لَعَلَّكُمْ تَعْقِلُون

(Ey Məkkə əhli!) Biz onu ərəbcə bir Quran olaraq nazil etdik ki, (mənasını) anlayasınız. (Yusuf surəsi, 2)

Allah yer üzərinə nazil etdiyi ən mükəmməl kitabını “Quran” adı ilə yanaşı əl-Kitab, əl-Furqan, əz-Zikir, ət-Tənzil kimi adlarla da adlandırmışdır. Sadalanan bu adların arasında ən çox istifadə olunan, Quran və əl-Kitab adlarıdır.[199, 20, 21]

“Quran” dedikdə Peyğəmbərin möcüzəsi olan Quran kitabı nəzərdə tutulur. Bundan əlavə, bu ad həm də onun hər hansısa bir ayəsinə də şamil edilir. [199, 19; 134, 63]

Alimlər Allahın sonuncu səmavi kitabının “Quran” adlandırılmasının səbəbini müxtəlif aspektlərdən izah etməyə çalışmışlar. Onlardan bəziləri Qurani-Kərimin Allahın digər peyğəmbərlərə göndərmiş olduğu kitabların və habelə bütün elmlərin səmərəsini ehtiva etdiyi üçün “Quran” adlandırıldığını bildirmişlər. Qeyd etmək lazımdır ki, bu fikir Qurandan qaynaqlanır. [199, 19] “Biz Quranı Sənə, hər şeyi izah etmək üçün, müsəlmanlara da bir hidayət, mərhəmət və müjdə olaraq nazil etdik!” (ən-Nəhl, 89); “Biz Kitabda (Quranda) heç bir şeyi nəzərdən qaçırmadıq” (əl-Ənam, 38)

İbn Məsud demişdir ki, “Qurani-Kərim bizə hər şeyi, habelə bütün elmləri bəyan etmişdir” [159, II, 139]

Qurani-Kərimlə bağlı söylənilmiş bütün təriflərdə onun Məhəmməd peyğəmbərə vəhy yolu ilə nazil edilməsi, oxunuşu ilə ibadət olunan Allah kəlamı olması xüsusi vurğulanmışdır. Bununla da, onun digər peyğəmbərlərə endirilmiş Tövrat, İncil və s. kimi səmavi kitablardan, eləcə də qüdsi hədislər kimi oxunuşu

ilə ibadət olunmayan Allah kəlamından fərqləndirmək məqsədi güdülmüşdür. [199, 20]

Səhabələrin dediklərinə görə, hər Ramazan ayında mələk Cəbrayıl Qurani-Kərimi Məhəmməd peyğəmbərlə birlikdə oxuyar, onun mətni başdan-ayağa yenidən təkrar edilərdi. Məhəmməd peyğəmbər vəfat etdiyi il Cəbrayıl nazil olmuş və Qurani-Kərimi onunla birlikdə iki dəfə oxumuşdur. [16, 6]

Qurani-Kərim 114 surədən, müxtəlif qiraət variantlarına və bölgülərə görə 6204, yaxud 6236 ayədən, 77934 sözdən ibarətdir. Quranın fəsillərini təşkil edən surələr bir-birindən "bismillah" ilə ayrılır. Yalnız 9-cu surədə "bismillah" ifadəsi yoxdur. Təfsirçilər buna səbəb kimi, həmin surənin 8-ci surənin davamı olmasını bildirmişlər. Quranın ilk surəsi "Fatihə" istisna edilməklə, qalan surələr əsasən uzundan qısaya qaydası ilə düzülmüşdür. Surələrin, eləcə də bir sıra ayələrin xronoloji ardıcıllığı isə təfsirlərdə müəyyən edilmişdir. Hər surə ayələrə bölünür. Ayə bəzən bir, iki və ya bir neçə cümlədən ibarət olur. Ayələrdə ümumiyyətlə, 1-dən 68-ə qədər söz mövcuddur. Quranın ən uzun surəsi Bəqərə 286 ayədən, ən qısa surəsi Kövsər isə 3 ayədən ibarətdir. Musanın Tövratından, İsanın İncilindən fərqli olaraq, Qurani-Kərim Məhəmməd peyğəmbərə birdən-birə, bütöv şəkildə deyil, hissə-hissə, əvvəlcə Məkkədə, sonra isə Mədinədə nazil olmuşdur. [16, 7] Buna görə də, Qurani-Kərimin surələri məkki və mədəni surələr olmaq üzrə iki yerə ayrılır. Quran surələrinin bu şəkildə iki qismə ayrılmasında əsas amil Məhəmməd peyğəmbərin Məkkədən Mədinəyə etdiyi hicrətdir. Belə ki, məkki surələr hicrətə qədər nazil olanlar, mədəni surələr isə hicrətdən başlayaraq hicri tarixin 10 (m.632)-cu ilinə, Məhəmməd peyğəmbərin vəfatına qədər nazil olanlardır. Məkki və mədəni surələrə dair verilmiş bu tərifdə zaman əsas götürülmüşdür. Bu mövzu ilə əlaqədar digər təriflərdə isə

alimlərdən bəziləri zamanı deyil, məkanı, bəziləri isə müraciətin kimlərə ünvanlandığını əsas götürmüşdür. Belə ki, bəzi alimlərin fikrincə Məkkədə nazil olan surələrə məkki surələr deyilir, hətta hicrətdən sonra nazil olsalar belə, Mədinədə nazil olanlara isə mədəni surələr deyilir. Digər bir rəyə görə isə nə zaman, nə də məkan əsas götürülür. Burada müraciətin kimlərə ünvanlandığı mühüm əhəmiyyət kəsb edir. Belə ki, məkkəlilərə xitabən nazil olan surələr məkki, mədinəlilərə xitabən nazil olunan surələr isə mədəni surələr hesab edilir. Bu fikir mütəxəssislər tərəfindən yüksək qiymətləndirilməmişdir.

İslam alimlərinin fikrincə, Quranın təxminən 90 surəsi Məkkədə, 24 surəsi, yəni beşdə biri Mədinədə nazil olmuşdur. İlkin Məkkə surələri həcmcə çox qısadır. [16, 7]

"Əl-Ələq" surəsinin ilk beş ayəsi Qurani-Kərimin ilk ayələri, "əl-Fatihə" isə ilk tam surəsi hesab olunur. Son nazil edilmiş ayə haqqında ixtilaflar vardır. "Bu gün Sizin üçün dininizi tamamladım" (əl-Maidə, 3) ayəsinin son ayə olduğunu deyənlər də vardır. Bir qrup alimlər isə "Allaha dönəcəyiniz gündən qorxun!" (əl-Bəqərə, 281) ayəsini son nazil edilmiş ayə hesab edirlər. Yuxarıda qeyd olunan ayələrdən başqa bir neçə digər ayələrin də son nazil edilmiş ayə olduğu haqqında fikirlər vardır. Əksər İslam alimlərinin gəldiyi nəticəyə görə "Bu gün sizin üçün dininizi tamamladım" (əl-Maidə, 3) ayəsi son ayə, "ən-Nəsr" surəsi isə son surə hesab olunur. [18, 33; 149, I, 33-40; 143, I, 206-210]

Yuxarıda qeyd olunduğu kimi, Qurani-Kərim 23-il ərzində Məhəmməd peyğəmbərə Allah tərəfindən mələk Cəbrayıl vasitəsilə hissə-hissə nazil edilmişdir. [132, 25] Məhəmməd peyğəmbər ona nazil edilən ayələri mələk Cəbrayıldan qəbul etdiyi şəkildə, yəni onlara heç bir dəyişiklik etmədən vəhy katiblərinə yazdırmışdır. [183, II, 262, 263; 128, 24] Qurani-Kərim Məhəmməd peyğəmbər həyatda ikən bütünlüklə həm

əzbərlənmiş, həm də xurma ağaclarının qabıqları, daşlar, sümüklər, dərilər və ümumiyyətlə, ərəblərin üzərində yazı yazmağa adət etdikləri hər şeyin üzərində yazılmışdır. Lakin Allahın elçisi dünyadan köçdüyü zaman Qurani-Kərim vahid kitab formasına salınmamışdır. Məhəmməd peyğəmbərin sağ olması, ilahi vəhyin davam etməsi, Qurani-Kərimin müxtəlif əşyalar üzərində yazılmış ayə və surələrini toplayaraq vahid kitab halına salınması zərurətini o zaman gündəmə gətirməsə də, Allah elçisi dünyasını dəyişdikdən sonra müsəlmanlar belə bir addımın atılmasının vacib olduğunu vaxtında dərk edirlər. Tarixi mənbələr Quranın vahid kitab halına salınması təşəbbüsünün ilk dəfə Raşidi xəlifələrdən olan Ömər tərəfindən irəli sürüldüyünü qeyd edir. Məqsədini dövrünün xəlifəsi Əbu Bəkrə bildirən Ömər ilk olaraq xəlifədən "Peyğəmbərin etmədiyi bir işi biz necə edə bilərik?" – cavabını alır. Lakin mövzu ətrafında daha dərindən düşünən Əbu Bəkr belə bir addımın ümumiyyətlə İslam dininin, xüsusilə də Qurani-Kərimin xeyrinə olacağı qənaətinə gəlir. Beləliklə, Quran elmləri sahəsində daha savadlı olan səhabələr Qurani-Kərimin vahid kitab halına salınması işinə başlayır və bu işi qısa zamanda müvəffəqiyyətlə sona çatdırırlar.

Fərqli ləhçələrdə danışan ərəblər əksəriyyəti Qureyş ləhçəsi ilə nazil edilmiş Qurani-Kərimi oxuyarkən çətinlik çəkirdilər. Məhəmməd peyğəmbər Qurani-Kərimin yeddi hərf, yəni yeddi növ qiraət (oxunuş tərzi) üzrə nazil edildiyini bildirməklə bu çətinliyi aradan qaldırmışdır. [194, I, 175, 176 h. 448] İlahi vəhyə əsaslanan belə bir icazənin verilmə tarixi haqqında fərqli fikirlər olsa da, əksər alimlər bu qərarın Peyğəmbər tərəfindən hicrətindən sonra verildiyi qənaətindədirlər. Osmanın xilafətə rəhbərlik etdiyi dövrdə ortaya çıxmış Qurani-Kərimin oxunuşu ilə bağlı mübahisələrə, anlaşılmazlıqlara son qoymaq məqsədi ilə

Quranın nüsxələri məşhur səhabələrin iştirakı ilə bir hərf (bir ləhcə) üzrə çoxaldılır və böyük şəhərlərə göndərilir.

İslam dövlətinin sərhədləri genişləndikcə yeni-yeni insanlar, xalqlar İslam dinini qəbul etməyə başlayırlar. [188, I, 240-245] Hal-hazırda Qurani-Kərimdə gördüyümüz nöqtə və hərəkələr müqəddəs Allah kəlamının ilk nüsxələrində mövcud olmamışdır. Müshəflərin hərəkəsiz və nöqtəsiz yazılması Qurani-Kərimin müxtəlif qiraətlərlə oxuna bilməsi üçün şərait yaratmasına baxmayaraq, əsasən yeni müsəlman olmuş, fərqli dillərdə danışan xalqların nümayəndələrinin Qurani-Kərimi oxuyarkən müxtəlif səhvlərə yol verməlırinə, hətta Allah kəlamının təhrif olunmasına səbəb olurdu. [35, 230; 15, 8] Buna görə də Əbul Əsvəd əd-Duəli nöqtələrdən istifadə etməklə Qurani-Kərimə ilk hərəkələri qoyur. Daha sonra isə Nasr ibn Asim (h.89/ m.707) və Yəhya ibn Yamər (h.129/ m.746) Qurani-Kərimin oxşar hərflərini nöqtələr vasitəsi ilə bir-birindən fərqləndirirlər. Hər iki halda nöqtələrdən istifadə edilməsi hərəkələri ifadə edən nöqtələrin oxşar hərfləri bir-birindən fərqləndirən nöqtələrlə qarışdırılmasına gətirib çıxarır. Xəlil ibn Əhməd əl-Fərahidi ilk olaraq nöqtələrlə ifadə olunan, ərəb cümləsində qrammatik funksiya daşımaqla bərabər bəzən yerləri səhv salındıqda mənalar arasında ziddiyyətlər yaradan hərəkələri (qısa səslilər) hal-hazırda Qurani-Kərimdə müşahidə etdiyimiz işarələrlə əvəz edir. [129, 54-56; 35, 230]

## 1.3. Hədis və sünnə

Ərəb dilində "köhnə", "qədim" sözlərinin antonimi olan, "yeni", "müasir" mənalarını ifadə edən "hədis" kəlməsi eyni zamanda xəbər mənasını, eləcə də bu kökdən daxili fleksiya yolu ilə düzəldilmiş bəzi fellər "xəbər vermək", "təbliğ etmək", "nəql etmək" kimi mənaları da ifadə edir. [176, 18 / 6, 93 / 11; 148, II,

2] “Hədis” kəlməsi İslam dini zühur etdikdən sonra bir termin kimi Məhəmməd peyğəmbərin söz, hərəkət və təqrirlərinə (susaraq razılıq bildirmək) şamil edilərək yeni mənalar ifadə etməyə başlamışdır. Bu baxımdan “hədis” kəlməsi “sünnə” kəlməsinin sinonimidir. [175, 35-38; 123, 2; 24, 40] Lakin sünnə hədisə nisbətən özündə daha geniş məna və məzmun ehtiva edir. [24, 40] İbn Mənzur: “Sünnə kəlməsi yol, adət deməkdir. Lakin bu kəlmə dini termin olaraq istifadə edildiyi zaman Allah Rəsulunun istər hərəkət, istərsə də sözlə ifadə olunan, Qurani-Kərimdə öz əksini tapmamış əmrləri, qadağaları, dəvət və təşviqləri nəzərdə tutulur. Buna görə də şərii dəlillər Kitab və sünnə (Qurani-Kərim və hədis) dəlilləri kimi təqdim olunur” - demişdir. [100 (kök: سنن); 177, (kök: سنن) ; 198, elm mövzusu, h. 15; 145, 11] Şatibi isə “sünnə” kəlməsinin həm də “bidət” kəlməsinin antonimi olduğunu bildirərək belə demişdir: “Bir kəs hər hansı bir işi Peyğəmbərin etdiyi kimi edərsə, “onun davranışı sünnəyə müvafiqdir” -deyilir və habelə bunun əksini edənə də “o, bidətçidir” -deyilir” [155, IV, 3, 4] Daha sonra isə o, “sünnə” kəlməsinin səhabələrin əməllərinə də şamil olduğunu bildirərək Məhəmməd peyğəmbərin “mənim və doğru yolda olan Raşidi xəlifələrin sünnəsinə möhkəm sarılın” sözlərini ehtiva edən hədisini dəlil olaraq göstərmişdir. [145, 12, 13]

Zaman keçdikcə “sünnə” kəlməsi ona müxtəlif aspektlərdən yanaşan İslam alimlərindən asılı olaraq daha rəngarəng məfhumlar kəsb etmişdir. [146, I, 6; 84, II, 159-166; 157, 95; 177, 106] Bəzi İslam alimləri də “hədis” kəlməsini yalnız Məhəmməd peyğəmbərin sözlərinə şamil etmiş başqalarına istinad edilən sözlərə isə xəbər demişlər. [31, 22] Buna görə də Peyğəmbərin hədisləri ilə məşğul olanlara “mühəddis”, başqalarından varid olan tarixi hadisələr, rəvayət və.s ilə məşğul olanlara isə “axbari” deyilmişdir. [36, 10]

Hədis haqqında qeyd olunan fikirlər bir-birindən bu və ya digər şəkildə fərqlənməsinə baxmayaraq, hədis deyildiyi zaman ilk ağla gələn Məhəmməd peyğəmbərə aid söz və ya hərəkət olur. “Sünnə” kəlməsi isə “hədis” kəlməsinin sinonimidir. “Xəbər” kəlməsinə gəlincə, bəzi alimlər “hər hədis xəbər ola bilər, lakin hər növ xəbər hədis deyildir” -demişlər. Buna görə də ümumi məna kəsb edən “xəbər” kəlməsi Peyğəmbərin sözlərinə şamil edilməklə bərabər səhabə, tabiun və habelə başqalarından nəql olunan sözlərə də şamil olunur. [31, 22; 36, 10]

Hədis İslam dininin Qurani-Kərimdən sonra ikinci qaynağı hesab olunur. Allah tərəfindən nazil edilən ayə və surələri ilk olaraq əzbərləyən, daha sonra isə vəhy katiblərinə yazdıran, əzbərlədən Məhəmməd peyğəmbərin vəzifəsi bunlarla məhdudlaşmırdı. O, Qurani-Kərimdə bildirilən Allahın əmr və qadağalarını insanlar arasında təbliğ etmək, izaha ehtiyac duyulan məsələlərdə onlara yardım etmək, öz hərəkət və davranışları ilə onlara nümunə olmaqla vəzifələndirilmişdir. Məhəmməd peyğəmbər tərəfindən təbliğ olunan və tətbiqi istənilən bəzi ayələr mucməl (izaha ehtiyac olan) və yaxud da mütləq (ümumi) olaraq nazil edilmişdir. Məsələn, İslam dininin əsaslarından sayılan namaz ibadəti ilə bağlı ayələr mücməl olaraq nazil edilmiş, namazın rükətlərinin sayı, forması və. s kimi sual doğuracaq məqamlar Qurani-Kərimdə təfsilatı ilə bəyan edilməmişdir. Qurani-Kərimdə bu kimi forması, şərti və əhkamı izah olunmadıqca tətbiqi mümkün olmayan bir çox hökmlər vardır ki, Allahın elçisinə, onun hədislərinə müraciət etmədən onları icra etmək qeyri-mümkündür. [145, 23, 24; 160, I, 87-90; 156, 78] Bundan əlavə, Qurani-Kərim şərii hökmlərə dəlil olmaq nöqteyi-nəzərindən hədislə eyni mərtəbədə durur. Qurani-Kərim ilə sünnə arasındakı bərabərlikdən danışan əl-Xətib əl-Bağdadi “əl-Kifayə” adlı məşhur əsərində əhəmiyyət və şərii hökmlərin isbatında dəlil

olmaq baxımından onların bərabər olduğuna işarə etmişdir. [120, 39] Hədis elminin müasir alimlərindən hesab olunan Dr. Abdulğəni Abdulxaliq bu fikri bir daha təsdiqləyərək belə demişdir: “Həqiqətən sünnə əhəmiyyət və şərii hökmlərə dəlil olmaq baxımından Qurani-Kərim ilə eyni səviyyədədir. Bunu izah etmək üçün deyirik: Məlumdur ki, Qurani-Kərim hədisdən fərqlənir və ləfzən Allah tərəfindən nazil edilməsi, oxunuşu ilə ibadət olunması, bəşərin ona bənzər kəlam söyləməkdə aciz olması nöqteyi-nəzərindən hədisdən üstün hesab olunur. Bu məsələdə hər hansısa bir mübahisəyə yer yoxdur. Hədis bu cəhətdən Qurani-Kərimdən sonra gəlir. Lakin buna baxmayaraq, bütün bunlar hədisin dəlil olma cəhətdən Qurani-Kərimdən aşağı olmasını və onlar bir-birinə zidd olarsa, (bu qeyri-mümkündür) hədisi buraxıb yalnız Qurani-Kərim ilə hökm olunmasının vacibliyini göstərmir. Çünki Qurani-Kərim Allah təala tərəfindən vəhy olunduğu üçün dəlil olaraq istifadə olunur. Hədis də bu baxımdan Qurani-Kərimə bərabərdir. Çünki o da Qurani-Kərim kimi vəhydir. Hədisin əhəmiyyət baxımından Qurani-Kərimdən aşağı olmadığını söyləmək lazımdır.” [133, 20-30] Bu nəticəni Qurani-Kərimin aşağıdakı ayələrindən də çıxarmaq mümkündür: “O, kefi istəyəni (havadan) danışmır. Bu, ancaq (Allah dərgahından) nazil olan bir vəhydir”. [176, 53 / 3-4] “Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun. Həqiqətən, Allahın cəzası çox şiddətlidir”. [176, 59 / 7] “(Ya Rəsulum!) De: “Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, mərhəmətlidir!” [176, 3 / 31] əl-Miqdam ibn Mədikərbdən rəvayət olunan bir hədisdə Allahın elçisi belə buyurmuşdur: “Məlumunuz olsun ki, mənə Qurani-Kərim ilə birlikdə onun bir oxşarı da verilmişdir. Diqqətli olun, kürsüdə oturmuş tox bir adamın “sizə sadəcə bu Quran gərəkdir.

Onda gördüyünüz halalı halal, haramı da haram qəbul edin"- deyəcəyi günlər yaxındadır. Allah Rəsulunun haram buyurduqları, Allahın haram buyurduqları kimidir" [103, V, 10, h. 4604; 122, V, 38, h. 2664; 130, I, 117, h. 594; 120, 48; 93, I, 191; 151, 10] Beləliklə, Quran və sünnə İslamda iki əsas mənbə hesab edilir. [8, 53]

Yuxarıda qeyd olunan məlumatlardan bir daha aydın olur ki, hədisin İslam dinindəki rolu əvəzolunmazdır. Bunu nəzərə alan müsəlmanlar vəhyin nazil olduğu dövrdən etibarən izaha ehtiyac duyulan məsələlərdə Allahın elçisinə müraciət etmiş, namazın necə qılınmasını, zəkat ilə bağlı hökmləri, həcc ibadətini və bu kimi digər məsələri ondan öyrənmişlər. Məhəmməd peyğəmbər dünyasını dəyişdikdən sonra isə müsəlmanlar onun sünnəsinə, hədislərinə müraciət etməklə İslam dini ilə bağlı məsələlərə aydınlıq gətirmişlər. Səhabələr Məhəmməd peyğəmbərin əmrlərinə, qadağalarına tabe olmuş, bütün əməl, ibadət və davranışlarında onu özlərinə nümunə qəbul etmişdilər. Allahın elçisinin hərəkətləri bəzən səhabələrdə sual belə doğurmurdu. Onlar Peyğəmbərin etdiyi hər şeyi (yalnız ona xas olanlardan başqa) sorğu-sualsız etməyə, tərk etdiyi şeylərdən isə uzaq olmağa çalışırdılar. [145, 24, 25; 103, I, 426, h. 650; 90, I, 480] Şübhəsiz ki, səhabələr tərəfindən Peyğəmbərə, onun hədislərinə olan bu münasibət onların Allaha və elçisinə olan səmimi imanından irəli gəlirdi. Məhəmməd peyğəmbərə bu şəkildə itaət edən səhabələrlə yanaşı, ondan bir söz soruşmaq və ya hər hansısa bir şərii suala cavab almaq üçün uzun məsafə qət edən insanlar da sayca coxluq təşkil edirdi. Məsələn, Uqbə ibn Haris uşaq ikən onun və həyat yoldaşının süd anasının eyni olması haqqında məlumat aldığı zaman, dəvəsinə minib Məkkədən Mədinəyə gəlmiş, Peyğəmbərdən bu məsələ ilə bağlı hökmü öyrəndikdən sonra həyat yoldaşından ayrılmışdır. [30, I, 30, 31] Məhəmməd peyğəmbər dünyasını

dəyişdikdən sonra müsəlmanlar Qurani-Kərimlə yanaşı hədislərin də qorunmasında mümkün vasitələrdən istifadə etmişlər. [130, I, 67-73] Səhabələrdən sonra gələn nəsillərin mömin nümayəndələri də hədis mövzusuna son dərəcə ehtiyatla yanaşmış və Allahın elçisinin adından hədis rəvayət edən hər kəsi hərtərəfli araşdırdıqdan sonra onun söylədiklərinə münasibət bildirmişlər. [145, 34, 35]

**İlk hədis fəaliyyətləri:** Məhəmməd peyğəmbər əshabına dərs keçmək üçün xüsusi mədrəsə və ya buna oxşar məkana malik deyildi. O, səfərdə həm ordusunun komandanı, həm də müəllimi olurdu. Belə ki, vəz və irşadları ilə bir tərəfdən əsgərləri döyüşə ruhlandırır digər tərəfdən də cihad ilə bağlı hökmləri, onun dindəki yerini onlara aşılayırdı. Bundan əlavə, müsəlmanlar ehtiyac duyduqları zaman evdə, çöldə, onun qarşısına keçib sual verib bilmədiklərini öyrənirdilər. Evinin çox yaxınlığında yerləşən məscid həm beş vaxt namazın qılındığı, həm də elm məclislərinin qurulduğu bir yer idi. Belə məclislər adətən gündəlik namazlar qılındıqdan sonra təşkil olunurdu. Səhabə yorğunluq hiss etmədən Peyğəmbəri dinləyir, o, da eyni şəkildə onların suallarına cavab verirdi. [36, 18, 19] Buxarinin İbn Məsuddan nəql etdiyi bir xəbərdə bele deyilir: “Peyğəmbər vəzlərlə (dini söhbətlər) səhabələri yormamaq üçün uyğun və məlum günlər seçirdi.” [30, I, 25]

Hicrətdən sonra Mədinədə inşa edilən məscidin bir tərəfində üstü örtülü bir kölgəlik düzəldilmişdi. Elm öyrənməyə olduqca həvəsli bir qrup səhabə bu məkanın daimi sakinlərinə çevrilmişdilər. Daim Peyğəmbərin ətrafında olan və qazanc barəsində düşünməyən bu insanlar səhabələrin ən kasıb təbəqəsini təşkil edirdilər. Onlar digər səhabələrin verdikləri ilə kifayətlənir və bəzən də onlara qonaq olurdular. [36, 18; 30, I, 149] Bu məkanı İslamın elm tədris edən ilk universiteti kimi də qəbul etmək olar.

Çünki Əhməd ibn Hənbəlin bildirdiyinə görə, 70-80 nəfərin olduğu bu yerdə Məhəmməd peyğəmbər tərəfindən təyin edilən müəllimlər vasitəsilə Quran elmləri, əqidə, yazı və qiraət öyrədilirdi. [108, III, 371]

İstər Qurani-Kərimdə, istərsə də Məhəmməd peyğəmbərin hədislərində elmdən, təfəkkürdən bəhs olunması müsəlmanları elm öyrənməyə ruhlandıran əsas amillərdən olmuşdur. [158, 19, 20] Abdulla ibn Məsud, Əli ibn Əbu Talib, Ubey ibn Kəb, İbn Abbas kimi səhabələr Qurani-Kərimlə əlaqədar məsələləri öyrənməyə, muhkəm və mütəşabih ayələri anlamağa  səy göstərdiyi halda Əbu Hürəyrə, Cabir ibn Abdulla, Əbu Səd əl-Xudri, Abdulla ibn Ömər, Abdulla ibn Amr, İbn Abbas, Ənəs ibn Malik kimi digər səhabələr isə sünnə ilə maraqlanmış, Allahın elçisindən görüb-eşitdikləri hədisləri toplamaqla məşğul olmuşlar. [36, 22] Məhəmməd peyğəmbər həyatda ikən Allahın kitabından, Peyğəmbərin sünnəsindən lazımi hökmlərin çıxarılmasında onlara ehtiyac duyulmamasına baxmayaraq, onlar bu yöndəki bütün qanun-qaydaları öyrənmiş və gələcəkdə Peyğəmbər həyatda olmadığı dövrdə müsəlmanların bu baxımdan ehtiyaclarını ödəyə biləcək səviyyəyə gəlmişdilər. Quran və sünnə bir tərəfdən onları elm öyrənməyə çağırdığı halda digər tərəfdən də öyrəndiklərini öyrətməyə borclu olduqlarını onların diqqətinə çatdırırdı: "Kitabda (Tövratda) insanlara aşkar etdiyimiz dəlillərdən sonra göndərdiyimiz nişanələri və doğru yol göstərən ayələrimizi gizlədən kimsələr Allahın lənətinə düçar olar və bütün lənət edə bilənlər də onlara lənət oxuyar." [176, 2 / 159] Çox hədis rəvayət etdiyi üçün etirazlara məruz qalan Əbu Hürəyrə müxatəblərinə belə cavab vermişdir: "Əgər Quranda bu iki ayə olmasaydı, heç bir hədis rəvayət etməzdim" [30, I, 37, 38]

Peyğəmbərin dini təlimlərindən qadınlar da yararlanırdı. Onlar da Məhəmməd peyğəmbərə müraciət edərək bilmədikləri

məsələlərə aydınlıq gətirirdilər. Hətta qadınlar, onlar üçün bir gün ayrılmasını istəyərək Peyğəmbərin razılığını da almışdılar. İslamdan əvvəl bir çox hüquqlardan məhrum olmuş müsəlman qadınlar Peyğəmbərə sual verərkən həya onlara mane olmurdu. [36, 19] Məhəmməd peyğəmbərin həyat yoldaşı Aişənin Ənsar qadınlarını tərif etdiyi bir xəbərdə bildirilir: "Nə gözəl, onların dini məsələlərdə savadlanmalarına həya mane olmur" [30, I, 41]

Peyğəmbər dövründə toplanan geniş hədis külliyyatının sonrakı nəsillərə ötürülməsində ilk önəmli rolu şübhəsiz ki, Məhəmməd peyğəmbərin səhabələri oynamışdır. Peyğəmbərdən ən çox hədis rəvayət etmiş səhabələr arasında 5374 hədisi ilə Əbu Hürəyrənin, [92, 401; 47, 211; 24, 45] 2630 hədisi ilə Abdulla ibn Ömərin, [153, 403; 109, 211; 24, 45] 2286 hədisi ilə Ənəs ibn Malikin, [109, 211] 2210 hədisi ilə möminlər anası xanım Aişənin, [109, 211] 1660 hədisi ilə Abdulla ibn Abbasın, [153, 403; 109, 211] 1540 hədisi ilə Cabir ibn Abdullanın və 1170 hədisi ilə Əbu Səid əl-Xudrinin adı xüsusilə qeyd olunur. [153, 403; 109, 211; 24, 45]

Tarixi qaynaqlarda Peyğəmbər vəfat etdikdən sonra səhabələrin bəzilərinin fəth olunan müxtəlif ölkələrdə məskunlaşdığı bildirilir. Məsələn, əl-Hakim Əbu Abdulla "Ulumul-hədis" adlı əsərində hədis ravilərinin "buldan" (ölkə) və "əvtan" (vətənləri) mövzusuna bir fəsil ayıraraq Peyğəmbərin vəfatından sonra bir çox səhabənin Mədinəni tərk edərək müxtəlif ölkələrə yerləşdiklərini bildirmişdir. [127, 191] Beləliklə, əldə etdiyimiz məlumatlardan aydın olur ki, sayca heç də az olmayan səhabə qrupları məlum fəthlərlə birlikdə müxtəlif ölkələrə səpələnmiş və İslamın məqsəd və məramını vəhy ölkəsindən çox-cox uzaqlarda yaşayan insanlara aşılamaq istiqamətində əllərindən gələni əsirgəməmişlər. Bu məqsədin reallaşması üçün atılan ilk addımlardan biri də fəth olunan ölkələrdə həm ibadət, həm də ilk elm mərkəzi ola

biləcək məscidlərin inşa edilməsi olmuşdur. Bütün hərəkət və davranışlarını Peyğəmbərdən görüb-götürdüyü sünnə əsasında quran səhabələrin bu planının nümunəsi də Məhəmməd peyğəmbər idi. Belə ki, Məkkədən Mədinəyə hicrət edən Məhəmməd peyğəmbər Qubada müsafir olduğu zaman orada ilk məscidi inşa etdirmiş, Mədinəyə gəldiyi zaman isə yenə də ilk iş olaraq Peyğəmbər məscidini tikdirmişdir. [168, II, 114-117] Beləliklə, əldə etdiyimiz məlumatlardan aydın olur ki, İslam liderlərinin rəhbərliyi altında həyata keçirilən yürüşlər, bu yürüşlərə paralel olaraq artan və ilkin mədrəsə rolunu oynayan məscidlər alim səhabələrin səyləri ilə bəzi elm mərkəzlərinin təşəkkül tapmasına səbəb olmuşdur. İlk olaraq Qurani-Kərim və hədis elmlərinin tədris olunduğu bu məscidlər müsəlmanlar tərəfindən bütün zamanlarda yüksək qiymətləndirilmişdir.

Hədislərin Peyğəmbərdən sadir olduqdan sonra hansı mərhələlərdən keçdiyinə dair araşdırmalarımızı davam etdirərkən ilahi vəhyin digər bir forması olan bu Allah kəlamının bütün dövrlərdə birmənalı qarşılanmadığını görürük. Belə ki, Peyğəmbər dövründə və onun vəfatından sonra səhabələrin bir-birinə şübhə ilə yanaşmamalarına, bəzi cüzi etirazlar istisna olmaqla rəvayət edilən hədisləri təkzib etməmələrinə, hətta tabiundan olan hədisçilərin səhabələrdən eşitdikləri hədisləri qəbul etməkdə tərəddüd etməmələrinə, daha doğrusu Peyğəmbərə, onun sünnəsinə olan inancları səbəbilə hədisin hər cür yalandan, təhrifdən uzaq nəql olunduğuna səmimi qəlbdən inanmalarına baxmayaraq, bu saf inanc çox uzun sürmür. Xəlifə Osman ibn Affanın qətlə yetirilməsi ilə başlayan və bir-birinin ardınca gələn digər hadisələr müsəlmanların hüzurunu, sükunətini pozduğu kimi, hədislə məşğul olan insanların səmimi, saf inanclarını da sarsıdır. [36, 167] Müslüm Səhih əsərinin müqəddiməsində İbn Sirinin (h.33-110/m.654-728) dilindən nəql etdiyi xəbərdə:

“Əvvəllər isnad (hədslərdəki ravi zənciri) barəsində soruşulmurdu. Fitnə meydana çıxdıqdan sonra isə “ravilərinizin adlarını bizə deyin” deməyə başlanıldı. Bu yolla sünnə əhlindən olana baxılır və onların hədisləri qəbul olunur, bidət əhlindən olanların hədisləri isə qəbul olunmurdu” [198, I, 15] deməklə, hədis tarixində meydana çıxan və təəssüf doğuran bu həqiqəti aydın şəkildə ifadə etmiş, ravilərlə bağlı araşdırmaların müsəlmanlar arasında meydana çıxan fitnə ilə eyni dövrə təsadüf etdiyini bildirmişdir. Tarixi mənbələr səhabələrin də bir-birindən hədis əxz etdikləri və ya Peyğəmbərdən hədis nəql etdikləri zaman isnad tətbiq etdiklərini qeyd etmişdir. Lakin o zamanlar yalançılıq geniş vüsət almadığı üçün əlavə dəqiqliyə lüzum görülməmişdir. Səhabə tərəfindən də isnadın tətbiq edildiyini Mücahidin nəql etdiyi rəvayətə istinad edərək isbat etmək mümkündür: “Buşeyr ibn Kəb əl-Ədəvi İbn Abbasın yanına gələrək “Allah Rəsulu belə buyurdu, Allah Rəsulu belə buyurdu” deyərək hədis rəvayət etməyə başlayır. İbn Abbas isə nəinki onun rəvayət etdiyi hədisə qulaq asır, hətta onun üzünə belə baxmır. Bunu görən Buşeyr “Ey İbn Abbas! Bu nədir?! Səni rəvayət etdiyim hədisə etinasız yanaşan görürəm, sənə Allah Rəsulundan hədis rəvayət etdiyim halda sən qulaq belə asmırsan?!” – deyir. İbn Abbas cavabında bele deyir: “Bir zamanlar biz bir kimsə “Allah Rəsulu belə buyurdu” dediyi zaman son dərəcə diqqətlə ona qulaq asar və gözlərimizi ondan ayırmazdıq. İnsanlar erkək-dişi, hər növ dəvəyə minməyə başladıqdan sonra isə onlardan yalnız və yalnız bildiyimiz şeyləri götürdük.” [145, 34, 35] İbn Sirindən nəql olunan və rəvayətin yalnız inanılan kəslərdən qəbul edilməsinin zəruri olduğunu bir daha təsdiqləyən digər bir xəbərdə isə bu sözlər əks olunmuşdur: “Şübhəsiz ki, bu elm dindir. Belə olan təqdirdə dininizi kimdən aldığınıza diqqət edin” [145, 34, 35]

Hədis sahəsində cərəyan edən hadisələr bir tərəfdən hədisləri təhlükə altına alır, digər tərəfdən isə müsəlmanları qeyd olunan təhlükəyə qarşı daha mübariz olmağa vadar edirdi. Bunun nəticəsi olaraq səhih hədisləri yalançı hədislərdən ayıran isnad metodu hicrətin I (miladi VII) əsrinin sonlarında kifayət qədər təkmilləşmişdir. Hicri 90 (m. 708)-cı ildə vəfat etmiş Əbu əl-Aliyə ər-Riyahidən nəql olunan bir rəvayətdə o, belə deyir: “Bəsrədə Allah Rəsuluna istinadən nəql olunan rəvayətləri eşidərdik. Lakin Mədinəyə gedib bu rəvayətləri bir başa onların dilindən eşitmədikcə razı qalmazdıq.” [145, 40] Siyasi və etiqadi ixtilaflar nəticəsində ortaya çıxmış hədis yalançılığı hədislərin dəyərləndirilməsini zəruri edən əsas amillərdən olsa da, bu sahədə yeganə olmamışdır. Belə ki, minlərlə səhabədən sayca azlıq təşkil edən bir qrup səhabənin həyatlarını hədis rəvayətinə sərf etdiyini nəzərə alsaq deyə bilərik ki, ilk dövrlərdə bu vəzifəni öz öhdələrinə götürənlər hədis rəvayəti işini özlərinə bir ixtisas, bir peşə seçənlər olmuşdur. Lakin səhabə dövrünün ardınca gələn tabiun dövrü bu xüsusiyyəti demək olar ki, itirmişdi. Bir tərəfdən siyasi, etiqadi firqə tərəfdarları və habelə bəzi məzhəb nümayəndələri öz mənafelərinə uyğun hədis uydurur, digər tərəfdən isə hədisə, hədis rəvayətinə yad olan insanlar bu sahəyə əl atmışdılar. Bəlkə də niyyətlərində səmimi olan bu insanlar əllərinə səhih olaraq gəlib çatmış hədisləri cahillik, ani ehtiyatsızlıq səbəbilə təhrif edərək dinə böyük zərbə vurduqlarından xəbərsiz idilər. Hədisin məruz qaldığı bu təhlükəni əl-Əvzai belə təsvir edir: “Bu elm böyük bir şərəfə malikdir. Ricalın hafizəsində olduğu zaman ağızdan alınaraq müzakirə olunurdu. Kitaba girdikdən sonra isə nuru qeyb oldu və ona yad olanların əlinə düşdü” [117, 58] Hədislərin düzgün olması üçün hədis rəvayət edən şəxsin müvafiq tələblərə cavab verməsi lazımdır. Bu tələblər hədisin bir elm kimi formalaşmasına aparan hədis fəaliyyətləri nəticəsində

meydana çıxmış və hədis üsulu adlandırılan kitabların əsas mövzusu olmuşdur. Hədis üsulu kitablarında hədisçilər iki yöndən tənqid edilirdilər. Birincisi ədalət, ikincisi isə zabt (yəni eşitdiyi hədisi uzun zaman keçməsinə baxmayaraq artırma və əksiltmə olmadan Peyğəmbərdən sadir olduğu şəkildə əzbər yadda saxlama bacarığı) adlanır. Ədalət tələbinə cavab verməyən hədis rəvayətçisi isə yalan hədis uyduran, uydurulmuş hədis rəvayət edən, cəmiyyət arasında yalançı kimi tanınan, İslamın qətiyyətlə qadağan etdiyi bəzi günahları işləyən, bidət əhlindən olan, bidəti təsdiqləyən hədislər rəvayət etməklə şöhrət qazanan, ədalət və zabt yönündən qabiliyyətinin bilinməməsilə məçhul olan hədis rəvayətçisidir. [31, 57] Bütün bu qeyd olunan şərtləri nəzərə alaraq hədis, habelə hədis rəvayət edən şəxs barəsində rəy vermək bu elmə xas "cərh və dədil" termini ilə ifadə olunur. Cərh və dədil əslində bir məqsədin gerçəkləşdirilməsinə yönəlmiş sistemli fəaliyyətdən ibarətdir. Bu yeganə məqsəd Peyğəmbərin hədislərini təsbit etmək və onu zəif, saxta hədislərdən ayırmaq məqsədidir. Səhih hesab olunan hədislərlə bağlı araşdırmalarımızı davam etdirərkən məlum olur ki, istər ədalət, istərsə də zabt baxımından zəif sayılmayan bir hədis ədalət və zabtın tələblərinə daha yüksək şəkildə cavab verən digər bir hədisdən bir pillə aşağı ola bilər. Məhs bu səbəbdən ədalət və zabt baxımından ən üstün olan ravilərin hədisləri ən səhih hədislər hesab olunur. [36, 175]

Hədis tarixində tabiun dövrünə təsadüf edən yüniliklərdən biri də hədislərdə isnadın tətbiq olunmasıdır. Hədis uydurmalarına qarşı yönəldilmiş cərh və dədil ilə birlikdə başladığına şübhə olmayan isnad, ravilərin adlarını sadalamaqla hədisin ilk qaynağına yetişməyə imkan verən bir rəvayət sistemidir. Malik ibn Ənəsin bildirdiyinə görə, hədis rəvayətində isnadı ilk olaraq istifadə edən şəxs hicri I (miladi VII) əsrin sonlarında (h. 99\m.717) xilafətə rəhbərlik etmiş əməvi xəlifəsi Ömər ibn

Abduləzizin (v. h. 101/ m. 719) göstərişi ilə hədisləri tədvin etmiş ilk hədisçi kimi tanınan İbn Şihab əz-Zuhri (h. 50-124/ m. 670-742) olmuşdur. [36, 178, 179]

Beləliklə, hicri II (miladi VIII) əsrin əvvəllərindən etibarən sistemli şəkil alan cərh və dədil hərəkətləri bir tərəfdən hədislərin, hədis ravilərinin sağlam, etibarlı olmaları baxımından təbəqələrə ayrılmasını təmin edir, digər tərəfdən isə bəlkə də yazılması bir qədər gecikmiş bu hərəkatın təməl prinsiplərini, qayda-qanunlarını, terminlərini ehtiva edən və araşdıran "usul əl-hədis" elminin təşəkkül tapması üçün şərait yaratmışdır.

**Hədislərin yazılışı və ilk yazılı hədislər:** Məhəmməd peyğəmbər həyatda ikən hədislərin yazılması haqqında məlumat verən mənbələr, bu mövzu ilə bağlı iki fərqli dövrdən bəhs edir. Birinci dövrdə hədislərin yazılması Peyğəmbərin özü tərəfindən qadağan edilir, ikinci dövrdə isə hədislərin yazılmasına icazə verilir. Birinci dövrə aid ən məşhur hədis Əbu Səid əl-Xudri tərəfindən rəvayət olunan "Məndən bir şey yazmayın. Kim məndən Qurandan başqa bir şey yazıbsa, onu ləğv etsin. Məndən rəvayət edin, bunda bir narahatçılıq yoxdur. Mənim adımdan bilərəkdən yalan söyləyən kəs cəhənnəmdəki yerinə hazırlaşsın" kimi mənbələrdə qeyd olunan hədisdir. [117, 29] Hədislərin yazılmasının Peyğəmbər tərəfindən müsbət qarşılanmadığını göstərən digər bir hədis isə Əbu Hürəyrədən rəvayət olunmuşdur. O, belə rəvayət edir: "Biz hədis yazarkən Allah Rəsulu yanımıza gəldi və "nə yazırsınız?" – dedi. "Səndən eşitdiyimiz hədisləri yazırıq" – dedik. Peyğəmbər: "Allahın kitabından başqa bir kitab istəyirsiniz? Sizdən əvvəlki millətlər Allahın kitabı ilə birlikdə başqa kitablar yazdıqları üçün zəlalətə düşdülər"- dedi." [117, 33]

Məhəmməd peyğəmbər tərəfindən qoyulan belə bir qadağanın hansı səbəbdən irəli gəldiyini araşdırarkən mütəxəssislərin mövzu ilə bağlı müxtəlif fikirləri ilə qarşılaşırıq. Bəzi mütəxəssislər

ilkin mərhələdə səhabələrin yazı savadının bu işi həyata keçirmək üçün qənaətbəxş olmamasını əsas gətirərək qeyd olunan qadağanın bununla əlaqədar olduğunu bildirirlər. Məsələn, İbn Quteybəyə görə, bu qadağa yaxşı yaza bilməyənlərə ünvanlanmışdır. Çünki bu dövrdə ərəb yazısı hələ lazımi səviyyədə inkişaf etməmişdi. [95, 365] İlkin dövrlərdə səhabələrin cox az hissəsinin yazı savadının olması əl-Bəlazuri tərəfindən də təsdiqlənir. Belə ki, onun bildirdiyinə görə, İslamın başlanğıcında Qureyş qəbiləsindən yazıb-oxumağı bacaran 17 nəfər istisna olmaqla digər müsəlmanlar yazmağı bacarmırdılar. [121, 457] Əlbəttə ki, VI əsrdə Ərəbistan yarımadasında yayılmağa başlayan yazının VII əsrin əvvəllərində mükəmməl forma alması iddia oluna bilməz. Bu mövzuya bir fəsil ayırmış İbn Xaldun ərəb yazısının islamiyyətin ilk günlərində orta səviyyəyə belə yetişmədiyini qeyd etmişdir. [88, I, 348-352] Ərəb yazısının islamiyyətin ilk dövrlərində mükəmməl yazı olmadığını qəbul etsək də, Məhəmməd peyğəmbərin hədislərində və mövzu ilə bağlı digər xəbərlərdə İbn Quteybənin bu məsələdə tutduğu mövqeyini təsdiqləyən dəlilə rast gəlmədik. Düşünürük ki, əgər Peyğəmbər yuxarıda qeyd olunan hədisdə yaxşı yaza bilməyənləri nəzərdə tutsaydı, onlara Qurani-Kərimi də yazmalarına icazə verməzdi. Araşdırmalarımızın nəticəsi məlum qadağanın meydana çıxmasında mühüm rol oynaya biləcək başqa bir amilin daha çox məqbul olduğunu deməyə əsas verir. Bu, əl-Xətib əl-Bağdadinin də məqbul hesab etdiyi yazılmış hədis səhifələri ilə Quran səhifələrinin bir-birinə qarışma təhlükəsindən doğan amildir. [117, 57]

Qurani-Kərimin ayələri nazil olduqca vəhy katibləri tərəfindən həm yazılır, həm də əzbərlənirdi. Bununla da, Quranın mühafizəsi tam təmin olunurdu. Belə olan təqdirdə artıq hədislərin də yazılı olaraq təsbit olunmasında ciddi maneə qalmırdı. İslamiyyətin inkişafı ilə birlikdə daha geniş düşüncə sahəsinə

atılan səhabələr günbəgün keçmiş günlərin cəhalətindən qurtularaq ayə ilə hədisi bir-birindən ayıra biləcək səviyyəyə doğru sürətlə irəliləyirdilər. Beləliklə, məhz bundan sonra Məhəmməd Peyğəmbərin hədis yazanlara mane olmadığını, hədis yazmaq üçün icazə istəyənlərə icazə verdiyini və hədisləri əzbərləyə bilməyənlərə onları yazmalarını tövsiyə etdiyini görürük. Əbu Hürəyrədən rəvayət olunan bir hədisdə adı qeyd olunmayan bir şəxsin Peyğəmbərə hafizəsindən şikayət etdiyi və Peyğəmbərdən "əlindən yardım istə", yəni "yaz" cavabını alması bildirilir. [117, 65] Rafi ibn Xədic də hədis yazmaq üçün Peyğəmbərdən icazə istəyərək: "Ey Allahın Rəsulu! Səndən bir çox şeylər eşidirik, onları yazaqmı?" – demiş, Peyğəmbər cavabında: "yazın bir narahatçılıq yoxdur" – demişdir. [117, 72] İlk yazılı hədislərə misal olaraq isə aşağıdakıları göstərmək olar:

**Məhəmməd peyğəmbərin diplomatik məktubları:** Məhəmməd peyğəmbərin söz, hərəkət, davranış, hətta susaraq razılıq bildirməsi sünnə, başqa sözlə, hədis olaraq qəbul edildiyi kimi hansı məqsədlə olursa-olsun, onun tərəfindən yazılan, yazdırılan və Peyğəmbərin imzasını daşıyan məktubları da yazılı hədis olaraq qəbul edilməlidir. Bu məktublar arasında Peyğəmbərin Bizans imperatoruna, Əcəm Kisrasına və Həbəş Nəcaşiyə yazdığı məktublar İslam tarixində kifayət qədər məşhurdur. İslam dövlətinin qurulmasından sonra daha da inkişaf etmiş diplomatik münasibətlər təbii olaraq bir çox rəsmi məktubların meydana çıxmasına səbəb olmuşdur. [36, 32, 33] Bu məktubların orijinal variantları günümüzə qədər gəlib çıxmasa da, onların mühtəvaları hədis və tarix kitablarında qeyd olunduğu kimi Prof. M. Hamidullahın səyi ilə onun "Məcmuaatul-vəsiqə əs-siyasiyyə liləhdin-nəbəvi vəlxilafətir-raşidə" adlı əsərində də toplanmışdır.

**Sədaqət hədisləri**: Amr ibn Hazmdan rəvayət olunan sədaqət hədisləri: Tarixi mənbələr Məhəmməd peyğəmbərin, sünnəni

ehtiva edən bir kitab yazaraq Amr ibn Hazm vasitəsilə Yəmənə göndərdiyini, Amr ibn Hazmın da həmin kitabı Yəmən əhalisinə oxuduğunu qeyd etmişdir. Həmin kitabın fərz, sünnə və qatil insanın ödəyəcəyi pul cəzasını əhatə edən hökmlərdən ibarət olduğu bildirilmişdir. [126, I, 395; 141, I, 222; 91, 358; 118, VIII, 228; 182, II, 26]

Əbu Bəkr əs-Siddiqdən rəvayət olunan sədaqət hədisləri: Məhəmməd Peyğəmbər həyatının sonlarında qılıncının qını üzərində yazmış olduğu sədaqət əhkamını valilərinə göndərmədən vəfat etmişdir. Onun vəfatından sonra xilafətə rəhbərlik edən Əbu Bəkr bu qılınca sahib olmuş və Ənəs ibn Maliki Bəhreynə göndərdiyi zaman isə həmin qılıncın üzərində yazılı olan sədaqət əhkamını yazıb ona verərək ondan həmin əhkam ilə hərəkət etməsini tələb etmişdir. Əbu Bəkrin Ənəs ibn Malikə yazdığı bu əhkam onun tərəfindən mühafizə edilmiş, vəfatından sonra isə övladlarına qalmışdır. [36, 37, 38]

Ömər ibn əl-Xəttabdan rəvayət olunan sədaqət hədisləri: Ömər ibn əl-Xəttabdan rəvayət olunan sədaqət hədisləri Əbu Bəkr əs-Siddiqdən rəvayət olunan sədaqət hədislərinin eynidir. Əbu Bəkrdən Ömərə qalmış kitab ondan sonra Ömərin nəvəsi Salim ibn Abdulla tərəfindən rəvayət olunmuşdur. [36, 38, 39] əz-Zuhrinin Salim vasitəsilə atası Abdulla ibn Ömərdən rəvayət etdiyi hədis belə başlayır: “Allah Rəsulu sədəqə kitabını yazmış, lakin amillərinə (məmurlarına) göndərmədən vəfat etmişdir. Sonda Əbu Bəkr, daha sonra isə Ömər eyni kitabla hərəkət etmişlər” [99, I, 284]

**Hədis səhifələri**: Əbu Bəkr və Ömərin hədis yazmaq təşəbbüsləri: Tarixi qaynaqlarda Əbu Bəkr və Ömərin hədis yazmağa təşəbbüs göstərdikləri, hətta Əbu Bəkrin 500 hədisi bir kitabda topladığı, lakin sonradan bəzi səbəblərdən həmin kitabı ləğv etdiyi barədə məlumatlar mövcuddur. [139, I, 5] Habelə Ömər ibn

əl-Xattab sünən yazmaq üçün səhabələrlə məsləhətləşmiş, əksəriyyətin onun gəldiyi qənaəti müsbət qarşılamasına baxmayaraq, bir ay keçdikdən və istixarə etdikdən sonra fikrindən daşınmışdır. [90, III, 206; 117, 50; 152, 6]

Abdulla ibn Amr ibn əl-Asın səhihəsi: Məhəmməd peyğəmbərin gənc səhabələri arasında hədis yazılı səhifəsi ilə məşhur olanlardan biri də Abdulla ibn Amr ibn əl-Asdır. İbn Saaddan nəql olunan bir xəbərdə Abdulla ibn Amrın bir səhifədən bəhs edərək "Allah Rəsulundan eşitdiyim hədisləri yazmaq üçün icazə istədim, icazəni aldıqdan sonra bu səhifəni yazdım" deməsi qeyd olunmuşdur. [90, VII, 189] Abdulla ibn Amr tərəfindən təqdim edilən səhifənin ehtiva etdiyi hədislərin miqdarı xüsusunda dəqiq məlumat əldə edə bilməsək də, onun Peyğəmbərdən minə yaxın məsəl hifz (əzbərləmək) etdiyini söyləməsi [136, III, 38] və bununla bərabər "Allah Rəsulunun yanında Onun hər söylədiyini yazırdıq" deməsi məlum səhifənin xeyli zəngin olmasından xəbər verir. [36, 45]

Cabir ibn Abdullanın səhifəsi: Peyğəmbərin səhabələri arasında çoxlu sayda hədis rəvayət etməklə şöhrət tapmış Cabir ibn Abdulla hicrətin 74 (m. 693)-cü ilində vəfat etmişdir. Hədis sahəsində yüksək biliyə malik Cabirdən hədis dinləmək üçün insanların Peyğəmbər məscidində bir halqa təşkil etdiyi bildirilir. [136, II, 43] Mənbələrdə Cabirə aid bir səhifədən bəhs olunsa da, həmin səhifənin bilavasitə onun tərəfindən yazıldığına dair qeydə rast gəlmədik. [120, 354; 139, I, 116; 136, IV, 296; 182, II, 58; 170, V, 27] əz-Zəhəbi Qətadənin əzbərləmə qabiliyyətindən danışarkən ona Cabirin səhifəsinin bir dəfə oxunduğunu və dərhal əzbərlədiyini qeyd etmişdir. [139, I, 116; 136, IV, 296] Əldə etdiyimiz məlumatlardan aydın olur ki, xəbərlərin Cabirin səhifəsi deyə bəhs etdiyi səhifə əslində Süleyman ibn Qeys əl-Yəşkuri tərəfindən yazılmışdır. Süleyman ibn Qeysin Abdulla ibn əz-

Zubeyrin dövründə meydana çıxan fitnədə Cabirdən əvvəl vəfat etməsi səhifəsinin şöhrət qazanmasına səbəb olmuş, lakin həmin səhifənin Cabirin hədislərini ehtiva etməsi səbəbilə ona istinad edilmişdir. Nəticədə həmin səhifə Cabirin səhifəsi kimi tanınmışdır. [36, 49]

Əli ibn Əbu Talibin səhifəsi: Müxtəlif qaynaqlarda Məhəmməd peyğəmbərin əmisi oğlu, eyni zamanda qızı Fatimənin həyat yoldaşı olan Əli ibn Əbu Talibin əlində sədaqət və qatil insanın ödəməsi vacib olan pul cəzası ilə bağlı hökmləri ehtiva edən bir səhifənin olduğu qeyd edilmişdir. [139, I, 12; 136, II, 199] Bu mövzu ilə əlaqədar xəbərlərin birində Əli ibn Əbu Talib belə deyir: "Həzrəti Peyğəmbərdən, Qurandan və bu səhifədəkilərdən başqa bir şey yazmadıq" [139, I, 12] Bununla yanaşı, Əlinin qeyd olunan səhifədən başqa Quran ilə birlikdə hədisləri də topladığını təsdiqləyən rəvayətlər mövcuddur. əz-Zəhəbinin Məhəmməd ibn Sirindən nəql etdiyi bir xəbərdə Əlinin Peyğəmbər vəfat etdiyi dövrdə Qurani-Kərimi tənzil (Quran surələrinin enmə ardıcıllığı) üzrə toplamış olduğu qeyd olunmuşdur. Hətta o, özünü bu işə o qədər aludə etmişdir ki, Peyğəmbər vəfat etdikdən sonra xilafət rəhbərliyini ələ alan Əbu Bəkrə beyət etmək üçün fürsət tapmamışdır. İbn Sirinin gəldiyi qənaətə görə, Əli tərəfindən qələmə alınan bu kitab onu əldə edənlər üçün böyük faydalara malik bir elmi ehtiva edirdi. [136, II, 199]

Səmura ibn Cundəbin səhifəsi: Peyğəmbərin səhabələri içərisində hədis yazanlardan biri də Səmura ibn Cundəb idi. Haqqında geniş məlumat verilməsə də, onun bir hədis kitabına malik olduğu Məhəmməd ibn Sirinin "Səmuranın oğulları üçün yazdığı risalədə çox elm vardır" xəbərindən aydın başa düşülür. [79, II, 354; 171, III, 130; 170, IV, 236]

Əbu Hürəyrənin səhifəsi: Bu səhabə Məhəmməd peyğəmbərdən ən çox hədis rəvayət etməklə şöhrət qazanmışdır. Əbu

Hürəyrənin rəvayət etdiyi hədisləri yazıb-yazmadığını araşdırarkən müxtəlif məlumatlarla qarşılaşırıq. Fuzeyl ibn Həsən ibn Amrın nəql etdiyi bir xəbərdə bildirilir ki, atası Həsən ibn Amr Əbu Hürəyrəyə bir hədis söyləmiş, Əbu Hürəyrə isə həmin hədisdən xəbəri olmadığını bildirmişdir. Həsən ibn Amr "hədisi səndən eşitdim" dedikdə isə Əbu Hürəyrə onun qolundan tutaraq "əgər məndən eşitmisənsə, deməkyazılıdır" deyərək onu evinə aparmışdır. Əbu Hürəyrə ona bir çox kitab göstərmiş və o hədisi də orada tapa bilmişdir. [172, I, 174] Səhih sənədlə rəvayət olunan digər bir xəbərdə Əbu Hürəyrənin "Biz hədis yazarkən Allah Rəsulu yanımıza gəldi" deməsi əks olunmuşdur. [117, 33, 34] Əbu Hürəyrənin hədis yazdığına dəlalət edən bu iki xəbərdən birincisi sənəd baxımından zəif hesab olunur, ikinci xəbərə gəlincə isə sənədi düzgün olsa da, konkret olaraq Əbu Hürəyrənin hədis yazdığını bildirmədiyi üçün haqqında danışılan mövzuya dair yetərli dəlil hesab olunmur. Digər tərəfdən Əbu Hürəyrənin hədis yazmadığına dəlalət edən səhih xəbərlər də mövcuddur. Bunlardan biri Əbu Hürəyrənin "Həzrəti Peyğəmbərin səhabələri arasında Abdulla ibn Amr istisna olmaqla məndən daha çox hədisə sahib olan kimsə yox idi. Abdulla hədisləri yazardı, mən isə yazmazdım" [30, I, 36; 108, II, 403; 139, I, 36] sözlərini ehtiva edən xəbərdir.

Göründüyü kimi, əldə etdiyimiz məlumatlar vasitəsi ilə Əbu Hürəyrənin hədis yazdığını dəqiq təsbit edə bilmirik. Bununla bərabər, onun yanında hədis yazıldığını və yaxud onun özünün hədis yazdırdığını danmaq qeyri-mümkündür. Əldə etdiyimiz digər bir məlumata görə, Əbu Hürəyrə həyatda ikən onun hədislərini ehtiva edən səhifə Bəşir ibn Nuhəyk tərəfindən yazılmışdır. [36, 59] Əbu Hürəyrənin sağlığında yazılan və böyük şöhrət qazanan digər bir səhifə isə Həmmam ibn Munəbbihin səhifəsidir. [36, 59]

Abdulla ibn Abbasın səhifəsi: Rəvayətinin çoxluğu və xüsusilə təfsir sahəsindəki elmi ilə şöhrət qazanan səhabələrdən biri də Abdulla ibn Abbas ibn əl-Muttəlibdir. [17, 129] Peyğəmbərin əmisi oğlu olan İbn Abbas hicrətdən üç il əvvəl dünyaya gəlmişdir. "Mufəssirul-Quran", "Tərcumanul-Quran" kimi ləqəbləri ilə tanınan İbn Abbas üçün Məhəmməd peyğəmbər "Allahım, onu dində fəqih qıl, ona təvili öyrət" deyərək dua etmişdir. Peyğəmbər vəfat etdiyi zaman on üç yaşlarında olmasına baxmayaraq, İbn Abbasın ondan çoxlu sayda hədis eşitmiş və əzbərləmişdir. [36, 62] İbn Abbasın Peyğəmbər və səhabələrindən topladığı hədisləri lövhələrə yazdığını göstərən xəbərlər vardır. Belə xəbərlərdən biri də Peyğəmbərin xidmətçisi Səlmadan nəql olunmuşdur: "Abdulla ibn Abbası (odundan hazırlanmış) lövhələrlə (ərim) Əbu Rafinin yanına gələrək Həzrəti Peyğəmbərin sünnəsinə dair bəzi şeyləri yazarkən gördüm." [90, II, 123] İbn Abbasın özü tərəfindən yazılmış kitablarla yanaşı onun diktəsi ilə tələbələri tərəfindən yazılmış kitab və səhifələr də mövcuddur. Səid ibn Cubeyr (v. h. 94/ m. 713), Mücahid (v. h. 103/ m. 721), və İkrimə (v. h. 105/ m. 723) ibn Abbasın ən məşhur tələbələrindəndir. [36, 63]

Abdulla ibn Ömər ibn əl-Xəttabın səhifəsi: Peyğəmbərin gənc səhabələrindən olan Abdulla ibn Ömərin hədis yazıb-yazmadığı haqda hər hansı bir məlumata malik deyilik. Buna baxmayaraq, onun əlində hədis yazılı səhifələrin olduğuna və xidmətçisi Nafinin ondan bir səhifə rəvayət etdiyinə dair əldə olunan xəbərlər onun da digər səhabələr kimi hədis yazılı səhifəyə malik olduğundan xəbər verir. Buxari tərəfindən Nafi vasitəsilə nəql olunan bir xəbərdə Abdulla ibn Ömər "çölə çıxmadan öncə kitablarına baxardı" [114, I, 325] sözləri əks olunmuşdur.

Saad ibn Ubadənin səhifəsi: Mütəmadi olaraq Peyğəmbərin məclislərində iştirak edən Saad ibn Ubadə ondan eşitdiyi hədisləri

yazaraq bir kitab şəklinə salmışdır. Vəfatından sonra onun bu kitabı nəvələrinə qalmış və onlar tərəfindən rəvayət olunmuşdur. [36, 67]

Məhəmməd peyğəmbərdən eşitdikləri hədisləri yazmaqla və ya içərisində hədis yazılı səhifələrə malik olmaqla şöhrət qazanmış səhabələr yuxarıda adları sadalananlarla məhdudlaşmır.

**Hədis ilə bağlı bəzi elmi mərkəzlər;** Mədinə: Təbii olaraq Məhəmməd peyğəmbərin ən çox hədislərinə ev sahibliyi etmiş və "Darul Hicrə" adı ilə tanınan Mədinə şəhəri ilahi vəhy ilə bağlı elmlərin təşəkkül tapması üçün ən münasib yer olmuşdur. Bundan əlavə, hədisin ilk qaynağı olan səhabələrin əksəriyyəti Peyğəmbər vəfat etdikdən sonra Mədinəni tərk etməyi müsbət qarşılamamış və onun qəbrinə yaxın olmağı onunla birlikdə yaşamaq qədər dəyərli hesab etmişlər. [36, 89] Mədinə şəhəri hədis və İslam şəriəti sahəsində şöhrət qazanmış əksər sahabənin vətəni olmaqla bərabər Peyğəmbəri görməyən, lakin hədislərini onun ən yaxın yoldaşlarından eşidib hifz etmək istəyən hədisçilərin mütəmadi olaraq ziyarət etdikləri şəhər olmuşdur. [36, 90] Mədinədə yaşayan və hədis sahəsində qaynaq rolunu oynayan səhabələrin ən məşhurları Əbu Bəkr əs-Siddiq, Ömər ibn əl-Xəttab, Kufəyə köçmədən əvvəl Əli ibn Əbu Talib, Əbu Hürəyrə, möminlər anası xanım Aişə, Abdulla ibn Ömər, Əbu Səid əl-Xudri və Zeyd ibn Sabit olmuşdur. [36, 90] Mədinə şəhərində yerləşən və ilk elm mərkəzi rolunu oynayan Peyğəmbər məscidində yuxarıda adları qeyd olunan səhabələrin müəllimliyi ilə bir çox hədisçi alim yetişmişdir. Səid ibn əl-Müseyyib, Urva ibn əz-Zubəyr, İbn Şihab əz-Zuhri, Ubeydullah ibn Utbə ibn Məsud, Salim ibn Abdulla ibn Ömər, əl-Qasim ibn Məhəmməd ibn Əbu Bəkr, Mövla ibn Ömər ləqəbi ilə tanınan Nafi və s. kimi tabiun nəslinin nümayəndələri Mədinə məktəbinin yetirmələridir. [36, 90]

Məkkə: İlahi vəhy əsasında İslam təbliğatının başlandığı ilk nöqtə olan Məkkə şəhəri Peyğəmbərə və onun ətrafındakı müsəl-

manlara verilən işgəncələrə şahid olmuşdur. Vaxtı ilə Məhəmməd peyğəmbərin tərk etmək məcburiyyəti qarşısında qaldığı Məkkə şəhəri səkkiz ildən sonra müsəlmanlar tərəfindən fəth olunmuş və bununla da, o layiq olduğu dəyəri qazanmışdır. Məkkə fəth olunduqdan sonra Peyğəmbər Muaz ibn Cəbəli Məkkədə saxlamış, Məkkə camaatına Quran və sünnə əhkamını, qiraəti öyrətməyi tapşırmışdı. [171, VI, 106, 107; 79, IV, 376-378] Məkkə mədrəsəsinin Abdulla ibn Abbasın Bəsrədən Məkkəyə qayıtdığından sonra gücləndiyi bildirilir. Beytul Haramda elm öyrətməklə məşğul olan İbn Abbas bir çox tələbələr yetişdirmişdir. Bu tələbələrdən üçü xüsusilə təfsir və hədis sahəsində şöhrət qazanmışlar. Onlar, İbn Abbasın Qurani-Kərimin təfsiri ilə bağlı söylədiklərini rəvayət etməklə məşhur olmuş Mücahid ibn Cəbr, Məkkənin zahid və fəqihlərindən sayılan, eyni zamanda həcc ibadətinin qayda-qanunlarını ən yaxşı bilənlərdən olan Ata ibn Əbu Rabahdır. Məscidül-Haramda onun ətrafına toplanan müsəlmanlara şəriət, hədis və digər dini məsələləri öyrətdiyi bildirilir. İbn Abbasın xüsusilə seçilən üçüncü tələbəsi isə bir çox səhabədən dərs almış, daha sonra isə İbn Abbasın tələbəsi olmuş Məkkənin məşhur fəqihlərindən, müftilərindən hesab olunan Tavus ibn Keysandır. [36, 91, 92]

Kufə: Kufə şəhərinin aid olduğu İraq, müsəlmanlar tərəfindən fəth olunmamışdan əvvəl ötən əsrlərin mədəniyyət abidələrini ehtiva edən bir ölkə olmuşdur. Babillilər, assurlar, kildanilər, farslar və yunanlar bu ərazilərdə müxtəlif vaxtlarda bir-birindən fərqli dövlətlər təsis etmişlər. Müsəlmanlar Ömər ibn əl-Xəttabın Xilafət rəhbəri olduğu dövrdə həmin əraziləri ələ keçirərək Bəsrə və Kufə şəhərlərini salmışlar. [107, 180] Çox keçmədən bu şəhərlər elm dünyasının iki böyük mərkəzinə çevrilmişdir. Kufə şəhəri ilk dövrlərdə İslam ordusunun qərargahı kimi fəaliyyət göstərdiyi üçün ordu ilə bağlılığı olan bir çox səhabə buraya gəlmişdir. Lakin IV Raşidi xə-

lifə Əli ibn Əbu Talibin Xilafət mərkəzini Mədinədən Kufəyə köçürməsindən sonra bu şəhər müvəqqəti qərargah rolunu oynamaqdan çıxaraq gündən-günə sürətlə genişlənən böyük bir dövlətin mərkəzinə çevrilmişdir. Bununla da bir çox səhabə Kufəyə gələrək orada məskunlaşmış və ömürlərinin sonunadək orada yaşamışlar. Kufəni özlərinə məskən seçmiş səhabələrin elm baxımından ən məşhurları heç şübhəsiz Əli ibn Əbu Talib və Abdulla ibn Məsud olmuşdur. Əli ibn Əbu Talibin Kufədəki həyatı siyasətlə bağlı olmuş və həmin dövrdə baş verən döyüşlər onun elmə zaman ayırmasına daima maneçilik törətmişdir. Buna görə də Kufə mədrəsəsi varlığını və şöhrətini Abdulla ibn Məsuda borcludur. Bu mədrəsənin ən məşhur yetirmələrinə gəlincə isə onlar Əlqəmə ibn Qeys, əl-Əsvəd ibn Yezid, Məsruq ibn əl-Əcda, Ubeydə ibn Amr əs-Səlmani, əl-Haris ibn Qeys kimi tanınmış tabiun nəslinin nümayəndələri olmuşdur. [36, 92, 93]

Bəsrə: Səhabələrin bəzilərinin Bəsrədə məskunlaşması nəticəsində burada da bir mədrəsə təşəkkül tapmışdır. Bəsrədəki səhabələrin elm baxımından ən məşhurlarına misal olaraq Əbu Musa əl-Əşari və Ənəs ibn Maliki göstərmək olar. [36, 94] Xilafətə rəhbərlik etdiyi dövrdə Əli ibn Əbu Talib Abdulla ibn Abbası Bəsrəyə vali təyin etmişdir. [102, 152] Bununla da Bəsrə mədrəsəsi daha da güclənmişdir. Həsən əl-Bəsri və Məhəmməd ibn Sirin Bəsrə mədrəsəsinin yetirmələrindəndir. [36, 94]

Şam: Şamın müsəlmanlar tərəfindən fəth olunmasından sonra əhalinin əksəriyyəti İslam dinini qəbul edərək müsəlman olmuşdur. Lakin məlum olduğu kimi İslam sadəcə inanc və bu inancın dil ilə ifadə edilməsindən ibarət deyil. Müsəlman olan hər kəs dininin əmr və qadağalarını Allahın Kitabı, Peyğəmbərin sünnəsi əsasında bilməlidir. Buna görə də, İslamı qəbul etmiş qəbilə və ya şəhərə ibadət əhkamını, halal və haramı öyrətmək üçün Peyğəmbər tərəfindən müəllim göndərilirdi. Peyğəmbərdən

sonra Xilafətə rəhbərlik edən xəlifələrin dövründə də bu məsələ diqqət mərkəzində olmuş, fəth olunan ölkə xalqına İslam dinini öyrətmək üçün müəllimlər göndərilmişdir. Şam da bu kimi ölkələr sırasına daxildir. Məsələn, Yezid ibn Əbu Sufyan xəlifə Ömər ibn əl-Xəttaba Şamda Quran və şəriət elmini tədris etmək üçün müəllimlərə tələbat olduğunu yazmış, Ömər də Muaz ibn Cəbəli, Ubadə ibn əs-Samiti, Əbu əd-Dərdanı Şama göndərmişdir. [171, IV, 28] Bu üç səhabənin banisi olduğu Şam mədrəsəsinin sayəsində Əbu İdris əl-Həvlani, Salim ibn Abdulla əl-Muharibi, Əbu Süləyman əd-Darani kimi alimlər yetişmişdir. Hicri 157 (m. 774)-ci ildə vəfat etmiş məşhur fəqih və muhəddis əl-Əvzai də Şam mədrəsəsinin yetirmələrindəndir. [36, 96]

Misir: Misir fəth olunduqdan sonra digər fəth olunmuş ölkələrdə olduğu kimi bir çox səhabə burada məskunlaşmış və dinin təlimi ilə məşğul olmuşlar. Abdulla ibn Amr ibn əl-As Misirdə məskən salan səhabələrin ən məşhurlarındandır. Atası Amr ibn əl-Asın Müaviyə tərəfindən Misirə vali təyin olunduğu dövrdə bu ölkəyə gəlmiş Abdulla, atası vəfat etdikdən sonra bir müddət onun vəzifəsini icra etmişdir. Vəzifədən çıxarıldıqdan sonra da həcc və ümrə ziyarətləri üçün Məkkəyə getməsinə, Şama səyahət etməsinə baxmayaraq, sonda Misirə qayıtmış, orada vəfat etmişdir. [139, I, 41, 42; 171, IV, 111, 112] Təşəkkül tapmasında xüsusilə Abdulla ibn Amr ibn əl-Asın böyük rol oynadığı Misir mədrəsəsi Əbul Xeyr Mərsəd ibn Abdulla, [170, X, 82] Yezid ibn Əbu Hubeyb, [139, I, 129, 130] Ömər ibn əl-Haris, [170, VIII, 14-16] Abdulla ibn Süleyman ət-Təvil [170, V, 245] və s. kimi alimlər yetişdirmişdir.

**Hədislərin tədvin, təsnif edilməsi və ilk hədis əsərləri:** Aidiyyəti mənbələrdə bəzi səhabələrin Məhəmməd peyğəmbər həyatda olduğu dövrdə hədisləri səhifə və ya kiçik həcmdə kitablarda topladığına dair məlumatlar vardır. Abdulla ibn Amr ibn əl-

Asın “Sadiqə” və Həmmam ibn Munəbbihin Əbu Hürəyrədən nəql edərək “Səhihə” adlandırdığı hədis səhifələri yuxarıda işarə etdiyimiz kiçik həcmli kitabların ən məşhurlarından hesab olunur. [36, 199] Bununla da aydın olur ki, hədislərin yazılması Peyğəmbərin həyatda olduğu dövrdən başlamışdır. Hədislərin tədvin edilməsi dedikdə isə bu işin daha geniş formada həyata keçirilməsi nəzərdə tutulur ki, bu da Peyğəmbər dövründə müxtəlif səhifələrdə hədislərin toplanması ilə eyni deyil. Hədislərin tədvini ilə məşğul olan müsəlmanlar ilk öncə onları müxtəlif yerlərdən toplayır və lazım gələrsə bunun üçün çox uzun məsafələr qət edirdilər. Peyğəmbər dövründə isə səhabələrin yalnız öz hədislərini, yəni Peyğəmbərdən bilavasitə özlərinin eşitdikləri hədisləri yazdıqları və həmin hədislərlə yanaşı digər səhabələrin hədislərini yazmağı düşünmədikləri, bunu düşünmüş olsalar belə, bu işə təşəbbüs etmədikləri müşahidə olunur. Abdulla ibn Amrın “sadiqə” adlandırdığı səhifəsinə baxmaq istəyən Mücahidə “Bu mənim Allah Rəsulundan eşitdiyim əs-səhifə əs-sadiqədir. Mənimlə Allah Rəsulu arasında bu hədisləri nəql edən başqa bir şəxs yoxdur” [136, III, 38] deməsi yuxarıda söylədiklərimizi bir daha təsdiqləyir.

Hədislərin mövzular əsasında sıra ilə qeyd edilməsi, məsələn, namazla bağlı hədislərin bir bölümə, zəkatla əlaqədar hədislərin isə başqa bir bölümə qoymaq hədisləri təsnif etmək deməkdir. Göründüyü kimi, müsəlmanların hədis sahəsində dövrün tələbinə uyğun çalışmaları, hədis elminə yeni-yeni terminlərin qazandırılmasına səbəb olmuşdur. Beləliklə, hədislərin yazılması Peyğəmbər və səhabələri dövründə başlasa da bu fəaliyyətin sistemli şəkildə davam etdirilməsi səhabə dövründən sonrakı dövrə, yəni hicri I (m. VII) əsrin sonları, II (m. VIII) əsrin əvvələrinə təsadüf etmişdir. Malik ibn Ənəsin “Hədisləri ilk olaraq tədvin edən şəxs ibn Şihabdır” [104, III, 363; 178, 4] deməsi və habelə ibn Şihab əz-Zuhrinin “Bu elmi məndən əvvəl heç kim tədvin etməmişdir” [178,

4] deməsi söylədiklərimizi təsdiq edən dəlillər sırasındadır. əz-Zuhrinin tədvin ilə bağlı fəaliyyətini rəsmiləşdirən isə Əməvi xəlifəsi Ömər ibn Abduləziz olmuşdur. [142, I, 313] Belə bir addımın xüsusilə ilahi vəhyin, ümimiyyətlə isə bütün müsəlmanların xeyrinə olacağını dərk edən xəlifə bu sahənin mütəxəssislərinə müraciət edərək onlara rəsmi məktublar göndərir. Xəlifənin bu xüsusdakı məktubunu alan alimlərdən biri də əz-Zuhri olmuşdur. [185, 9] Onun dilindən nəql olunan bir xəbərdə "Ömər ibn Abduləziz bizə sünnəni toplamağı əmr etdi. Ona dəftər-dəftər yazdıq. O da Xilafətin idarəsi altında olan hər yerə bu dəftərlərdən bir nüsxə yolladı" sözləri əks olunmuşdur. [36, 204] Qaynaqlarda Ömər ibn Abduləzizin əmrini ilk icra edən alimin əz-Zuhri olduğu, eyni əmri alan İbn Hazmın isə başladığı işi sona çatdırmadan xəlifənin dünyasını dəyişməsi qeyd olunur. Onun yazdığı kitabların isə Malik ibn Ənəsin İbn Hazmın oğluna istinadən verdiyi məlumata əsasən itdiyi bildirilir. [152, I, 6; 178, 4; 170, XII, 39]

Hədislərin tədvin edilməsinin hicri I (m. VII) əsrin sonu II (m. VIII) əsrin əvvəllərində başlamasına baxmayaraq, əsl hədis əsərləri hicri II (m. VIII) əsrin ikinci yarısından etibarən meydana çıxmağa başlamışdır. [36, 205] Tədvin dövründə toplanılan hədislər mövzular arasında fərq qoyulmadan ardıcıl olaraq yazılırdı. Bu şəkildə toplanmış hədislərdən istifadənin çətinliyi tədricən hiss olunmağa başlayır. Buna görə də hədisçilər əldə etdikləri hədisləri mövzulara görə tərtib (təsnif) etməklə "musənnəf" adlandırılan əsərlər meydana gətirməyə başlayırlar. İbn Həcərin bildirdiyinə görə, ər-Rəbi ibn Səbih və Səid ibn Əbu Ərubə hədisləri təsnif edən ilk hədisçilərdəndir. [173, 4, 5]

Hicri II (m. VIII) əsrdə yazılmış hədis əsərlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

Məhəmməd peyğəmbərin həyatından və din uğrunda apardığı döyüşlərdən bəhs edən kitablar: Mənbələrdə bu mövzuda

kitabların hicri I (m. VII) əsrin sonlarından etibarən yazılmağa başladığı və Urvə ibn əz-Zubeyr ibn əl-Əvvam əl-Əsədi, (v. h. 94/ m. 713) Əbu Bəkr Məhəmməd ibn Müslüm ibn Ubeydullah ibn Abdulla ibn Şihab əz-Zuhri, (v. h. 124/ m. 742) Əbu Abdulla Məhəmməd İbn İshaq (v. h. 150/ m. 767) və s. kimi alimlərin bu sahədə ilk olaraq kitab yazdıqları qeyd edilmişdir. [36, 208, 209]

Sünən kitabları: Fiqhi bölgülər əsasında tərtib edilmiş və şəriət hökmləri xüsusundakı hədisləri ehtiva edən kitablar sünən kitabları adlandırılmışdır. Hicri II (m. VIII) əsrin əvvəllərindən etibarən meydana çıxan ilk hədis kitabları “Sünən” adlandırılan bu növ kitablar olmuşdur. Əbulvəlid Abdulməlik ibn Abduləziz ibn Cureyc (v. h. 150/ m. 767), Əbu Sələmə Həmmad ibn Sələmə ibn Dinar (v. h. 167/ m. 784) və s. kimi alimlər bu əsrdə meydana çıxan sünən kitablarının müəllifləri kimi tanınmışlar. [36, 210, 211]

Camilər: Sünən kitablarının ehtiva etdiyi mövzuları əhatə etməklə bərabər Qurani-Kərimin fəzilətləri, təfsiri, keçmiş peyğəmbərlər və s. kimi fərqli mövzuları da əhatə edən bu növ hədis kitablarının ilk müəllifi Mamər ibn Raşid əl-Əzdi olmuşdur (v. h. 153/ m. 770). [36, 212]

Musənnəflər: Hicri II (m. VIII) əsrdə meydana çıxan bu növ hədis kitabları demək olar ki, sünən kitablarının eynidir. Müsənnəfləri sünənlərdən fərqləndirən əsas cəhət isə onların camilər qədər olmasa da şəriət hökmlərindən bəhs edən hədislərlə yanaşı müxtəlif mövzulardakı hədisləri ehtiva etməsidir. Müsənnəfləri ilə şöhrət qazanan alimlərdən Həmmam ibn Sələmə ibn Dinar (v. h. 167/ m. 784) və Vəki ibn əl-Cərrahı (v. h. 197/ m. 813) misal göstərmək olar. [36, 213]

Müəyyən bir mövzuya həsr edilmiş kitablar: Hciri II (miladi VIII) əsrdə yazılmış hədis kitablarının bəziləri də camilərdə mövcud olan müxtəlif mövzulardan birini əhatə etmişdir. Sufyan ibn Məsruq ibn Səid əl-Kufinin (v. h. 161/ m. 778) “Kitabul-

fəraiz” və “Kitabut-təfsir” adlı əsərləri, haqqında danışılan kitablara əyani misaldır. [36, 213]

**Hədis tarixində çiçəklənmə dövrü:** Hicri III (miladi IX) əsr ümumiyyətlə İslam elmlərinin, xüsusilə də hədis elminin çiçəklənmə dövrü hesab olunur. Hədislə bağlı fəllağın bu əsrdə daha da artması, ötən əsrlərdən məlum olan metodların daha da təkmilləşməsi və sırf bu əsrə xas olan digər yeniliklər səbəbi ilə bu əsrin hədis tarixinin ən parlaq əsri olduğu bildirilir. Buxari, Müslüm, Nisai, Əbu Davud, Tirmizi, İbn Macə kimi məşhur hədisçilər “Cami” və “Sünənlərini” məhz bu əsrdə yazaraq “əl-Kutub əs-sittə” adı ilə tanınan, Qurani-Kərimdən sonra İslam dininin ən mühüm qaynaqları sayılan altı şah əsəri meydana gətirmişlər. Bu əsrdə yazılmış Məhəmməd peyğəmbərin həyatından və din uğrunda apardığı döyüşlərdən bəhs edən kitablar sırasında Əbu Məhəmməd Abdulməlik ibn Hişam ibn Eyyub əl-Himyərinin (v. h. 218/ m. 833) “Sirət İbn Hişam” kimi tanınan məşhur əsəri qeyd olunan mövzudan bəhs edən ən məşhur kitablardan hesab olunur. Bu kitab hal-hazırda da öz aktuallığını itirməyən qaynaqlardan sayılır. Musnəd adı ilə tanınan əsərlər isə məhz bu əsrin məhsulu kimi qəbul olunur. Bu növ kitablarda hədislər ötən əsrlərdəkindən fərqli şəkildə tərtib olunmuşdur. Belə ki, musnədlərə daxil edilməsi nəzərdə tutulan hədislər ya onları rəvayət edən səhabənin adı ilə və yaxud da səhabələrdən sonrakı ravilərdən birinin adı ilə qeyd olunur. Məsələn, Əbu Hürəyrənin Peyğəmbərdən rəvayət etdiyi hədislər mövzularından asılı olmayaraq Əbu Hürəyrə adı altında, eləcə də İbn Abbasın rəvayət etdiyi hədislər İbn Abbas adı altında qeyd olunaraq bir kitab daxilində müxtəlif səhabələrin hədislərindən ibarət bir məcmuə təşkil edilmişdir. Adından da göründüyü kimi, bu növ kitablarda, hədislər toplanarkən rəvayət edən şəxsə istinad edilmişdir. Hicri III (miladi IX) əsrdə musnədləri ilə şöhrət

qazanmış hədisçi alimlərdən musnədi zəmanəmizə qədər gəlib çıxmış, hədis tarixində müstəsna rolu olan Əhməd ibn Hənbəli misal göstərmək olar. Bu dövrdə yazılmış "sünən" kitabları isə müsəlmanların ötən əsrdən tanıdığı sünən kitablarına xüsusi şöhrət qazandırmışdır. Məşhur altı şah əsərdən dördü "Sünən" adını daşıyır. Bunlar aşağıdakılardır:

Nisai və sünən əsəri: Əbu Abdurrəhman ibn Şuəyb ibn Əli ibn Bəhr ibn Sinan ibn Dinar ən-Nisai hicri 215 (m. 830)-ci ildə Xorasanın Nisa qəsəbəsində dünyaya gəlmişdir. [163, I, 24] On beş yaşından hədis ilə ciddi şəkildə maraqlanmağa başlamış, Xorasan, Hicaz, İraq, Suriya və Misirə səfərlər edərək bu ölkələrdə yaşayan hədisçilərdən hədis toplamışdır. O, hədis elmində, xüsusilə də ravilərin cərh və tədil edilməsində dövrünün ən savadlı hədisçilərindən olmuşdur. [36, 244] Mənbələrdə Nisainin "əs-Sünən əl-kubra" adlı əsərini yazdıqdan sonra Misirə qayıdarkən Fələstinə gələrək Rəmlə qəsəbəsində olduğu bildirilir. Rəmlə qəsəbəsinin əmiri ondan sünənindəki hədislərin hamısının səhih−dürüst hədislər olduğunu soruşduqda o, həmin hədislərin hamısının səhih olmadığını bildirir. Əmir ondan səhih hədisləri ayırmasını istəyir. Bu istəyi yerinə yetirən Nisai yeni əsərinə "əl-Müctəba" (seçilmiş) adını verir. [145, 140] Nisainin sünəni əl-kutub əs-sittə arasında Buxari və Müslümün səhihlərindən sonra üçüncü səhih kitab kimi tanınır. [36, 245]

Nisai ömrünün bir hissəsini Misirdə yaşamış, əsərlərini də orada yazmışdır. Ölümündən bir il əvvəl Misirdən Şama gəldiyi zaman bir qrup şəxs ondan Müaviyənin üstünlüyünə dəlalət edən hədislər rəvayət etməsini istəyir. Ondan "Müaviyənin üstünlüyü və bəzi fəzilətlərinin olduğu haqda məlumatım yoxdur" cavabını alan həmin insanlar onun üzərinə hücum edir və onu döyərək məsciddən bayıra atırlar. Bu hadisədən sonra Fələstinin Rəmlə

qəsəbəsinə gələn Nisai çox keçmədən hicri 303 (m. 915)-cü ildə vəfat edir. [36, 245]

Əbu Davud və sünən əsəri: Əbu Davud Süleyman ibn əl-Əşas ibn İshaq əl-Əzdi əs-Sicistani hicrətin 202 (miladi 817)-ci ilində Sicistanda dünyaya gəlmişdir. [163, I, 24] Kiçik yaşlarından etibarən hədis toplamaq məqsədi ilə Xorasana, İraqa, Suriyaya, Misirə, Hicaza səfər etmiş və qeyd olunan ölkələrin hədisçilərindən hədis yazmışdır. Bu hədisçilər sırasında Buxarinin, Müslümün müəllimlərindən olan Əhməd ibn Hənbəl, Quteybə ibn Səid, Müslüm ibn İbrahim, Süleyman ibn Hərb və başqaları olmuşdur. [36, 245, 246] Musa ibn Harun: "Əbu Davud dünyada hədis, axirətdə isə cənnət üçün yaradılmışdır" deməklə onu təqdir etmişdir. Qaynaqlardan aldığımız məlumata görə, Əbu Davud 500 min hədis yazmış və bunlardan şəriətlə bağlı olan 4800 hədisi seçərək məşhur sünən əsərini ərsəyə gətirmişdir. [36, 246] O, sünənində nəql etdiyi 4800 hədisi səhihlik baxımından üç qrupa bölmüşdür: Səhih olanlar, səhih görünənlər və səhihə yaxın olanlar. Bununla bərabər nəql etdiyi hədislər arasında zəif hədislər olduğu zaman həmin hədislərə işarə etməyi də unutmamışdır. Zəif olduğunu bildiyi halda həmin hədisləri kitabına daxil etməsinin səbəbi isə müəyyən məsələlərə uyğun səhih hədis tapa bilməməsindən irəli gəlmişdir. Digər tərəfdən onun nöqteyi-nəzərinə görə zəif hədis rəydən (müstəqil nəzərdən) daha məqbuldur. Əbu Davudun haqqında danışdığımız əsərindən başqa əsərləri də olmuşdur. O, ömrünün son illərini Bəsrədə keçirmiş və hicri 275 (m. 888)-ci ildə vəfat etmişdir. [36, 246, 247]

Tirmizi və sünən əsəri: Əbu İsa Məhəmməd ibn İsa ibn Səvrə əs-Suləmi ət-Tirmizi hicri 209 (m. 824)-cu ildə Özbəkistanın Tirmiz şəhərində doğulmuşdur. Digər hədis alimləri kimi o da erkən yaşlarından hədislərə böyük maraq göstərmiş və bu məqsədlə etdiyi səfərlər nəticəsində bir çox hədisçilərlə

qarşılaşmışdır. Buxarinin tələbəsi olmuş, Quteybə ibn Səid, İshaq ibn Musa, Səid ibn Abdurrəhman və digər hədisçilərdən hədis toplamışdır. Bəzi müəllimlərin etdiyi kimi Buxari də Tirmizidən hədis nəql etməklə onun hafizəsinin, elminin və təqvasının üstünlüyünü təsdiqləmişdir. Tirmizinin şəriətlə bağlı hökmlər əsasında tərtib etdiyi sünən əsəri müxtəlif mövzuları da əhatə etdiyi üçün həm də "əl-camius-səhih" adı ilə şöhrət qazanmışdır. [36, 247, 248] Sünəndəki hədislər səhih, həsən və zəif olmaqla üç qrupa ayrılır. Hər bir hədisin sonunda onun hansı qrupa aid olduğu bildirilir. Bununla bərabər Tirmizi zəif hesab etdiyi hədisin hansı səbəbdən zəif olduğunu açıqlamağı da unutmamışdır. Onu digər müəlliflərdən fərqləndirən əsas xüsusiyyətlərdən biri də bəzi hədislərin dərəcəsinə işarə edərkən səhih, həsən, qərib kimi hədis terminlərini müxtəlif şəkillərdə birləşdirərək başqa hədisçilərin istifadə etmədiyi ifadələrə yer verməsidir. Məsələn o, bir hədisin səhihlik dərəcəsini bildirmək üçün "bu hədis həsən səhihdir", "bu hədis həsən qəribdir", "bu hədis səhih qəribdir", "bu hədis həsən səhih qəribdir" ifadələrindən tez-tez istifadə etmişdir.

Tirmizinin əsəri hədis meyarları baxımından Nisai və Əbu Davudun əsərləri ilə müqayisədə üçüncü hesab olunur. O, hicri 279 (m. 892)-cu ildə Tirmizdə vəfat etmişdir. [36, 249]

İbn Macə və sünən əsəri: Əbu Abdulla Məhəmməd ibn Yezid ibn Abdulla ibn Macə əl-Qəzvini hicri 207 (m. 822)-ci ildə dünyaya gəlmişdir. [163, I, 24] Aidiyyəti mənbələrdə onun hədis toplamaq üçün Rəy, Bəsrə, Kufə, Bağdad, Şam, Misir və Hicaza səfər etdiyi bildirilir. Hədis əxz etdiyi hədisçilər arasında Əbubəkr ibn Əbu Şeybə, əl-Leys ibn Saad, İbrahim ibn əl-Munzir və b. vardır. İbn Macənin sünən əsəri hicri VI (m. XII) əsrin əvvəllərinə qədər əl-kutub əs-sittənin arasına daxil edilməmişdir. Əbulfəzl ibn Tahir əl-Məqdisi (v. h. 507/ m. 1113) İbn Macənin "sünən" əsərini də nəzərə alaraq "Altı imamın şərtləri" adlı

kitabını yazdıqdan sonra onun əsəri mötəbər əsərlər sırasında qeyd olunmağa başlamışdır. Sünən əsəri altı şah əsər arasında sonuncu yerdə duran İbn Macə hicri 273 (m. 886)-cü ildə vəfat etmişdir. [36, 249, 250]

Hicri III (m. IX) əsrdə də əhatə etdikləri mövzularla sünən kitablarının ehtiva etdiyi mövzulardan kəskin fərqlənməyən, musənnəf adı ilə tanınan əsərlər yazılmışdır. Bu növ əsərlərin müəlliflərindən Əbubəkr Abdurrəzzaq ibn Həmmam ibn Nafi əl-Himyərini (v. h. 211/ m. 826), Əbu Əbdürrəhman Baqi ibn Məhləb ibn Yezid əl-Qurtubini (v. h. 276/ m. 889) və başqalarını misal göstərmək olar.

Şərii mövzularla yanaşı, müxtəlif mövzuları da əhatə edən, cami adı ilə tanınan əsərlər hicri III (m. IX) əsrdə də yazılmış, xüsusilə Buxari və Müslümün camiləri ilə bu əsr hədis tarixində qızıl dövr kimi yaddaşlara həkk olunmuşdur.

Buxari və əl-Camius-səhih əsəri: Əbu Abdulla Məhəmməd ibn İsmayıl ibn İbrahim ibn əl-Muğirə əl-Buxari əl-Cufi hicri 194 (m. 810)-cü ildə Buxarada dünyaya gəlmiş, [163, I, 23] on yaşlarında ikən hədis sahəsinə maraq göstərərək ölkəsindəki mühəddislərdən hədis dinləməyə, habelə dinlədiyi hədisləri hifz etməyə başlamışdır. On bir yaşında ikən dövrünün hədisçisinə haqlı olaraq irad bildirən Buxari hədis toplamaq üçün bir çox ölkələrdə olmuşdur. Suriya, Misir, Bəsrə, Kufə və Hicaz onun müraciət etdiyi və bəzən də uzun müddət qaldığı elm mərkəzlərindəndir. Əvvəl ölkəsində, daha sonra isə ölkə xaricində hədislə bağlı müraciət etdiyi hədisçilər arasında Məkki ibn İbrahim əl-Bəlhi, Əbdan ibn Osman əl-Mərvəzi, Ubeydulla ibn Musa əl-Əbsi, Əbu Asim əş-Şeybani və başqa bir çox hədisçi vardır. Buxarinin özündən rəvayət olunduğuna görə o, mindən yuxarı şeyxdən hədis yazmış və yazıb isnadını bilmədiyi bir hədis belə yoxdur. Əhməd ibn Hənbəl onun barəsində “Xorasan onun

kimisini yetirməmişdir" demişdir. Qarşılaşdığı bəzi problemlər səbəbilə həyatının sonlarında yerdəyişməyə məruz qalan Buxari hicri 256 (m. 870)-cı ildə Səmərqəndin Xərtənək adlı qəsəbəsində bir ay əvvəl gəldiyi yaxınlarının yanında Ramazan bayramı gecəsi xəstələnərək vəfat etmişdir. Buxarinin dilindən nəql olunan xəbərlərdən məlum olur ki, o, "əl-Camius-səhih" adlı əsərini, toplamış olduğu 600 min hədisin arasından son dərəcə dəqiqliklə seçib ayırdığı səhih hədislərdən ərsəyə gətirmişdir. O, "Bu kitabıma yalnız səhih olan hədisləri daxil etdim və uzunçuluqdan ehtiyat edərək bir qədər səhih hədisləri isə bura daxil etmədim"–demişdir. Buxari səhih hədisləri toplayaraq onları fiqh bablarına görə təsnif edən ilk hədisçilərdən hesab olunur. Mənbələrin verdiyi məlumata görə o, "əl-Camius-səhih" adlı əsərinə ömrünün on altı ilini həsr etmişdir. [36, 251-255]

Müslüm və əl-Camius-səhih əsəri: Əbu Hüseyn Müslüm ibn əl-Həccac əl-Quşeyri ən-Nisaburi hicri 204 (m. 819)-cü ildə Nisabur şəhərində anadan olmuşdur. [163, I, 23] Hicri 218 (m. 833)-ci ildən etibarən hədis toplamağa və bu məqsədlə İraq, Hicaz, Suriya və Misir kimi müxtəlif ölkələri gəzməyə başlamışdır. Ən çox hədis topladığı şeyxlər arasında Yəhya ibn Yəhya ət-Təmimi, Əhməd ibn Yunis əl-Yərbui, İsmayıl ibn Əbu Uveys, Əhməd ibn Hənbəl və başqa hədisçilər vardır. Aralarında Tirmizinin də olduğu bir qrup hədisçilərin ondan rəvayət etdiyi bildirilir. Tarixi mənbələrdən aldığımız məlumatlarda onun Buxari ilə yaxın olduğu, hətta Nisaburda Buxari ilə bağlı cərəyan edən hadisələrdə onu müdafiə etdiyi və bundan sonra da onunla irtibatını kəsmədiyi bidirilir. Özündən sonra hədis mövzusunda təsnif olunmuş bir çox əsər miras qoymuş Müslüm hicri 261 (m. 875)-ci ildə doğulduğu Nisabur şəhərində vəfat etmişdir. Onun ən məşhur əsəri məlum altı şah əsər arasında Buxarinin "əl-Camius-səhih" adlı əsərindən sonra gələn "əl-Camius-səhih" adı ilə

tanınan musənnəfidir. Müslüm bu əsərdə təkrarları çıxmaqla 3000-dən artıq hədis toplamışdır. O, Peyğəmbərdən sənədlə gələn hədisləri, eləcə də bu hədislərin ravilərini üç qrupa ayırmış və kitabını yazarkən bu üç qrupu daima diqqətdə saxlamışdır. Onun bölgüsünə görə birinci qrupda hər cür ayıb və qüsurlardan uzaq, ən təmiz, ən mükəmməl hədislər yer alır. Birinci qrupda yer alan ravilər də bu növ hədislərin raviləri olub barələrində ciddi ittihamlar olmayan öz sahələrinin mahir biliciləridirlər. Müslüm kitabının bütün bölümlərində ilk növbədə bu növ hədislərə üstünlük vermişdir. Müslümün bölgüsündə ikinci sırada yer alan hədis və ravilər, hədis meyarları baxımından birincilərdən bir pillə aşağı mərtəbədə yer alır. Buna görə də müəllif öz əsərində bu növ hədislərə ikinci dərəcəli yer vermişdir. Üçüncü qrupa isə hədis mütəxəssislərinin nəzərində və yaxud hədisçilərin əksəriyyətinin nəzərində töhmətli olan, hədislərinin çoxu yanlış olan, habelə yalan söyləyən, hədis uyduran şəxslərin rəvayət etdiyi hədislər daxildir. Müslüm bu xüsusiyyətlərə malik şəxslərin hədislərinə öz kitabında yer verməmişdir. [36, 257-260]

Hicri III (m. IX) əsrdə meydana çıxan bəzi hədis kitabları "cüz" adı ilə hədis tarixində yer almışdır. Cüz yalnız bir səhabənin və ya bir hədisçinin hədislərini ehtiva edən kitablara deyilir. Eləcə də, müəyyən bir mövzunu əhatə edən hədislərdən ibarət məcmuələr də cüz adlandırılmışdır. Bu növ kitablar daha çox hicri III (m. IX) əsrdən etibarən meydana çıxmağa başlamış və minlərlə cüz yazılmışdır. [36, 260, 261]

Hicri II (m. VIII) əsrdə meydana çıxmış müəyyən bir mövzunu əhatə edən hədis kitabları bu əsrdə də məşhur olmuşdur. Abdurrəzzaq İbn Həmmam (v. h. 211/ m. 826) "Kitabus-səlat", Adəm ibn İyas əl-Əsqəlani (v. h. 220/ m. 835) "Kitabu səvabil-əmal" və başqa hədisçilər bu növ kitablar yazmaqla şöhrət qazanmışlar. [36, 262]

Bu əsrdə meydana çıxan digər kitab növlərindən biri də "mustəxrəc" adlanır. Mustəxrəclər əsasən Buxari və Müslümün səhih əsərləri əsasında yazılmış hədis kitablarıdır. Hədis ilə bağlı yazılmış kitabların yeni formasını təşkil edən mustəxrəclər hicri IV (m. X) əsrdən etibarən çoxalmağa başlamışdır. [36, 264, 265]

Hicri IV (m. X) əsrin ikinci yarısından sonra hədis elminin müxtəlif mövzularını əhatə edən kitablar meydana çıxmağa başlamışdır. İlk dövrlərdə hədisçiləri daha çox hədis mətnlərinin toplanması, mövzularına və ya ravilərinə görə təsnif edilməsi maraqlandırdığı üçün bu növ kitabların yazılmasına təşəbbüs göstərilməmişdir. Hədislə yaxından və uzaqdan əlaqəsi olan məsələlərdən, bu sahədəki qayda-qanunlardan bəhs edən bu kitabların hicri IV (m. X) əsrdə meydana çıxması ötən əsrlərdə yazılmış məşhur əsərlərin hədis qayda-qanunları nəzərə alınmadan yazıldığını düşünməyə əsas vermir. Belə ki, hicri II (m. VIII) və III (m. IX) əsr hədisçilərinin hədis elminin müxtəlif usul və qaydalarından xəbərdar olduqlarını bildirən dəlillər birbaşa onların özlərindən nəql edilmiş, daha sonralar isə usul kitablarında qeyd olunmuşdur. Buxari və Müslümün yalnız hədis mətnlərinə həsr etdikləri səhih əsərlərində qeyd olunan rəvayət qaydaları, eləcə də hədis ricalına aid fikirləri dediklərimizi təsdiq edən dəlillər sırasındadır. Hətta Buxari və Müslümdən əvvəl dünyaya gəlmiş, məşhur dörd məzhəb banisindən biri olan Məhəmməd ibn İdris əş-Şafeyinin "ər-Risalə" adlı əsəri bəlkə də fiqh usulundan daha çox hədis usulu ilə bağlı bir kitabdır. [36, 265]

Beləliklə, hədis mətnləri əsasında yazılan kitablardan sonra hədislə bağlı digər sahələri əhatə edən kitablar yazılmağa başlamış və bunun nəticəsi olaraq yeni-yeni qiymətli əsərlər meydana çıxmışdır.

# II FƏSİL. ƏHMƏD İBN HARUN ƏL-BƏRDİCİNİN HƏYAT VƏ YARADICILIĞI

## 2.1. Azərbaycanlı mühəddislər

VII əsrin əvvəllərində meydana çıxan İslam dini sayəsində vaxtilə ayrı-ayrı qəbilələr şəklində yaşayan və bir-biri ilə ədavət aparan ərəblər birləşərək güclü bir dövlət qurdular. Yeni təsis edilmiş Xilafət ordusu qısa müddətdə Bizans imperatorluğunun Asiya və Afrikadakı geniş ərazilərini fəth etdi, eləcə də bütün İran torpaqlarını ələ keçirərək bu ölkənin siyasi varlığına son qoydu. Daha sonra isə onlar Qafqaz və Orta Asiyanı da itaət altına alaraq Xilafətin ərazilərini daha da genişləndirməyə müvəffəq oldular. İslam dini ilə bərabər ərəb dili də bu torpaqlarda geniş şəkildə yayılmağa və Qurani-Kərim dili olaraq öyrənilməyə başlayır. Dövlət idarələrində bu dildən istifadə edilməsi, ibadətlərin ərəb dilində icra olunması və habelə Quranın orijinal mətndən oxunması kimi mühüm səbəblər nəticəsində ərəb dili İslam dininin yayıldığı ölkələrin, o cümlədən də Azərbaycanın elmi, siyasi, ictimai, mədəni həyatında birinci dərəcəli rol oynamışdır. [14, 29]

Azərbaycanın Xilafətin tərkibinə daxil olması onun tərəqqi və inkişaf etməsinə təkan oldu. Belə ki, bu dövrdə Azərbaycanda sənətkarlığın kənd təsərrüfatından ayrılması hərəkatı, əmtəə istehsalının növləri və miqdarının artırılması yeni şəhərlərin yaranmasına şərait yaratdı. Bu şəhərlərdə ticarət və sənətkarlıq əsas məsələ olmaqla yanaşı, mədəniyyət və maarif sahəsi də mühüm əhəmiyyət kəsb edirdi. X əsrin 80-ci illərində tərtib edilən, coğrafiyaya dair anonim əsər olan "Hüdudul-aləm"də Azərbaycan şəhərləri haqqında çox qiymətli məlumatlar verilir. [25, 283] Bu

əsərdə Bakı, Ərdəbil, Əhər, Təbriz, Marağa, Bərzənd, Salmas, Xoy, Naxçıvan, Mərənd, Bərdə, Gəncə, Bərdic kimi şəhərlərin Azərbaycanın iqtisadiyyat, ticarət, mədəniyyət və maarif mərkəzləri olması bildirilir. Qeyd olunan şəhərlərdə elmi-mədəni müəssisələr, o cümlədən mədrəsələr fəaliyyət göstərirdi.

Azərbaycanın orta əsr şəhərlərində tədris müəssisələrindən biri də mədrəsələr olmuşdur. Mədrəsələr əsasən məscidlərin nəzdində və ya digər ictimai binalarda açılırdı. Mədrəsələr səviyyəsinə görə orta və ali dərəcəyə bölünürdü. Mədrəsələr ilə yanaşı, məscidlərin nəzdində yazı və oxu öyrədən ilk təhsil müəssisələrindən olan məktəblər də təşkil edilirdi. Artıq VII-X əsrlərdə Xilafətin hər yerində olduğu kimi, Azərbaycanda da bir sıra mədrəsə və məktəb tipli təhsil müəssisələri açılır və ildən-ilə artırdı. Azərbaycanda müxtəlif əsrlərdə "Qazaniyyə", "Qiyasiyyə", "Fələkiyyə", "Nəsriyyə", "Sadiqiyyə", "Talibiyyə" kimi məşhur mədrəsələr fəaliyyət göstərmişdir. [58, 234] Atabəylərin hakimiyyəti dövründə isə (1136-1225) Xoyda "Fərəc əl-Hüveyyə", Marağada "Əhmədağa" və "Atabəkiyyə" mədrəsələri var idi. [58, 153]

İslam dinini daha uzaq bölgələrə yaymaq məqsədi ilə başlayan fəthlər nəticəsində hicri I (m. VII) əsr sona çatmadan İspaniyadan Orta Asiyaya qədər geniş ərazilərin Xilafət torpaqlarına birləşdirilməsi [38, 45] hədisin ilk qaynağı olan səhabələri bu ərazilərə gələrək məskunlaşmağa və Peyğəmbərdən öyrəndikləri İslam şəriətini təbliğ etməyə vadar etmişdir. II Raşidi xəlifə Ömər ibn əl-Xəttabın dövründə Mədaindən sonra Azərbaycana vali təyin edilmiş Əbu Abdulla Huzeyfə ibn Huseyl ibn Cabir əl-Əbsi (v. h. 36/ m. 656), [38, 49] III Raşidi xəlifə Osmanın dövründə bir müddət Həmədanın valisi olmuş, sonra isə Səid ibn Asın rəhbərliyi altında Azərbaycanın fəthində iştirak etmiş və bir müddət bu torpaqlarda yaşamış Əbu Amr Cərir ibn Abdulla ibn

Cabir əl-Bəcəli, (v. h. 51/ m. 671) [38, 51] ən çox hədis rəvayət edən, habelə ən çox fətva verən yeddi səhabədən biri olan Əbu Abdurrəhman Abdulla ibn Ömər ibn əl-Xəttab əl-Qurəşi əl-Ədəvi (v. h. 73/ m. 692) [38, 53] kimi səhabələr Azərbaycana gəlməklə həm onlara həvalə olunan vəzifələri icra etmiş, həm də bu bölgədə İslam dininin təbliğində, eləcə də İslam dini ilə bağlı elmlərin, xüsusilə də hədis elminin inkişafında mühüm rol oynamışlar.

Azərbaycanda anadan olan ərəbdilli alimlər əsasən dini elmlər sahəsində çalışan alimlər idi ki, onların da bir çoxu ilk təhsillərini vətəndə aldıqdan sonra Xilafətin ən məşhur mədrəsələrində təhsilllərini davam etdirmişlər. Mükəmməl təhsil almış və alimlik dərəcəsinə çatmış azərbaycanlı alimlər mənbələrdə göstərildiyi kimi Yaxın və Orta Şərqin mədəni cəhətdən inkişaf etmiş mərkəzi şəhərlərində yaşayıb–yaratmış, mədrəsələrdə müdərrislik etmişlər. [14, 12] Bunlara misal olaraq Xilafətin ən məşhur mədrəsələrindən olan "Nizamiyyə" və "Müstənsəriyyə" mədrəsələrinin müəllimlərindən olmuş Əbu Zəkəriyyə ibn Əli əl-Xətib ət-Təbrizi (v. h. 502/ m. 1109), Fəxrəddin Əbulfəzl İsmail ibn əl-Müsənnə (v. 1185), Tacəddin Əbulfəzl Məhəmməd əl-Hüseyn ibn Abdulla əl-Ürməvi (v.1225), Əbülmənaqib Mahmud ibn Əhməd əz-Zəncani (h. 645/ m. 1248), Əbu Bəkr Məhəmməd ibn əl-Hüseyn əl-Azərbaycaninin (h. 536/ m. 1141) adlarını çəkmək olar. Şəmsəddin Əbul-Abbas Əhməd ibn Xəlil əl-Xoylu (v. h. 637/ m. 1240) və onun oğlu Şahəbəddin Məhəmməd ibn Əhməd (v. h. 693/ m. 1294) isə Dəməşqdə "Adiliyyə" mədrəsəsində dərs demişlər. [20, 230] Bu alimlər müxtəlif dini elmlər sahəsində mahir mütəxəssislər kimi məşhur olmuşlar.

Dini elmlər sahəsində daha çox maraq doğuran elmlərdən biri də hədis elmidir. Azərbaycan Yaxın və Orta Şərqdə şöhrət tapmış bir çox adlı-sanlı hədis alimlərinin vətənidir. Apardığımız

araşdırmalar nəticəsində məlum oldu ki, tarix boyu İslam dininin digər sahələrində olduğu kimi, hədis sahəsində də məşhur olmuş kifayət qədər azərbaycanlı din alimləri vardır. Aşağıda adları və qısa olaraq barələrində məlumat verilən azərbaycanlı alimlər məhz hədis sahəsində şöhrət qazanmış din alimləridir.

1. Əbu Əyyub Yəhya ibn Malik əl-Mərağİ əl-Əzdi əl-Bəsri (v. h. 80-ci ildən sonra/ m. 699). Əslən Marağadan olan bu hədis alimi Abdulla ibn Amr ibn As, Səmura ibn Cundəb, Əbu Hürəyrə və Abdulla ibn Abbasdan hədis rəvayət etmişdir.[200, V, 93,94]

2. əl-Həsən ibn İbrahim əl-Babi (hicri II/ miladi VIII əsr). Əslən Dərbənddən olan bu hədis alimi tabii nəslinin nümayəndəsidir. Onun rəvayət etdiyi hədislər Hamid ət-Təvil və Ənəs ibn Malik vasitəsi ilə Allahın Rəsuluna istinad edir. [200, I, 306]

3. Əbu Səid Əbu Məhəmməd əl-Vəlid ibn Kəsir ibn Sinan ər-Rani əl-Muzəni (v. h. 151/ m. 768). Marağa yaxınlığında yerləşən Ran şəhərindəndir. İraqın Kufə şəhərində yaşadığı bildirilir. [200, III, 18,19]

4. Məhəmməd ibn Bəyan ibn Həmran ət-Tiflisi əl-Mədaini (hicri II/ miladi VIII əsr). Əslən Tiflisdən olan bu hədis alimi Bağdadda məskunlaşmışdır. [200, II, 35-37]

5. Səid ibn əl-Vəlid ər-Rani (hicri II/ miladi VIII əsr). Tabiuttabin nəslinin görkəmli hədis alimlərindən olan Hafiz Abdulla ibn Mübarəkdən (v. h. 181/ m. 797) hədis rəvayət etdiyi bildirilir. [147, III, 31]

6. Əhməd ibn İbrahim ibn Mihran əs-Sisəri əl-Buşənci (hicri II/ miladi VIII əsr). Əslən azərbaycanlı olan bu hədis alimi də Bağdadda yaşamışdır. [200, III, 297]

7. Əbul-Fadl ər-Rəbi ibn Yəhya ibn Muqsim əl-Üşnani əl-Mərağİ əl-Bəsri (v. h. 224/ m. 838). Hədis aləmində imam, hafiz və huccə kimi tanınmışdır. [200, I, 201,202; 138, X, 452,453]

8. Əbu Əli əl-Hüseyn ibn Səfvan ibn İshaq ibn İbrahim əl-Bərzəi əl-Muhəddis əş-Şeyx (v. h. 240/ m. 854). Azərbaycanın Bərzə şəhərindən olan bu alim hədis elmində səduq və sıqa kimi tanınmışdır. [200, I, 379; 147, I, 317; 83, IV, 219]

9. Əbu Hamid Əhməd ibn İbrahim əl-Marağı (hicri III (miladi IX) əsrin sonları IV (miladi X) əsrin əvvəlləri). Marağa şəhərindəndir. Cəfəri məzhəbinin on iki imamından on birincisi olan əl-Həsən ibn Əli əl-Əskəridən (v. h. 260/ m. 874) hədis rəvayət etdiyi bildirilir. [26, 22,23]

10. Əbu Əli Harun ibn Musa əl-Üşnani əl-Həmədani (v. h. 270 (m. 884)-ci ildən sonra). Əslən Cənubi Azərbaycandan olan bu alim hədis elmində hafiz və səduq kimi şöhrət qazanmışdır. [38, 59]

11. Qalib ibn Məhəmməd əl-Bərdəi (hicri III/ m. IX əsr). Bərdədə anadan olmuş və burada da yaşamışdır. Bağdadda hədis hafizi olmuş Əbu Abdulla Məhəmməd ibn Müslüm ibn Osman ibn Vərə ər-Razidən (v. h. 270/ m. 884) rəvayət etdiyi bildirilir. [118, XII, 332]

12. Əbu Məhəmməd əl-Həsən ibn Əli ibn Malik ibn Əşrəs ibn Abdulla ibn Müncab əl-Üşnani əş-Şeybani (v. h. 278/ m. 891). Əslən azərbaycanlı olan bu alim Bağdadda yaşamışdır. [118, VII, 367,368; 147, I, 170]

13. Əbu Əli Əhməd ibn Məhəmməd ibn Bişr ibn Saad əl-Mərəndi (v. h. 286/ m. 899). Cənubi Azərbaycanın Mərənd şəhərindəndir. Bağdadda yaşamışdır. Eyni zamanda əl-Mərəsdi kimi də tanınmışdır. [200,V, 110; 38, 60]

14. Əhməd ibn Əli əl-Bərdəi (hicri III/ miladi IX əsr). Əslən əl-Bərdici olan bu mühəddis görkəmli hədis hafizlərindir. Səid ibn Amr əl-Bərdəi (v. h. 292/ m. 905) başda olmaqla bir çox azərbaycanlı mühəddis ondan hədis rəvayət etmişdir. [38, 60, 61]

15. Əbu Osman Səid ibn Amr ibn Ammar ibn Osman əl-Bərzəi əl-Əzdi ən-Naqid əl-Hafiz (v. h. 292/ m. 905). Azərbaycanın tarixi şəhərlərindən biri olan Bərzədə anadan olmuş və burada da yaşamışdır. Mühəddis, tənqidçi və hafiz kimi tanınan bu alim hədis rəvayət etmək üçün bir çox səfərlər etmişdir. [200, I, 380; 138, XIV, 77]

16. Yusif ibn əl-Hüseyn ət-Təbrizi əş-Şeyx (v. hicri III/ miladi IX əsr). Təbrizdə anadan olduğu və orada yetişdiyi bildirilir. Abbasi xəlifəsi əl-Muqtədir Billahın (v. h. 295/ m. 908) dövründə vəfat etmişdir. [26, 404]

17. Əbul Abbas Əhməd ibn Səhl ibn əl-Feyruzan əl-Üşnani əl-İmam əl-Muqri (v. h. 307/ m. 920). Hədis elmində sıqa və saduq kimi tanınmışdır. [138, XIV, 226,227; 162,VI, 407]

18. Əbu Cəfər Məhəmməd ibn əl-Hüseyn ibn Hafs ibn Ömər əl-Üşnani əl-Kufi əl-Muhəddis (h. 221-315/ m. 836-927). Hədis aləmində sıqa, imam, hüccə, məmun və salih kimi tanınan bu mühəddis Bağdadda yaşamışdır. [147, I, 170]

19. Əbu Səid Əhməd ibn əl-Hüseyn əl-Bərzəi əl-Hənəfi (v. h. 317/ m. 929). Görkəmli mühəddis və məşhur fəqih olduğu bildirilir. [38, 66]

20. Əbu Abdulla Əhməd ibn Süleyman ət-Təbrizi əl-Bəsri (v. h. 317/ m. 929). Cənubi Azərbaycanın Təbriz şəhərindən olan bu mühəddis şafeyi məzhəbinin nümayəndələrindən olmuşdur. [26, 30]

21. Əbu Bəkr Məhəmməd ibn Yəhya ibn Müslüm əl-Huveyyi (hicri IV/ miladi X əsr). Cəfər ibn İbrahim əl-Müəzzindən hədis rəvayət etmişdir. Məşhur üsul alimi Əbul-Qasim Abdulla ibn Məhəmməd ibn Abdulkərim əş-Şafei ər-Razinin (v. h. 320/ m. 932) ondan hədis rəvayət etdiyi bildirilir. [147, II, 420]

22. Əbu Abdulla əl-Hüseyn ibn Harun ibn Hüzeymə əl-Məraği. Azərbaycanın Marağa şəhərindəndir. Əbul-Qasim əs-Səllac, əl-Mərağinin hicri 322 (m. 934)-ci ildə həcc səfərində olduğu zaman Bağdada gəldiyini və onlara əl-Həsən ibn Sufyan ən-Nəsəvidən hədis rəvayət etdiyini bildirmişdir. [38, 67]

23. Əbu Bəkr Abdüləziz ibn əl-Həsən əl-Bərzəi əl-Hafiz əl-Abid (v. h. 323/ m. 935). Hədis rəvayət etmək üçün bir çox səfərlər etdiyi bildirilir. [200, I, 381; 63, 119-120]

24. Əbu Abdulla Əbu Nuəym Məhəmməd ibn Musa ibn Saleh ibn Vərraq əl-Mərəndi əl-Azərbaycani əl-Cürcani (v. h. 325 (m. 937)-ci ildən sonra). Səmərqənddə Əli ibn Məhəmməd ibn Hatim ibn Dinar əl-Qavmisidən hədis dinlədiyi bildirilir. [147,V, 261; 200,V, 110; 26, 22]

25. Əbul-Həsən Əli ibn Davud ibn Əhməd əl-Azərbaycani əl-Müəddib (v. h. 338/ m. 950). Əslən azərbaycanlı olan bu mühəddis Dəməşq yaxınlığında yerləşən əl-Mizzə kəndində məskunlaşmış və orada yaşamışdır. [38, 68]

26. Əbu Əli əl-Həsən ibn Abdulla ibn Əyyaş əl-Ərdəbili (v. h. 338/ m. 950). Əslən Ərdəbildən olan bu azərbaycanlı hədis alimi görkəmli hafizlərdən hesab olunur. [38, 68]

27. Həmdan ibn əl-Həsən əl-Ərdəbili əl-Lihyani (hicri IV/ miladi X əsr). Ərdəbil alimlərindən olan bu mühəddisin İbn Əbu Hatimdən (v. h. 327/ m. 938) hədis rəvayət etdiyi bildirilir. [38, 68]

28. Əbul-Qasim Həfs ibn Ömər əl-Ərdəbili əl-Mufid əl-Hafiz ər-Rəhhal (v. h. 339/ m. 951). Hədis aləmində hafiz, görkəmli sıqa alim, habelə dövrünün imamı kimi şöhrət qazanmışdır. [38, 69]

29. Əbul-Hüseyn Ömər ibn əl-Həsən ibn Əli ibn Malik ibn Əşrəs ibn Abdulla ibn Müncab əl-Üşnani əl-Bağdadi əş-Şeybani əl-Qadi (h. 259-339/ m. 875-950). Hədis elmində İbnul-Üşnani

kimi də tanınan bu azərbaycanlı mühəddisin Bağdad əhlindən olduğu bildirilir. [118, XI, 236-239; 83, IV, 208; 147, I, 170, 171]

30. Məhəmməd ibn əl-Həsən ib Əli ibn Malik ibn Əşrəs ibn Abdulla ibn Müncab əl-Üşnani əş-Şeybani (hicri IV/ miladi X əsr). Əli ibn Səhl ibn əl-Muğirə əl-Bəzzazdan rəvayət etdiyi bildirilir. [147, I, 170]

31. Əbul-Həsən Əli İbn əs-Sirri ibn əs-Sakir ibn Həmmad əl-Vərsani (hicri IV/ miladi X əsr). Bir çox hədisçilərdən hədis rəvayət etmiş bu azərbaycanlı alimdən İbn Bilal və İbn Bərkanın hədis nəql etdiyi bildirilir.[200,V, 370, 371; 38, 71]

32. Əhməd ibn Osman ibn Nəsr ən-Nərizi (hicri IV/ miladi X əsr). Cənubi Azərbaycanın Ərdəbil şəhərinin yaxınlığında yerləşən Nəriz kəndindəndir. [200, V, 281; 147, V, 480]

33. Əbu Bəkr Məhəmməd ibn Abdulla əl-Bərdəi (v. h. 340/ m. 951). “Kitabus-sunnə vəl-cəmaə”, “əl-Murşid” və s. əsərlərin müəllifi olduğu bildirilir. [147, II, 40, 41]

34. Əbu Məhəmməd əl-Cəfər ibn Məhəmməd ibn Cəfər əl-Ərdəbili (v. h. 342/ m. 953-ci ildən sonra). Mənbələrdə hicri 342 (m. 953)-ci ildə hədis əldə etmək üçün Bağdada getdiyi bildirilir. [147, I, 107]

35. Əbu Nəsr Nuəym ibn Əhməd ibn Məhəmməd ibn Alai əl-Varsani əl-Cürcani (v. h. 345/ m. 956-ci ildən sonra). Azərbaycanın Varsan şəhərindən olan bu mühəddisin hicri 345 (m. 956)-ci ildə Əbu Bəkr Məhəmməd ibn Hafsəveyh əl-Fəqihdən Cürcanda hədis rəvayət etdiyi bildirilir. [38, 72; 147, V, 588]

36. Nəsr əl-Ərdəbili əl-Hafiz (hicri IV/ miladi X əsr). Ərdəbil mühəddislərindəndir. Ondan hicri 342 (m. 953)-ci ildə Cəfər ibn Məhəmməd əl-Ərdəbili rəvayət etmişdir. [147, I, 107]

37. Məhəmməd ibn Əhməd ibn Əli ibn Əsəd ibn Hərarə əl-Bərdəi əl-Əsədi əl-Hafiz əl-Əllamə (v. h. 348/ m. 960). Azərbaycanın Bərdə şəhərindən olan bu alim hafiz, imam, rəhhal

(cox səfər edən), tənqidçi kimi tanınmışdır. Onun çox sayda hədis rəvayət etdiyi bildirilir. [83, IV, 255; 138, XVI, 233, 234]

38. Əbu İshaq İbrahim ibn Əhməd ibn Məhəmməd ibn Abdulla əl-Meyməzi əl-Ənsari əl-Muhəddis ər-Rəhhal əl-Qadi (v. h. 350/ m. 961). Əksər mənbələrdə əl-Meyməzinin hicri 350 (m. 961)-ci ildə vəfat etdiyi bildirilir. Bununla yanaşı, Şəmsuddin əz-Zəhəbi onun hicri 371 (m. 982)-ci ildə həyatda olduğunu bildirmiş, lakin hər hansısa bir dəlilə istinad etməmişdir. [200, V, 244, 245; 38, 73]

39. əl-Hüseyn ibn Məmun əl-Bərzəi (hicri IV/ miladi X əsr). Azərbaycanın görkəmli mühəddislərindən olan bu hədis alimi sıqa və hafiz kimi tanınmışdır. Məhəmməd ibn Əhməd əl-Bərzəinin ondan hədis rəvayət etdiyi bildirilir. [38, 74]

40. Əbu Bəkr Məhəmməd ibn Yəhya ibn Hilal əl-Bərzəi əş-Şair (v. h. 350/ m. 961-ci ildən sonra). Əslən azərbaycanlı olan bu hədis aliminin Bağdadda yaşadığı bildirilir. Bununla yanaşı, haqqında danışılan hədis alimindən bəhs edən mənbələrdə onun ədib və şair olduğuna dair məlumatlar öz əksini tapmışdır. [147, I, 314]

41. Əbu Bəkr Məhəmməd ibn Məkki ibn Əhməd Saadəveyh əl-Bərzəi (v. h. 354/ m. 965). Onun hədis rəvayət etmək məqsədi ilə Şam, Bağdad, Misir və digər bölgələrə səfərlər etdiyi bildirilir. [200, I, 380]

42. Əbu Məhəmməd Cəfər ibn Məhəmməd ibn əl-Haris əl-Məraği (v. h. 356/ m. 967). Onun hədis öyrənmək üçün ən çox səfərlər edən mühəddislərdən olduğu bildirilir. Nişapurda yaşamışdır. Şamda və digər bölgələrdə hədis dinlədiyinə dair məlumatlar vardır. [200, V, 93; 147, V, 246; 20, 26]

43. Əbu Abdulla Əhməd ibn Tahir ibn Nəcm əl-Məyanəci əl-Hafiz əl-İmam əl-Mucəvvid (v. h. 360/ m. 970). İbnun-Nəcm kimi daha çox məşhurdur. Görkəmli hafizlərdən olduğu bildirilir.

O, Təbriz ilə Marağanın arasında yerləşən Məyanəc şəhərindəndir. [200, V, 239; 154, 378]

44. Əbu Amr Səid ibn əl-Qasim ibn əl-Ala ibn Xalid əl-Bərzəi ət-Tirazi əl-Muhəddis əl-Alim əl-Murabit (v. h. 362/ m. 973). Bu azərbaycanlı mühəddisin mötəbər hədis hafizlərindən olduğu bildirilir. Hətta onun imam dərəcəsinə qədər yüksəldiyi aidiyyəti mənbələrdə qeyd olunmuşdur. [83, IV, 328; 147, I, 316; 139, III, 936, 937]

45. Əhməd ibn əl-Qasim ibn Yusif ibn Faris əl-Məyanəci (v. h. 364?/ m. 975?). əz-Zəhəbinin bildirdiyinə görə, qaynaqlarda hicri 364 (m. 975)-cü ildən sonra əl-Məyanəci barəsində məlumata rast gəlinmir. [38, 77]

46. Əli ibn Həfs əl-Ərdəbili əl-Hafiz (v. h. 369/ m. 980). Babası Həfs ibn Ömər əl-Ərdəbili kimi hədis hafizi olan bu azərbaycanlı mühəddis hicri 369 (m. 980)-cu ildə həbsxanada vəfat etmişdir. [38, 78]

47. Əbul-Fərəc Abdulvahid ibn Bəkr əl-Varsani əl-Həməzani əs-Sufi (v. h. 372/ m. 982). O, hədis öyrənmək, yazmaq, rəvayət etmək üçün Şam və İraqa səfərlər etmişdir. [200, V, 371; 147, V, 587, 588]

48. Əbu Abdulla Məhəmməd ibn əl-Həsən ibn Məhəmməd ibn Burdhərşaz əs-Sərəvi ər-Razi əl-Beyruti əs-Siraci (v. h. 374/ m. 984). O, Təbriz ilə Ərdəbilin arasında yerləşən Sərab şəhərindəndir. Bağdadda yaşadığı və dövrünün mühəddislərindən hədis rəvayət etdiyi bildirilir. [200, III, 204; 38, 78]

49. Əbu Bəkr Yusif ibn əl-Qasim ibn Yusif ibn əl-Faris ibn Səvvar əl-Məyanəci əş-Şafei əl-Muhəddis əl-Fəqih əl-Qadi (h. 285-375/ m. 895-985). Onun imam, hafiz, sıqa, nəbil və məmun dərəcələrinə yiyələndiyi bildirilir. Mənbələrdə dövrünün görkəmli mühəddisi kimi təqdim olunur. Dəməşqdə yaşamışdır. [200, V, 239; 83, IV, 402, 403]

50. Əbu Əli əl-Həsən ibn Əbul-Həsən əl-Bərzəndi (hicri IV/ miladi X əsr). Ərdəbil yaxınlığındakı Bərzənd qəsəbəsinə mənsub olduğu bildirilir. [200, I, 382]

51. Əbu Əli əl-Hüseyn ibn Əli ibn Məhəmməd ibn əl-Hüseyn ibn Tahir ibn Xalid ibn İdris ibn Bəkr ibn Həbib ibn Zuheyr ibn Asim ibn Müdrik əl-Bərzəi əl-Həmədani əl-Hafiz (h. 326-406/ m. 938-1016). Əslən azərbaycanlı olan bu mühəddis Səmərqəndə köçmüşdür. Çoxsaylı hədislər rəvayət edən alim kimi tanınan Əbu Əlinin hədis əldə etmək üçün İraq və Xorasana səfər etdiyi bildirilir. [147, I, 314]

52. Əbul-Qasim Əli ibn Əhməd ibn Məhəmməd ibn əl-Həsən ibn Abdulla ibn Məhəmməd ibn əl-Leys ibn Zuhl ibn əl-Cərrah ibn əl-Haris ibn Əhban ibn Əvs əl-Məraği əl-Bəlhi əl-Huzai Mukəllimuz-zib (h. 326-411/ m. 938-1019). İbnul-Məraği kimi tanınan bu mühəddis sıqa, çox hədis rəvayət edən hədis alimi olmuş və hədis toplamaq üçün səfərlər etmişdir. [147, V, 246; 38, 87, 88]

53. Əbul-Vəfa əl-Xəlil ibn Əhməd ibn əl-Muhsin ibn Məhəmməd əl-Mərəndi (v. h. 412/ m. 1021). Dindar, fəqih kimi tanınan bu mühəddis Azərbaycanın Mərənd şəhərində anadan olmuş və Bağdadda dünyasını dəyişmişdir. [200, V, 110; 26, 29]

54. Əbu Zura Abdulvəhhab ibn Məhəmməd ibn Əyyub əl-Ərdəbili əş-Şeyx (v. h. 415/ m. 1025). Əslən Ərdəbildən olan bu mühəddisin hədis təhsilini doğulduğu bölgədə aldığı bildirilir. [147, I, 107; 38, 89]

55. Əbu Məhəmməd əl-Həsən ibn Məhəmməd ibn Cəfər ibn Davud əs-Səlmasi (v. h. 419/ m. 1028). Azərbaycanın Salmas şəhərindən olduğu bildirilir. Əl-Hüseyn ibn Məhəmməd ibn Ubeyd əl-Əskəridən hədis rəvayət etmişdir. [147, III, 275]

56. Əl-Hüseyn ibn Səfvan ibn İshaq ibn İbrahim Əbu Əli əl-Bərdəi (v. h. 430/ m. 952). Əl-Hüseyn ibn Səfvan hörmətli ədib,

mükəmməl tarixi biliklərə sahib Əbu Bəkr ibn Dunyədən dərs almışdır. Mənbələrdə Xətib Bağdadi əl-Hüseynin səhih hədisləri toplayan bir mühəddis olduğunu bildirir. Mühəddis hicri 430 (m. 952)-cu ildə Bağdadda vəfat etmişdir. [63, 120]

57. Əbul-Qasım ibn Səd Əli əz-Zəncani (v. h. 380-471/ m. 990-1078). Əbul-Qasim hicri 380 (m. 990)-ci ildə Zəncanda anadan olmuşdur. O, ilk təhsilini Zəncanda almışdır. Mühəddis Zəncanda Məhəmməd ibn Übeyd əz-Zəncanidən, Misirdə Əbu Abdulla Məhəmməddən, Dəməşqdə Abdurrəhman ibn Yasirdən hədis dinləmişdir. O, ömrünün son illərində Məkkəyə getmiş, orda "Şeyxul-Həram" vəzifəsində çalışaraq nüfuz qazanmışdır. Əbul-Qasım əz-Zəncaninin müasirləri onun hədis elmindəki mötəbərliyini müxtəlif mənbələrdə dönə-dönə xatırlatmışlar. Orta əsr müəllifləri mühəddisi hədis bilməkdə məşhur Şeyxul-İslam Abdulla ibn Məhəmməd Ənsari ilə müqayisə etmişlər və Azərbaycan aliminə üstünlük vermışlər. Əbul-Qasım əz-Zəncani hicri 471 (m. 1078)-ci ildə vəfat etmişdir.[20, 61]

58. Əbul-Məali Əbdülməlik ibn Əhməd ibn Əbdülməlik əl-Beyləqani (v. h. 496/ m. 1103). Əbu Səid əs-Səmaninin verdiyi məlumata görə, Əbul-Məali dövrünün möhkəm hafizəyə malik olan mühəddislərindən olmuşdur. Əl-Beyləqani Xorasan və İranda yaşamış, çoxlu hədis toplamışdır. Bağdadda Əbu Cəfər ibn əl-Müslimədən dərs almışdır. Mühəddis Bağdaddan sonra Beyləqana gələrək orada tədrislə məşğul olmuşdur. Əbul-Məali hicri 496 (m. 1103)-cı ildə Beylaqanda vəfat etmişdir. [14, 84; 9, 217]

59. Əbu Ömər Osman ibn əl-Müsəddəd əd-Dərbəndi (v. h. 500/ m. 1107). Mənbələrdə onun Əbu İshaq Şirazidən dərs aldığı bildirilir. Əbu Ömər əd-Dərbəndi məşhur fəqih olmaqla yanaşı, hədis toplamaqla da məşğul olmuşdur. Alim hicri 500 (m. 1107)-cü ildə vəfat etmişdir. [14, 82]

60. Əbu Zəkəriyyə Yəhya ibn Əli ibn Məhəmməd ibn Həsən ibn Bistam ət-Təbrizi əş-Şeybani əl-Xatib İmamul-Luğə (h. 421-502/ m. 1030-1109). Azərbaycanın məşhur nəhv alimlərindən olan Əbu Zəkəriyyə Təbrizdə anadan olmuşdur. Onun sıqa ravi olduğu bildirilir. Hədis toplamaq üçün Bağdad, Şam, Misir və digər ölkələrə səfərlər etmişdir.[200, II, 13; 147, I, 446, 447]

61. Əbu Şüca Faris ibn Hüseyn ibn Ğarib ibn Bəşir əs-Suhrəvərdi əl-Bağdadi əz-Zuhli əl-Hafiz (h. 430-507/ m. 1039-1113). Azərbaycanın Suhrəvərd şəhərində anadan olmuşdur. Mühəddis, hafiz, imam, hədisin dayağı (umdə) və tarixçi kimi tanınmışdır. [83,VI, 27]

62. Əbul-Qasim Nasir ibn Əhməd ibn Bəkr əl-Huveyyi (h. 466-507/ m. 1074-1113). Xoy şəhərində anadan olmuşdur. Azərbaycan ədiblərinin şeyxi olduğu bildirilir. Eyni zamanda mühəddis, nəhvçi və fəqih olmuşdur. [38, 112,113]

63. Əbu Həfs Əbu Abdulla Şihabuddin Ömər ibn Məhəmməd ibn Abdulla ibn Məhəmməd ibn Ammuveyh əs-Suhrəvərdi ət-Teymi əl-Bəkri əş-Şafei əl-Muhəddis əl-Alim əl-Qudvə əs-Sufi əz-Zahid əş-Şeyx Şeyxul-İslam Sahibul-Avarif (h. 455-532/ m. 1063-1138). Azərbaycanın Suhrəvərd şəhərində anadan olmuşdur. Hədis elmində saduq və nəbil dərəcələrinə yiyələnmişdir. [147, III, 341]

64. Əbu Abdulla Məhəmməd ibn Məhəmməd ibn Məhəmməd əl-Məyanəci (v. h. 533/ m. 1139-cü ildən sonra). Azərbaycanın Məyanəc şəhərində anadan olmuş bu mühəddis əməlisaleh fəqih kimi tanınmışdır. [147, V, 426]

65. Qutbuddin Əbu Rəşid Əhməd ibn Abdullah Məhəmməd ibn Əbul-Qasim Abdullah əl-Əbhəri (h. 500/ m. 1107- h. 577/ m. 1182). Əl-Əbhəri hicri 500 (m. 1107)-cü ildə anadan olmuş və hicri 577 (m. 1182)-ci ildə Bağdadda vəfat etmişdir. Mənbələrdə

onun sufi və dövrünün tanınmış mühəddislərindən olduğu bildirilir. [59, 64]

66. Bədruddin Əbul-Muəmmər İsmail ət-Təbrizi (h. 550-601/ m. 1155-1204). Bədruddin ət-Təbrizi hicri 550 (m. 1155)-ci ildə Təbrizdə anadan olmuşdur. O, hədis elmini mükəmməl bilən alimlərdən idi. Müasirləri tərəfindən sevilən mühəddis Qurani-Kərimi əzbərləmişdir. Hafiz mühəddis hicri 636 (m. 1238)-cı ildə Hələbdə vəfat etmişdir. Mənbələrdə onun hicri 601 (m. 1204)-ci ildə hədis elminə dair "Ərbəinu-Bədriddin" adlı bir kitab yazdığı bildirilir.[26, 45]

67. Əbul-Həsən Ərşədud-Din Əli ibn Məhəmməd ibn Əli ən-Neyrizi (v. h. 604/ m. 1208). Cənubi Azərbaycanın Neyriz (Nəriz) qəsəbəsindəndir. Fəqih, mühəddis, müfəssir (təfsirçi) və ədib kimi tanınmışdır. Hədis rəvayət etdiyinə və hədis dinlədiyinə dair məlumatlar vardır. Hədis elminə dair "Tənvirul-məsabih fi şərhil-məsabih" adlı əsəri olduğu bildirilir.[192, VII, 224; 38, 126]

68. Əbu Məhəmməd Abduləziz ibn Məali ibn Əli ibn Ğənimət ibn əl-Həsən əl-Üşnani əl-Bağdadi əş-Şafei əs-Salih əl-Xəyr ibn Məninə (h. 525-612/ m. 1131-1216). Əslən azərbaycanlı olan bu mühəddis "Musnədul-İraq" kimi də şöhrət qazanmışdır. [83, VII, 92; 38, 126]

69. Əbu Səid Əminuddin Muzəffər ibn Əbu Məhəmməd (Əbul-Xeyr) ibn İsmail ibn Əli ət-Təbrizi əl-Varani əş-Şafei Sahibul-muxtəsər (h. 558-621/ m. 1163-1224). Alim, zahid və abid kimi tanınan Əbu Səid Təbrizdə anadan olmuşdur. Onun yaşadığı dövrdə Misirdə fiqh və usul elmində şeyx hesab olunduğu bildirilir. Əbul-Fərəc ibn Quleyb və Əbu Əhməd ibn Sukeynədən hədis dinlədiyinə dair məlumatlar vardır. [38, 127]

70. Əbu Məhəmməd Abdurrəhman ibn Abdulla ibn Ulvan əl-Məraği əl-Hələbi əl-Muhəddis əs-Salih (h. 534-623/ m. 1139-1226). Azərbaycanın Marağa şəhərində anadan olmuşdur. Onun

fiqh və hədis sahəsində alim olduğu bildirilir. Hədis toplamaq üçün səfərlər etmiş və bir çox ravidən, o cümlədən Bağdadda Əhməd ibn Məhəmməd əl-Abbasidən hədis rəvayət etmişdir.[83,VII, 189]

71. Əbul-Abbas Şəmsuddin Əhməd ibn əl-Xəlil ibn Səadə ibn Cəfər ibn İsa əl-Huveyyi əş-Şafei əl-Bərməki ibnul-Huveyyi Qadul-Qudat (h. 583-637/ m. 1187-1240). Əbul-Abbasın Xorasana gəldiyi, Fəxrəddin ər-Razinin tələbəsi Qutb əl-Misridən hədis üsulundan dərs aldığı, eləcə də Şafei məzhəbinin görkəmli fəqihi ər-Rafeidən (v. h. 623/ m. 1226) fiqh öyrəndiyi bildirilir. Hədis elminə dair "Ənvaul-ulumil-hədis" adlı əsəri vardır. [83, VII, 320, 321; 38, 129]

72. Əbul-Xeyr ibn Mənsur əş-Şamaxi (v. h. 680/ m. 1281). əş-Şamaxi bir çox dini elmlərin mahir bilicisi olmuşdur. Mənbələrdə onun ərəb dili və hədis elmləri üzrə alim olduğu bildirirlir. Alim hicri 680 (m. 1281)-ci ildə vəfat etmişdir. [192, III, 149]

73. Tacuddin Abdurrəhman ibn Məhəmməd ibn Əfdaluddin ibn (Əbu) Hamid ət-Təbrizi əş-Şafei əl-Əfdali əl-Vaiz (h. 661-719/ m. 1263-1319). Təbrizdə anadan olan İbn Məhəmmədin bu bölgənin şeyxi olduğu bildirilir. Azərbaycanda təhsil almış məşhur mühəddis və fəqihlərdən olmuşdur. [83, VIII, 89; 26, 83; 38, 138]

74. Qutbuddin Məhəmməd ibn Ömər ibn əl-Fadl ət-Təbrizi əl-Əhaveyni əş-Şafei əl-Fadil (h. 668-736/ m. 1269-1336). Mənbələrdə onun Təbriz qazisi Muhyiddin ət-Təbrizidən əl-Bəğavinin "Şərhus-sunnə" əsərini dinlədiyi bildirilir. Bir müddət Bağdad qazisi olmuşdur. Fiqh, təfsir, hədis üsulu və nəhv elminin mütəxəssislərindən olduğu bildirilir. [83, VIII, 199]

75. Şəmsuddin Məhəmməd ibn Muzəffəruddin əl-Xalxali əl-Xatibi əş-Şafei əl-Bəzzaz (v. h. 745/ m. 1344). Azərbaycanın Xalxal qəsəbəsindən olduğu bildirilir. İbnul-Xalxali kimi də məşhurdur. Əl-Bəğavinin "Məsabihus-sunnə" adlı əsərinə

“Tənvirul-məsabih” adlı şərh yazmışdır. [200, II, 381, 382; 83, VIII, 250, 251]

76. Əbul-Həsən Tacuddin Əli ibn Abdulla ibn əl-Həsən ibn Əbu Bəkr ət-Təbrizi əl-Ərdəbili əş-Şafei (h. 667-746/ m. 1278-1354). Mühəddis, müfəssir, fəqih, təbib və riyaziyyatçı kimi tanınan Əbul-Həsən Ərdəbil şəhərində anadan olmuş və Təbrizdə yaşamışdır. Hədis rəvayət etmək üçün Bağdad və Misirə səfər etmiş, orada müxtəlif elmlərdən dərs demişdir. [83, VIII, 257; 38, 140]

77. Əli ibn İsa əl-Ərdəbili əl-Ərbili (v. h. 756/ m. 1355). Əslən azərbaycanlı olan bu mühəddis hədis rəvayətində nümayiş etdirdiyi dəqiqliyə görə əs-Səhih əl-Ərdəbili ləqəbinə layiq görülmüşdür. [83, I, 722]

78. Xədicə (v. h. 796/ m. 1393). Əl-Müvəffəq Abdul-Kərim ibn Məhəmməd ibn İsmail əl-Ürməvinin qızıdır. Mənbələrdə Xədicənin mühəddis olduğu haqqında məlumat mövcuddur. Onun hədisdən dərs vermək üçün icazətnaməsi olmuşdur. Xədicə hicri 796 (m. 1393)-cı ildə vəfat etmişdir. [57, 61]

79. Cəmaluddin İzzuddin Yusif ibn əl-Həsən ibn Mahmud əs-Sərabi ət-Təbrizi əl-Həlvai əş-Şafei (h. 804-876/ m. 1330-1402). Cənubi Azərbaycanın Sərab şəhərindəndir. Təbrizin məşhur alimlərindən olduğu bildirilir. Əl-Bəğavinin “Məsabihus-sunnə” adlı əsərinə “əl-Əzhər fi şərhil-məsabih” adlı şərh yazmışdır. Bundan əlavə, əz-Zəməxşərinin “Kəşşaf” adlı təfsiri ilə əlaqədar bir hekayə yazdığı da mənbələrdə qeyd olunmuşdur. [38, 144]

80. Əbu Bəkr Əbu Abdulla Zeynuddin Bədruddin əl-Hüseyn ibn Ömər ibn Məhəmməd əl-Mərağİ əl-Qurəşi əl-Əməvi əl-Əbşəmi əl-Osmani əl-Misri əş-Şafei (h. 727-816/ m. 1327-1414). İbnul-Hüseyn əl-Mərağİ adıyla məşhurdur. Mühəddis, tarixçi və fəqih olduğu bildirilir. [38, 145]

81. Əfifuddin Məhəmməd ibn əs-Seyyid Məhəmməd ibn Abdulla ibn Məhəmməd ibn Abdulla ibn Hadi ibn Məhəmməd

ibn Əbul-Həsən ən-Neyrizi ət-Təbrizi əş-Şirazi əl-Hüseyni əş-Şafei (v. h. 855/ m. 1451). Əslən Təbrizdən olan bu azərbaycanlı mühəddis Mədinədə yaşamışdır. İzzuddin İbrahim əl-İcidən hədis rəvayət etdiyi bildirilir. [38, 145]

82. Əbul-Fəth Əbul-Yəmən Şərəfuddin Məhəmməd ibn Əbu Bəkr ibn əl-Hüseyn ibn Ömər ibn Məhəmməd ibn Yunis ibn Əbul-Fəxr ibn Abdurrəhman ibn Nəcm əl-Məraği əl-Mədəni əl-Qurəşi əl-Qahiri əl-Osmani əş-Şafei (h. 775-859/ m. 1374-1454). İbnul-Məraği kimi məşhur olan bu alim hədis, fiqh və nəhv sahəsində yüksək savada malik olmuşdur. [38, 146]

83. Əbul-Fərəc Məhəmməd ibn Əbu Bəkr əl-Məraği (h. 806-880/ m. 1404-1476). Məkkə və Mədinədə bir çox alimdən dərs aldığı bildirilir. Mənbələrdə hədis rəvayət etmək üçün ona bir çox alimin icazə verdiyi qeyd olunur. [38, 146]

84. Əbul-Fadl Kəmaluddin Məhəmməd ibn Əbu Bəkr ibn Məhəmməd ibn Əbu Bəkr ibn əl-Hüseyn əl-Məraği (h. 858-894/ m. 1454-1490). Əslən azərbaycanlı olan bu mühəddisin Mədinədə böyüdüyü bildirilir. [38, 147]

85. İbrahim Zənhari əs-Səlmasi (v. h. 911/ m. 1505). İbrahim əs-Səlmasi bir çox dini elmləri mükəmməl bilmişdir. Fiqh, Quran və hədis elmlərini xüsusilə daha çox bilən alim "Səhih Buxari" kimi tanınan məşhur hədis əsərinə izah yazmışdır. Onun bu əsəri müasirləri tərəfindən hüsnü-rəğbət qazanmışdır. İbrahim əs-Səlmasi hicri 911 (m. 1505)-ci ildə Təbrizdə vəfat etmişdir. [26, 161]

86. Mahmud ibn Əli Əsgər ibn Məhəmməd Taqi ət-Tabatabai ət-Təbrizi (v. h. 1310/ m. 1892). Mahmud ibn Əli Əsgər fəqih və mühəddis olmuşdur. O, həccdən sonra hicri 1310 (m. 1892)-cu ildə Məkkədə vəfat etmişdir. Zirikli əsərində onun fiqhə və təsəvvufa dair əsərləri olduğunu bildirir.[192, III, 820; 39, VII, 129).

Beləliklə, istər klassik, istərsə də müasir mənbələrə istinad etməklə azərbaycanlı mühəddislər kimi tanınan alimlərin adlarını və qısa olaraq onlar barəsində aidiyyətli mənbələrdə qeyd olunan məlumatları toplamaqla hədisşünaslığın inkişafında Azərbaycanın mühüm rolu olduğunu göstərməyə çalışdıq. Əlbəttə ki, azərbaycanlı mühəddislər yuxarıda adları qeyd olunanlarla məhdudlaşmır.*

## 2.2. Əhməd ibn Harun əl-Bərdicinin həyatı

Hər bir ölkənin, o cümlədən Azərbaycanın adının dünya tarixində qeyd olunmasının bir səbəbi də, həmin ölkəyə mənsub elm adamlarının adı ilə bağlı qiymətli abidələr, sənət əsərləri, elmi, ədəbi və dini əsərlər sayəsində olmuşdur. Dünya tarixinin böyük bir hissəsini əhatə edən İslam tarixi ilə bağlı deyə bilərik ki, İslam dini ilk olaraq Ərəbistan Yarımadasında təşəkkül tapmasına baxmayaraq, qısa zaman ərzində olduqca geniş ərazilərdə yayılmışdır.

Başər övladına ilk olaraq "oxu" deyə əmr edən Allahın Qurani-Kərimin ən-Nisa surəsinin 162-ci ayəsində "Lakin onların elmdə qüvvətli (möhkəm) olanları və möminləri sənə nazil edilənə və səndən əvvəl nazil edilənə və səndən əvvəl nazil olanlara inanır, namaz qılır, zəkat verir, Allaha və axirət gününə iman gətirirlər. Biz, əlbəttə, onlara böyük mükafat verəcəyik!" buyurması və Məhəmməd peyğəmbərin "Allah elm naminə yola çıxan insan üçün cənnətə gedən yolu asanlaşdırar" [145, 38] deməsi müsəlmanları elm öyrənməyə ruhlandıran saysız

* Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin müəllimi Qoşqar Səlimli tərəfindən PROF.DR.Nebi Bozkurtun elmi rəhbərliyi ilə Azərbaycanlı mühəddislər mövzusuna dair dissertasiya işi yazılmış və 2005-ci ildə Türkiyə Cümhuriyyətində müdafiə olunmuşdur. Haqqında danışılan mövzu müəllif tərəfindən ətraflı şəkildə araşdırılmışdır.

amillərdəndir. Bu çağırışa cavab verən müsəlmanlar dünyanın hansı bölgəsində olmalarından asılı olmayaraq dini savadlarını artırmaq üçün ilk dövrlərdə bu sahədə daha çox məşhur olan Ərəbistan Yarımadası, İraq, Şam və s. kimi elm mərkəzlərinin yerləşdiyi ölkələrə səfərlər etmişlər. İslam dini ilə bağlı elmlərin Azərbaycanın sərhədlərindən uzaqda meydana çıxmasına və ilk dövrlərdə nəqliyyat vasitələrinin minik heyvanlarından ibarət olmasına baxmayaraq, elmə, xüsusilə də dinə olan maraq azərbaycanlıların da bu elmlərə yiyələnməsinə mane olmamışdır. Elm öyrənmək məqsədilə Azərbaycanı tərk edən gələcəyin azərbaycanlı elm adamları bəzən getdikləri ölkələrdə məskunlaşmış və geri qayıtmamışlar.

İslam dini ilə bağlı meydana çıxan bütün elmlərin əsasını təbii olaraq Qurani-Kərim və hədislər təşkil edir. Tarixi mənbələrdən aldığımız məlumatlarda müsəlmanların ilk olaraq Qurani-Kərimi, daha sonra isə Məhəmməd peyğəmbərin hədislərini öyrəndikləri bildirilir. Məhəmməd peyğəmbər nazil olan Quran ayələrini həm yazdırır, həm əzbərlədir, həm də izah edirdi. Qurani-Kərimlə əlaqədar elmlər də ilk dövrlərdə əsasən bu istiqamətlərdə inkişaf edirdi. Hədislə bağlı fəaliyyətlərə gəlincə isə bu sahədə apardığımız araşdırmalar, hədisin geniş formada öyrənilməsinin əsasən Məhəmməd peyğəmbər dünyasını dəyişdikdən sonra başladığını deməyə əsas verir. Tədricən inkişaf edən hədis fəaliyyətləri bu sahədə müəyyən hədis əsərlərinin ortaya çıxmasına şərait yaradır. İlk dövrlərdə hədis mətnləri ilə bağlı əsərlər yazıldığı halda daha sonralar hədisçilər fəaliyyətlərini bir qədər də hədisləri nəql edən ravilərə yönəltmiş və bu sahədə müxtəlif üslublarda çox qiymətli əsərlər yazmışlar. Gündən-günə inkişaf edən hədis fəaliyyətləri hicri III (m. IX) əsrdə olduqca yüksək səviyyəyə yetişmiş və bu sahədə əldə olunan nailiyyətlər səbəbilə sözügedən əsr hədis tarixinin qızıl əsri adlandırılmışdır. Hədis elminin bu səviyyədə

inkişaf etməsi sözügedən sahədə fəaliyyət göstərən hədisçilər üçün yeniliyə gedən yolu kifayət qədər daraltmışdır. Bu dövrdə nəinki məşhur olmaq, hətta müəyyən səviyyəyə gəlmək belə yüksək savad və məharət tələb edirdi. Taleyinə məşhurlar arasında məşhur olmaq yazılmış şəxsiyyətlərdən biri də ömrü hədis tarixinin qızıl dövrünə təsadüf etmiş azərbaycanlı mühəddis Əbubəkr Əhməd ibn Harun ibn Rəvh əl-Bərdicidir.

**Adı, soyadı və dünyaya gəlişi:** Hədislə bağlı mənbələrdə azərbaycanlı hədis alimi Əbubəkr Əhməd ibn Harun ibn Rəvh əl-Bərdici əl-Bərzəi ən-Nisaburi əl-Bağdadi* kimi tanınır. O, vaxtilə Kür çayı sahilində Bərdə-Dərbənd (Bab əl-Əbvab) karvan yolu üstündə mühüm ticarət məntəqəsi olmuş və haqqında IX-X əsr ərəb səyyahlarından İbn Xordadbeh, əl-İstərxi, İbn Havqəl, əl-Muqəddəsi və b. mütəxəssislərin məlumat verdiyi, qədim Bərdənin 14-18 fərsəxliyində yerləşən orta əsr Azərbaycan şəhəri olmuş Bərdicdə dünyaya gəlmişdir. Haqqında danışılan bölgəyə mənsub ikinci bir müəllifin tanınmadığı bildirilir. [116, 24; 147, I, 314; 200, I, 449] Əhməd ibn Harun əl-Bərdicinin doğulduğu tarix dəqiq bilinmir. Onun həyatından bəhs edən qaynaqlar azərbaycanlı mühəddisin hicri 230 (m. 845)-cu ildə və ya bundan

* əl-Bərdicinin İslam dininin qətiyyətlə qadağan etdiyi böyük günahlardan bəhs edən "əl-Kəbair" əsərini təhqiq etmiş Səudiyyə Ərəbistanı Krallığının Məlik Səud Universitetinin elm xadimi, tədqiqatçı alim Məhəmməd ibn Turki ət-Turki qeyd olunan hədis aliminin həyatından və yaradıcılığından geniş şəkildə bəhs edən bir tədqiqat işi yazdığını bildirmişdir. Bu tədqiqat işi hələ işıq üzü görməmişdir. Bundan əlavə, İmam Məhəmməd İbn Səud adına İslam Universitetinin Usuluddin Fakültəsi/Sünnə və Sünnə Elmləri bölməsində Əhməd Muəbbəd Abdulkərimin elmi rəhbərliyi ilə Aduləziz ibn Həməd əl-Məşəl tərəfindən "الحافظ البرديجي محدثا وتحقيق كتاب طبقات الأسماء المفردة Mühəddis əl-Hafiz əl-Bərdici və nadir adlardan bəhs edən Təbəqat kitabının təhqiqi" adlı magistr dissertasiyası yazılmış və hicri 1403/1983-cü ildə müdafiə olunmuşdur. Çox təssüf ki, səylərimizə baxmayaraq sözügedən dissertasiyanı əldə edə bilmədik.

əvvəl doğulduğunu bildirir. [111, VIII, 84; 94, VI, 64; 138, XIV, 122; 83, IV, 6] Bu dövr hədis elminin ən parlaq və ən məhsuldar dövrü hesab olunur. Hədis elmi ilə bağlı əsərlərin yazılmasının geniş vüsət aldığı, Məhəmməd peyğəmbərin hədislərinin xüsusi bölgülər əsasında iri həcmli kitablarda toplandığı, bəzi alimlərin hədisçilərlə bağlı araşdırmalar apararaq bu sahədə qiymətli əsərlər yazdığı bir dövrdə dünyaya gəlmiş əl-Bərdici özünü xoşbəxt hesab edə bilərdi. Lakin onun adının əbədiləşməsində əsas rol oynamış amil doğulduğu dövr deyil, hədis elmi ilə bağlı fəaliyyətləri olmuşdur.

Haqqında danışılan azərbaycanlı alimin Bərdic şəhərinə mənsub olduğunu onun adının sonundakı əl-Bərdici (Bərdicli və ya Bərdicə mənsub) ifadəsindən də anlamaq mümkündür. Lakin bununla belə azərbaycanlı mütəfəkkir əksər qaynaqlarda həm də əl-Bərzəi kimi təqdim olunur ki, bu da onun Bərzə adlı şəhərə mənsub olduğunu bildirir. [147, I, 316; 200, I, 451] Bu məsələ ilə bağlı araşdırma apararkən aydın oldu ki, VIII-IX əsrlərdə mühüm ticarət və mədəniyyət mərkəzi olmuş Bərdə şəhərinin adı fars mənşəli olub ərəb dilində Bərzəə kimi istifadə olunur. [115, 122] Göründüyü kimi Bərdic və Bərzəə (Bərdə) şəhərlərinin hər ikisi tarix boyu mübahisəsiz Azərbaycan torpaqları olmuşdur. Azərbaycanlı mütəfəkkirin ilk olaraq Bərdicli kimi təqdim olunması onun Bərdic şəhərində doğulmuş olmasını təsdiqləyir. Onun Bərdicin yaxınlığında yerləşən Bərzəə şəhərinə mənsub edilməsinə gəlincə isə düşünürük ki, bu mənsubiyyət orta əsrlərdə Bərzəə şəhərinin kifayət qədər inkişaf etməsi və məşhur olmasından irəli gəlmişdir. Belə ki, əldə etdiyimiz məlumatlara əsasən Xilafətin paytaxtı Bağdad şəhərini Azərbaycanla birləşdirən ticarət yolları həm də Bərdədən keçirdi. Buna görə də Azər-

baycanın şimalında şəhərlərarası məsafələr Bərdə şəhərindən hesablanırdı.

Araşdırmalarımız nəticəsində məlum olur ki, azərbaycanlı hədis aliminin Bərzəəli olmasına şübhə ilə yanaşanlar da olmuşdur. Bu qənaətə gəlməyimizin səbəbi isə əl-Hüseyn ibn Əhməd ibn Abdulla ibn Bukeyr əs-Seyrəfinin "Bəzi hafizlərin Əhməd ibn Harun əl-Bərdicinin Bərzəəli olmasını inkar etdiklərini və onu həmin bölgəyə mənsub edənləri təkzib etdiklərini öyrəndim. O, (Əhməd ibn Harun) Bərzəəlidir, Bərdiclidir." [115, 122] deməsi olmuşdur.

**Vəfatı:** Tarixi mənbələrdən aldığımız məlumatlara əsasən Əhməd ibn Harun ibn Rəvh əl-Bərdici hicrətin 301 (m. 914)-ci ilinin Ramazan ayında Bağdad şəhərində vəfat etmişdir. [138, XIV, 123; 139, II, 247; 154, 316]

**Əhməd ibn Harun əl-Bərdicinin təhsili:** Hicri III (m. IX) əsrin II yarısı ərəb mədəniyyətinin çiçəklənmə dövrü hesab olunur. Bu dövrə aid mədəniyyət abidələrinin, zəngin ədəbiyyat nümunələrinin yaranmasında İslam dininin də böyük rolu olmuşdur. Ərəb mədəniyyətinə zəngin dini ədəbiyyat bəxş etmiş İslam alimlərinin elmi, xüsusən hədis fəaliyyətlərini araşdırarkən onların bir əsəri ərsəyə gətirmək üçün bir çox çətinliklərlə qarşılaşdıqlarını və lazım gəldikdə uzun məsafələr qət etdiklərini müşahidə edirik. Belə ki, ilahi vəhyin digər növü olan hədislərin ilk qaynağı olan səhabələrin bəziləri Məhəmməd peyğəmbər vəfat etdikdən sonra müxtəlif ölkələrdə məskunlaşmışdılar. Buna görə də hədis toplamaq üçün səfərə çıxmaq hər bir hədisçi üçün mühüm şərtlərdən biri idi. Mənbələrdə ilk olaraq az sayda səhabənin, özünün bilmədiyi və ya Peyğəmbərdən eşitmədiyi bir hədisi onu bilən digər səhabədən öyrənmək üçün səfərə çıxdığı, bununla da hədis tarixində yeni səhifə açıldığı bildirilir. Rəvayətə görə, Cabir ibn Abdulla Şamda məskunlaşmış Abdulla ibn Ənisin yanına gəlmək üçün bir ay davam edən səfər etmişdir. Səbəb, müəyyən

bir hədisin hafizlərindən yalnız Abdulla ibn Ənisin həyatda qalması və Cabir ibn Abdullanın ondan həmin hədisi dinləmək məqsədindən başqa bir şey deyildir. [119, 109-118] Haqqında danışılan mövzu ilə bağlı digər bir rəvayətdə Əbu Eyyub əl-Ənsarinin Misirdə yaşayan Uqbə ibn Amirin yanına gəlməsi və onu ilk gördüyü an "Bizə Allah Rəsulundan müsəlmanın örtülməsi xüsusunda eşitdiklərini danış" deməsi, istəyinə nail olduqdan sonra isə dərhal heyvanına minib Mədinəyə tərəf yol aldığı bildirilir. [119, 118; 93, I, 93, 94] Bu səfərlər dini məsələlərlə bağlı suallarını Məhəmməd peyğəmbərə ünvanlamaq üçün olduqca uzun məsafələr qət edən müsəlmanların səfərlərindən mahiyyətcə fərqlənməsə də, hədis tarixində şəraitin tələbinə uyğun olaraq atılan yeni addım idi. Peyğəmbər zamanında başlamış, səhabə dövründə isə yeni formada davam etmiş bu səfərlər getdikcə geniş vüsət almış, hətta hədis toplamanın başlıca şərti kimi qəbul olunmuşdur. Hədis alimləri tərəfindən bu mövzuya dəfələrlə müraciət edilmiş və əsərlər yazılmışdır. Əl-Xətib əl-Bağdadi bu mövzuya dair müstəqil kitab yazan İslam alimlərindəndir. Sonrakı dövrlərdə meydana çıxmış hədisuydurma cəhdləri, Peyğəmbər ilə heç bir əlaqəsi olmayan hədislərin ona şamil edilməsi hədisçiləri qeyd olunan məsələ ilə bağlı lazımi tədbir görməyə sövq etmişdir. Görülən tədbirlərdən biri də rəvayət olunan hədisin qaynağını araşdırmaq olmuşdur. [80, I, 241, 242]

Artıq hər bir mühəddis üçün qaçılmaz olan elmi səfərlərin İslamdan əvvəl başladığı bildirilir. Belə ki, mənbələrin verdiyi məlumatlara əsasən, elm əldə etmək üçün həyata keçirilən ilk səfərlərdən biri də Allahın peyğəmbəri Musanın dövrünə təsadüf etmişdir. Qurani-Kərimin "Kəhf" surəsində danışılan hekayədə Musa peyğəmbərin Xızırın yanına getməsi bu həqiqəti təsdiqləmək iqtidarında olan misallardandır. [145, 39; 98, 347-353; 13, 257-260]

Azərbaycanlı hədis alimi əl-Bərdicinin yaradıcılığına yuxarıda qeyd olunan sırf hədis qayda-qanunlarını və bu sahənin tələblərini nəzərə alaraq yanaşdıqda onun bu tələblərə lazımi səviyyədə cavab verdiyini görürük. Belə ki, azərbaycanlı hədis aliminin təhsili ilə bağlı araşdırma apararkən onun təhsil almaq məqsədi ilə Azərbaycanı tərk edərək dini mərkəzlərin təşəkkül tapdığı bir sıra ölkələrə səfər etdiyi ilə bağlı məlumatlarla tez-tez rastlaşırıq. Əldə etdiyimiz məlumatlardan aydın olur ki, azərbaycanlı mühəddis Yaxın Şərq ölkələrini gəzmiş, Nişapur, Bağdad və Məkkədə yaşamışdır. [138, XIV, 122; 22, 6] Düşünürük ki, onun adının sonunda ən-Nisaburi, əl-Bağdadi kimi mənsubiyyət bildirən ifadələrin işlədilməsi də məhz bu səbəbdən irəli gəlmişdir. Əl-Bərdicinin hədislə bağlı müraciət etdiyi şəhərlər arasında Beyrut, Dəməşq, Hums, Misir, Hərran, Kufə və s. şəhərlər də mövcuddur. [94, VI, 64] Tarixi mənbələr əl-Bərdicinin təhsil almaq məqsədi ilə çox erkən yaşlarında Azərbaycanı tərk etdiyini bildirir. Bu fakt əz-Zəhəbinin əl-Hakimə istinadən verdiyi məlumatda da öz əksini tapmışdır. Əl-Hakim tarix kitabında əl-Bərdicidən danışaraq belə deyir: "O, Məhəmməd ibn əz-Zuhəlinin yanına gələrək həm faydalanmış, həm də faydalandırmışdır. O zaman şeyxlərimiz ondan rəvayətlər əldə etmişlər. Əbu Amr əl-Mustəmlinin xətti ilə (yazılmış yazıda) onun Əhməd ibn Harun əl-Bərdicini hicri 255 (m. 869)-ci ilin səfər ayında Məhəmməd ibn Yəhyanın (əz-Zuhəli) məscidində dinlədiyini oxudum. Şeyximiz Əbu Əli əl-Hafiz onu Məkkədə də dinləmişdir. Güman edirəm ki, o, ömrünün sonuna kimi orada qalmışdır." Azərbaycanlı mühəddisi təqdir edən əl-Hakim sözlərini "Onun dövründə ətraf bölgələrdə yaşamış imamlar arasında seçimlərin daim üzərində durulduğu ikinci bir imam tanımıram" [138, XIV, 122, 123] deməklə tamamlamışdır.

Yuxarıdakı məlumatda azərbaycanlı mühəddisin hicri 255 (m. 869)-ci ildə artıq müəyyən qədər şöhrət qazandığı, hətta onun elmindən yararlananların da mövcud olduğu aydın şəkildə görülür. Əl-Bərdicinin hicri 230 (m. 845)-cu ildə dünyaya gəldiyini və yuxarıda qeyd olunan səviyyəyə gəlmək üçün bir neçə ilin kifayət etmədiyini nəzərə aldıqda məlum olur ki, onun məşhurluğu çox gənc yaşlarından başlamışdır. İbn əl-Ədim onun barəsində: "O, gəzib dolaşmış məşhur hafizdir" [82, III, 1195] demişdir.

Tarixin önəm verdiyi şəxsiyyətlərdən biri olan Əhməd ibn Harun əl-Bərdicinin təhsili və həyatı ilə bağlı araşdırmalarımızı davam etdirərkən onun iki dəfə İsfahanı ziyarət etdiyini, [191, 325] tələbəlik həyatının bir qismini də İsfahanda keçirdiyini və bu bölgənin tanınmış alimlərindən faydalandığını təsbit etdik. [111, II, 164, III, 447] Lakin səylərimizə baxmayaraq, azərbaycanlı hədis alimi əl-Bərdicinin təhsilə başladığı tarix, xronoloji olaraq kimlərdən dərs aldığı onun dəqiq doğum tarixi kimi bizə qaranlıq qaldı. Aidiyyətli mənbələrdə onun elm öyrənmək məqsədi ilə səfərlər etdiyi bildirilir və dərs aldığı müəllimlərin adları tarix və ya sıralama nəzərə alınmadan sadalanır.

**Əhməd ibn Harun əl-Bərdicinin müəllimləri:** Görkəmli azərbaycanlı hədisşünas alim Əhməd ibn Harun əl-Bərdicinin təhsili ilə bağlı apardığımız araşdırmalar nəticəsində məlum oldu ki, o, elm öyrənmək məqsədi ilə bir çox mütəxəssislərə müraciət etmiş və müxtəlif elm mərkəzlərində dövrünün məşhur şeyxlərindən, ustadlarından dərs almış, hədis əxz etmişdir. Əl-Bərdicinin dərs aldığı müəllimlərin sayı xüsusunda onun həyatından bəhs edən qaynaqlarda konkret olaraq say bildirilməsə də, əldə etdiyimiz məlumatlarda otuzdan çox müəllimin ona elm öyrətdiyi, eləcə də onun rəvayət mənbəyi olduğu bildirilir. Azərbaycanlı

mühəddisin təhsilində ən önəmli rollardan birini oynamış onun müəllimləri haqqında araşdırma apararkən onların bəziləri barəsində ətraflı məlumat toplaya bildik. Aşağıda adları qeyd edilən və qısa olaraq tərcümeyi-hallarından bəhs olunan şəxslər Əhməd ibn Harun əl-Bərdicinin məşhur müəllimlərindən bəziləri olmaqla yanaşı, bizim barələrində məlumat toplamaq imkanı əldə etdiyimiz alimlərdir.

Əbu Səid əl-Əşəcc. Əbu Səid Abdulla ibn Səid ibn Hüseyn əl-Əşəcc əl-Kindi əl-Kufi hicrətin 167 (m. 783)-ci ilində Kufədə anadan olmuşdur. Erkən yaşlarından hədislə maraqlanmış və bu sahədə təhsil almağı qarşısına məqsəd qoymuşdur. Onun dərs aldığı hədis mütəxəssisləri arasında Huşeym ibn Bəşir, Əbu Bəkr ibn Əyyaş, Abdulla ibn İdris, Muttəlib ibn Ziyad və Məhəmməd ibn Fudeyl kimi mühəddislər vardır. [140, V, 73] Dini elmlər sahəsində hafiz, imam və müfəssir kimi tanınan Əbu Səid elmi səfərlərə hicri 180 (m. 796)-cı ildən etibarən başlamışdır. Başda Buxari (v. h. 256/ m. 870) olmaqla hədis dünyasının altı şah əsərinin müəllifləri, Əbu Hatim ər-Razi (v. h. 277/ m. 890), Əbu Zura ər-Razi (v. h. 264/ m. 878), İbn Əbu Hatim (v. h. 327/ m. 929), Əbu Yala əl-Məvsili kimi bir çox mühəddis Əbu Səid əl-Əşəccin hədis elmindən yararlanmışlar. [190, I, 228; 138, XII, 183; 139, II, 502] Əbu Səid hafizəsi güclü və etibarlı mühəddislərdən olmuşdur. [140, V, 73] Buxari biri "əl-Camius-səhih" əsərində, dördü "əl-Ədəb əl-mufrəd" əsərində olmaq üzrə ondan rəvayət etdiyi hədisləri müxtəlif əsərlərində qeyd etmişdir. [39, XI, 461] Müslümün (v. h. 256/ m. 875) "əl-Camius-səhih" adlı əsərində Əbu Səidin yetmiş rəvayəti mövcuddur.

Haqqında danışılan mühəddisin müxtəlif əsərləri olduğu bildirilir. əz-Zəhəbi (v. h. 748/ m. 1347) onun bir cilddən ibarət "Təfsirul-Quran" adlı əsərini gördüyünü bildirmişdir. Bununla yanaşı, onun rəvayət etdiyi hədisləri ehtiva edən bir risaləsi

“Darul-kutub əz-zahiriyyə”də 211a-224a vərəqlər arasında yer almaqla 18/10 saylı məcmuədə mühafizə edilir. [39, XI, 461]

Görkəmli hədis alimlərindən olmaqla yanaşı, əl-Bərdici kimi mühəddisin yetişməsində mühüm rol oynamış əl-Əşəcc əl-Kindi hicri 257 (m. 871)-ci ildə doğulduğu Kufə şəhərində vəfat etmişdir. [138, XII, 182-184; 180, XV, 27-30] Onun bu tarixdən əvvəl vəfat etdiyinə dair yayılmış rəvayətlər isə öz təsdiqini tapmamışdır. [39, XI, 461]

Əbu Zura ər-Razi. Ubeydulla ibn Abdulkərim ibn Yezid ibn Fərrux əl-Qurəşi ər-Razi hicrətin 200 (m. 816)-cü ilində Rey şəhərində dünyaya gəlmişdir. [180, II, 13; 192, VI, 239] O, təhsil almaq məqsədi ilə iki dəfə səfərə çıxmış [124, IV, 88] və bu səfərlər əsnasında Məkkə, Mədinə, Kufə, Bəsrə, Bağdad, əl-Cəzirə, Suriya, Misir, Xorasan kimi hədis elminin inkişaf etdiyi şəhər və ölkələrdə olmuşdur. [118, X, 326] Dövrünün ən görkəmli mühəddislərini dinləmək, Misirdə olarkən Şaffeyinin (v. h. 209/ m. 824) kitablarını və İmam Malikin (h. 179/ m. 795) “əl-Muvatta” əsərini yazmaq imkanı əldə etməsi onun təhsilində mühüm rol oynamışdır. [139, II, 557] İslam dininin əhli sünnə məzhəbləri arasında Hənbəli məzhəbinə daha çox üstünlük verən Əbu Zura ər-Razinin mühəddis, müfəssir, fəqih, abid və zahid kimi tanınması onun geniş dini savada malik olmasını, dinin qayda-qanunlarına son dərəcə riayət etməsini aydın şəkildə ifadə edir. [139, II, 557; 190, I, 369; 106, I, 199; 124, IV, 88] Dövrünün ən böyük hədis tənqidçilərindən və rical alimlərindən sayılan Əbu Zuranın yüksək hədis mədəniyyətinə sahib olan şəxsiyyətlərdən olduğu bildirilir. Alimin həm də İmam Malikin hədislərini ən yaxşı bilənlərdən biri kimi tanınması onun əsərlərinə olan tələbatı daha da artırmışdı. [191, I, 145] O, İbrahim ibn Musa ər-Razi (v. h. 230/ m. 845) ilə səkkiz il birlikdə olmuş və ondan yüz min hədis yazmışdır. [140, 330-335] Əbu

Zuranın zəkasına, hafizəsinə dair məlumatları ehtiva edən mənbələrdə onun çox sağlam hafizəyə malik olduğu bildirilir. Onun eynilə İxlas surəsi kimi yüz min hədisi əzbərlədiyi qeyd olunur. [170, IV, 23; 153, I, 150] Bununla yanaşı, onun yeddi yüz min hədis əzbər bildiyi və bu hədisləri elm məclislərində müzakirə etdiyi rəvayət olunur. [153, I, 150; 170, IV, 23] Otuz iki yaşından etibarən hədis öyrənməyə başlamış Əbu Zura elminin zəkatını verməyi unutmamış və hər gün məsciddə iki və ya üç qrup tələbəyə hədis tədris etmişdir. Ondan Hərmələ ibn Yəhya, Fəllas, Yunis ibn Abdulla kimi ustadlarla yanaşı, Müslüm ibn Həccac əl-Quşeyri, İbn Vərə, Tirmizi, Əbu Hatim ər-Razi, Əbu Zura əd-Dəməşqi, İbrahim əl-Hərbi, Abdulla ibn Əhməd ibn Hənbəl, Nisai, Əbu Yala əl-Məvsili, Məhəmməd ibn Cərir ət-Təbəri və İbn Əbu Davud kimi tanınmış alimlər elm öyrənmişlər. [12, IX, 274] Onun sadəcə Qurani-Kərimin qiraətinə dair on min, [118, X, 328] təfsirə aid isə yüz qırx min hədis bilməsi [153, I, 150] hədis sahəsində yüksək savada malik olmasından xəbər verir. Əbu Zuranın dilindən rəvayət olunan "Əlli ildən bəri yazdıqlarım evdə durur. Onları qələmə aldığımdan bəri mütaliə etməmişəm. Lakin hansı kitab, vərəq, səhifə və ya sətrdə nəyin yazılı olduğunu bilirəm" [170, IV, 24] sözləri onun zəkasının, elminin və bacarığının hansı səviyyədə olduğunu göstərir. İshaq ibn Rahuyə "Onun bilmədiyi hədisin əsli yoxdur" demişdir. [170, IV, 24] Məhəmməd ibn Yəhya ən-Nisaburi isə Əbu Zuraya verdiyi qiyməti bu sözləri ilə ifadə etməyə çalışmışdır: "Əbu Zura var olduqca müsəlmanlar daim xeyir qazanacaqlar" [140, I, 329]

Əhməd ibn Harun əl-Bərdicinin müəllimi olmuş Əbu Zura hicri 264 (m. 878)-cü ildə doğulduğu Rey şəhərində dünyasını dəyişmişdir. [118, X, 336]

Məhəmməd ibn Musa. İbn Harun Əbu Cəfər Məhəmməd ibn Musa kimi tanınan bu hədis alimi əslən fars idi. Həmədan şə-

hərinin sakinlərindən olmuş İbn Musa hafiz olması ilə yanaşı, xalq arasında yüksək nüfuza malik olmuşdur. Tarixi mənbələrdən aldığımız məlumatlara görə, o da digər hədis alimləri kimi bu sahədə müxtəlif əsərlər yazmışdır. Bir çox hədis aliminin, o cümlədən də əl-Bərdicinin yetişməsində önəmli rollardan birini oynamış Məhəmməd ibn Musa hicri 324 (m. 936)-cü ildə vəfat etmişdir. [105, II, 647] Onun hədis elmindən Əhməd ibn İbrahim, Əli ibn Məhəmməd, Əli ibn İbrahim əl-Qəttani və başqalarının yararlandığı bildirilir. Məhəmməd ibn Musanın müəllimlərinə gəlincə isə aidiyyətli mənbələrdə Əbu Nuəym, Musa ibn İsmayıl, Əbu Ğəssan Malik ibn İsmayıl kimi alimlərin ona elm öyrətdikləri qeyd olunur. [105, II, 647]

Məhəmməd ibn İshaq əs-Sağani. Məhəmməd ibn İshaq ibn Məhəmməd ibn İshaq Əbu Bəkr əs-Sağani əl-Bağdadi kimi tanınan mühəddis Bağdad sakinlərindən idi. O, hicri 180 (m. 796)-cı ildə dünyaya gəlmişdir. Dininə sadiqliyi ilə seçilən, sünnə və rəvayət sahəsində məşhur olan Məhəmməd ibn İshaq Bağdad, Bəsrə, Kufə, Mədinə, Məkkə, Şam, Misir kimi bir çox elmi mərkəzlərə ev sahibliyi etmiş bölgələrin görkəmli alimlərindən hədis dinləməyə, eləcə də hədis yazmağa nail olmuş, bununla da fəaliyyət göstərdiyi sahədə bir çox uğur qazanmışdır. Hədis elminin ibn Əbu Hatim və Daraqutni (v. h. 385/ m. 995) kimi məşhurları onun dürüstlüyünə, etibarlılığına şahidlik etmişlər. Nisai tərəfindən də təqdir olunan bu mühəddisdən bəhs edən bəzi mənbələrdə onun haqqında “la bəsə bihi (məqbuldur)” deyilmişdir. Məhəmməd ibn İshaq əs-Sağaninin, dövrünün məşhur mühəddisi olmuş Yəhya ibn Mainə (v. h. 233/ m. 848) bənzədilməsi bir daha onun diqqət mərkəzində olduğundan xəbər verir. Hədis elmində qazandığı etibar və savadı sayəsində imam, hafiz, hüccət kimi önəmli titulların daşıyıcılarından biri olmuşdur. [138, XII, 592] Onun dərs aldığı məşhur müəllimlər arasında İbrahim ibn Məhəmməd,

Əhməd ibn İshaq əl-Hadrami, Əbu Cəvvab əl-Əhvəs ibn Cəvvab, Əsvəd ibn Amr, Cəfər ibn Əvn, Həssan ibn Abdulla əl-Kindi və başqaları vardır. [180, XXIV, 396] Məhəmməd ibn İshaq əs-Səğaninin tələbələrindən isə Əbu Davud, Tirmizi, Nisai, İbn Əbu Hatim, Əbu əl-Hüseyin Əhməd ibn Cəfər ibn əl-Munadi, Əbu Səid Əhməd ibn Ziyad ibn əl-Ərabi, İsmayıl ibn Məhəmməd əs-Səfari, Cəfər ibn Məhəmməd kimi alimləri misal göstərmək olar. [180, XXIV, 397; 139, XII, 593]

Məhəmməd ibn İshaq əs-Səğani hicri 270 (m. 883)-ci il səfər ayının 7-də dünyasını dəyişmişdir. [118, I, 241, 242; 138, XII, 592-594; 139, II, 574; 83, III, 361]

Əbu İshaq İbrahim. Adı bütöv şəkildə Əbu İshaq İbrahim ibn əl-Hüseyn ibn Əli əl-Həmadani əl-Kindi olan bu mühəddis mənbələrdən aldığımız məlumatlara əsasən hicri 200 (m. 816)-cü ildən əvvəl Mədinədə dünyaya gəlmişdir. Onunla bağlı araşdırma apararkən mühəddisin elmə olan hərisliyindən xəbər verən "Siyfənnə" adlı bir ləqəbi olduğunu öyrəndik. Məlum oldu ki, Misir torpaqlarında olduqca qəribə xüsusiyyətə malik "Siyfənnə" adında bir quş vardır. Deyilənə görə, onun tələyə düşürülməsi qeyri-mümkündür və o bir ağaca qonduğu zaman həmin ağacın bütün yarpaqlarını yeməyə qadir nadir xüsusiyyətə malikdir. Əbu İshaq İbrahimin bütün bilikləri almadan müəlliminin elm ocağından ayrılmaması bu qeyri-adi ləqəbin ona tuş gəlməsinə səbəb olmuşdur.

Əbu İshaq İbrahim Əbu Nueym, Müslüm ibn İbrahim, Əbu əl-Yəman, Süləyman ibn Hərb kimi dövrünün alimlərindən Hərəmeyn, Misir, Şam və İraqda hədis dinləmişdir. Onun tələbələri arasında əl-Bərdici ilə yanaşı, Əbu Əvanə, Əbu əl-Həsən, Əli ibn İbrahim əl-Qəttani və başqalarının olduğu bildirilir. Mənbələrin verdiyi məlumata əsasən günaşırı oruc tutan Əbu İshaq İbrahim imam, hafiz, sıqa və abid kimi tanınmışdır. Aidiyyəti şəxslərin

barəsində müsbət fikirlər söylədiyi Əbu İshaq İbrahim hicrətin 277 (m. 890)-ci ilində vəfat etmişdir. Bəzi qaynaqlar isə onun ölüm tarixinin hicri 285 (m. 898)-ci ilə təsadüf etdiyini qeyd etmişdir. [118, IX, 331; 138, XIII, 184-190; 139, II, 608; 162, V, 346]

Cəfər ibn İsa ibn Nuh. Cəfər ibn İsa ibn Nuh Əzinə/Əzənədə məskunlaşmış və oranın Məhəmməd ibn İsa ət-Təbai kimi məşhur mühəddislərindən elm öyrənmişdir. Abdulla ibn Cabir ət-Tərsusi, Əbu Bəşir əd-Dəvlani, Yəhya ibn Məhəmməd ibn Səid və Əbu Abbas ən-Nisaburi kimi mühəddislərin rəvayət mənbəyi olmuş Cəfər ibn İsa ibn Nuhun etibarlı, güvənilən mühəddis olmasını onun tələbələrindən biri olan əl-Bərdici də təsdiqləmişdir. [200, I, 132; 118, VII, 180] Araşdırmalar zamanı bəzi alimlərin doğum tarixini öyrənərkən təbii olaraq müəyyən çətinliklərlə rastlaşsaq da, əksər hallarda onların ölüm tarixini müəyyənləşdirməkdə çətinlik çəkmirdik. Lakin davamlı araşdırmalarımıza baxmayaraq, Cəfər ibn İsa ibn Nuhun vəfat etdiyi tarixi təyin etmək mümkün olmadı.

Məhəmməd ibn Abdulla. Adı bütöv şəkildə Məhəmməd ibn Abdulla əl-Əsəm əl-Məntufidir. Bəni Hişamın mövlası olan bu mühəddis Əli ibn Asim, Rəvh ibn Ubadə, Abdüləziz ibn Əban kimi dövrünün elm adamlarından dərs almış və əl-Qazi əl-Məhamili, Məhəmməd ibn Məxləd və əl-Bərdiciyə müəllimlik etmişdir.

Hədis elmində etibarlı mühəddis kimi qəbul olunan Məhəmməd ibn Abdulla hicri 264 (m. 878)-cü ildə vəfat etmişdir. [118, V, 427, 428]

ər-Rəbi ibn Süleyman. İslam tarixində hafiz, imam və mühəddis kimi tanınan ər-Rəbi ibn Süleyman Abdulcəbbar ibn Kamil Əbu Məhəmməd hicrətin 174 (m. 790)-cü ilində dünyaya gəlmişdir. Əldə etdiyimiz məlumatlar onun Bəni Muradın mövlası olduğunu bildirir. İbn Vəhb Şueyb ibn əl-Leys, Bəşir ibn

Bəkr kimi alimlərdən dərs alması, Tirmizi, Əbu Zurə ər-Razi, İbn Əbu Hatim kimi məşhur hədis alimlərinin elmindən faydalanması onun barəsində məlumat verən mənbələrin səhifələrində qeyd olunmuşdur. Hicrətin 270 (m. 883)-ci ilində vəfat etmiş ər-Rəbi ibn Süleyman hədis tarixində kifayət qədər məşhur olmuşdur. [139, 586, 587; 170, XI, 440]

Yuxarıda qeyd olunan hədis alimlərinin həyat və yaradıcılıqları ilə yaxından tanış olduqda onların qarşıda duran çətinliklərə baxmayaraq elm öyrənməkdə, eləcə də əldə etdikləri elmi başqalarına öyrətməkdə israrlı olduqları aydın şəkildə müşahidə olunur. Bu alimlərin bir qismi tarixin yaddaşlarında layiqli yerlərini tutmuş, bəzilərinin yalnız bir neçə cümlə ilə varlıqları qorunmuş, bəziləri haqqında isə bu gün məlumat əldə etmək müşkilə çevrilmişdir. Əl-Bərdicinin müəllimləri barəsində məlumat topladığımız zaman bir qrup alimin yalnız adlarını təsbit edə bildik. Buna görə də həyatları və elmi fəaliyyətləri haqqında kifayət qədər məlumat toplaya bilmədiyimiz, lakin Əhməd ibn Harun əl-Bərdicinin onlardan elm öyrəndiyini, eləcə də hədis rəvayət etdiyini müəyyənləşdirdiyimiz alimlərin bir qisminin yalnız adlarını qeyd etməklə kifayətlənəcəyik. Bu alimlər aşağıdakılardır:

Əbu Abdulla Məhəmməd ibn İsmayıl ibn Muğirə əl-Cufi (v. h. 256/ m. 870), [105, III, 958] Yusif ibn Səid ibn Müslüm əl-Məsisi, Əbu Yaqub (v. h. 271/ m. 884), [139, 472; 170, XI, 414, 415; 180, III, 251, 252; 140, II, 470] ən-Nisai Əli ibn əl-Musna ət-Təhavi əl-Kufi (v. h. 256/ m. 870), [170, VII, 329] İbn Macə Əli ibn Məhəmməd ibn Əbu əl-Xətib Fərsi əl-Kufi (v. h. 258/ m. 872), [170, VII, 332] ən-Nisai Məhəmməd ibn Abdulla ibn Yəzid ibn İbrahim əş-Şeybani (v. h. 268/ m. 882), [170, IX, 289] Nəsr ibn Əli əl-Cəhzəmi (v. h. 250/ m. 864), Əli ibn əl-Hüseyin ibn İshaq, Bəhr ibn Nəsr əl-Xulani əl-Misri (v. h. 264/ m. 878),

Süleyman ibn Seyf əl-Hərrani, əl-Fədl ər-Ruxami (v. h. 258/ m. 872), Məhəmməd ibn Abdulməlik əd-Dəqiqi, Abbas ibn Vəlid əl-Beyruti, Məhəmməd ibn Əvf ət-Tai, Yezid ibn Abdussəməd, Süleyman ibn Abdulhamid ibn Rafi, Əli ibn əl-Musna ət-Təhavi əl-Kufi, Məhəmməd ibn Abdulla ibn Yəzid ibn İbrahim əş-Şeyban, Harun ibn İshaq ibn Məhəmməd ibn Malik ibn Zubeyd əl-Həmədani, Yəhya ibn Abdulla əl-Kərabisi, İshaq ibn Səyyar ən-Nəsibi, Amr ibn Abdulla əl-Əvdi, Məhəmməd ibn Həmdun əl-Kirman, əl-Həsən Əli ibn Əffan, Süleyman ibn Şueyb əl-Keysani, Əli ibn Abdurrəhman, Məhəmməd ibn Yəhya ibn Kəsir, əl-Vəlid ibn Müslim əl-Uzri. [116, 4; 115, 9, 10]

**Əhməd ibn Harun əl-Bərdicinin tələbələri:** Hədis aləmində həm faydalanmış, həm də faydalandırmış bir alim kimi tanınan Əhməd ibn Harun ibn Rəvh əl-Bərdici elm sahəsində əldə etdiklərini davamçılarına ötürmək istiqamətində də fəal olmuşdur. Belə ki, mənbələrdən əldə etdiyimiz məlumatlara görə, gələcəyin bir çox mühəddisi ondan el öyrənmişdir. Əl-Bərdicinin tələbələri arasında onun həmyaşıdları ilə bərabər yaşca ondan böyüklərin də olduğu bildirilir. Aşağıda qeyd olunan mühəddislər əl-Bərdicinin barələrində məlumat toplamaq imkanı əldə etdiyimiz tələbələridir.

ət-Təbərani. İslamın mühəddisi kimi şöhrət qazanmış bu alimin tam adı Süleyman ibn Əhməd ibn Eyyub əş-Şami əl-Ləhmidir. Görkəmli hədis alimlərinin daşıdığı titullardan imam, hüccət, hafiz, sıqa kimi titulların ona da şamil olunması ət-Təbəraninin xüsusilə hədis sahəsində önəmli hədis alimlərindən biri olduğunu göstərir. Hicrətin 260 (m. 874)-cı ilinin səfər ayında Bəqada dünyaya gəlmiş ət-Təbərani həm də Əbu əl-Qasim kunyəsi ilə məşhur olmuşdur. Hədis elminə olan marağı onun bu sahənin mütəxəssislərindən birinə çevrilməsində böyük rol oynamışdır. Onun hicri 273 (m. 886)-cü ildə hədis dinləməyə

başladığı bildirilir. Hicrətin 275 (m. 888)-ci ilindən etibarən dövrünün ağır şəraitində Qüds, Hums, Mədain, Şam, Misir, Ərəbistan, Yəmən, İraq, Bağdad, Kufə, Bəsrə, İran və İsbahana səfərlər etmişdir. [139, III, 912; 165, I, 4; 164, I, 9, 10] Ömrünün on altı ilini təhsil almaq məqsədi ilə səfərlərdə keçirmiş ət-Təbərani yaşca özündən kiçiklər və böyüklər arasında fərq qoymamış, həmyaşıdları da daxil olmaqla hədis yazma imkanı əldə etdiyi bütün mühəddislərdən hədis yazmışdır. [166, 17, 18] ət-Təbərani min və ya daha artıq hədis alimindən hədis dinləmiş və rəvayət etmişdir. Bir çox hədisçinin də ondan hədis əxz etdiyi bildirilir. O, hədis elmində üç yüz mindən artıq hədisi sənədləri ilə birlikdə əzbər bilən hədisçilərə verilən hüccət titulunu daşıyan hədis hafizlərinin qabaqcıllarından hesab olunur. Onun tələbələrindən Əbu Abbas əş-Şirazi ət-Təbəranidən üç yüz min hədis yazdığını bildirmişdir. Görkəmli İslam alimlərindən əz-Zəhəbi, İbn Qəyyum əl-Cəvzi, hafiz Əbu əl-Abbas əş-Şirazi onu təqdir etmişlər. [139, III, 912; 164, I, 10, 11]

Ət-Təbərani yalnız hədis sahəsində deyil, təfsir və İslam hüququ (fiqh) sahəsində də tanınmış alimlərdəndir. Onun böyüklü-kiçikli yüzə yaxın əsəri olduğu bildirilir. əz-Zəhəbi bu əsərlərin məşhurlarından bəzilərinin adlarını sadalamışdır. Onun bildirdiyinə görə, "əl-Mucəmul-kəbir", "əl-Mucəmul-əvsət", "əl-Mucəmus-səğir", "Musnədul-əşərə", "Musnəduş-Şamiyyiin", "Mərifətus-səhabə", "Musnəd Əbi Hurəyrə", "ət-Təfsir", "Dəlailun-nubuvvə", "Musnəd Əbi İshaq əs-Səbii", "Kitabus-sunnə", "Kitabun-nəvadir" kimi müxtəlif mövzuları əhatə edən əsərlər əl-Bərdicinin tələbəsi olmuş ət-Təbəraninin əsərlərindəndir. [139, III, 912]

əz-Zəhəbinin verdiyi məlumata görə, ət-Təbərani 100 il 10 ay yaşamışdır. O, zilqədə ayının sona çatmasına iki gün qalmış hicrətin 360 (m. 971)-cı ilində vəfat etmişdir. [138, XII, 125, 126]

Həsən ibn Əhməd ibn Saleh əs-Səbii. Şeyx, hafiz titullar-larının daşıyıcısı, Əbu Məhəmməd Həsən ibn Əhməd ibn Saleh Əbu Məhəmməd Saleh əl-Həmədani əs-Səbii adı ilə şöhrət qazanmış bu mühəddis hədis nəql etmə xüsusunda dövrünün nadir şeyxlərindən biri hesab olunurdu. Əl-Xətib əl-Bağdadi onun haqqında "O, etibarlı və hafizdir" demişdir. [118, VII, 272, 273] İbn Usamə isə onun mənsub olduğu bölgəyə qazandırdığı dəyəri "Hələblilərin fəxr etmələri üçün əs-Səbiinin onlardan biri olması kifayətdir" deməklə ifadə etmişdir. Dövrünün hökmdarının ona xüsusi hörmətlə yanaşdığı və onu evində ziyarət etdiyi bildirilir. Hədis sahəsinə olan marağı ömrünün sonuna kimi davam etmiş, qoca yaşlarında da hədis yazmağa və rəvayət etməyə səy göstər-mişdir. Dövrünün məşhur ustadlarından sayılan Məhəmməd ibn Hubban, Abdulla ibn Naciyə, Ömər ibn Eyyub, Məhəmməd ibn Cərir ət-Təbəri və digər elm adamlarından İslam dini ilə bağlı elmlər öyrənmişdir. Onun elminə müraciət edənlərə gəlincə isə Daraqutni, Abdulğəni əl-Əzdi, Əbu Bəkr əl-Bərqai, Əbu Talib Məhəmməd ibn Hüseyin ibn Bukeyr, Əbu Nuaym əl-İsbəhani kimi gələcəyin mühəddislərinin ondan elm öyrəndikləri bildirilir.

Əbu Məhəmməd Həsən ibn Əhməd hicrətin 371 (m. 981)-ci ilində zilhiccə ayında vəfat etmişdir. [138, XVI, 296-299; 139, 952-954; 162, II, 379, 380]

Məymun ibn İshaq. Şeyx, səduq (dürüst) titullarının şamil edildiyi bu mühəddis Əbu Məhəmməd əl-Bağdadi əs-Səvvaf adı ilə şöhrət qazanmışdır. Mötəbər qaynaq müəlliflərindən hesab olunan əl-Xətib əl-Bağdadi Əbu Məhəmmədin etibarlı, dürüst olduğunu təsdiqləmiş və onun doğum tarixinin hicri 260 (m. 874)-cı ilə təsadüf etdiyini bildirmişdir. Əhməd ibn Abdulcabbar, Həsən ibn əs-Səmh, Əhməd ibn Harun əl-Bərdicidən dərs almış bu mühəddis İbn Fadl əl-Qəttan, Əbu əl-Həsən Həmmami, Əbu Əli ibn Şazan kimi şəxslərə müəllimlik etmişdir.

Əbu Məhəmməd haqqında məlumat topladığımız mənbələrdə onun doğum yerini təsbit etmək mümkün olmadı. Onun əl-Bağdadi kimi təqdim edilməsi Bağdadda doğulduğunu düşünməyə əsas verir, lakin bu nəticə zəif ehtimal olaraq qalır.

Əbu Məhəmməd hicrətin 351 (m. 962)-ci ilində vəfat etmişdir. [138, XV, 551]

İbn Nəcm. Mənbələrdə imam, hafiz Əbu Abdulla Əhməd ibn Tahir ibn ən-Nəcm əl-Məyanci kimi təqdim olunan bu mühəddis hədis toplamaq üçün bir çox səfər və səyahətlər etmiş hədisçi kimi şöhrət qazanmışdır. Abdulla ibn Əhməd ibn Hənbəl, Yəhya ibn Məhəmməd əl-Hənnai, Əbu Müslüm əl-Hicci kimi alimlərdən elm öyrənmiş və Yaqub ibn Yusif əl-Ərdəbili, Əhməd ibn Hüseyin ət-Tərasi, Əhməd ibn Faris əl-Ləğvi kimi gələcəyin elm adamlarına müəllimlik etmişdir. İbn Faris onun barəsində belə deyir: "İbn Nəcm özü kimi birini görmədi. Mən də onun kimi birinə rast gəlmədim." İbn Nəcmin vəfat etdiyi tarix barəsində fikir ayrılıqları mövcuddur. Əksər alimlərin gəldiyi nəticəyə görə isə o, hicrətin 350 (m. 961)-ci ilindən sonra vəfat etmişdir. [138, XVI, 172, 173; 105, III, 959]

Məşhur azərbaycanlı mühəddis Əhməd İbn Harun əl-Bərdi-cinin elmindən faydalanmış digər mühəddislər isə aşağıdakılardır:

Cəfər ibn Əhməd ibn Sənan əl-Qəttan, Əbu Bəkr Məhəmməd ibn Abdulla əş-Şafeyi, Əbu Əli Məhəmməd ibn Lulu əl-Vərraq, Əbu Əli ibn Səvvaf, Əbu Əhməd əl-Əssal, Əbu Əhməd ibn Ədi əl-Cürcani. [116, 5; 115, 10]

### 2.3. Əhməd ibn Harun əl-Bərdicinin elmi fəaliyyəti

əl-Bərdicinin doğum tarixinin dəqiq bilinmədiyini, lakin böyük ehtimalla hicri III (m. IX) əsrin I yarısında onun dünyaya gəldiyi, erkən yaşlarından təhsil almaq məqsədi ilə bir çox ölkələrə səfərlər etdiyi barədə yuxarıda məlumat vermişdik. Onun həyat və yaradıcılığı hədis elminin yüksək inkişaf etdiyi hicri III (m. IX) əsrə təsadüf etmişdir. Bu əsrdə məşhur olmaq, yeni mövzuda əsər yazmaq üçün yüksək bacarıq və məharət tələb olunurdu. Bu tələblərə cavab verən əl-Bərdici məşhurlar arasında məşhur olmağı bacarmış və əsrinin böyük mühəddislərindən biri olmuşdur. Əl-Bərdicinin elmi fəaliyyətindən danışan İslam alimləri onun barəsində daim müsbət fikirdə olmuş, mənfi fikir söyləməmişdir. Bəzi alimlərin əl-Bərdici barəsində fikir söyləməklə onu təqdir etmələri onun yalnız məşhur alim deyil, həm də əqidəsinə sadiq, səmimi insan olduğundan xəbər verir. Aşağıda qeyd olunan təriflər əl-Bərdicinin hədis aləmindəki yerini və ona olan inamı bir daha aydın şəkildə ifadə edir.

Əd- Daraqutni: "O, əmanətə xəyanət etməyən, sözünə istinad edilən, özünə etibar olunan bir şəxsdir" [138, XIV, 123]

Saleh ibn Əhməd əl-Hafiz: "O, dürüst hafizlərdəndir" [115, 9]

Əhməd ibn Kamil əl-Qazi: "O, hifzi ilə seçilən hədis hafizlərindən idi" [115, 9]

Əl-Xətib əl-Bağdadi: "O, etibarlı, kübar, üstün və zehni açıq bir şəxs idi" [115, 9]

Görkəmli alim İbn Əsakirin əl-Bərdici barəsində söylənilən müsbət fikir və tərifləri nəql etməsi bütün bu deyilənlərin onun tərəfindən təsdiqlənməsinin bir göstəricisidir. [115, 9]

Əz-Zəhəbi: "O, etibarlı, hafiz və öndərdir" [138, XIV, 123]

Əbu Şeyx əl-İsbəhani: "O, hədis hafizlərindən və bu sahənin yüksək nüfuz sahiblərindəndir." [111, IV, 84]

Əs-Suyuti: "O, hafiz, imam, etibarlı və nəcib insandır" [154, 317]

Əbu Abdulla Məhəmməd ən-Nisaburi: "O, həm faydalanmış, həm də faydalandırmışdır." [22, 6]

İbn İmad: "Şəhərin ən öndə gələn alimlərindən biri idi" [83, IV, 6]

Göründüyü kimi, görkəmli elm sahiblərinin dilindən nəql olunan tariflər dürüstlük, etibarlılıq, nəciblik, hafizlik, alimlik, zehniaçıqlıq və s. kimi xüsusiyyətləri ehtiva etməklə əl-Bərdicinin həm insani, həm də elmi keyfiyyətlərini aydın şəkildə əhatə etmişdir.

**əl-Bərdicinin əsərləri:** Əhməd ibn Harun əl-Bərdicinin yüksək bacarığının, elmi zəkasının məhsulu olan və onun yaradıcılıq fəaliyyətindən xəbər verən əsərləri xüsusunda araşdırma apararkən məlum oldu ki, azərbaycanlı hədis aliminin tarixə məlum olan altı ədəd kitabı vardır. [116, 6] Bu əsərlər aşağıdakılardan ibarətdir:

1- əl-Kəbair

2- Təbəqatul-əsma əl-mufrədə minəs-səhabə vət-tabiin və əshabil-hədis

3- Mərifətul-muttəsil minəl-hədis vəl-mursəl vəl-məqtu və bəyanut-turuq əs-səhihə

4- əl-Mərasil

5- əl-Fəvaid

6- əl-Cərh və ət-tədil

Çox təəssüf ki, azərbaycanlı mühəddisin hədis fəaliyyətinin araşdırılmasında xüsusi əhəmiyyət kəsb edən bu əsərlərin hamısı

dövrümüzə qədər gəlib çatmamış, əgər çatmış olsa belə müasir hədis elminə indiyə qədər naməlum qalmışdır.

Yuxarıda qeyd olunan əsərlərdən birincisi əlyazma şəklində olub Səudiyyə Ərəbistanı Krallığının Məlik Səud Universitetində çalışan tədqiqatçı alim Məhəmməd ibn Turki ət-Turki tərəfindən təhqiq olunmuş, lakin böyük ehtimalla hələ də çap olunmamışdır. Əl-Bərdicinin haqqında danışılan əsəri İslam dininin qətiyyətlə qadağan etdiyi böyük günahlardan bəhs edir. Sözügedən əsəri təhlil edərkən əsərin elektron variantına istinad etmişik. [116]

əl-Bərdicinin dövrümüzə qədər gəlib çıxmış digər əsəri isə yuxarıdakı siyahıda ikinci yerdə qeyd olunan əsərdir. Nadir adlı hədisçilərdən bəhs edən bu əsərin üç əlyazma nüsxəsi mövcuddur. Bundan əlavə, haqqında danışılan bu əsər 1987-ci ildə Səkinə əş-Şihabi adlı tədqiqatçı xanım tərəfindən təhqiq olunaraq tədqiqat, tərcümə və nəşr müəssisəsi olan "Təlas" tərəfindən çap olunmuşdur. [115]

Adından hədis elminin üsul sahəsini əhatə etməsi başa düşülən üçüncü əsərin isə əlyazma nüsxəsinin hansı kitabxanada saxlanıldığına dair aidiyyətli mənbələrdən məlumat əldə edə bilmədiyimiz kimi onun çap olunub-olunmaması da bizim üçün qaranlıq qaldı. Lakin müəyyən qaynaqlardan əl-Bərdicinin bu adda əsərinin olmasını təsbit edə bildik. [110, 207] Yuxarıdakı siyahıda adları qeyd olunan digər üç əsərlə bağlı isə onların adlarından başqa əlavə heç bir məlumata rast gəlmədik.

Beləliklə, araşdırmalarımız nəticəsində məlum oldu ki, əl-Bərdicinin tarixə məlum olan altı əsərindən yalnız ikisi dövrümüzə qədər gəlib çıxmış və hətta onlardan biri çap olunmuşdur. Digər dörd əsərin isə yalnız adları müxtəlif mənbələrdə qeyd olunmuşdur. Əl-Bərdicinin dövrümüzə qədər gəlib çatmamış dörd əsəri arasında "Mərifətul-muttəsil minəl-

hədis vəl-mursəl vəl-məqtu və bəyanut-turuq əs-səhihə" kitabının adına müxtəlif mənbələrdə daha çox rast gəlinir.

**Əl-Bərdicinin hədis sahəsindəki rolu:** Azərbaycanlı mühəddis əl-Bərdicinin həyatı, yaradıcılığı, elmdə əldə etdiyi uğur və müvəffəqiyyətlər, hədis elminə qazandırdığı orijinal əsərlər [116;115] onun hədis elmində özünəməxsus yerinin olmasından xəbər verir. Bütün bunlarla yanaşı, alimin hədis aləmində hansı boşluğu doldurduğunu və hansı sahənin təkmilləşməsində yaxından iştirak etdiyini araşdırmaq haqqında danışılan mühəddisin hədis fəaliyyətinin öyrənilməsində xüsusi əhəmiyyət kəsb edir. Bu istiqamətdə apardığımız araşdırmalardan məlum oldu ki, azərbaycanlı mühəddis hədis elminin rical (hədis ravilərinin tanıdılması) sahəsində daha çox məşhur olmuşdur. Onun bu sahədə daha böyük uğur qazanması qələmə aldığı əsərlərindən aydın görünür. Belə ki, əl-Bərdicinin nadir adlardan [115] bəhs edən əsəri məhz hədis rəvayət edən şəxsləri əhatə etməklə onun digər əsərləri ilə müqayisədə ən çox uğur qazanmış və ən çox danışılan əsəri olmuşdur. Lakin əl-Bərdicinin ömrünü həsr etdiyi hədisşünaslıq sahəsində əldə etdiyi elm bu əsərin ehtiva etdiyindən daha çox olduğunu düşünürük. Onun tərəfindən qələmə alınmış əsərlərin hədisşünaslığın müxtəlif sahələrini əhatə etməsi bu həqiqəti təsdiqləyən ilkin dəlillərdəndir. Məsələn, onun İslam dininin çox əhəmiyyətli mövzularından biri olan Allahın qətiyyətlə qadağan etdiyi günahlar mövzusuna [116] dair hicri III (m. IX) əsrdə ilk müstəqil kitab yazması və həmin kitabda Məhəmməd peyğəmbərdən haqqında danışılan günahlar xüsusunda varid olmuş hədisləri toplaması hədisşünaslığın digər istiqamətidir. Bu əsər müəyyən mövzuya təhkim edilmiş hədislər toplusudur. Eləcə də haqqında kifayət qədər məlumat əldə etmək imkanına malik olmadığımız "Mərifətul-muttəsil minəl-hədis vəl-

mursəl vəl-məqtu və bəyanut-turuq əs-səhihə” kitabı [110, 207] dövrümüzə qədər gəlib çıxmasa da, onun adından məlum olur ki, bu kitabın əhatə etdiyi mövzu bundan əvvəlki əsərlərin əhatə etdiyi mövzulardan tamamilə fərqlənir. Belə ki, bu əsər hədis üsulu (hədisşünaslığın əsasları) ilə əlaqədar olmuşdur.

Azərbaycanlı mühəddis əl-Bərdicinin hədis aləmində malik olduğu yüksək məqamı ifadə edən digər bir göstərici isə ondan sonra gələn alimlərin, tarixçilərin öz əsərlərində müəyyən mövzularda ona istinad etməsidir. Əl-Bərdicinin elmindən faydalanmış məşhur müəlliflərin arasında “Tarixu Bağdad” əsərinin müəllifi əl-Xətib əl-Bağdadi (v. h. 463/ m. 1071), “Mizanul-itidal” əsərinin müəllifi əz-Zəhəbi (v. h. 748/ m. 1347), “Lisanul-mizan” əsərinin müəllifi əl-Əsqalani (v. h. 852/ m. 1448) də vardır. Qeyd olunan bu müəlliflər əl-Bərdicinin hədis sahəsindəki dəyərləndirmələrinə və rical haqqındakı fikirlərinə müraciət etmişlər. Tahir əl-Cəzairi (v. h. 1338/ m. 1920) isə “Təvcihun-nəzər” adlı əsərində əl-Bərdicinin həm munkər hədis mövzusundakı fikirlərinə yer vermiş, həm də rical haqqındakı dəyərləndirmələrinə tez-tez işarə etmişdir.

# III FƏSİL. ƏHMƏD İBN HARUN ƏL-BƏRDİCİ HƏDİSŞÜNAS ALİM KİMİ

## 3.1. Əl-Bərdicinin "Cuzun fihi mən rəva ənin-Nəbi minəs-səhabə fil-kəbair" əsəri

"جزء فيه من روى عن النبي صلى الله عليه وسلم من الصحابة في الكبائر"

Hədis tarixinin qızıl dövrü kimi yaddaşlara həkk olunan hicri III (m. IX) əsrdə hədis alimləri tərəfindən ötən əsrlərdən məlum olan Məhəmməd peyğəmbərin həyatından, din uğrunda apardığı döyüşlərdən bəhs edən kitablar, sünənlər, musənnəflər, camilərlə yanaşı məhz bu əsrin məhsulu olan musnədlər, mustəxrəclər və hədis elminin müxtəlif sahələrini əhatə edən hədis kitabları yazılmışdır. Hicri III (m. IX) əsrdə meydana çıxan və öz xüsusiyyətləri ilə sələflərindən fərqlənən yeni kitabların bir qismi də "cüz" adlandırılmışdır. Cüz bir səhabənin və ya onlardan sonra gələn bir hədisçinin hədislərini ehtiva edən kitablara deyilir. Bəzən müəyyən bir mövzudan bəhs edən hədisləri ehtiva edən məcmuələr də "cüz" adlandırılmışdır. Cüzlər hicri III (m. IX) əsrdən etibarən daha çox diqqət mərkəzində olmuş və mənbələrin verdiyi məlumatlara əsasən hədisçilər tərəfindən minlərlə cüz yazılmışdır. əz-Zəhəbinin nəql etdiyinə görə, Nisaburun tanınmış mühəddislərindən olan hafiz Əbu Hazim Ömər ibn Əhməd əl-Əbdəvi (v. h. 417/ m. 1026) "Öz əlimlə hər bir şeyxdən min cüz olmaqla on şeyxdən on min cüz yazdım" [139, II, 1072, 1073] – demişdir. Bu məlumat hicri III (m. IX) əsrdə hədisçilərin öz yaradıcılıqlarında sözügedən kitab növünə kifayət qədər önəm

vermələrindən və bunun nəticəsi olaraq sayı minlərlə olan cüzlərin meydana çıxmasından xəbər verir.

Hədis fəaliyyətini araşdırdığımız azərbaycanlı hədis alimi Əhməd ibn Harun əl-Bərdici onu əhatə edən elmi yeniliklərə biganə qalmamış, növbəti əsərini dövrünün yeni kitab növü olan cüz formasında yazmışdır. Haqqında danışdığımız kitabın müəllif tərəfindən "cüz" adlandırılması və müəyyən bir mövzunu əhatə etməsi bu əsərin hicri III (m. IX) əsrdə meydana çıxmış cüz nümunələrindən olduğunu deməyə əsas verir.

Əl-Bərdicinin hədis fəaliyyətində mühüm rol oynamış bu əsərin təhlilinə başlamadan əvvəl əsərin əhatə etdiyi mövzunun mahiyyəti, əl-Bərdicidən sonra bu mövzuya müraciət edənlər və ümumiyyətlə, bu haqda düşünənlər barədə qısa da olsa məlumat verməyin faydalı olacağını ümid edirik.

**"Kəbair" ifadəsinin mənası:** Azərbaycan dilinə "böyük günahlar" kimi tərcümə edilən "Kəbair" ifadəsi dini termin olaraq bir çox müsəlman xalqlarının dillərində ərəb dilində olduğu kimi istifadə edilir. İslam hüququ baxımından böyük günahın sərhədlərini müəyyənləşdirməyə çalışan mütəxəssislər mövzu ilə əlaqədar müxtəlif təriflər söyləmişlər. Qeyd olunan mövzu iə əlaqədəar söylənilmiş təriflərin bəziləri aşağıdakılardır:

- Böyük günah şəriətin cəza biçdiyi əməldir.
- Sahibini dəhşətli əzaba düçar etməsi Quran və hədislə təsbit edilmiş günah kəbair günahlardandır.
- O, dünyada cəza və ya axirətdə dəhşətli əzabla qarşılanacaq günahdır.
- Allahın qadağan etdiyi hər şey kəbirədir (böyük günahdır).
- O, lənətə, qəzəbə və ya oda aparan hər bir günahdır.

Böyük günahlara dair söylənilmiş bu təriflərdən sonuncusunu Şeyxülislam İbn Teymiyyə müsbət qiymətləndirmişdir.

İbn Həcər böyük günahlar ilə əlaqədar bir neçə tərifi sadaladıqdan sonra öz fikrini bildirərək belə demişdir: “əl-Qurtubinin haqqında danışılan mövzu ilə əlaqədar verdiyi tərif məna baxımından təriflər arasında ən yaxşılarındandır. “Quran, sünnə və icma ilə kəbirə (böyük) olması təsbit edilmiş və ya şiddətli cəza ilə xəbərdar edilmiş, cəza kəsilmiş, qınanmış hər bir günah kəbirədir.” [kəbair mövzusuna dair daha ətraflı məlumat üçün bax: 169, VIII, 233; 86, XI, 650; 184, I, 8; 85, 119; 172, XII, 189-191]

Yuxarıda qeyd olunan təriflərə diqqət yetirdikdə bu mövzunun nə qədər önəmli olduğu, Allah və Elçisinin böyük günah hesab etdikləri əməlləri bildirən hədisləri bir kitabda toplamağın nə qədər təqdirəlayiq bir iş olduğu aydın şəkildə başa düşülür.

İslam dinində “kəbirə” kimi tanınan böyük günahlara dair fərqli fikirlər bildirən İslam alimləri haqqında danışılan günahların sayı və bu günahların konkret olaraq nədən ibarət olması xüsusunda da bir fikri təsdiqləməmişlər. Belə ki, Quran və sünnə əsasında təsbit olunmuş günahları böyük günah hesab edənlər yeddi və ya doqquz sayının üzərində durmuşlar. Böyük günahları daha geniş bir təriflə izah edənlər isə onların sayının doqquzdan daha çox olması qənaətindədirlər.

**Böyük günahlardan bəhs edən kitablar:** Bu mövzuya həsr edilmiş bir neçə kitabı sadalamaqda fayda olduğunu düşünürük. Bu istiqamətdə apardığımız araşdırmalar nəticəsində məlum oldu ki, bəzi müəlliflər böyük günahlara dair müstəqil kitab yazmış, bəziləri isə əqidə, hədis və başqa sahələrə həsr etdikləri kitablarda bu mövzunu da əhatə etməyə çalışmışlar. Haqqında danışılan mövzudan bəhs edən müstəqil kitablara aşağıdakıları misal göstərmək olar:

1- əl-Bərdicinin “əl-Kəbair” kitabı. [116]

2- əz-Zəhəbinin bir neçə dəfə çap olunmuş məşhur “əl-Kəbair” əsəri [137]

3- əl-Əlainin “əl-Kəbair” əsəri. [116, 3]

4- əd-Diləminin “əl-Kəbair” əsəri [116, 3]

5- İbn Həcər əl-Heysəminin “əz-Zəvacir ən iqtirafil-kəbair” əsəri. Bu kitab da bir neçə dəfə çap olunmuşdur. Mütəxəssislər onun bu mövzuya həsr edilmiş ən geniş kitab olduğunu istisna etmirlər. [184]

6- Əhməd əş-Şərif əl-Bərqavinin “əl-Umdə bi təmyizil-kəbair” əsəri. [116, 3]

7- Hasi Kuta “əl-Kəbirə vəl-məzahibu fihi” (magistr dissertasiyası. Ummul-Qura Universiteti, Şəriət Fakültəsi.1401h.) [186]

Yuxarıda qeyd olunan kitablar adlarından da məlum olduğu kimi, sırf bu mövzuya həsr edilmişdir. Bu sahəyə müstəqil kitab həsr etməmiş, lakin mövzunun əhəmiyyətli olması səbəbilə öz kitablarında ona yer ayırmış müəlliflərə misal olaraq aşağıdakıları göstərmək olar:

1-İmam əl-Lalkai “Şərhu usuli itiqadi əhlis-sünnə” [179, VI, 1103 və sonrakı səhifələr]

2-İmam İbn ən-Nuhhas “Tənbihul-ğafilin” [85, 119 və sonrakı səhifələr] O, əz-Zəhəbi və İbn əl-Qəyyimin diqqətindən yayınmış bir çox kəbairi kitabında qeyd etdiyini bildirmişdir.

**əl-Bərdicinin “Kəbair” əsərinin tam adı:** Əhməd ibn Harun əl-Bərdicinin yuxarıda qeyd olunan əsərinin tam adı əsərin əlyazma nüsxəsində “ جزء فيه من روى عن النبي صلى الله عليه وسلم من الصحابة في الكبائر” [Cuzun fihi mən rəva ənin-Nəbi minəs-səhabə fil-kəbair] (Səhabələrin Peyğəmbərdən “əl-kəbair” (böyük günahlar) mövzusuna dair rəvayətlərini ehtiva edən cüz kitabı) kimi göstərilmişdir. Əsərə olunmuş əlavələrdə isə kitabın adının “ما روي في الكبائر” [ma ruviyə fil-kəbair] (Kəbair mövzusuna dair rəvayətlər) olduğu bildirilir. [116, 6]

**Əsərin həqiqətən əl-Bərdici tərəfindən yazılmasını təsdiqləyən dəlillər:** Haqqında danışılan əsərin doğrudan da Əhməd ibn Harun əl-Bərdiciyə aid olub-olmaması istiqamətində apardığımız araşdırmalar bu əsərin həqiqətən azərbaycanlı mühəddis əl-Bərdici tərəfindən yazıldığını təsdiqləyir. Mövzu ilə bağlı apardığımız tədqiqatın nəticələri:

1-Etibarlı rəvayət zəncirinin olması bu əsərin əl-Bərdiciyə aid olduğunu təsdiqləyir.

2-əz-Ziya əl-Məqdisi, İbn Abdulhadi və s. kimi hafizlərin bu əsərin əl-Bərdiciyə aid olmasını təsdiqləməsi bu xüsusda yanılmadığımızı göstərir.

3-Hər bir hədisin əvvəlində qeyd olunan şeyxlər müəllifin ustadları, müəllimləridir.

4-Müəllif tərəfindən rəvayət olunmuş bəzi hədislərin eyni sənədlə haqqında danışılan kitabda da yer alması əsərin həqiqətən azərbaycanlı mühəddisə məxsus olduğunu göstərir.

İbn Həcər haqqında danışdığımız kitabın ehtiva etdiyi rəvayətləri nəql etmişdir. Bütün bunlar kitabın adını açıqlamasa da, İbn Həcərin azərbaycanlı mühəddis əl-Bərdicinin elmindən faydalandığını aydın şəkildə ifadə edir. [116, 7]

Yuxarıda qeyd olunan məlumatlar haqqında danışılan kitabın həqiqətən Əhməd ibn Harun əl-Bərdiciyə məxsus olduğunu bir daha təsdiqləyir. Bu kitabın kifayət qədər şöhrət qazanmamasına və hədisçilər tərəfindən aidiyyəti yerlərdə qeyd olunmamasına gəlincə isə düşünürük ki, buna səbəb həmin kitabın həcmcə çox kiçik olmasıdır. Məlumat üçün bildiririk ki, haqqında danışdığımız bu kitabın ehtiva etdiyi hədislərin sayı on birdir.

**Əsərin əhatə etdiyi mövzu:** Əhməd ibn Harun əl-Bərdicinin müəllifi olduğu bu kitab adından da məlum olduğu kimi İslam dininin qətiyyətlə qadağan etdiyi böyük günahlardan və həmin günah sahiblərinin axirət günü məruz qalacaqları əzab-əziyyətdən

bəhs edən hədisləri ehtiva edir. Kitabın İslam dininin olduqca əhəmiyyətli mövzularından biri ilə bağlı olmasına baxmayaraq, müəllif Məhəmməd peyğəmbərin bu mövzu ilə əlaqədar bütün hədislərini kitabına daxil etməmiş və böyük günahlara dair bir çox hədis kitabdan kənarda qalmışdır.

**Əsərin əhəmiyyəti:** Allahın Məhəmməd peyğəmbər vasitəsi ilə qətiyyətlə qadağan etdiyi əməllərdən bəhs edən bu kitab əhatə etdiyi mövzu ilə olduqca əhəmiyyətli hesab olunur. Haqqında danışılan kitaba daha da əhəmiyyət qazandıran digər səbəblər isə aşağıdakılardır:

1-Həcmcə çox kiçik olmasına baxmayaraq, azərbaycanlı mühəddisin yazdığı bu kitab böyük günahlar mövzusuna həsr olunmuş ilk müstəqil hədis kitabı hesab olunur. [116, 7]

2-əl-Bərdicidən sonra uzun müddət bu mövzuya müraciət edilməmiş və onun haqqında danışılan əsəri əsrlər boyu əhatə etdiyi mövzu ilə yeganə kitab olaraq öz orijinallığını qoruyub saxlamışdır. Əl-Bərdicidən sonra bu mövzuda kitab yazan əz-Zəhəbi olmuşdur. Adları qeyd olunan bu iki müəllif arasında dörd əsrdən çox zaman fərqinin olduğu bildirilir. [116, 7]

3-Hədislər sənədləri ilə birlikdə kitaba daxil edilmişdir. Müəllifin bu metodu onunla eyni dövrdə yaşamış alimlərin metodları ilə üst-üstə düşür. Bu da heç şübhəsiz, sözügedən kitaba əhəmiyyət verən əsas amillərdəndir.

4-Kitabın müəllifi imam, hafiz kimi titulların sahibi və dürüstlüyü görkəmli alim və hədisçilər tərəfindən təsdiqlənmiş şəxsiyyətlərdəndir. Belə bir alimin qələmindən çıxmış kitabın dövrümüzə qədər gəilb çıxması ümumiyyətlə din, xüsusi ilə hədisşünaslıq naminə qənimətdir.

5-Kitabın əsas xüsusiyyətlərindən biri də Əbu Hüreyrə və Əbu Eyyubun aşağıdakı hədislərində olduğu kimi bəzi hədis

təriqlərinin (yollarının) yalnız əl-Bərdici tərəfindən qeyd olunaraq bu əsərdə yer almasıdır. [116, 13]

وأبو هريرة من ثلاثة أوجه:

فأحسن ذلك ما حدثنا الربيع بن سليمان، حدثنا ابن وهب، أخبرني سليمان بن بلال، عن كثير بن زيد، عن الوليد بن رَبَاح، عن أبي هريرة -رضي الله عنه - قال: قال رسول الله صلى الله عليه وسلم: "اتقوا السبع الموبقات".

قلنا: وما هنَّ؟.

قال: "الشرك بالله، وقتل النفس التي حرَّم الله إلا بالحق، والزنا، وأكل الربا، وأكل مال اليتيم، وشهادة الزور، وقذف المحصنات الغافلات المؤمنات".

وليس في كل الحديث ذكر: "قذف المحصنات" إلا في هذا.

وأبو أيوب رضي الله عنه:

حدثنا يزيد بن عبدالملك، حدثنا يزيد بن عمرو السكوني، حدثنا بقية، حدثنا ابن ثوبان، عن أبيه، عن مكحول يرده إلى أبي أيوب – رضي الله عنه – أن النبي صلى الله عليه وسلم قال: "أكبر الكبائر: الإشراك بالله، وقتل النفس، وعقوق الوالدين، ومنع ابن السبيل، والفرار من الزحف".

6-Hər bir müsəlmanı maraqlandıran olduqca əhəmiyyətli mövzudan bəhs edir.

**Müəllifin əsərdə tətbiq etdiyi metod:** Müəllifin haqqında danışılan kitabda tətbiq etdiyi metodunu müəyyənləşdirmək istiqamətində apardığımız araşdırmalar aşağıdakı nəticələri əldə etməyimizə imkan verdi:

1-əl-Bərdici qələmə aldığı bu kitaba Məhəmməd peyğəmbərin sırf böyük günahlardan bəhs edən hədislərini daxil etmiş, haqqında danışılan mövzu ilə əlaqədar olub böyük günahları aydın şəkildə ifadə etməyən hədisləri isə kitabına daxil etməmişdir.

2-Müəllif böyük günahlar mövzusu ilə bağlı varid olmuş hədisləri səhabədən sonra bir təriq (hədisin rəvayət yolu) ilə qeyd etmişdir. Bəlkə də onu buna vadar edən səbəb, əsərin həcminin böyüməsinə yol verməmək istəyi olmuşdur. [116, 8] Belə ki, o,

bəzən müəyyən bir hədisin səhabədən sonra bir neçə təriqlə nəql olunduğunu bildirərək sonda ən düz hesab etdiyini seçir. Bu da onu göstərir ki, qeyd olunan hədis bir neçə təriqlə varid olmuşdur və müəllifin özü də bundan bixəbər deyil, lakin məqsəddən uzaqlaşmamaq üçün həmin təriqlərdən ən düzgün hesab etdiyi ilə kifayətlənməyi daha münasib görmüşdür.

3-Müəllif nəql etdiyi hədislərdə ləfzi fərqlərə diqqət etmişdir. Əsərin bu xüsusiyyətini kitabda qeyd olunmuş ilk hədisdə aydın görmək mümkündür. [116, 12]

وهو ما حدثنا الحسن بن علي بن عفان، حدثنا عبدالله بن نمير، عن الأعمش عن أبي وائل، عن عمرو بن شُرحبيل، عن عبدالله بن مسعود - رضي الله عنه - قال: سُئل النبي صلى الله عليه وسلم عن الكبائر، فقال: "أن تُشرك بالله وهو خلقك، وأن تقتل ولدك خشية أن يأكل معك، وأن تزني بحليلة جارك". ثم قرأ صلى الله عليه وسلم: {وَالذِينَ لاَ يَدْعُونَ مَعَ اللهِ إِلَـهاً آخَرَ} الآيات.

لم يرو هذا إلا ابن نمير على لفظ: سُئل النبي صلى الله عليه وسلم عن الكبائر.

ورواه الثوري، وجرير: أن النبي صلى الله عليه وسلم سُئل: أي الكبائر أعظم.

Abdulla ibn Məsud buyurmuşdur: “Peyğəmbərdən böyük günahlar barəsində soruşuldu. O, belə cavab verdi: “Səni xəlq etmiş Allaha şərik qoşman, səninlə birgə yemək yeməsindən qorxaraq övladını öldürməyin və qonşunun xanımı ilə zina etməyin (böyük günah hesab olunur). Daha sonra isə bu ayəni oxudu: Onlar Allahla yanaşı başqa bir tanrıya ibadət etməz, Allahın haram buyurduğu cana nahaq yerə qıymaz (onu öldürməz), zina etməzlər. Hər kəs bunu (bu işləri) etsə, cəzasını çəkər” (əl-Furqan, 68)

Bu hədisi yalnız İbn Numeyr “Peyğəmbərdən böyük günahlar barəsində soruşuldu” ləfzi (cümləsi) ilə rəvayət etmişdir. əs-Səvri və Cərir isə həmin hədisi “Peyğəmbərdən böyük günahların ən böyüyü hansılardır? – deyə soruşuldu” ləfzi (cümləsi) ilə rəvayət etmişdir.

4-Müəllif hədislərin mətnlərinə və onlara olunan əlavələrə diqqət yetirərək haqqında danışılan kitabda belə hallara işarə etmişdir. Buna misal olaraq kitabda qeyd olunan beşinci hədisi göstərmək olar. [116, 13]

وأبو هريرة من ثلاثة أوجه:

فأحسن ذلك ما حدثنا الربيع بن سليمان، حدثنا ابن وهب، أخبرني سليمان بن بلال، عن كثير بن زيد، عن الوليد بن رَبَاح، عن أبي هريرة -رضي الله عنه - قال: قال رسول الله صلى الله عليه وسلم: "اتقوا السبع الموبقات".

قلنا: وما هنَّ؟.

قال: "الشرك بالله، وقتل النفس التي حرَّم الله إلا بالحق، والزنا، وأكل الربا، وأكل مال اليتيم، وشهادة الزور، وقذف المحصنات الغافلات المؤمنات".

وليس في كل الحديث ذكر: "قذف المحصنات" إلا في هذا.

Əbu Hüreyrə belə rəvayət etmişdir: Allah Rəsulu buyurmuşdur: “Yeddi böyük günahdan çəkinin. Biz soruşduq: Bu, (yeddi böyük günah) nədir? O, cavab verdi: Allaha şərik qoşmaq, Allahın haram buyurduğu cana nahaq yerə qıymaq, zina etmək, faiz yemək, yetimin malını yemək, yalandan şahidlik etmək və namuslu, mömin qadınlara iftira atmaq”.

Namuslu, mömin qadınlara iftira atmağın böyük günah olması yalnız bu hədisdə bildirilmişdir.

5-Hədislərin dəyərləndirilməsi də müəllifin diqqətindən yayınmamışdır. Məsələn, o, haqqında danışılan kitabda qeyd olunan doqquzuncu hədislə bağlı həmin hədisin mərfu və məvquf rəvayətlərinin olduğunu bildirmişdir. [116, 14]

وابن عمر رضي الله عنهما:

حدثنا محمد بن إسحاق، حدثنا الحسن بن موسى الأشيب، حدثنا أيوب ابن عتبة، عن طَيْسَلة، عن ابن عمر - رضي الله عنهما - عن النبي صلى الله عليه وسلم قال: "الكبائر سبع، الشرك بالله، وعقوق الوالدين، والزنا، والسحر، والفرار من الزحف، وأكل الربا، وأكل مال اليتيم".

هكذا رواه مرفوعاً.

وروى هذا الحديث عن طيسلة: يحيى بن أبي كثير، وزياد بن مخراق، عن طيسلة، عن ابن عمر رضي الله عنهما موقوفاً.

وهو طَيْسَلَة بن ميَّاس، وميّاس لقب، وهو طيسلة بن علي الحنفي

İbn Ömər Allah Rəsulundan rəvayət etdiyi bir hədisdə belə deyir: “Yeddi böyük günah vardır. (Bunlar) Allaha şərik qoşmaq, valideynin üzünə ağ olmaq, zina etmək, falçılıq, döyüşdən qaçmaq, faiz yemək və yetimin malını yeməkdir.”

Bu hədis mərfu olaraq rəvayət edilmişdir. Eyni zamanda, qeyd olunan hədis Teysələdən məvquf olaraq rəvayət olunmuşdur. O, Teysələ ibn Məyyasdır. Məyyas ləqəbdir. Onun (tam) adı isə Teysələ ibn Əli əl-Hənəfidir.

6-Müəllif ləqəb və xüsusi isimlərə diqqət etmişdir. Buna sübut yuxarıdakı hədisin sonunda “O, Teysələ ibn Məyyasdır. Məyyas ləqəbdir. Onun (tam) adı isə Teysələ ibn Əli əl-Hənəfidir” deməsidir.

Kitabla bağlı iradlara gəlincə, bununla əlaqədar qeyd olunan iradlardan biri də kitabın böyük günahlar mövzusuna dair bütün hədisləri ehtiva etməməsidir.

Haqqında danışılan kitabı təhqiq etmiş Məhəmməd ibn Turki ət-Turki bu irada belə münasibət bildirmişdir: “Kitabda qeyd olunan hədislər müəllif tərəfindən sənədləri təsbit etdilmiş hədislərdir. Bu, əl-Bərdicinin kitabın əvvəlində “Peyğəmbərin səhabələrindən on bir nəfər böyük günahlara dair hədis rəvayət etmişdir” deməsindən aydın görülür. Bu da onu göstərir ki, müəllif mövzu ilə bağlı yalnız bu hədisləri əldə edə bilmişdir. Əgər bu sahədə daha çox hədis əldə etmiş olsaydı, onları da qeyd edərdi” [116, 8]

Kitabla bağlı digər bir irad isə kitabın zəif sənədli bəzi hədisləri ehtiva etməsi və bununla bağlı müəllifin heç bir şəkildə məlumat verməməsidir.

Ət-Turki bu irada da münasibətini bildirərək belə demişdir: “əl-Bərdicinin isnad məsələsində tutduğu mövqe qənaətbəxşdir. Bu bir çox alimlərdə müşahidə olunan məlum üslubdur” [116, 8]

**Əsərin əlyazma nüsxəsi:** Haqqında danışılan kitabın əlyazması ilə bağlı apardığımız araşdırmalardan məlum oldu ki, əl-Bərdicinin böyük günahlardan bəhs edən bu əsərinin bir əlyazma nüsxəsi mövcuddur və həmin nüsxə əz-Zahiriyyə kitabxanasında 81 saylı məcmuənin tərkibində (1-dən 5-ə qədər olan vərəqlər) mühafizə olunur. Kitabın dövrümüzə qədər gəlib çıxmış bu əlyazma nüsxəsi əz-Ziya əl-Məqdisinin rəvayətinə istinad edir. O, bu kitab ilə birlikdə Əbu Səid Məhəmməd ibn Əhməd ibn Cəfər ibn Millətin yazılı qeydlərindən ikisini də rəvayət etmişdir. Bununla yanaşı, əl-Məqdisi bəzi hədisləri əl-Bərdicinin hədislərinə əlavə etmiş və onların əksəriyyətinin isnadını qeyd etmişdir. Qeyd etmək lazımdır ki, haqqında danışılan əlyazma nüsxəsi aydın xətlə yazılmış və kitabın üzünü köçürən şəxs hamişdə (sətiraltı, dərkənar qeydlər) bəzi düzəlişlər etmişdir. Lakin belə düzəlişlər bir neçə yerdə olmaqla bütün səhvləri əhatə etməmiş, hətta onun diqqətindən də bəzi xətalar yayınmışdır. Bu nüsxə ilə bağlı bir çox rəvayətlər mövcuddur. [116, 8, 9]

**Əsərin raviləri:** Kitabın əlimizdə olan əlyazma nüsxəsi dövrümüzə əz-Ziya əl-Məqdisi Əbu Abdulla Məhəmməd ibn Əbdulvahidin Əbulqasim Abdulvahid ibn Qasimdən o, da Əbu Əli əl-Həsən ibn Əhməd əl-Həddaddan o, da Əbu Nəim əl-İsbahanidən o, da Əbu Əli əs-Səvvafdan o, da müəllifdən rəvayət etməsi ilə gəlib çıxmışdır. [116, 9]

Əbu Abdulla Məhəmməd ibn Abdulvahid ibn Əhməd ibn Abdurrəhman əl-Məqdisi: Hicri 569 (m. 1174)-cu ildə dünyaya gəlmiş əl-Məqdisi sıqa, mutqin, hafiz kimi hədis sahəsinin yüksək titullarının sahibidir və onun tərcümeyi-halından danışanlar onun

barəsində müsbət fikirdə olduqlarını bildirmişlər. Onunla əlaqədar varid olmuş xəbərlər, təriflər olduqca çoxdur. Lakin bu mövzudan təfsilatı ilə danışmağın tədqiqat obyektimizin xaricində olduğunu düşünərək əl-Məqdisi ilə bağlı əldə etdiyimiz ən məşhur xəbərlərdən birini qeyd edirik:

İbn Nəccar: "O, hafiz, mutqin, səbt, sıqa, düz danışan, alicənab, hüccə, hədis və ricaldan xəbərdar alimdir. Onun məcmuələri və rəvayətləri vardır. O, təqva sahibidir, zahiddir, abiddir. O, halal yeyən və Allah yolunda cihad edəndir. And olsun ki, mən onun kimi təmiz, dürüst və elm yolunda gözəl inamlı başqa birini görmədim" – demişdir.

"Mütəvatir hədislər" və bu kimi başqa bir sıra əsərlərin müəllifi olan əl-Məqdisi hicri 643 (m. 1245)-cü ildə dünyasını dəyişmişdir. [116, 9]

Əbulqasim Abdulvahid ibn Əbu əl-Mutəhhir əl-Qasim ibn Fadl əl-İsbəhani əs-Seydəlani: əl-Bərdicinin haqqında danışılan kitabının dövrümüzə qədər gəlib çıxmasında əməyi olan hədisçilərdən biri də Əbulqasim Abdulvahiddir. O, hicri 514 (m. 1120)-cü ilin zilhiccə ayında dünyaya gəlmiş və hicri 605 (m. 1208)-ci il cəmadiləvvəl ayında, 91 yaşında vəfat etmişdir. Atası başda olmaqla Cəfər ibn Abdulvahid, ibn Əbuzər əs-Salihani və başqa hədisçilərdən hədis rəvayət etmişdir. Ondan isə əz-Ziya əl-Məqdisi, ibn Xəlil və başqa bir qrup hədisçi hədis rəvayət etmişdir. əz-Zəhəbi "İslam tarixi" kitabında onun haqqında "O, uzun ömür sürmüş ölkəsinin məşhur şeyxi və ravisidir" demişdir. [116, 9, 10]

Əbu Əli əl-Həsən ibn Əhməd ibn əl-Həsən əl-Həddad əl-İsbəhani: Azərbaycanlı hədis aliminin müəllifi olduğu əsərin ravilərindən biri də Əbu Əli əl-Həsən ibn Əhməddir. O, hədis sahəsində sıqa, hafiz kimi titullara malik məşhur hədis alimi olmuşdur. Onun tərcümeyi-halını bir neçə müəllif araşdıraraq

savadından bəhs etmişlər. O, yazılarının əksəriyyətini Əbu Nəim əl-İsbəhanidən rəvayət etmişdir. Əs-Səmani onun barəsində "O, elm, Quran, din əhlinə mənsub etibarlı və dürüst bir alim idi" demişdir. əz-Zəhəbi isə "O, imam, mahir qari, uzunömürlü mühəddis, dövrünün ravisi, hədis və qiraətlər sahəsində İsbəhanın şeyxidir" deyərək onu mədh etmişdir. O, təxminən 100-ə yaxın ömür sürdükdən sonra hicri 515 (m. 1121)-ci ildə vəfat etmişdir. [116, 10]

Əl-Hafiz Əbu Nəim Əhməd ibn Abdulla əl-İsbəhani: O, məşhur ustad, hafiz, elminin günişliyinə dəlalət edən "əl-Mustəxrəc", "əl-Hulyə", "Mərifətus-səhabə" və başqa bir çox faydalı əsərlərin müəllifidir. Onun həyatı bir çox müəlliflərin diqqət mərkəzində olmuş və hətta onlardan bəziləri ona müstəqil risalələr həsr etmişlər. Azərbaycanlı mühəddis əl-Bərdicinin əsərinin bizə yetişməsində müstəsna rolu olmuş bu hədis alimi hicri 430 (m. 1039)-cu ildə vəfat etmişdir. [116, 10]

Əbu Əli Məhəmməd ibn Əhməd ibn əl-Həsən əs-Səvvaf: Haqqında danışdığımız kitabı birbaşa əl-Bərdicinin özündən rəvayət etmiş bu hədisçinin rəvayət etdiyi şəxsiyyətlər sırasında əl-Bərdici ilə yanaşı, Tirmizi, Abdulla ibn Əhməd ibn Hənbəl və başqaları da vardır. Əbubəkr əl-Bərqani, Əbu Nəim, ibn Bəşəran və başqa bir sıra hədisçilər isə onun özündən rəvayət etmişlər. Əbu Əli Məhəmmədin həyatından yazmış müəlliflər onu təqdir etmiş, savadından danışmışlar. Daraqutni onun haqqında "Gözlərim Əbu Əli ibn əs-Səvvaf kimisini görməyib" demişdir. İbn Əbu əl-Fəvaris "O, sıqa və əmin, etibarlı biri idi. Mən onun kimi ehtiyatlı başqa birini görməmişəm" deyərək bu hədisçinin elminə və şəxsiyyətinə münasibət bildirmişdir. əz-Zəhəbi isə şeyx, imam, mühəddis, hüccə və sıqa titullarını Əbu Əliyə layiq görmüşdür. Hicri 270 (m. 883)-ci ildə dünyaya gələn Əbu Əli hicrətin 359 (m. 970)-cu ildə vəfat etmişdir. [116, 10]

**Əsər haqqında varid olmuş rəvayətlər**: əl-Bərdicinin haqqında danışılan kitabına dair bir çox rəvayətlər mövcuddur. Azərbaycanlı mühəddisin müəllifi olduğu “əl-Kəbair” əsəri ilə əlaqədar rəvayətlər əsərlə bağlı araşdırmaların tamamlanması baxımından çox əhəmiyyətlidir. Qeyd olunan məsələ ilə bağlı rəvayətlərin bəziləri aşağıdakılardır:

1-“640-cı il, cəmadiləvvəl ayının 21-də, Cəbəldə, bu cüzdən əl-Bərdicinin hədisini və bu mənada olan yazıları şeyx, alim, imam, zahid, hafiz Ziyauddin Əbu Abdulla Məhəmməd ibn Abdulvahid ibn Əhməd ibn Abdurrəhman əl-Məqdisiyə oxudum. Əbu Bəkr Yusif ibn Əbulfərəc əl-Hərani, Əbu ən-Nəcm Bədr ibn Abdulla əl-Əlai, Əbulfazl Omər ibn Abdulla ibn Əli əl-Farisi və Əbubəkr ibn Əhməd ibn Osman əl-Məqdisi oxuduqlarımı eşitdilər. İmza: Yusif ibn əl-Həsən ibn Bədr ibn əl-Həsən ən-Nablisi. ” [116, 11]

2-“ Əbu Bəkr əl-Bərdicinin böyük günahlara dair rəvayətlərini, (habelə) əbu Səid ibn Millətin iki yazılı qeydini və digər əlavələri ehtiva edən bu cüzü bütünlüklə şeyx, imam, alim, hafiz Ziyauddin əbu Abdulla Məhəmməd ibn Abdulvahid ibn Əhməd əl-Məqdisiyə oxudum. Bunu fəqih, imam Muciddin Məhəmməd ibn Məhəmməd ibn Ömər əs-Səffar əl-Əsfərayini, oğlu Abdurrəhman və Əbu Abdulla Məhəmməd ibn Sabit ibn Tavan ibn Əhməd ət-Tiflisi eşitdi. Bütün bunlar 642-ci il, şənbə günü, rəbiülaxir ayının ikinci ongünlüyündə baş vermişdir. İmza: Əhməd ibn Abdurrəhim ibn Abdulvahid ibn Əhməd əl-Məqdisi. Allah təbarəkə və təalaya həmd olsun. Allahın səlat və salamı Rəsulu Məhəmmədin, ailəsinin, əshabının üzərinə olsun.” [116, 11]

3-“Bu cüzü bütünlüklə imam, hafiz və tənqidçi Ziyauddin Əbu Abdulla Məhəmməd ibn Abdulvahid əl-Məqdisi (Allah onu hifz etsin) imam, alim Şəmsuddin Əbu əl-Abbas Əhməd ibn Məhəmməd ibn Umeyyə əl-Əbdurinin qiraəti vasitəsilə

eşitmişdir. Bütün bunlar 642-ci il, həftənin çərşənbə axşamı, rəbiülaxir ayının səkkizi baş vermişdir." İmza: Əhməd ibn Abdurrəhman ibn Məhəmməd. Allaha həmd olsun. Allahın səlatı Rəsulunun üzərinə olsun. [116, 11]

**Əsərin hazırki vəziyyəti:** əl-Bərdicinin qələmə aldığı əsərlərlə yaxından tanış olduqda bu əsərlərin yalnız ilk olaraq onun tərəfindən yazılması deyil, həm də onun tərəfindən tədqiq edilən mövzuların həmin dövr, eləcə də müasir dövr üçün olduqca aktual olması diqqəti cəlb edir. Azərbaycanlı hədis aliminin yaradıcılığında öz aktuallığı ilə seçilən "əl-Kəbair" əsəri üzərində bir sıra elmi tədqiqatlar aparılmasına baxmayaraq, bu əsər hal-hazırki tarixədək nəşr edilməmişdir.

əl-Bərdicinin haqqında danışılan əsərini ilk olaraq təhqiq edən Səudiyyə Ərəbistanı Krallığının Məlik Səud Universitetinin elm xadimi Dr. Məhəmməd ibn Turki ət-Turki olmuşdur. Əsərə daha yaxından bələd olan alimin kitaba yazdığı ön söz Allaha həmd və sənadan, kəlimeyi şəhadətdən sonra Qurani-Kərimin müxtəlif ayələrinin qeyd olunması ilə müşayət olunmuş, daha sonra isə təhqiqçi alimin əsərə olan münasibətini əks etdirən sözlərlə davam etmişdir. ət-Turkinin əsərə qarşı olan müsbət mövqeyi onun tərəfindən belə ifadə edilir: "Bu, həcmcə kiçik, məzmun etibarı ilə isə böyük və hafiz imamlardan birinə məxsus bir kitabdır. Məqsədim onu şərh etmək və ona layiq şəkildə xidmətində durmaqdan ibarətdir. Məni haqqında danışılan əsəri seçməyə bir neçə amil sövq etmişdir. Onlardan ən əsası bu əsərin kəbair mövzusuna həsr olunmuş ilk əsər olması, bəlkə də onun bu mövzuda bizə gəlib çatmış klassik əsərlər arasında yeganə olmasıdır. Belə ki, əz-Zəhəbinin əsərindən əvvəl bu kitabdan savayı kəbair mövzusuna dair yazılmış heç bir əsərlə qarşılaşmadım. Bununla yanaşı, bu kitabın müəllifi hafiz, imamın yalnız iki əsərinin bizə gəlib çatması məni bu əsərlə yaxından

maraqlanmağa sövq edən amillərdən olmuşdur. Onu layiq olduğu şəkildə təhqiq etmək və çap olunmuş əsərlər cərgəsinə daxil etmək istədim.” [116, 1]

Mövzudan uzaqlaşmaqdan və qısa məlumat verməklə səhv fikir formalaşdırmaqdan ehtiyat edən ət-Turki təhqiq qaydalarına sadiq qalmaq şərti ilə kitabla bağlı izahatlarında hədis aspektini əsas tutmuşdur. Bununla belə kəbair mövzusunun mahiyyətinə varmış və bu mövzuya həsr olunmuş əsərlərdən bəhs etmişdir. Daha sonra isə əsərin müəllifi və elmi fəaliyyəti haqqında yalnız zəruri məlumatları verməklə kifayətlənmişdir. Sırf əsərin təhlilində isə onun həqiqətən əl-Bərdiciyə məxsus olmasını isbat etməyə, əsərin üslub, mövzu və əhəmiyyətindən bəhs etməyə üstünlük vermişdir. ət-Turkinin bəzi yerlərdə əsərə qarşı yönəldilmiş iradlara münasibət bildirməklə müəllifi müdafiə etməsi onun əsərə olan müsbət mövqeyini bir daha aydın şəkildə ifadə edir. Təhqiq işində Məhəmməd ibn Tutki ət-Turki tərəfindən əsərin əlyazma nüsxəsinin təsvir olunması, onun ravilərindən bəhs olunması və əsərlə bağlı rəvayətlərin qeyd olunması müəllifin hədis fəaliyyətini araşdırmaq baxımından olduqca əhəmiyyətlidir.

Əl-Bərdicinin nadir adlardan bəhs edən əsərini təhqiq etmiş Səkinə əş-Şihabidən [115] fərqli olaraq, Məhəmməd ibn Turki ət-Turki müəllifin həm şəxsiyyətinə, həm də elmi fəaliyyətinə hörmətlə yanaşmış və azərbaycanlı alimin şəxsiyyəti ilə yanaşı, hədis fəaliyyətini də yüksək qiymətləndirən İslam alimləri ilə həmrəylik nümayiş etdirmişdir.

Hal-hazırda tədqiqatçılar əsərin əlyazma nüsxəsi və təhqiq olunmuş elektron variantından istifadə etməklə kifayətlənmək məcburiyyətindədirlər.

## 3.2. Əl-Bərdicinin “Təbəqatul-əsma əl-mufrədə minəs-səhabə vət-tabiin və əshabil-hədis” əsəri

**كتاب طبقات الأسماء المفردة من الصحابة والتابعين وأصحاب الحديث**

Hicri III (m. IX) əsrdə meydana çıxaraq yeni mövzuları əhatə edən hədis kitablarının bir qismi də başda Məhəmməd peyğəmbərin səhabələri olmaqla hədis rəvayət edən ricaldan – hədisçilərdən bəhs edir. Bu mövzunu tədqiqat obyekti seçmiş əsər müəllifləri müxtəlif üslub və metodları ilə bir-birindən fərqlənmişlər. Belə ki, hədis sahəsində baş verən yeniliklər, inkişaf və tərəqqilər səbəbilə hədis tarixində qızıl dövr kimi tanınan hicri III (m. IX) əsrin müəlliflərinin bəziləri qələmə aldıqları kitabları “Təbəqat” adlandırmış, başda səhabələr olmaqla hədis rəvayətində əməyi olan insanları təbəqələrə ayıraraq onların həyat və yaradıcılıqlarını işıqlandırmağa çalışmışlar. [36, 267]

Hədis rəvayəti sahəsində şöhrət qazanmış insanlara həsr edilmiş kitablar arasında təbəqat kitabları ilə yanaşı, səhabələrin həyatından bəhs edən kitablar, hicri II (m. VIII) əsrin sonu, III (m. IX) əsrin əvvəllərində meydana çıxaraq hədis rəvayət edən şəxsin etibarlı olub-olmamasından bəhs edən “cərh və tədil” kitabları, hicri III (m. IX) əsrin II yarısından sonra yazılmağa başlamış müəyyən bir bölgənin tarixini əhatə etməklə bərabər, həmin bölgədə yaşamış hədis ravilərindən bəhs edən “Şəhər tarixi” kitabları, ravilərin oxşar adlarını bir-birindən fərqləndirən kitablar və bu kimi digər əsərlər hədis ravilərinə həsr edilmiş ilk kitab nümunələrindən olmaqla hicri V (m. XI) əsrdən sonra bu sahədə yazılmış kitabların ana qaynaqları hesab olunur. [144, 35, 36]

Erkən yaşlarında hədis sahəsinə meyl etmiş, bu sahədə kifayət qədər müvəffəqiyyət qazanmış və ən əsası məşhurlar arasında məşhur olmağı bacarmış azərbaycanlı mühəddis Əhməd ibn

Harun əl-Bərdicinin haqqında danışdığımız əsəri də özündən sonrakılara mənbə mahiyyəti kəsb edən əsərlərdən olmuşdur.

Ərəb dilində "طبقة" [təbəqə] sözünün cəm forması olan "طبقات" [təbəqat] azərbaycan dilinə təbəqələr, katiqoriyalar, qruplar və s. kimi tərcümə edilir. İbn Səllamın qeyd etdiyinə görə, ərəblər bu kəlməni qədimdən bəri müxtəlif mənalarda istifadə etmiş, əsərlər yazılmağa başladığı dövrdən etibarən isə bu kəlmə həm də məcazi məna ifadə etməyə başlamışdır. [92, I, 65] Belə ki, bəhs olunan bu kəlmə ərəb dilində müxtəlif formalarda işlədilərək oxşarlıq, uyğunluq, bərabərlik, təbəqə, mərtəbə, vəziyyət və s. kimi mənalar ifadə edir. [bax: 100; 125; 197 -kök: طبق ] Hədisçilər hədis rəvayəti ilə məşğul olan insanları müxtəlif xüsusiyyətlər əsasında qruplara ayırmış və hər qrupu təbəqə adlandıraraq bu kəlməyə bir qədər fərqli və yeni məna qazandırmışlar. [144, 42]

Müsəlmanların itaətkarlıq baxımından bir-birindən üstün olması Məhəmməd peyğəmbərin hədislərində öz əksini tapmışdır. Belə hədislərdən biri də İmran ibn Hüseynin Peyğəmbərdən rəvayət etdiyi hədisdir. O, belə buyurmuşdur: "Ümmətimin ən xeyirlisi mənim əsrimdir, sonra onların ardınca gələnlər, daha sonra isə onların ardınca gələnlər... İmran bildirmişdir ki, bilmədim, Allah Rəsulu öz əsrindən sonra iki əsr qeyd etdi, yoxsa ki üç?.." [144, 42] İnsanlar arasındakı yeganə fərqi yalnız və yalnız onların təqvalarında, Allahdan qorxmalarında görən İslam dininin ilk təbliğatçısının bu sözləri ən təqvalı müsəlmanların təbii olaraq Peyğəmbərin səhabələri, sonra tabiun, daha sonra onlardan sonrakı nəsil olduğunu göstərir. Hədisçilər də muhəddisləri təbəqələrə ayırarkən Məhəmməd peyğəmbərin haqqında danışılan mövzu ilə bağlı hədislərini əsas götürmüşlər.

**Təbəqat üslubunda yazılmış ən məşhur əsərlər:** Yuxarıda qeyd etdiyimiz bölgü əsasında hədis ravilərindən bəhs edən

kitabların hamısı eyni üslubda yazılmamışdır. Məsələn, Heysəm ibn Adiy (v. h. 207/ m. 822) “Təbəqat mən rəva anin-Nəbi minəs-səhabə (Peyğəmbərdən rəvayət edən səhabələrin təbəqələri)” əsərində səhabələri, Əbu Hatim ər-Razi (v. h. 277/ m. 890) “Təbəqatut-tabiin (tabiilərin (səhabələrdən sonrakı nəsil) təbəqələri)” əsərində tabiiləri, Müslüm (v. h. 261/ m. 875) “Təbəqatus-səhabə vət-tabiin (Səhabə və tabiilərin təbəqələri)” əsərində həm səhabələri, həm də tabiiləri, İbn Həyyan (v. h. 369/ m. 980) “Təbəqatul-muhəddisin bi İsbahan (İsbahan mühəddislərinin təbəqələri)” əsərində müəyyən bir bölgədə yaşayan mühəddisləri, Məhəmməd ibn Saad (v. h. 230/ m. 845) “Təbəqat kubra (ən böyük təbəqələr)” əsərində ümumiyyətlə mühəddisləri təbəqələrə ayıraraq onlardan bəhs etmişdir. Təbəqat kitablarının əksər müəllifləri sonuncu üsluba üstünlük vermişdir. [144, 65]

Yuxarıda qeyd etdiyimiz kitablarla yanaşı, aşağıda qeyd olunan kitablar da təbəqat kitablarının ən məşhurlarındandır:

1-Məhəmməd ibn Ömər əl-Vaqidinin (v. h. 207/ m. 822) “ət-Təbəqat” əsəri. Bu əsər haqqında danışılan mövzuya dair yazılmış ən qədim əsərdir. [131, 75]

2-Əli ibn Abdulla əl-Mədininin (v. h. 234/ m. 849) “ət-Təbəqat” əsəri. Bu kitab 10 cüzdən ibarətdir.

3-İbrahim ibn əl-Munzirin (v. h. 236/ m. 850) “ət-Təbəqat” əsəri;

4-Xəlifə ibn Xəyyatın (v. h. 240/ m. 854) “ət-Təbəqat” əsəri;

5-Əbu əl-Qasim Mahmud ibn İbrahim ibn Səmi əd-Dəməşqinin (v. h. 259/ m. 873) “ət-Təbəqat” əsəri;

6-Abdurrəhman ibn İbrahim ibn Amr əd-Dəməşqinin (v. h. 245/ m. 859) “ət-Təbəqat” əsəri;

7-Əbubəkr Məhəmməd ibn Abdulla ibn Abdurrəhim əl-Bərqinin (v. h. 249/ m. 863) “ət-Təbəqat” əsəri;

8-Əbu Zərə Abdurrəhman əd-Dəməşqinin (v. h. 281/ m. 894) "ət-Təbəqat" əsəri;

9-Əbubəkr Əhməd ibn Harun əl-Bərdicinin (v. h. 301/ m. 914) "Təbəqatul-əsma əl-mufrədə minəs-səhabə vət-tabiin və əshabil-hədis (Səhabə, tabiun və hədisçilərin nadir adlarından bəhs edən təbəqat kitabı)";

10-Əbulfazl Əli ibn əl-Hüseyn əl-Fələkinin (v. h. 429/ m. 1038) "Təbəqatur-rical (mühəddislərin təbəqələri)" əsəri. [144, 65, 66]

Beləliklə, hədisçilərin kifayət qədər önəm verdikləri təbəqat kitabları getdikcə daha da inkişaf etmiş və IX əsrin sonlarınadək gündəmdə olmuşdur. Haqqında danışdığımız mövzu ilə bağlı araşdırma apararkən məlum oldu ki, Qurani-Kərimin qiraəti, İslam hüququ, sufizim, filologiya və s. kimi müxtəlif sahələrin mütəxəssislərinin həyat və yaradıcılıqlarından bəhs edən kitablarda da təbəqat üslubundan geniş istifadə edilmişdir. Bu kimi sahələri əhatə edən təbəqat kitablarına Xəlifə ibn Xəyyatın (v. h. 240/ m. 854) "Təbəqatul-qurra (Qarilərin təbəqələri)" əsərini, Əbu İshaq əş-Şirazinin (v. h. 476/ m. 1083) "Təbəqatul-fuqəha (İslam hüquqçularının təbəqələri)" əsərini, Əbu Abdurrəhman əs-Sələminin (v. h. 412/ m. 1021) "Təbəqatus-sufiyyə (Sufilərin təbəqələri)" əsərini, Məhəmməd ibn Səllamın (v. h. 232/ m. 847) "Təbəqat fuhuliş-şuəra (məşhur şairlərin təbəqələri)" əsərini, Əbubəkr əz-Zubeydinin (v. h. 379/ m. 989) "Təbəqatun-nəhviyyin (nəhvçilərin (ərəb dilinin sintaksis bölməsinin mütəxəssisləri) təbəqələri)", əs-Siyutinin "Buğyətul-vuat fi təbəqatil-luğəviyyin vən-nuhaat" əsərini və başqa əsərləri misal olaraq göstərmək olar.

Əsas tədqiqat obyektimiz olan əl-Bərdicinin "Təbəqat" əsərinin təhlilindən bir qədər kənara çıxaraq təbəqat adlandırılan kitablar, onların əhatə etdikləri mövzular, bu növ kitabların tarixi

və s. haqqında mövzulara toxunmağımızın səbəbi üzərində işlədiyimiz mövzunu daha geniş həcmdə əhatə etmək məqsədindən irəli gəlmişdir.

**Əl-Bərdicinin "Təbəqat" əsəri və yazılma səbəbi:** Təbəqat formasında yazılmış kitablardan bəhs olunarkən adı bir qrup müəlliflə birlikdə çəkilən azərbaycanlı hədisşünas alim Əhməd ibn Harun əl-Bərdici özünəməxsus üslubu ilə istər sələfləri, istərsə də onunla bir əsrdə yaşayan mühəddislərdən fərqlənmişdir. Belə ki, azərbaycanlı mühəddisin nadir adlardan bəhs edən təbəqat kitabı hədisçilərə həsr olunmuş kitablar arasında da nadir hesab olunur. Bu əsəri təhqiq etmiş Səkinə əş-Şihabi əsərin əhəmiyyəti və onu haqqında danışılan əsərlə maraqlanmağa vadar edən səbəblə əlaqədar belə demişdir: "Bu kitab eyni məqsədlə yazılmış kitablarla müqayisədə nadir kitabdır. Hətta mən deyə bilərəm ki, bu günədək bu məzmunda və bu formada heç bir kitab çap olunmamışdır. Bəlkə də onun əhəmiyyəti müəlliflərinin ilk olaraq yazdıqları orijinal kitablardan olması səbəbindən irəli gəlir. Bu kitab İbn Əsakirin "ət-Tarix əl-kəbir" əsərinin mənbələrindəndir. Nadir adları araşdırarkən bir neçə dəfə "Təbəqatul-əsma əl-mufrədə" kitabına ehtiyac duydum və bununla da onun əhəmiyyətli olduğunu hiss etdim. Sonda tarix kitabxanalarındakı boşluğu doldurması və onun ehtiva etdiyi nadir adlar mövzusunu araşdıran tədqiqatçıların əziyyətini yüngülləşdirməsi üçün işıq üzü görməsi vacib olan kitabların ön cərgəsinə qoydum." [115, 7]

Orta əsr Azərbaycan filosof və mütəfəkkirlərindən danışan Zakir Məmmədov isə "Azərbaycan mütəfəkkirinin bu kitabı müsəlman Şərqində VII-X əsrlərin tarixi hadisələrini və ictimai-siyasi fikrini öyrənmək baxımından əhəmiyyətlidir" [22, 7] deməklə əsərə qiymət vermişdir.

İslam dininin ilk olaraq Ərəbistan Yarımadasında yayılmasına, Məhəmməd peyğəmbərin ərəb olmasına və Qurani-Kərimin ərəb dilində nazil edilməsinə baxmayaraq əslən ərəb olmayan xalqların övladlarının yüksək fəallığı İslam dini ilə bağlı digər sahələrdə olduğu kimi hədis sahəsində də hiss olunur. Ərəblərlə yanaşı, müxtəlif xalqların nümayəndələrinin də əvəzolunmaz xidmətləri sayəsində olduqca qiymətli hədis kitabları yazılmış, hətta onlardan bəziləri Qurani-Kərimdən sonra İslam dininin ikinci ana qaynağı hesab olunur.

Hədisçilərin həyatından, yaradıcılıqlarından, cərh və tədil məsələsindən bəhs edən kitabların kütləvi şəkil almasına baxmayaraq, əl-Bərdicidən əvvəl onun haqqında danışılan kitabı kimi nadir adlardan bəhs edən müstəqil kitab hədis tarixində yazılmamışdır. O, müəllifi olduğu kitabda tətbiq etdiyi özünəməxsus metodu ilə hədis tarixinin yeniliklərlə dolu olan dövrünə yenilik gətirməyə nail olmuş hədis alimlərindən hesab olunur. Hədis tarixinin ən məşhur simalarından biri olan Buxari (v. h. 256/ m. 870) nadir adlar mövzusuna önəm vermiş, lakin nadir ad hesab etdiyi adları müstəqil bir kitabda toplamamışdır. Belə ki, o, "ət-Tarix əl-kəbir" adlı əsərində nadir adları əlifba hərflərinə uyğun şəkildə tərtib edərək kitaba əlavə etmiş və bu mövzudan bəhs edən bölümü "bab əl-vahid" adlandırmışdır. Onun bu metodunu nümunə qəbul edən İbn Əbu Hatim (v. h. 327/ m. 961) "əl-Cərh və ət-tədil" adlı əsərində qeyd olunan mövzunu daha geniş şəkildə əhatə edərək həmin adların şamil olunduğu hədisçiləri "əfrad" (bənzərsizlər) adlandırmışdır. Əl-Bərdicinin "Təbəqat" əsərini yazarkən Buxari və İbn Əbu Hatimin yuxarıda qeyd olunan əsərlərindən faydalandığı istisna olunmur. Beləliklə, hədis sahəsində kifayət qədər şöhrət qazanmış Əhməd ibn Harun əl-Bərdici nadir hesab etdiyi hədisçilərin adlarını müstəqil kitabda toplamaq qərarına gəlir. Bu

zaman onda beş qrupda toplanan hədisçi adlarından ibarət məcmuə mövcud idi. [115, 12]

Gündən-günə hədisçilərə həsr olunmuş kitabların təkmilləşdiyi, hədis alimlərinin öz əsərlərində adların olduqca dəqiq sıralanmasına diqqət yetirdiyi, oxşar adlar mövzusunda əsərlərin yazıldığı, ravilərin adlarını, ləqəblərini, kunyələrini bir-birindən ayırmaq üçün səmərəli əsərlərin yazıldığı bir dövrdə heç kim əl-Bərdicinin fikirləşdiyini fikirləşməmiş, nadir ad sahibi olan hədisçilərin adlarını müstəqil kitabda toplamamışdır. Əl-Bərdicinin haqqında danışılan əsərini təhqiq etmiş Səkinə əş-Şihabi kitab haqqında məlumat verərkən ümumiyyətlə hədis, xüsusilə rical (hədis rəvayət edən şəxslər) haqqında yazılmış əsərlərlərdən danışaraq digər müəlliflərin son dərəcə səmərəli fəaliyyət göstərdiklərinə baxmayaraq, niyə görə bu üslubda kitab yazmadıqlarını belə izah etmişdir: "Çünki onların hər biri seçdiyi məlum və mükəmməl üslublara sadiq qalmışdır. "ət-Tarix əl-kəbir", "Tarix Bağdad" əsərlərindən əlavə, oxşar, əlaqəli və müxtəlif adlara bir neçə kitab həsr etmiş əl-Xətib nadir adlar mövzusuna necə müraciət etməlidir? Səksən cilddən ibarət kitabında həyatlarından bəhs olunan şəxslərin özlərinin, atalarının adlarını əlifba sırası ilə son dərəcə dəqiq tərtib edən və sonda kunyəsi, ata adı və ya ləqəbi ilə məşhur olanları qeyd edən İbn Əsakirin nadir adlar nəyinə lazımdır? Beləliklə, "Təbəqatul-əsma əl-mufrədə" tarixdə ən doğru metodu seçmişdir. Bununla belə, nə əz-Zəhəbinin "Mizanul-iitidal", "lisanul-mizan" əsərlərində, nə də ki, əl-Hafiz əl-Mizzinin "Təhzibul-kəmal" və ya İbn Həcərin "Təhzibut-təhzib" əsərində nadir adlardan bəhs edən bölmə ilə rastlaşmırıq". [115, 13]

Azərbaycanlı mühəddisin əsərinin işıq üzü görməsində ən azı bizdən artıq əmək sərf etmiş və haqqında danışılan kitabın əhəmiyyətini, nadirliyini dəfələrlə vurğulamış Səkinə əş-

Şihabinin bu sözlərində əvvəlkilərlə müqayisədə bir qədər ziddiyyət olduğunu düşünürük. Belə ki, onun yuxarıda qeyd olunan çıxışının əvvəlindən elə başa düşülür ki, sanki digər müəlliflər bu sahədə daha faydalı əsərlər qələmə aldıqları üçün sırf bu ünvan altında kitab yazmağı düşünməmişlər. Qeyd olunan çıxışın sonu isə əl-Bərdicinin əsərinin doğrudan da bu sahədəki boşluğu doldurmasından xəbər verir. Biz azərbaycanlı mühəddis Əhməd ibn Harun əl-Bərdicinin nadir adlardan bəhs edən əsərini rical elminə dair yazılmış əsərlərin fövqündə olduğunu iddia etməsək də, bu əsərin olduğu yerdə tək, təqlid edilməmiş və onun sırf əl-Bərdicinin düşüncəsinin məhsulu olduğu qənaətindəyik. Qeyd etmək lazımdır ki, hicri III (m. IX) əsrin qızıl dövr kimi hədis tarixinə həkk olunmasında  qeyri-ərəblərin ərəblərdən az əmək sərf etməməsinə baxmayaraq, əş-Şihabi "əl-Bərdicinin həyatı ərəb mədəniyyətinin ən yüksək çiçəklənmə dövrünə, ərəb zəkasının bar verdiyi və hər sahədə yeniliyin, orijinallığın olduğu dövrə təsadüf etmişdir" [115, 11] deməklə bu əsrin məhsullarının məhz ərəb zəkasının məhsulu olduğunu vurğulaması bir daha onun bəzən təəssübkeş davranışını ifadə edir.

Nadir adlara önəm vermiş müəlliflər sırasında əl-Xəzrəci də vardır. Belə ki, o, "Xülasə" adlı əsərində sələflərinin riayət etdiyi əlifba üslubundan bir qədər kənara çıxmasına baxmayaraq, haqqında danışılan nadir adları "ət-Təfariq (bir-birindən fərqli)" başlığı ilə toplamışdır. [115, 13]

Sonda belə nəticəyə gəlmək olar ki, müəllifin bu əsəri yazmaqda məqsədi hədis sahəsində faydalı və fərqli üslubda əsər ortaya çıxarmaqla rical elmində yeni cığır açmaq olmuşdur. Bu əsər hicri III (m. IX) əsrdə ilk dəfə qələmə alınmış və özündən əvvəlkilərə bənzəməmişdir. İllər sonra əsərin çap olunaraq işıq üzü görməsinin səbəbi də yuxarıda qeyd etdiyimiz kimi ona olan ehtiyacdan irəli gəlmişdir.

**Əsərin təqdimatı və müəllifin metodu:** Müəllif əsərini beş hissəyə bölərək hər hissəni "təbəqə" adlandırmışdır. Təbəqələrin sıralanmasında isə zaman amilini əsas götürmüşdür. Beləliklə o, Məhəmməd peyğəmbərin səhabələri ilə başlamış, tabiun ilə davam etmiş və daha sonra isə tabiundan sonraki nəslin hədisçilərindən bəhs etməklə nadir hesab etdiyi 425 adı haqqında danışılan kitaba daxil etmişdir. Bu sayın kitabdakı təbəqələr arasında bölüşdürülməsinə gəlincə isə deyə bilərik ki, 105 nəfər birinci, 117 nəfər ikinci, 136 nəfər üçüncü, 55 nəfər dördüncü, yerdə qalan 12 nəfər isə sonuncu təbəqədə qeyd olunmuşdur.

Əsərin ehtiva etdiyi adlar əl-Miqdad ibn əl-Əsvəd əl-Kindi adı ilə başlamış Xuşəyş ibn Əsrəm adı ilə sona çatmışdır.

Müəllif ravilər haqqında məlumat verərkən bəzən "əl-Miqdad ibn əl-Əsvəd əl-Kindi Mədinə əhlindən hesab olunur ", "Şəkəl ibn Humeyd Kufədəndir", "Əkkaf ibn Vədaə Şamdandır" deməklə ravinin adını, hansı bölgədən olduğunu göstərməklə kifayətlənmiş, bəzən isə bu kimi məlumatlarla yanaşı, "Səfinə Allah Rəsulunun xidmətçisi olmuşdur. Rəvayətə görə, Peyğəmbər onu "səfinə" adlandırmışdır. Mədinəlidir", "Surrəq barəsində müxtəlif fikirlər mövcuddur. Bəziləri onun Mədinəli, bəziləri isə Misirli olduğunu bildirmişdir", "Əhmər Bəsrəlidir, ondan əl-Həsən rəvayət etmişdir" deməklə bir sıra başqa məlumatlar verməyi faydalı hesab etmişdir.

Səkinə əş-Şihabi əl-Bərdicinin haqqında danışılan kitabda tətbiq etdiyi metodunu belə dəyərləndirmişdir: "Əyər müəllif, bir qədər diqqətli davranmış, bir qədər araşdırma aparmış olsaydı, doğrudan da nadir olan adların bir çoxu onun gözündən yayınmasaydı və nadir hesab olunmayan adları kitaba daxil etməsəydi, onun tərəfindən məqsədyönlü şəkildə ortaya qoyulmuş plan yüksək qiymətləndirilərdi. Belə ki, biz belə hallarla səhabə təbəqəsində tez-tez rastlaşırıq". [115, 15] əl-

Bərdicinin əsərinə qarşı kifayət qədər sərt iradlar bildirən Səkinə xanım səhabələrin adlarının araşdırılması baxımından İbn Həcərin üslubunu daha səmərəli hesab etmişdir. [115, 15]

**Əl-Bərdicinin "Təbəqat" əsəri ilə bağlı iradlar və tənqidi fikirlər:** əl-Bərdicinin həyat və yaradıcılığı haqda məlumat toplayarkən müxtəlif elektron və qeyri-elektron kitabxanalara müraciət etdik. Xüsusən ərəb saytlarında onunla bağlı daha çox məlumat əldə etdiyimiz halda bir cəhət bizi çox narahat edirdi. Bu da azərbaycanlı hədis aliminin doğulduğu Azərbaycana olan biganə münasibət idi. Belə ki, bəzi məşhur tarix kitabları da daxil olmaqla əl-Bərdicidən bəhs edən mənbələrdə bəzən onun harada doğulduğu ümumiyyətlə qeyd edilməmiş, bəzən də hədis elminin rical sahəsində kifayət qədər məşhur olan bu alimin vətəni barədə ən minumal məlumatlar verilməmişdir. Bu iradın ümumi xarakterli olub əl-Bərdicinin əsərinə bir başa aidiyyəti olmasa da, onun həyat və yaradıcılığını araşdırdığımız zaman aydın görülən bu faktı qeyd etməkdə fayda olduğunu düşündük. Sırf əsərlə bağlı iradlara gəlincə isə bunlar əsasən aşağıdakılardan ibarətdir:

1-Müəllifin nadir hesab etdiyi adlar araşdırıldığı zaman onların əksəriyyətinin nadir olmadığı üzə çıxır və doğrudan da nadir hesab olunan adlar isə bu kitabda azlıq təşkil edir. Məsələn, əl-Bərdici Qureyb Valid əl-Əsməini nadir ad sahibləri ilə bir cərgəyə qoymuşdur. İbn Əbu Hatim də onunla həmrəylik nümayiş etdirərək qeyd olunan adı nadir ad kimi qəbul etmişdir. İbn Makulanın "əl-İkmal" adlı əsərində xavaric liderlərindən birinin adının Qureyb olduğunu bildirməsi isə bu adın nadir olmadığını göstərir. Eləcə də, Dərrac ibn Abdurrəhman. Bu ad da əl-Bərdici və İbn Əbu Hatim tərəfindən nadir hesab olunmuşdur. "əl-İkmal" əsərində Dərrac ibn Naciyə Əbu Xurəşə adlı şəxsin olması isə əvvəlki müəlliflərin gəldiyi nəticəni etibarsız etmişdir. [115, 15]

2-əl-Bərdici bəzən tabiin nəslinin nümayəndəsini ətbau tabiin təbəqəsində qeyd etmişdir. Məsələn, o, Şəvzəb Əbu Məazı nadir ad sahibi hesab edərək Sufyan və Şubənin ondan hədis rəvayət etdiklərini bildirməklə kifayətlənmiş, lakin onun səhabədən rəvayət etdiyini göstərməmişdir. Halbuki, mənbələrdə onun səhabədən rəvayət etdiyi bildirilir. Səhabədən rəvayət etmiş digər Şəvzəb isə Zeyd ibn Sabitin xidmətçisi olmuşdur. Araşdırmaların nəticəsi bu adda nəinki iki hədisçinin, hətta üç hədisçinin olduğunu deməyə əsas verir. Belə ki, Şəvzəb adının növbəti daşıyıcısı ətbau tabiindəndir. Göründüyü kimi, Şəvzəb Əbu Məaz bu halda nə ətbau tabiindən, nə də nadir ad sahiblərindən sayıla bilməz. [115, 16]

3-Əl-Bərdicinin kitabında nadir ad sahibi kimi ətbau tabiin təbəqəsində rastlaşdığımız, əslində isə belə olmadığı aydın görülən digər bir hədisçi isə Əbubəkr ibn Abdurrəhmanın xidmətçisi Suməydir. İbn Əbu Hatim bu hədisçinin Şumeyr ibn Abdulmədandan rəvayət etdiyini bildirmişdir. Digər mənbələrdə isə Suməy ibn Qeys adlı mühəddisin olduğu və onun da Şumeyr ibn Abdulmədandan rəvayət etdiyi bildirilir. Şumeyr ibn Abdulmədan tabiun nəslinin nümayəndəsidir. Beləliklə məlum olur ki, Əbubəkr ibn Abdurrəhmanın xidmətçisi Suməyin Suməy ibn Qeyslə eyni təbəqədən olması məntiqə tam uyğundur. Bununla da qeyd olunan hədisçinin yalnız aid olduğu təbəqədə deyil, ümumiyyətlə nadir ad sahibi olmadığı ortaya çıxır. [115, 16]

4-Əl-Bərdici nadir adlar seçimində diqqətsiz olduğu kimi bu növ adların araşdırılmasında da lazımi səy göstərməmişdir. Məsələn, o, qılıncını sıyırıb Allah Rəsulunun qarşısına keçərək "Səni mənim əlimdən kim ala bilər?" – dediyi zaman Allah Rəsulunun "Allah" deyərək cavab verməsi ilə qarşılaşdıqda dönüb müsəlman olan Bəni Muharib qəbiləsinə mənsub Dusur ibn əl-Harisi nadir ad sahiblərindən ibarət siyahıya salmamışdır.

Müəllifin diqqətindən yayınmış nadir adlarla bağlı araşdırma aparılarkən məlum olur ki, doğrudan da heç də az olmayan nadir ad əl-Bərdicinin diqqətindən yayınmışdır. Belə ki, İbn Əbu Hatimin "əl-Cərh və ət-tədil" adlı əsərinə səthi nəzər saldığımızda kitabda əlifba sırasına müvafiq şəkildə tərtib edilərək əlavə olunmuş adlar arasında əl-Bərdicinin kitabına uyğun kifayət qədər nadir adla rastlaşırıq. Eyni vəziyyətlə "əl-İkmal", "əl-İsabə", əl-Xəzrəcinin "əl-Xülasə" adlı əsərindəki "təfariq" bölümündə və mövzu ilə əlaqədar digər mənbələrdə də qarşılaşırıq. [115, 16, 17]

Əl-Bərdicinin nadir ad sahibi hesab etdiyi, lakin həqiqətin bunun əksini isbatladığı səhabələrə misal olaraq Cidar adlı səhabəni (Yəzid ibn Şəcərə ondan rəvayət etmişdir) göstərmək olar. Belə ki, "əl-İkmal" kitabında Cidar əl-Uzri adlı tabiinin və Cidar əd-Dəybili adlı digər mühəddisin olduğu bildirilir. Müəyyən babda nadir ad kimi qeyd olunan, lakin daha sonra eyni adda başqa birinin olduğu anlaşılan adlara misal olaraq isə Mushir ibn Abdulməliki misal göstərmək olar. Belə ki, muhəddislər arasında Mushir ibn İmran adında başqa hədisçi mövcud olmuşdur. Əl-Bərdici Munəbbih ibn Osman adında hədisçinin adını nadir hesab edərək onu kitabının beşinci təbəqəsinə münasib görmüşdür. Lakin Munəbbih Valid Vəhəb ibn Munəbbih adında Muaz ibn Cəbəldən rəvayət etmiş hədisçi mövcuddur. Bütün bunlar diqqətsizlikdən, əlavə araşdırmanın lazımi səviyyədə aparılmadığından xəbər verir.

Əl-Bərdicinin nadir adlar siyahısında təəccüb doğuran ad Buceyr ibn Əbu Buceyrdir. Belə ki, İbn Makula bu adda on altı şəxs qeyd etmişdir ki, onlardan üçü Buceyr ibn Əbu Buceyrdir. Bununla belə, əl-Bərdiciyə mustədrək (əlavələr) yazmış İbn Bukeyrin bu məqama münasibət bildirməməsi isə daha çox diqqət cəlb edir. [115, 17, 18]

5-Əl-Bərdici bəzi ləqəbləri nadir ad kimi təqdim etmişdir. Məsələn, Fuheyr ibn Ziyad. Fuheyr ləqəbdir. Bu ləqəbin sahibinin əsl adı isə Yəhya ibn Ziyaddır. “əl-İkmal” kitabının müəllifi bu həqiqəti qeyd etmiş, əl-Bərdiciyə mustədrək yazmış İbn Bukeyr isə bununla bağlı məlumat vermişdir. Mövzu ilə bağlı digər bir misal isə Səfinə ləqəbinin nadir adlardan bəhs edən kitabda yer almasıdır. Belə ki, Səfinə böyük bir şey daşıyan insana verilən ləqəbdir. Həmin şəxsin adı isə tamam başqadır. Adı Osman ibn Abdulməlik olan və Mustəqim ibn Abdulməlik ləqəbi ilə əl-Bərdicinin kitabında yer alan hədisçi də müəllifin məqsədinə uyğun gəlmir. [115, 18]

Yuxarıda sadalanan iradlar əl-Bərdicinin haqqında danışılan kitabının işıq üzü görməsində böyük rol oynamış Səkinə əş-Şihabiyə məxsusdur. Əsəri təhqiq etməklə bir çox məsələlərə aydınlıq gətirmiş təhqiqçi xanım qeyd olunan iradların əsər haqqında deyilə biləcək iddiaların çox az faizini təşkil etdiyini bildirmişdir. Onun son olaraq gəldiyi nəticəyə görə isə kitabda çox az sayda həqiqətən nadir hesab olunan ad mövcuddur. Kitabın ehtiva etdiyi nadir adların böyük bir qisminin bir neçə şəxsdə təsadüf edildiyinə görə onları nadir hesab etmək olmaz. Bununla yanaşı, kitabda qeyd olunan adların bəziləri ad deyil, ləqəbdir. Hətta Səkinə xanım bəzi klassiklərin onunla bu mövzuda həmfikir olduqlarını və İbn Bukeyr tərəfindən əl-Bərdicinin diqqətindən yayınmış bəzi məsələlərin qeyd edildiyini bildirərək, görülən işlərin kifayət qədər olmadığını bildirmişdir. Daha sonra o, Əbu Abdulla əs-Suri adlı müəllifin gördüyü işi təqdir edərək onun iki kitab yazdığını və bu kitablarda əl-Bərdici ilə yanaşı İbn Bukeyrin yol verdiyi səhflərə münasibət bildirdiyini qeyd etmişdir. [115, 18, 19]

“Bu mövzuda ilk olaraq kitab yazdığı üçün əl-Bərdici təqdirəlayiqdir. Lakin o, dəqiq araşdırma aparmağı, mövzunu

əhatə etməyi bacarmamış, özündən sonrakı nəsil üçün yol açaraq onların diqqətini yeni sahəyə yönəltmişdir. Bəlkə də ondan sonra bu mövzunu lazımi səviyyədə əhatə edənlər olmuşdur. Lakin bu günədək bununla bağlı heç nə əldə etməmişik. Haqqında danışılan kitab ilə bağlı söylənənlərə baxmayaraq, həqiqətən bu kitab çox faydalıdır. Sonda bildirmək istəyirəm ki, "Təbəqat əl-əsma əl-mufrədə" əsərinin üstünlüyü olmasa belə, onun hicri VI (m. XII) əsrin etibarlı mühəddislərinin qələmindən çıxması və son dərəcə mükəmməl şəkildə 425 nəfər hədis əhli ilə bağlı nadir adları ehtiva etməsi bu əsərin rical kitabları arasındakı əhəmiyyətindən xəbər verir. Kitab III əsrə aid əsərlərdə nadir hallarda rast gəlinən məziyyətlərə malikdir." [115, 19, 20] Bu sözlərin müəllifi də əsərlə bağlı kəskin iradlar bildirmiş Səkinə əş-Şihabidir.

Hədis elminin təşəkkül tapdığı ölkələrlə müqayisədə Azərbaycanın hədis məktəblərinə ev sahibliyi etmədiyi təbii qəbul olunan bir həqiqətdir. Lakin buna baxmayaraq, bir çox sahələrdə olduğu kimi hədis sahəsində də müvəffəqiyyət qazanmış azərbaycanlı alimlər olmuşdur. Əhməd İbn Harun əl-Bərdici də hədis mövzusunda istinad edilən və əsərlərindən hədislə bağlı tədqiqatlarda istifadə olunan alimlərindən biridir. Əl-Bərdicinin bizə məlum olan bir neçə əsərindən yalnız ikisi ilə yaxından tanış olmaq imkanı əldə etməyimizə baxmayaraq, hər iki mövzuya ilk olaraq onun müraciət etdiyini təsbit etdik. Yuxarıda Səkinə əş-Şihabi tərəfindən müəllifə bildirilən iradlarda onun diqqətsizlikdə, etinasızlıqda ittiham olunması tədqiqat işimizdə bu məsələnin də araşdırılmasına səbəb oldu. Dürüstlüyü, etibarlılığı, əminliyi, savadı, hədis fəaliyyəti görkəmli alimlər tərəfindən təsdiq edilmiş azərbaycanlı alimin [138, XIV, 122; 82, III, 1195; 94, VI, 64] adı ilə məzmunu bir-birini tamamlamayan bir əsər yazmış olması ilə razılaşmadıq. Təhqiqçinin qeyd olunan əsərlə bağlı iradlarının nədən qaynaqlandığını araşdırarkən bizə ilk məlum olan Səkinə

əş-Şihabinin müəllifin nadir adlar mövzusundakı məqsədini düzgün başa düşməməsi oldu. Belə ki, onun gəldiyi qənaətə görə, müəllifin seçdiyi adlar yalnız kitabın hər hansısa təbəqəsində deyil, hədis ilə əlaqəsi olub-olmamasından asılı olmayaraq ümumiyyətlə, nadir hesab olunan adlardır. Müəllifin işinə bu aspektdən yanaşan Səkinə əş-Şihabi bidirmişdir ki, əsərin səhabələrdən bəhs edən birinci təbəqəsində qeyd olunan nadir ad sahibi səhabə, tabiun və digər hədisçilər də daxil olmaqla heç bir hədisçi və ya qeyri-hədisçi ilə adaş deyildir. Məsələn, "Cursumə" adlı bir səhabə ilə rastlaşdığımız halda eyni adda hədisçi və ya qeyri-hədisçi ilə nə tabiun, nə də ki, sonrakı nəsildən olan insanlar arasında rastlaşmağımız qeyri-mümkün olduğu kimi bu adda ikinci bir şəxs yoxdur. Çünki o, öz təbəqəsində olduğu kimi, ümumiyyətlə bütün təbəqələrdə də təkdir, nadirdir. [115, 14]

Səkinə xanımın bidirdiyinə görə, bu metod müəllifin məqsədinə tam uyğun gəlir. O, haqqında danışılan məsələ ilə əlaqədar belə deyir: "Əgər əl-Bərdicinin məqsədi yalnız öz təbəqəsində tək, nadir olan hədisçiləri toplamaqdan ibarət olsaydı, bu zaman Munkədir əl-Qərəşini səhabələrin təbəqəsində, Munkədir ibn Məhəmməd ibn əl-Munkədiri isə ətbau tabiin təbəqəsində görmək imkanımız olardı." [115, 14]

Səkinə əş-Şihabinin qeyd olunan mövzu ilə bağlı fikirlərinə cavab olaraq bildirmək istəyirik ki, əl-Bərdicinin "Təbəqat" əsəri hədis elminin rical sahəsində çox qiymətli və hal-hazırki tarixədək əldə edilmiş qədim abidələrdən biridir. Müəllif haqqında danışılan əsərdə onun tərəfindən əldə edilmiş hədislərin rəvayət zəncirində varid olmuş nadir adları bəzi hədislə bağlı xüsusiyyətləri də nəzərə alaraq olduqca dəqiq surətdə təbəqələrə bölərək əsərinə daxil etmişdir. Bütün bunlar onun hədis sahəsindəki elmindən və yüksək təcrübəsindən xəbər verir. Əsər təhqiqində hər hansısa bir kitabı təhqiq etmək vəzifəsini qarşısına məqsəd

qoymuş bir mütəxəssisin təhqiq edəcəyi əsərlə bağlı ətraflı məlumata malik olması, o cümlədən əsərin müəllifinin məqsədyönlü üslub və metodunu düzgün müəyyənləşdirməsi ilkin tələblərdəndir. Qarşıda təqdim olunan əsərdən götürülmüş bəzi nümunələrdən də aydın görüldüyü kimi, əl-Bərdicinin məqsədi ümumiyyətlə nadir olan adları deyil, hədislə əlaqəsi olan nadir ad sahiblərinin adlarını toplamaqdan ibarət olmuşdur. Əsəri diqqətlə oxuduqda həmin şəxslərin bəzən öz təbəqələrində, yaşadıqları bölgələrdə və bəzən də daşıdıqları ləqəblərlə, hədis sahəsində məşhur olduqları adlarla nadir hesab olunduqları aydın görülür. Beləliklə, yuxarıda qeyd edilən iradlara cavab olaraq bildiririk:

1- Əl-Bərdicinin haqqında danışılan əsərinin tədqiqat obyekti onun tərəfindən əldə olunmuş hədislərin rəvayət zəncirində qeyd olunan nadir adlar olmuşdur. Bir qədər diqqətli olsaq, müəllifin işarə olunan məqsədini anlamaqda çətinlik çəkmərik. Belə ki, müəllif bir neçə yerdə nadir hesab etdiyi ad sahibi barəsində məlumat verərkən onun hədis rəvayəti ilə bağlı əlaqələrinə toxunmuşdur. Məsələn, 325 saylı adın sahibi haqda belə demişdir: Musərbəl əl-Əbdi. Ondan əl-Cərrah ibn Məlih Əbu Vəkii rəvayət etmişdir. Musərbəl anasının “Aişəni sirkə şərabı ilə boyanan gördüm” deməsini nəql etmişdir. [115, 99] Bundan əlavə, müəllifin “filankəsin hədisində”, “filankəsin ondan rəvayəti vardır” kimi ifadələrdən istifadə etməsi onun nadir adlar mövzusuna hansı aspektdən yanaşdığını aydın şəkildə göstərir. Beləliklə, bu yanaşmadan məlum olur ki, müəllifin rəvayət edən və rəvayət olunan xüsusunda xəbərdar olduğu həmin hədisin sənədində bu ad nadir olduğu üçün əl-Bərdicinin diqqətini çəkmişdir. Müəllifin əldə edə bilmədiyi rəvayətlərdə və ya hədislə əlaqəsi olmayan insanlarda eyni ada rast gəlmək müəllifin əməyini uğursuz hesab etmək üçün yetərli səbəb deyildir.

2-Müəllif əksər hallarda nadir ad sahibi hesab etdiyi hədisçinin məşhur olduğu şəhərin adını qeyd etmişdir. Məsələn, o, "əl-Miqdad ibn əl-Əsvəd əl-Kindi. O, Mədinə əhlindən hesab olunur". [ 115, 35] Bəzi hallarda "Mədinədə hesab olunur" [115, 35], bir çox yerdə isə "Mədinədə", [115, 39] "mədinəlidir" [115, 54] və bu şəkildə digər şəhərlərin adını qeyd etməklə sanki haqqında danışılan hədisçinin məhz həmin bölgədə nadir ad sahibi olduğunu göstərməyə çalışmışdır. Belə olan təqdirdə Kufədə, Bəsrədə və ya Mədinədən başqa istənilən yerdə əl-Miqdad adlı şəxsin olması əl-Bərdicinin diqqətsizliyinə dəlalət etməməlidir.

3-Müəllifin kitaba daxil etdiyi adlara diqqətlə nəzər saldıqda daha bir xüsusiyyət diqqətimizi cəlb etdi. Məlum oldu ki, əl-Bərdici bəzən yalnız adın özünü qeyd etdiyi halda, bəzən də hədisçinin adını, atasının adını və s. qeyd etmişdir. Bu hal yuxarıda işarə etdiyimiz kimi müəyyən adın hədisin rəvayət zəncirində hansı şəkildə varid olmuşdursa, həmin şəkildə də götürüldüyünü göstərməklə yanaşı, digər tərəfdən də müəyyən adların ata adı və s. ilə birlikdə nadir ola biləcəyini ortaya çıxardı. Məsələn, əsərdə 2-ci sırada qeyd olunan Ukkaşə ibn Mihsən [115, 35] kimi tanınan hədisçiyə ikinci dəfə rast gəlmək bəlkə də qeyri-mümkündür.

4-Müəllif əsərdə bəzən ləqəbi, kunyəsi ilə tanınan hədisçiləri özlərinin və ya atalarının adlarını qeyd etmədən nadir ad sahibi kimi təqdim etmişdir. [115, 36] Əgər bir hədisçi ləqəbi və ya kunyəsi ilə daha çox tanınırsa, həmin ləqəb və ya künyə nadir hesab olunursa, onun haqqında danışılan siyahıda yer almasına ciddi maneə nə ola bilər? Belə hallarda müəllif həmin hədisçi barəsində olan hədisi və onun hansı bölgəyə mənsub olduğunu göstərməyi də unutmamışdır. [115, 36] Müəllifin bu addımından

başa düşülür ki, onun əldə etdiyi hədisin sənədində həmin ravi adı ilə deyil, ləqəbi və ya kunyəsi ilə qeyd olunmuşdur. Bəzi hallarda isə o, ortaya çıxa biləcək anlaşılmazlığın qarşısını almaq məqsədi ilə ləqəbi və ya kunyəsi ilə tanınan hədisçinin əsl adının nə olduğunu bildirmişdir. [115, 64]  Bu metod təbəqat müəlliflərinə yad olmayan bir metoddur. Belə ki, onlar ravinin adını hədisin sənədində olduğu kimi göstərməklə son dərəcə əmin və etibarlı olduqlarını ifadə etmişlər.

Beləliklə, əl-Bərdicinin nadir adlardan bəhs edən əsərinə yuxarıda qeyd olunan aspektlərdən yanaşdıqda onun ən azından kifayət qədər diqqətli və nəzərdə tutduğu üsluba sadiq olduğunu görürük. Bütün bunlar aşağıdakı misallarda bir daha aydın ifadə edilir:

– əl-Bərdici Kənnaz ibn Hisn [115, 35]  adlı Şam hədisçilərindən hesab olunan hədisçini nadir ad sahibi kimi təqdim etdiyi halda Səkinə xanım bunun əksini isbatlamağa çalışaraq “əl-İkmal” əsərinə istinadən cahiliyyə dövründə Kənnaz ibn Sərim adında şairin olduğunu bildirmişdir. [115, 35] Hədis rəvayəti ilə heç bir əlaqəsi olmayan, bundan əlavə İslamdan əvvəlki dövrün nümayəndəsi və şair olan bir şəxsin hədisçi səhabə ilə nə əlaqəsi vardır? Belə ki, əl-Bərdicinin ədəbiyyat deyil, hədis elminin rical sahəsində məşhur olduğunu dəfələrlə qeyd etmişik.

Məslək və dünyagörüşləri arasında heç bir əlaqə olmayan digər şəxslər isə əl-Bərdicinin əsərinə daxil etdiyi hədis mütəxəssisi Qureyb Əbu Abdulməlik [115, 99]  və Səkinə xanımın araşdırmasının nəticəsi olan Qureyb Valid əl-Əsməi, eləcə də xavariclərin liderlərindən olan Qureyb ibn Yaqubdur. [115, 99]

– Müəllif Tavus əl-Yəmani adında əz-Zuhri və Amr ibn Dinarın rəvayət mənbəyi olmuş hədisçini nadir adlı hesab

etmişdir. [115, 56] Səkinə xanım isə Tavus ibn Utbə adında başqa bir şəxsin olduğunu əsas gətirərək müəllifi diqqətsizlikdə günahlandırmışdır. [115, 56] Göründüyü kimi, əl-Bərdici qeyd etdiyi hədisçinin həm yəmənli olduğunu, həm də əz-Zuhri və Amr ibn Dinarın ondan rəvayət etdiyini göstərməklə diqqəti müəyyən rəvayət zəncirinə çəkmişdir. Bununla da demək istəmişdir ki, Tavus əl-Yəmani tabiun təbəqəsində qeyd olunmaqla rəvayət zənciri baxımından əsərdə olması gərəkən yerdə qərar tutmuşdur və o, öz təbəqəsində nadir adlı hesab olunur.

– əl-Bərdicinin Buceyr ibn Əbu Buceyr [115, 102] adını nadir ad hesab etməsi Səkinə xanımı daha çox təccübləndirmişdir. Onun bildirdiyinə görə, ibn Makula eyni adda on altı nəfərin olduğunu bildirmişdir ki, onlardan üçü məhz Buceyr ibn Əbu Buceyrdir. Buceyr adını daşıyan bu üç nəfərdən biri səhabə, digəri əl-Bağəndinin ondan rəvayət etdiyi bildirilən şəxs, üçüncüsü isə əl-Bərdicinin yuxarıda qeyd etdiyi İsmayıl ibn Umeyyənin ondan rəvayət etdiyi mühəddisdir. [115, 102] Hədisçilərin bəzən aid olduqları təbəqədə, bəzən də əl-Bərdici tərəfindən əldə edilmiş rəvayət zəncirində nadir olmalarının müəllifin məqsədyönlü planına zidd olmadığını nəzərə alsaq, onun bu xüsusda qınanmasının nə qədər haqsızlıq olduğunu anlayarıq. Belə ki, Səkinə xanımın da qeyd etdiyi kimi, əl-Bərdicinin nadir ad hesab etdiyi adın eyni olan birinci adın sahibi səhabədir. Əl-Bərdicinin qeyd etdiyi adın daşıyıcısı isə səhabə deyil. Demək, o, öz təbəqəsində nadir hesab oluna bilər. Əl-Bərdicinin qeyd etdiyi ad sahibindən İsmayıl ibn Umeyyə rəvayət etdiyi halda, Səkinə xanımın misal göstərdiyi ikinci ad sahibindən isə rəvayət edən şəxs əl-Bağəndi kimi tanınmışdır. Buradan da məlum olur ki, sırf hədis meyarı olan rəvayət zənciri baxımından adlar eyni deyil. Digər bir tərəfdən əl-Bərdici adını qeyd etdiyi

şəxsin Taifli olduğunu bildirmişdir. Bütün bunlar Buceyr ibn Əbu Buceyr adının aid olduğu təbəqədə nadir ad olmaqla bərabər məlum rəvayət zənciri və hədisçinin mənsub olduğu bölgə baxımından rəqibsiz olduğunu göstərir.

– Əsərdə təqdim olunan adların müəyyən təbəqə daxilində qarışıq şəkildə qeyd edildiyini bildirməklə Səkinə xanım əl-Bərdicinin işinin nadir ad axtarışında olan tədqiqatçılar üçün əlverişsiz olduğunu bildirmiş və hətta bu baxımdan əsərdə doğru-dürüst bir metoda riayət olunmadığını vurğulamışdır. [115, 14] Bu iradı müəllifə olan haqsızlıq kimi dəyərləndiririk. Çünki hicri III (m. IX) əsrdə ilk olaraq qələmə alınmış bir əsərin ehtiva etdiyi adların sıralanmasında müəllif tərəfindən hər hansısa bir metodun tətbiq edilməsinin özü təqdirəlayiq addımdır. Əl-Bərdici bu barədə düşünmüş və özündən əvvəlki təbəqat müəllifləri kimi əsərinə daxil etdiyi adları, müəyyən xüsusiyyətləri əsas tutaraq təbəqələr daxilində qeyd etmişdir. Ondan əvvəl təbəqələrə ayırma üslubunu tətbiq etmiş müəlliflərə misal olaraq isə İbn Saadı göstərmək olar. Əsərin bu xüsusiyyətə malik olması onun əhəmiyyətini daha da artıran amillərdən biridir. Qeyd etmək lazımdır ki, kitabın ehtiva etdiyi nadir adların sayı 425-dir. Nəzərə alsaq ki, bu adlar kitabda yer alan beş təbəqə arasında bölüşdürülmüşdür və hər təbəqəyə düşə biləcək adların sayını təxminən də olsa müəyyən etməkdə çətinlik çəkmərik. Məsələn, əsərdə qeyd olunan adların ən çoxu 136 ad olmaqla üçüncü təbəqənin payına düşmüşdür. Bu növ kitablardan lazımi şəkildə istifadə etməyi bacaranlar üçün bir neçə səhifədən ibarət adlar arasında lazım olan adı tapmaq çətin ola bilməz. Digər tərəfdən mühəddislərin təbəqələrinin müəyyənləşdirilməsinin onların hazır siyahıda əlifba sırası ilə düzülməsindən daha çətin bir iş olduğu məlumdur. Müəllif bu işin öhdəsindən layiqincə gələ bilmişdir.

Onun bu əməyini təqdir etmədən əsərini üslub və nizama zidd hesab etmək doğrudan da haqsızlıqdır.

**Əsərin əlyazma nüsxələri:** Məşhur azərbaycanlı mühəddis Əhməd ibn Harun əl-Bərdicinin haqqında danışılan əsərinin üç əlyazma nüsxəsi mövcuddur. Bu nüsxələrdən biri Dəməşqdə "əz-Zahiriyyə" kitabxanasının 525 saylı hədis bölməsində mühafizə olunur. Nüsxənin üz qabığında yazılmış "Təbəqat əl-əsma əl-mufrədə min əs-səhabə və ət-tabiin və əshab əl-hədis" cümləsi əsərin adını bildirir. Daha sonra isə müəllifin adı və nüsxənin kimlər tərəfindən nəql olunduğunu göstərən rəvayət zənciri qeyd olunmuşdur. Haqqında danışılan nüsxə VI əsrə məxsus, gözəl nəsx xətti ilə yazılmış, hər üzündə 13-14 sətr olmaqla iki üzlü kiçik parça şəklində olan 20 vərəqdən ibarətdir. Əsərin bu əlyazma nüsxəsinin hicri 542 (m. 1148)-ci ilin cəmadilaxir ayında Mədinət əs-Səlamda (Bağdad) yazıldığı bildirilir. Əsərin əlyazma nüsxəsində onun Yusif ibn Adəm ibn Məhəmməd tərəfindən Məhəmməd ibn Nasir üçün oxunduğu və sonra da üzünün köçürüldüyü bildirilir. Bununla da əsərin Məhəmməd ibn Nasir və ya Yusif ibn Adəm ibn Məhəmməddən hansının yazdığı tam olaraq başa düşülmür. Lakin haqqında danışılan əlyazma nüsxəsinin Məhəmməd ibn Nasir tərəfindən yazıldığı daha çox ehtimal olunur. Əsərin kim tərəfindən yazılmasına baxmayaraq katibin alim, işini yaxşı bilən olması ilk baxışdan anlaşılır. Əsər yaxşı vəziyyətdədir, hər hansısa formada yırtılma yoxdur, əvvəli və sonu aydındır. Əsərin sonunda İbn Bukeyrin əl-Bərdiciyə yazdığı mustədrək (əlavələr) qeyd olunmuşdur. [115, 20-22]

Əsərin digər əlyazma nüsxəsi isə "əz-Zahiriyyə" kitabxanasında 46 saylı məcmuədə 228-305-ci səhifələri əhatə edir. Bu nüsxənin üz qabığında əsərin adı "əl-Cüz fihi əl-əsma əl-mufrədə min əsma əl-uləma" kimi əks olunmuşdur. Daha sonra isə müəllifə istinad edilən rəvayət zənciri qeyd olunmuşdur. Bu

əlyazma nüsxəsi əs-Siləfinin Əbu Əli əl-Həsən ibn Əhməd əl-Muqridən rəvayət etdiyi orijinaldan nəql olunmuşdur. Əs-Siləfi hədis aləmində görkəmli şəxsiyyətlərdən biri olmuşdur. Əz-Zəhəbi onun əllamə, mühəddis, hafiz, müfti və Şeyxülislam olduğunu bildirmişdir. Onu çox hörmətlə xatırlayan İbn Əsakir isə onun barəsində belə demişdir: “O, Dəməşq mühəddisidir, bəzi dostlarımız ondan rəvayət etmişlər. Ondan rəvayət etməsəm də bir neçə şeyxdən onun qiraətini eşitmişəm.” Tam adı Əbu Tahir Əhməd ibn Məhəmməd ibn Əhməd ibn Məhəmməd ibn İbrahim əl-İsbəhani olan bu muhəddis hicri 475 (m. 1082)-ci ildə dünyaya gəlmişdir. Həmin il “əl-İkmal” əsərinin müəllifi İbn Makula dünyasını dəyişmişdir. Uzun ömr sürmüş Əbu Tahir hicri 576 (m. 1180)-cı ildə vəfat etmişdir. Onun şeyxi Əbu Əliyə gəlincə isə o, hədis ilə bərabər Qurani-Kərimin qiraəti sahəsində də şöhrət qazanmış şəxsiyyətlərdən hesab olunur. Azərbaycanlı hədis aliminin əsərinin digər bir nüsxəsinin bizə gəlib çatmasında əvəzolunmaz əməyi olmuş bu muhəddis hicri 515 (m. 1121)-ci ildə dünyadan köçmüşdür.

Əbu Tahirin, müəllimi Əbu Əlidən rəvayət etməklə əl-Bərdiciyə istinad edən bu əlyazma nüsxəsinin aydın xəttlə yazılmış olması, əsərdə müşahidə olunan dəqiqlik, məsuliyyət və s. kimi digər xüsusiyyətlər haqqında danışılan nüsxənin çox əhəmiyyətli olduğundan xəbər verir. Haqqında danışılan əlyazmanın sonunda müxtəlif rəvayətlər və İbn Bukeyrin əl-Bərdiciyə yazdığı müstədrək (əlavələr) qeyd olunmuşdur.

Bu əlyazma nüsxəsi əvvəlkindən fərqli olaraq yaxşı vəziyyətdə deyildir. Belə ki, tədqiqatçılar tərəfindən çox mütaliə edildiyi üçün bəzi hərflər, adlar oxunmaz hala düşmüş, hətta vərəqlərin bəzi yerləri tələf olmuşdur.

Beləliklə, Əhməd ibn Harun əl-Bərdicinin nadir adlardan bəhs edən əsərinin birinci əlyazma nüsxəsi daha qənaətbəxş hesab

olunur. Çünki həmin əlyazma nüsxəsinin katibi Məhəmməd ibn Nasir, ikinci nüsxənin katibi əs-Siləfinin bir tərəfdən müəllimi olmuşdur. Bununla belə həmin nüsxə gözəl xətlə yazılmış, əvvəli və sonu aydın olmaqla əvvəlkindən daha yaxşı vəziyyətdədir. [115, 22-27]

Müəllifin əsərinin üçüncü əlyazma nüsxəsinə gəlincə isə bu nüsxə Türkiyə Cumhuriyyətinin, İstanbul şəhərinin Köprülü kitabxanasında I bölüm, 1152 saylı məcmuədə, 164-172-ci vərəqlərdə yer almışdır. Bu nüsxədə əsərin adı "ət-Təbəqat fi əl-əsma əl-mufrədə min əsma əl-uləma və əshab əl-hədis" kimi göstərilmişdir. [115, 28] Qeydlərdə əlyazmanın xəttinin müəllifə aid olduğu bildirilmişdir. Səkkiz vərəqdən ibarət əlyazmanın hər səhifəsində 23 sətr vardır. Əlyazma aydın və gözəl xətti ilə diqqəti cəlb edir.

**Əsərin təhqiq və çap olunması:** Əsrlər boyu hədis mütəxəssislərinin və digər oxucuların əlyazma şəklində istifadə etdiyi bu əsər ilk dəfə 1987-ci ildə tədqiqat, tərcümə və nəşr müəssisəsi olan "Dar Təlas" tərəfindən Dəməşqdə çap olunmuşdur. Kitabın üz qabığında əsərin adı "Kitabun fihi təbəqat əl-əsma əl-mufrədə min əs-səhabə və ət-tabiin və əshab əl-hədis" kimi göstərilmişdir. Əbubəkr Əhməd ibn Harun ibn Rəvh əl-Bərdicinin müəllifi olduğu bu əsər Səkinə əş-Şihabi tərəfindən təhqiq edilmişdir. Əsərin təhqiq olunmuş variantı 170 səhifədən ibarətdir. Əsəri təhqiq etmiş Səkinə xanım kitaba yazdığı ön sözdə əsərin nadir adlara həsr olunmuş ilk kitab olmasından, onun əhəmiyyətindən, ona olan tələbatdan söhbət açmış, müəllifin həyat və yaradıcılığı barədə məlumat vermişdir. Daha sonra diqqəti sırf haqqında danışılan kitaba çəkən təhqiqçi xanım onun nadir adlardan bəhs edən ilk müstəqil kitab olduğunu bildirməklə müəllifin savadına olan təəccübünü gizlətməmişdir. Əl-Bərdicinin metod və üslubundan bəhs edən bölümdə isə

Səkinə xanım əsərlə bağlı iradlarının bir qismini dərc etmiş, müəllifin səyinin uğursuz alındığını, onun məqsədinə nail olmadığını müxtəlif əsaslar gətirməklə sübut etməyə çalışmışdır. Əsərin əlyazma nüsxələri xüsusunda məlumat verməyi unutmayan Səkinə xanım bu barədə danışarkən əsərin üç əlyazma nüsxəsinin olduğunu bildirmiş və həmin nüsxələrdən ikisi ilə yaxından tanış olmaq imkanı olsa da üçüncü nüsxəni əldə edə bilmədiyindən təəssüflənmişdir. Səkinə xanım əş-Şihabi haqqında danışılan əsərin hədisçilərin həyatlarından deyil, onların sahib olduqları adların nadirliyindən bəhs etdiyini nəzərə alaraq əsərdə qeyd olunan hər kəsin həyatını araşdırmağa səy göstərməmiş, əsas diqqətini əsərin ehtiva etdiyi nadir adlara yönəldərək onların həqiqətən nadir olub-olmadığını araşdırmışdır. Təbəqə bölgüsü istisna olmaqla hədisçilərin adlarının müəllif tərəfindən qarışıq şəkildə təqdim olunduğunu bildirən təhqiqçi xanım əsərdə yer alan hədisçilərin təbəqə daxilindəki yerlərini nəzərə almaqla (hər adın əvvəlində onun orijinaldakı sıra sayını göstərməklə) onları əlifba sırası ilə kitabın “Mündəricat” hissəsində sıralamışdır. Səkinə xanım nadir ad hesab etdiyi adın nadirliyini isbat etmək üçün əlavə səy göstərmədiyini və habelə kitabda qeyd olunmayan nadir adları kitaba daxil etmədiyini bildirmişdir. Bununla bağlı ona verilə biləcək “niyə?” sualına isə o, belə cavab vermişdir: “Əgər belə etsəydim, bu zaman haqqında danışılan mövzuda yeni kitab yazmış olardım.” Səkinə xanımın təhqiqat əsnasında istifadə etdiyi qaynaqlara gəlincə isə o, “əl-Cərh və ət-tədil”, “ət-Tarix əl-kəbir”, “Təqribut-təhzib”, izahlı lüğətlərdən “Tacul-ərus”, oxşar adlardan bəhs edən kitablardan “əl-İkmal”, “Təlxisul-mutəşabih” və s. kimi faydalı kitablardan yararlanmışdır. Əsərin ikinci əlyazma nüsxəsində qeyd olunan rəvayətlərin, şərhlərin çoxluğunu və təhqiqatın bu nüsxə əsasında aparılmadığını nəzərə alan Səkinə xanım həmin rəvayətlərin surətlərini, qeyd olunan

nüsxənin rəvayətinə istinad edən İbn Bukeyrin mustədrəkini kitabın sonuna əlavə edərək tədqiqatçıları, eləcə də digər oxucuları düşünmüşdür. Birinci nüsxənin əl-Bərdicinin yaşadığı dövrə daha yaxın olduğunu nəzərə alan Səkinə xanım əsərin digər nüsxələrdə qeyd olunan adlarını sonradanqoyma hesab edərək müəllifin məqsədini tam əhatə edən və Məhəmməd ibn Nasirin nəql etdiyi qəbul olunan nüsxədəki ada etimad göstərmişdir. [115, 1-30]

# NƏTİCƏ

Allahın bəşəriyyətə ünvanladığı ən son əmr və qadağalarını ehtiva edən Qurani-Kərimin nazil edilməsi ilə İslam dini təşəkkül tapmışdır. Ərəblərlə yanaşı, müxtəlif xalqlar da İslam dinini qəbul etmiş və bununla da İslam dini intişar tapıb inkişaf etməyə başlamışdır. Müqəddəs Allah kəlamı olan Qurani-Kərimin ərəb dilində nazil edilməsi ilə əlaqədar olaraq müsəlmanlar arasında bu dilə böyük maraq oyanmışdır. Quranın oxunuşuna olan həvəs əksər şərq ölkələrində ərəb dilinin tədrisinə zəmin yaratmış, hətta ərəb xalqını təmsil edən alimlərdən sayca az olmayan müxtəlif xalqlara mənsub alimlər yetişərək İslam mədəniyyətinə müxtəlif sahələrdə qiymətli əsərlər bəxş etmişlər.

Allahın bəşər övladına ünvanladığı əmr və qadağalar yalnız Qurani-Kərimin ehtiva etdikləri ilə məhdudlaşmır. Bununla bağlı məsələlər Məhəmməd peyğəmbərin hədislərində də öz əksini tapmışdır. Hədis dedikdə Məhəmməd peyğəmbərə aid söz, hərəkət və davranışlar olmaqla ilahi vəhyin digər növü başa düşülür. İslamiyyətin ilkin dövrlərində Qurani-Kərimə və onunla bağlı məsələlərə daha çox diqqət ayıran müsəlmanlar sonrakı dövrlərdə hədis sahəsinə lazımi rəğbət bəsləmiş, onunla əlaqədar bütün problem və məsələlərə son dərəcə diqqətlə yanaşmışlar. Nəticədə həm hədis mətnlərini, həm də hədisin bir elm sahəsi kimi formalaşmasında mühüm rol oynamış bu sahənin qayda-qanunlarını özündə əks etdirən qiymətli əsərlər yazılmışdır.

Hədisşünaslığın inkişafinda IX-X əsrlər müsəlman şərqinin görkəmli Azərbaycan alimi Əhməd Harun oğlu əl-Bərdicinin (Bərdəlinin) rolu mövzusunda apardığımız tədqiqatlar bizə aşağıdakı nəticələrin çıxarılmasına imkan verir:

1. Hədis İslam dinində Qurani-Kərimdən sonra ikinci əsas mənbə hesab olunur. İlahi vəhyin iki növü olan Qurani-Kərim və

hədis əhəmiyyət, eləcə də şərii hökmlərin isbatında dəlil olmaq baxımından bərabərdir.

2. Hədislərdən Qurani-Kərimin ayələrini izah etmək, eləcə də Allahın bəzi əmr və qadağalarının hansı formada icra olunmasını müəyyənləşdirmək üçün istifadə olunur.

3. Peyğəmbər dövründə hədislərin mühafizəsi əsasən onları əzbərləmək yolu ilə həyata keçirilimişdir. O zaman hədisləri kütləvi şəkildə yazaraq mühafizə etmək mümkün olmamışdır. Beləliklə, "Cahiliyyət" dövründə xütbələrini, şeirlərini son dərəcə dəqiqliklə əzbərləyən ərəblər Peyğəmbərin hədislərinin mühafizəsində də ilkin olaraq eyni metodu tətbiq etmişlər.

4. İslamiyyətin ilk dövrlərində hədislərin yazılması Peyğəmbərin özü və yaxın səhabələri tərəfindən qadağan olunmuşdur. [87, 10; 28, I, 62] Buna əsas səbəb nazil edildikcə vəhy katibləri tərəfindən yazılan Qurani-Kərimin ayələri ilə yazılacaq hədislərin qarışma təhlükəsinin olduğu bildirilir.

5. Peyğəmbərin diplomatik məktubları və bəzi məşhur səhabələrin adları ilə bağlı hədis səhifələri ilk yazılı hədis nümunələrindən hesab olunur.

6. Məhəmməd peyğəmbərdən ən çox hədis rəvayət etmiş səhabələr arasında 5374 hədisi ilə Əbu Hürəyrə, 2630 hədisi ilə Abdulla ibn Ömər, 2286 hədisi ilə Ənəs ibn Malik, 2210 hədisi ilə möminlər anası xanım Aişə, 1660 hədisi ilə Abdulla ibn Abbas, 1540 hədisi ilə Cabir ibn Abdulla və 1170 hədisi ilə Əbu Səid əl-Xudri ön cərgələrdə yer alır.

7. Mədinə, Məkkə, Kufə, Bəsrə, Şam, Misir kimi şəhər və ölkələr hədis elminin inkişaf etməsində önəmli rol oynamışdır. Bu ölkələrdə hədislə bağlı mərkəzlər, mədrəsələr fəaliyyət göstərmiş, nəticədə hədis elminin görkəmli alimləri meydana çıxmışdır.

8. Hicri II (m. VIII) əsrin əvvəllərindən etibarən sistemli şəkil alan cərh və tədil hərəkətləri bir tərəfdən hədislərin, hədis ravilərinin sağlam, etibarlı olmaları baxımından təbəqələrə ayrılmasına səbəb olmuş, digər tərəfdən də bəlkə də qələmə alınması bir qədər gecikmiş bu hərəkatın təməl prinsiplərini, qayda-qanunlarını, terminlərini ehtiva edən və araşdıran “usul əl-hədis” (Hədisşünaslığın əsasları) elminin təşəkkül tapması üçün şərait yaratmışdır.

9. Hicri III (m. IX) əsr ümumiyyətlə İslam elmlərinin, xüsusilə də hədis elminin çiçəklənmə dövrü hesab olunur. Buxari, Müslüm, Nisai, Əbu Davud, Tirmizi, İbn Macə kimi görkəmli hədis alimləri “Cami” və “Sünən”lərini məhz bu əsrdə yazaraq “əl-Kutub əs-sittə” adı ilə məşhur olan, Qurani-Kərimdən sonra İslam dininin ən mühüm qaynaqları sayılan altı şah əsəri meydana gətirmişlər.

10. Həyat və yaradıcılığı hədis tarixinin qızıl dövrünə təsadüf etmiş azərbaycanlı hədis alimlərindən biri də Əhməd ibn Harun əl-Bərdicidir. O, hicri 230 (m. 844)-cu ildə qədim Bərdənin 14-18 fərsəxliyində yerləşən orta əsr Azərbaycan şəhəri olmuş Bərdicdə dünyaya gəlmişdir. Əksər mənbələrin bildirdiyinə görə hicrətin 301 (m. 914)-ci ilinin Ramazan ayında Bağdad şəhərində dünyasını dəyişmişdir.

11. Əl-Bərdici təhsil almaq məqsədi ilə gənc yaşlarında doğulduğu Bərdic şəhərini tərk edərək dini mərkəzlərin təşəkkül tapdığı bir sıra ölkələrə səfərlər etmişdir. Aidiyyətli mənbələrdə onun Yaxın Şərq ölkələrində olduğuna, Nişapur, Bağdad və Məkkədə yaşadığına dair məlumatlar vardır. Əl-Bərdicinin hədislə bağlı müraciət etdiyi şəhərlər arasında Beyrut, Dəməşq, Hums, Misir, Hərran, Kufə və s. şəhərlər də mövcuddur. Bundan əlavə, onun iki dəfə İsfahanı ziyarət etdiyi, təhsil həyatının bir

qismini də İsfahanda keçirdiyi və bu bölgənin tanınmış alimlərindən faydalandığı bildirilir.

12. Əl-Bərdici elm öyrənmək üçün bir çox mütəxəssislərə müraciət etmiş və müxtəlif elm mərkəzlərində dövrünün məşhur şeyxlərindən, ustadlardan dərs almış, hədis əxz etmişdir. Əbu Səid əl-Əşəcc, Əbu Zura ər-Razi, Məhəmməd ibn Musa, Məhəmməd ibn İshaq əs-Səğani, Əbu İshaq İbrahim, Cəfər ibn İsa ibn Nuh, Məhəmməd ibn Abdulla, Ər-Rəbi ibn Süleyman və s. kimi alimlərin haqqında danışılan azərbaycanlı hədis aliminin müəllimlərindən olduğu bildirilir.

13. Ət-Təbərani, Həsən ibn Əhməd ibn Saleh əs-Səbii, Məymun ibn İshaq, ibn Nəcm, və s. kimi hədisçilərin hədis sahəsində həm faydalanmış, həm də faydalandırmış bir alim kimi tanınan Əhməd ibn Harun ibn Rəvh əl-Bərdicinin tələbələri olduğu bildirilir.

14. Əl-Bərdicinin elmi fəaliyyətindən danışan görkəmli İslam alimləri onun barəsində daim müsbət fikirdə olmuş, mənfi fikir söyləməmişdir. Onun barəsində qeyd olunan fikirlərdən və təriflərdən məlum olur ki, o, yalnız elmi ilə deyil, həm də əqidəsinə sadiqliyi, səmimiliyi ilə fərqlənmişdir.

15. Azərbaycanlı hədis alimi əl-Bərdicinin tarixə məlum altı əsəri vardır. Bunlar: “əl-kəbair”, “Təbəqatul-əsma əl-mufrədə minəs-səhabə vət-tabiin və əshabil-hədis”, “Mərifətul-muttəsil minəl-hədis vəl-mursəl vəl-məqtu və bəyanut-turuq əs-səhihə”, “əl-Mərasil”, “əl-Fəvaid” və “əl-Cərh və ət-tədil” kitablarıdır.

16. Əl-Bərdicinin əsərlərindən yalnız ikisi dövrümüzə qədər gəlib çıxmış və onlardan biri çap olunmuşdur. Digər dörd əsərin isə yalnız müxtəlif mənbələrdə adlarına rast gəlmək mümkündür. Müəllifin dövrümüzə qədər qədər gəlib çatmamış, lakin adından hədis üsulu ilə bağlı olması ehtimal olunan “Mərifətul-muttəsil

minəl-hədis vəl-mursəl vəl-məqtu və bəyanut-turuq əs-səhihə" əsəri müəyyən mənbələrdə daha çox hallanır.

17. Azərbaycanlı hədis alimi hədis elminin rical sahəsində daha çox məşhur olmuşdur. Onun bu sahədə böyük uğur qazanması qələmə aldığı əsərlərdən də aydın görülür. Belə ki, əl-Bərdicinin nadir adlardan [115] bəhs edən əsəri məhz hədis rəvayət edən şəxsləri əhatə etməklə onun digər əsərləri ilə müqayisədə ən çox uğur qazanmış və ən çox danışılan əsəri olmuşdur.

18. Əhməd ibn Harun əl-Bərdicinin müəllifi olduğu əsərlərdən biri də hicri III (m. IX) əsrin yeni kitab növlərindən olan "cüz" formasında yazılmışdır. Qeyd olunan əsərin müəllif tərəfindən "cüz" adlandırılması və müəyyən bir mövzunu əhatə etməsi bu əsərin hicri III (m. IX) əsrdə meydana çıxmış cüz nümunələrindən olduğunu deməyə əsas verir. İslam dinində qətiyyətlə qadağan olunmuş günahlardan bəhs edən bu əsər qısa olaraq "əl-Kəbair" kimi tanınır.

19. Əl-Bərdicinin "əl-Kəbair" əsərinin etibarlı rəvayət zəncirinin olması, əz-Ziya əl-Məqdisi, ibn Abdulhadi və s. kimi hafizlərin bu əsərin əl-Bərdiciyə aid olmasını təsdiqləməsi, hər bir hədisin əvvəlində qeyd olunan şeyxlərin müəllifin müəllimləri olması, müəllif tərəfindən rəvayət olunmuş bəzi hədislərin eyni sənədlə haqqında danışılan kitabda da qeyd olunması bir daha haqqında danışılan əsərin həqiqətən azərbaycanlı mühəddis Əhməd ibn Harun əl-Bərdiciyə məxsus olduğunu göstərir.

20. Əl-Bərdicinin Allahın Elçisi Məhəmməd vasitəsi ilə qətiyyətlə qadağan etdiyi əməllərdən bəhs edən "əl-Kəbair" kitabı əhatə etdiyi mövzu ilə olduqca əhəmiyyətli hesab olunur. Kitabın dörd əsr böyük günahlar mövzusuna həsr olunmuş ilk müstəqil hədis kitabı olaraq qalması, kitabda qeyd olunan hədislərin sənədləri ilə birlikdə kitaba daxil edilməsi və s. kimi xüsusiyyətlər onun dəyərini daha da artıran amillər sırasındadır.

21. Əl-Bərdici “əl-Kəbair” əsərinə Məhəmməd peyğəmbərin sırf böyük günahlardan bəhs edən hədislərini daxil etmişdir. Qeyd olunan mövzu ilə əlaqədar olub böyük günahları aydın şəkildə ifadə etməyən hədislər isə kitaba daxil edilməmişdir. Müəllif haqqında danışılan mövzu ilə bağlı varid olmuş hədisləri səhabədən sonra bir təriq ilə qeyd etmiş, nəql etdiyi hədislərdə ləfzi fərqlərə diqqət etmişdir. Hədislərə olunan əlavələr müəllif tərəfindən izah olunmuş, hədislərin dəyərləndirilməsi onun diqqətindən yayınmamışdır.

22. Əl-Bərdicinin böyük günahlardan bəhs edən “əl-Kəbair” əsərinin bir əlyazma nüsxəsi mövcuddur və həmin nüsxə Dəməşqin əz-Zahiriyyə kitabxanasında 81-saylı məcmuə tərkibində (1-dən 5-ə qədər olan vərəqlər) mühafizə olunur. Kitabın dövrümüzə qədər gəlib çıxmış bu əlyazma nüsxəsi əz-Ziya əl-Məqdisinin rəvayətinə istinad edir.

23. Azərbaycanlı hədis aliminin “əl-Kəbair” əsəri Səudiyyə Ərəbistanı Krallığının Məlik Səud Universitetində çalışan tədqiqatçı alim Məhəmməd ibn Turki ət-Turki tərəfindən təhqiq olunmuşdur.

24. Əl-Bərdicinin Səhabə, tabiun və hədisçilərin nadir adlarından bəhs edən “Təbəqat” kitabı qeyd olunan mövzunu əhatə edən ilk müstəqil kitab hesab olunur.

25. Müəllif “Təbəqat” əsərini beş hissəyə bölərək hər hissəni təbəqə adlandırmışdır. Təbəqələrin sıralanmasında isə zaman amilini əsas götürmüşdür. Beləliklə o, Məhəmməd peyğəmbərin səhabələri ilə başlamış, tabiun ilə davam etmiş və daha sonra isə tabiundan sonraki nəslin hədisçilərindən bəhs etməklə nadir hesab etdiyi 425 adı haqqında danışılan kitaba daxil etmişdir.

26. Əl-Bərdicinin “Təbəqat” əsərinin tədqiqat obyekti onun tərəfindən əldə olunmuş hədislərin rəvayət zəncirində qeyd olunan nadir adlar olmuşdur. Onun kitaba daxil etdiyi hədisçilərin

bəziləri yaşadıqları bölgədə, bəziləri ləqəb və kunyələri, habelə başqa xüsusiyyətləri ilə nadir olan hədisçilərdir. Əl-Bərdici tərəfindən haqqında danışılan əsərdə qeyd olunmuş adlar ümumiyyətlə nadir deyil, hədislə bağlılığı olub bu və ya digər xüsusiyyətlərə görə bənzəri olmayan adlardır.

27. Əl-Bərdici qələmə aldığı "Təbəqat" əsərində qarşısına qoyduğu məqsədə nail olmamışdır, onun kitaba daxil etdiyi adların əksəriyyəti nadir deyil" və s. kimi əsərlə bağlı iradlar əsassız və məntiqə ziddir. Qeyd olunan iradların səbəbi müəllifin məqsəd və metodunun düzgün müəyyən edilməməsindən irəli gəlmişdir.

28. Məşhur azərbaycanlı mühəddis Əhməd ibn Harun əl-Bərdicinin "Təbəqat" əsərinin üç əlyazma nüsxəsi mövcuddur. Bu nüsxələrdən biri Dəməşqin əz-Zahiriyyə kitabxanasında 525 saylı hədis bölümündə mühafizə olunur. Əsərin digər əlyazma nüsxəsi isə əz-Zahiriyyə kitabxanasında 46 saylı məcmuədə 228-305-ci səhifələri əhatə edir. "Təbəqat" əsərinin üçüncü əlyazma nüsxəsinə gəlincə isə bu nüsxə Türkiyə Cumhuriyyətinin, İstanbul şəhərinin Köprülü kitabxanasında I bölüm, 1152 saylı məcmuədə 164-172-ci vərəqlərdə yer almışdır.

29. Azərbaycanlı hədis alimi Əhməd ibn Harun əl-Bərdici tərəfindən qələmə alımış, əsrlər boyu hədis mütəxəssislərinin və digər oxucuların əlyazma şəkilində istifadə etdiyi "Təbəqat" kitabı ilk dəfə Səkinə xanım əş-Şihabi tərəfindən 1987-ci ildə tədqiqat, tərcümə və nəşr müəssisəsi olan "Dar təlas" tərəfindən Dəməşqdə çap olunmuşdur. Kitabın əlyazma nüsxələrindən birinci nüsxənin əl-Bərdicinin yaşadığı dövrə daha yaxın olduğunu nəzərə alan Səkinə xanım əsərin digər nüsxələrdə qeyd olunan adlarını sonradanqoyma hesab edərək müəllifin məqsədini tam əhatə edən və  Məhəmməd ibn Nasirin nəql etməsi təsdiq olunan nüsxədəki ada etimad göstərmişdir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1.Aslanova R. İslam və mədəniyyət, Bakı: 2002

2.Azərbaycan Sovet Ensiklopediyası, II cild, Bakı: 1978

3.Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə, Bakı: 1989

4.Dövlət və din, ictimai fikir toplusu, № 5(13), Bakı: 2009

5.Əhədov A. Azərbaycanda din və dini təsisatlar, Bakı: 1991

6.əl-Buxari Məhəmməd ibn İsmail, Peyğəmbərin əxlaqı, (tərcümə edən Əlixan Musayev) Bakı: 2009

7.Əliyev İ. Azərbaycan tarixi (Ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər) Bakı: 1993

8.Əliyev R. Dinin əsasları, Bakı: 2001

9.Əliyeva N. Azərbaycan Həməvinin əsərlərində Bakı: Çaşıoğlu, 1999

10. Həsənli S. Haqqa doğru, Bakı: Elm və həyat, 1998

11. Həsənli S. İman və elm, Bakı: 1998

12. Həsənli S. İslam mədəniyyətində elm, Bakı: 1998

13. Həsənli S. Peyğəmbərlər tarixi, Bakı: Adiloğlu, 2001

14. Mahmudov M. Ərəbcə yazmış Azərbaycan şair və ədibləri, VII-XII əsrlər, Bakı: Elm, 1993

15. Məmmədəliyev V.M. Ərəb dilçiliyi, Bakı: Maarif, 1985

16. Məmmədəliyev V.M. Qurani-Kərimin tərcüməsi, Ankara: 1997

17. Məmmədli A.C. Hökm və hikmət, Bakı: 2002

18. Məmmədov N. Qurani-Kərimin orfoqrafik xüsusiyyətləri, Bakı: 2004

19. Məmmədov N. Qurani-Kərimin üslub xüsusiyyətləri, Bakı: 2008

20. Məmmədov Z. Azərbaycan fəlsəfə tarixi, Bakı: 2006

21. Məmmədov Z. C. Azərbaycanda IX-XIII əsrlərdə fəlsəfi fikir, Bakı: Elm, 1987

22. Məmmədov Z. Orta əsr Azərbaycan filosof və mütəfəkkirləri , Azərbaycan, Bakı: Dövlət nəşriyyatı, 1986
23. Paşazadə Şeyxulislam Allahşükür, Qafqazda İslam, Bakı: 1991
24. Qəmbərli M. Həzrəti Məhəmmədin hədislərində ümumbəşəri dəyərlər, Bakı: Çıraq, 2006
25. Şərifli M.X. IX əsrin ikinci yarısı XI əsrlərdə Azərbaycan feodal dövlətləri, Bakı: 1978
26. Tərbiyət M. Danişməndani Azərbaycan, (Tərcumə Q.Kəndli), Bakı: 1991
27. Vəlioğlu F. Azərbaycan İslam alimləri

**Türk dilində**

28. Ahmed İbn Hanbel, Kitab əl-iləl və mərifət ər-rical, I cild, Ankara: İlahiyyat fakültəsi yayınlarından, 1963
29. Bağdadi, Babanzade İsmail Paşa, Hediyyetü`l-arifin esmaü'l-müellifin ve asaru'l-müsannifin, Ankara: 1955
30. Buxari Ebu Abdillah Muhammed İbn İsmail, el-Camius-Sahih, İstanbul: 1315 h.
31. el-Askalani İbn Hacer, Nuhbetul-fiker şerhi (türkçesi: Talat Koçyigit), Ankara: İlahiyat Fakültesi Yayınlarından, 1971
32. El-Hazimi İbrahim B. Abdullah, Yedi hadis imamının ittifak etdikleri hadisler, tahric, dipnot ve çeviren Hanifi Akın, son okuma Mithat Sevin, İstanbul: eylul, 2005
33. İbnül-Esir, İslam Tarihi, El-Kamil Fit-Tarih Tercümesi, Çeviren: M.Beşir Eryarsoy, İstanbul.
34. Kandemir Yaşar, "Ebu Zur'a er-Râzî", Diyanet İslâm Ansiklopedisi, İstanbul: 1991
35. Karaçam İsmail, Kuran-i Kerimin Nüzulü ve Kraati, İstanbul: Marmara Üniversitesi, İlahiyat Fakültesi Vakfı Yayınları, 1995

36. Koçyigit Talat, Hadis tarihi, Ankara: Türkiye Diyanet Vakfı Yayınları, 1997
37. Mahmud Şakir, Hz Adem`den Bu güne İslam Tarihi, Çeviri Ferit Aydin, İstanbul: 1995
38. Səlimli Q. Hicri I-IX Asırlarda Azerbaycanlı muhaddisler, Doktora tezi, İstanbul: 2005
39. Yardım Ali, "Eşecc", Diyanet İslam Ansiklopedisi, İstanbul: 1991

**İngilis dilində**

40. Ali M. The Religion of Islam. A Comprehensive discussion of the sources, principles and practices of Islam, Lahore: 1983
41. Brawmann M.M. The spiritual Background of early Islam, Leiden: 1972
42. Dwight M. Donaldson, The Shi'Ite Religion: a History of Islam in Persia and Irak, London: 1933
43. Edward Gibbon, The History of the Decline and Fall of the Roman Empire, New York
44. Misbah Yazdi, The Learnings of the glorious Quran, Tehran: 1994
45. Mullick H. Backlog and development in the muslim world. "Impact" 1975, vol. 5, No 1
46. Sayyid M. H. Tabatabai, The Quran in Islam, Qum
47. The Quran with an English Paraphrase, translated by Sayyid Ali Quli Qarai, Qum: 2003
48. Vladimir Minorsky, A History of Sharvān and Darband, Cambridge: 1958
49. Watt W.M. Free Will and Predestination in Early Islam, London: 1948

## Rus dilində


50. Бакиханов А.К. Гюлистани-Ирам, Баку: 1991
51. Баранов Х.К. Большой арабско-русский словарь, Москва: 2002
52. Бартольд В.В. Место Прикаспийских областей в истории мусульманского мира, Баку: 1924
53. Беляев Е. А. Арабы, ислам и арабский халифат в ранее средневековье, Москва: 1996
54. Беляев Е. А. Мусульманское сектантство, Москва: 1967
55. Большков О. Г. История Халифата, Москва: 2000
56. Борисов В.М. Русско-арабский словарь, Москва: 1967
57. Буниятов З.М. Видные деятели Азербайджана в сочинении ибн ал-Фувати // Известия АН Азерб .ССР. Серия истории, философии и права , 1979, № 2, с. 61-67
58. Буниятов З.М. Государство Атабеков Азербайджана, Баку: 1970
59. Буниятов З.М. Новые материалы о видных деятелях Азербайджана в эпоху средневековья // Известия АН Азерб. ССР. Серия истории, философии и права , 1980, № 2 , с. 59-68
60. Бунятов З. Историческая география Азербайджана, Баку: 1987
61. Гиргас В. Права христиан на Востоке по мусульманским законам, Санктпетербург: 1865
62. Пигулевская Н.В. К вопросу об общественных отношениях на Ближнем Востоке, Москва: 1948
63. Саидов З.А. Выходцы из Барда в среде ученых Багдаде IX-X в. Известия АН Аз. ССР, Серия история, философия и права. 1990 ,1. стр.105-111.
64. Шарбатов Г.Ш. Русско-арабский учебный словарь, Москва: 1979

## Fars dilində


65. جوادی آملي, نزاهت قرآن از تحریف, قم: مرکز نشر اسراء, 1383
66. حبیب الله جلالیان, تاریخ تفسیر قرآن کریم, تهران: 1378
67. رجبعلی مظلومی, علوم کتابت قرائت و تفسیر قرآن, تهران
68. سعید نفیسی، تاریخ تمدن ایران ساسانی, تهران: 1331
69. صمد سرداری نیا, مشاهیر آذربایجان, تبریز: 1377
70. عباس شوشتری, ایراننامه، کارنامه ایرانیان در عصر ساسانیان, تهران: 1342
71. عقیقي البخشایشي, مشاهیر آذربیجان, تهران
72. عقیقي البخشایشي, مفاخر آذربیجان تبریز: 1416
73. غلامعلي حداد عادل (زیر نظر), دانشنامۀ جهان اسلام, تهران: بنیاد دایرة المعارف اسلامی, 1375
74. کاظم موسوي بجنوردی (زیر نظر), دائرة المعارف بزرگ اسلامي, تهران: 1374
75. محمد باقر سعیدی روشن, علوم قرآن, قم: مؤسسه آموزشی و پژوهشی امام خمینی (ره) 1377
76. محمد جواد اسکندرلو, علوم قرآنی, سازمان حوزه ها و مدارس علمیه خارج از کشور, 1379
77. محمد علي تربیت, دانشمندان آذربایجان, تهران: 1377
78. محمود رامیار, تاریخ قرآن, تهران: مؤسسۀ انتشارات امیر کبیر 1385

## Ərəb dilində


79. إبن الاثير, عز الدين ابو الحسن علي بن أبي الكرم بن محمد بن الاثير (المتوفى 630 هـ), أسد الغابة, 1280

80. إبن الجوزي, جمال الدين عبد الرحمن بن علي بن محمد الجوزي (المتوفى 597 هـ), الموضوعات, المدينة: المكتبة السلفية

81. إبن الصلاح, الحافظ أبو عمرو عثمان بن عبد الرحمن بن موسى الكردي الشهرزوري المشهور بإبن الصلاح (المتوفى 643 هـ), علوم الحديث,حلب: 1966/1386

82. إبن العديم, كمال الدين أبو القاسم عمر بن أحمد بن هبة الله بن العديم (المتوفى 660 هـ), بغية الطلب في تاريخ حلب, تحقيق د. سهيل زكار ، بيروت- لبنان: دار الفكر

83. ابن العماد, أبو الفلاح عبد الحي بن أحمد بن محمد الحنبلي المعروف بإبن العماد (ت1089هـ)، شذرات الذهب في أخبار من ذهب، تحقيق محمود الأرنأوط، الطبعة الأولى، دمشق: دار ابن كثير ، 1406هـ.

84. إبن النجار, العلامة الشيخ محمد بن أحمد بن عبد العزيز بن علي الفتوحي المعروف بإبن النجار (المتوفى سنة 972 هـ), شرح الكوكب المنير, جامعة أم القرى

85. ابن النحاس, أحمد بن إبراهيم الدمشقي (ت814هـ)، تنبيه الغافلين عن أعمال الجاهلين, طبع على نفقة مريم الدعيج، مطابع الرياض، شارع المرقب

86. إبن تيمية, شيخ الإسلام تقي الدين أبو العباس أحمد بن عبد الحليم بن تيمية الحراني (المتوفى 728 هـ), الفتاوى الكبرى, جمع وترتيب عبدالرحمن بن قاسم ، الرياض: توزيع الرئاسة العامة للإفتاء

87. إبن حبان, أبو حاتم إبن حبان, كتاب التاريخ و المجروحين, حققه الشيخ حمدي عبد المجيد السلفي، الرياض: طبعة دار الصميعي

88. إبن خلدون, عبد الرحمن بن محمد إبن خلدون (المتوفى 808 هـ), مقدمة تاريخ إبن خلدون, مصر: 1284

89. إبن خلكان, وفيات الاعيان و أنباء أبناء الزمان، القاهرة: مكتب النهضة المصرية، 1948

90. إبن سعد, أبو عبد الله محمد بن سعد بن منيع الهاشمي بالولاء

، البصري ، البغدادي المعروف بإبن سعد (المتوفى 230 هـ.), الطبقات الكبرى, بيروت: دار صادر
إبن سلام, أبو عبيد القاسم بن سلام الهروي, كتاب الاموال, .91
القاهرة: 1353
إبن سلام, محمد بن سلام الجمحي (المتوفى 232هـ), طبقات .92
فحول الشعراء, تحقيق محمود شاكر, القاهرة :مطبعة المدني
إبن عبد البر, ابو عمر يوسف بن عبد البر المتوفى 463 هـ., .93
جامع بيان العلم و فضله, بيروت: دار الكتب العلمية
إبن عساكر, أبو القاسم علي بن الحسن بن هبة الله المعروف .94
بإبن العساكر (المتوفى 571 هـ), تاريخ دمشق, تحقيق عمرو غرامة العمروي, الطبعة الأولى، بيروت: دار الفكر، 1415ه
إبن قتيبة, أبو محمد عبد الله بن مسلم بن قتيبة الدينوري .95
(المتوفى 276 هـ), تأويل مختلف الحديث, مصر: 1326
إبن كثير, الإمام الجليل الحافظ عماد الدين أبو الفداء .96
إسماعيل بن كثير القرشي الدمشقي المتوفى سنة 774 هـ. تفسير القران العظيم, الطبعة السابعة, بيروت-لبنان: دار الأندلس للطباعة و النشر و التوزيع 1405 هـ-1985م
إبن كثير, الإمام الجليل الحافظ عماد الدين أبو الفداء .97
إسماعيل بن كثير القرشي الدمشقي المتوفى سنة 774 هـ.البداية و النهاية و معه نهاية البداية و النهاية في الفتن و الملاحم, بيروت-لبنان: دار الفكر للطباعة و النشر و التوزيع 1419هـ-1998م
إبن كثير, الإمام الجليل الحافظ عماد الدين أبو الفداء .98
إسماعيل بن كثير القرشي الدمشقي المتوفى سنة 774 هـ. قصص الأنبياء, الطبعة الثانية, بيروت-لبنان: دار و مكتبة الهلال, 1987م
إبن ماجه, الإمام الحافظ ابو عبد الله محمد بن يزيد القزويني .99
(209-273 هـ.), سنن إبن ماجه, مصر: 1349
إبن منظور, العلامة جمال الدين محمد بن مكرم بن منظور, .100
لسان العرب, بيروت: دار صادر
إبن هشام , السيرة النبوية, حققها و ضبطها و شرحها و .101
وضع فهارسها مصطفى السقا, إبراهيم الابياري, عبد الحقيظ شلبي, الطبعة الثالثة, بيروت-لبنان: داد مكتب تحقيق التراث, دار إحياء التراث

العربي, 2000
102. أبو حنيفة أحمد بن داود الدينوري (المتوفى 282 هـ),
الأخبار الطوال, القاهرة: 1960
103. أبو داود,سليمان بن الأشعث بن إسحاق بن بشير الازدي
السجستاني المشهور بأبي داود (202-275 هـ), سنن أبي داود, تحقيق
عزت عبيد الدعاس
104. أبو نعيم الإصبهاني, أبو نعيم أحمد بن عبد الله بن أحمد بن
إسحاق بن موسى بن مهران الأصبهاني (المتوفى 430 هـ), حلية
الأولياء, مصر: 1933/1352
105. ابو يعلى, ابو يعلى خليل بن عبد الله بن احمد بن إبراهيم بن
خليل الخليلي القزويني (المتوفى 446 هـ), الإرشاد في معرفة علماء
الحديث, تحقيق : د. محمد سعيد عمر إدريس, الرياض: 1989/1409
106. ابو يعلى, ابو يعلى خليل بن عبد الله بن احمد, طبقات
الحنابلة, تحقيق محمد حامد الفكي, قاهرة: 1952/1371
107. أحمد أمين, فجر الإسلام, القاهرة: 1955/1374
108. أحمد بن حنبل, الإمام أبو عبد الله أحمد بن حنبل بن هلال
الذهلي الشيباني المزوزي الوائلي (164/780-241/855) , المسند,
الناشر أحمد محمد شاكر, مصر: 1313
109. أحمد محمد شاكر, الباعث الحثيث شرح إختصار علوم
الحديث لأبي الفداء إسماعيل بن عمر بن كثير القرشي الدمشقي (
المتوفى 774 هـ), مصر
110. الأشبيلي, أبو بكر محمد بن خير بن عمر بن خليفة الاموي
الأشبيلي (575 هـ), فهرسة ما رواه عن شيوخه من الدواوين المصنفة
في ضروب العلم وأنواع المعارف, 1893
111. ألأصبهاني, أبو محمد عبد الله بن محمد بن جعفر بن حيان
الأنصاري المعروف بأبي الشيخ الأصبهاني (المتوفى 369 هـ), طبقات
المحدثين بأصبهان, تحقيق عبدالغفور البلوشي، الطبعة الأولى, ، بيروت:
مؤسسة الرسالة، 1408هـ
112. الأعظمي وليد, شعراء الرسول صلى الله عليه و سلم, الطبعة
الأولى, بغداد: مطبعة أسعد، 1411هـ-1990م
113. الباقلاني, الإمام القاضي أبو بكر الباقلاني, كتاب إعجاز

القران, الطبعة الاولى, بيروت- لبنان: دار الفكر للطباعة و النشر و التوزيع , 1420 هـ-1999 م
114. البخاري, محمد بن إسماعيل بن إبراهيم بن المغيرة البخاري, أبو عبد الله (المتوفى 256 هـ) التاريخ الكبير, حيدر اباد: 1360
115. البرديجي ,أبو بكر أحمد بن هارون بن روح البرديجي ت.301 هـ., كتاب فيه طبقات الأسماء المفردة من الصحابة و التابعين و أصحاب الحديث, حققته و قدمت له سكينة الشهابي, طلاس للدراسات و الترجمة و النشر، 1987
116. البرديجي, الحافظ أبو بكر أحمد بن هارون البرديجي (المتوفى 914/301), كتاب الكبائر, تحقيق: د. محمد بن تركي التركي
117. البغدادي, أبو بكر أحمد بن علي بن ثابت الخطيب البغدادي (المتوفى 463 هـ), تقييد العلم, دمشق: 1949
118. البغدادي, أبو بكر أحمد بن علي بن ثابت الخطيب البغدادي (المتوفى 463 هـ), تاريخ بغداد, مصر: 1931/1349
119. البغدادي, أبو بكر أحمد بن علي بن ثابت الخطيب البغدادي (المتوفى 463 هـ),الرحلة في طلب الحديث, بيروت : دار الكتب العلمية
120. البغدادي, الحافظ أبو بكر أحمد بن علي بن ثابت الخطيب البغدادي, الكفاية في معرفة أصول علم الرواية, القاهرة: المكتبة الحديثة
121. البلاذري, أبو العباس أحمد بن يحيى بن جابر البلاذري(المتوفى 279 هـ), فتوح البلدان, مصر: 1932/1350
122. الترمذي, الإمام أبوعيسى محمد بن عيسى بن سَورة الترمذي المولود سنة 209هـ والمتوفى سنة 279هـ ., جامع الإمام الترمذي, البابي الحلبي, تحقيق أحمد شاكر، القاهرة
123. الجزائري, طاهر بن أحمد الجزائري الدمشقي, توجيه النظر إلى أصول الأثر, مصر: 1910/1328
124. الجوزي, أبو الفرج جمال الدين عبد الرحمن بن علي بن محمد الجوزي (المتوفى 597 هـ), صفوة الصفوة, تحقيق محمود فاخوري و محمد رواس قلعجي, بيروت: 1413 هـ.1992 م
125. الجوهري, أحمد عبد الغفور عطار الجوهري, الصحاح, عام 1402 هـ

126. الحاكم, أبو عبد الله الحاكم محمد بن عبد الله بن محمد بن حمدويه بن نعيم بن الحكم الضبي الطهماني النيسابوري المعروف بإبن البيع (المتوفى 405 هـ), المستدرك على الصحيحين, حيدر اباد: 1335
127. الحاكم, أبو عبد الله الحاكم محمد بن عبد الله بن محمد بن حمدويه بن نعيم بن الحكم الضبي الطهماني النيسابوري المعروف بإبن البيع (المتوفى 405 هـ), معرفة علوم الحديث, القاهرة: 1937
128. الحبش, الدكتور محمد الحبش, القراءات المتواترة و أثرها في الرسم القراني و الاحكام الشرعية, الطبعة الاولى, دمشق: دار الفكر, 1419 هـ-1999م
129. الحديثي د. خديجة, المدارس النحوية, الطبعة الثانية, بغداد: مطبعة جامعة بغداد, 1410 هـ 1990 م
130. الدارمي, عبد الله بن عبد الرحمن بن الفضل بن بَهرام الدارمي، التميمي، أبومحمد، السمرقندي المتوفى 255 هـ., سنن الدارمي, ، تحقيق عبد الله هاشم اليماني, المدينة
131. الدكتور أكرم العمري, بحوث في تاريخ السنة, الطبعة الرابعة , بيروت: مؤسسة الرسالة
132. الدكتور شوقي ضيف, تاريخ الأدب العربي- العصر الإسلامي, الطبعة السابعة, مصر: دار المعارف
133. الدكتور عبد الغني بن عبد الخالق, بحوث في السنة المشرفة, القاهرة: مكتبة السنة
134. الدكتور محمد عبد المنعم خفاجي, الحياة الأدبية في عصر صدر الإسلام, الطبعة الأولى, بيروت: دار الكتاب اللبناني, 1973
135. الدكتورة إبتسام مرهون الصفار, أثر القان في الأدب العربي في القرن الاول الهجري, الطبعة الاولى, بغداد : مطبعة اليرموك, 1974
136. الذهبي, شمس الدين أبو عبد الله محمد بن أحمد بن عثمان بن فايماز الذهبي (المتوفى 748 هـ), تاريخ الإسلام, القاهرة: 1368
137. الذهبي, شمس الدين أبو عبد الله محمد بن أحمد بن عثمان بن فايماز الذهبي (المتوفى 748 هـ), الكبائر, تحقيق محيي الدين مستو، الطبعة الثانية، دمشق: دار ابن كثير، 1405 هـ.
138. الذهبي, شمس الدين أبو عبد الله محمد بن أحمد بن عثمان بن فايماز الذهبي (المتوفى 748 هـ), سير أعلام النبلاء، تحقيق شعيب

الأرنأوط وآخرين, الطبعة الأولى ، بيروت: مؤسسة الرسالة،
139. الذهبي, شمس الدين أبو عبد الله محمد بن أحمد بن عثمان بن قايماز (المتوفى 748 هـ.), تذكرة الحفاظ, حيدر اباد: 1955/1375
140. الرازى, أبو محمد عبد الرحمن بن محمد بن إدريس بن المنذر التميمى الحنظلى, الرازى إبن أبي حاتم (ت 938/327), الجرح و التعديل, بيروت: 1372/ 1953
141. الرازي, عبد الرحمن بن محمد بن إدريس بن المنذر التميمي الحنظلي الرازي إبن ابي حاتم (المتوفى 327 هـ), علل الحديث, القاهرة: 1343
142. الرافعي, مصطفى صادق الرافعي, تاريخ اداب العرب, الطبعة الرابعة, بيروت,لبنان: دار الكتاب العربي 1394هـ-1974م
143. الزركشي, الإمام بدر الدين محمد بن عبدالله الزركشي, البرهان في علوم القران, تحقيق محمد أبو الفضل إبراهيم, الطبعة الثانية, بيروت: المكتبة العصرية, 1972 م,
144. الزهراني , د. محمد بن مطر الزهراني, علم الرجال نشأته و تطوره من القرن الاول و إلى نهاية القرن التاسع, الطبعة الاولى, المملكة العربية السعودية: دار الهجرة للنشر و التوزيع, 1996/1417
145. الزهراني, الدكتور محمد بن مطر الزهراني, تدوين السنة النبوية نشأته و تطوره من القرن الأول إلى نهاية القرن التاسع الهجري, الطبعة الأولى, الطائف: مكتبة الصديق, 1412
146. السخاوي, شمس الدين السخاوي, حبيب الرحمن الاعطمي, فتح المغيث, المدينة : المكتبة السلفية
147. السمعاني, أبو سعيد عبد الكريم بن محمد السمعاني(المتوفى 562 هـ), الأنساب, تعليق عبدالله البارودي, الطبعة الأولى, بيروت: دار الكتب العلمية، 1408 – 1988م
148. السيوطي, جلال الدين السيوطي (توفي 911 هـ \ 1505 م) و جلال الدين المحلي (توفي 864 هـ \1459 م) تفسير الجلالين, قاهرة
149. السيوطي, جلال الدين السيوطي الشافعي المتوفى 911 هـ., الإتقان في علوم القران, الطبعة الاولى, بيروت-لبنان: دار الفكر للطباعة و النشر و التوزيع, 1420 هـ- 1999م
150. السيوطي, جلال الدين السيوطي الشافعي المتوفى 911

هـ.بغية الوعاة في طبقات اللغويين و النحاة, تحقيق محمد أبو الفضل إبراهيم, الطبعة الثانية, دار الفكر, 1399هـ. 1979م,

151. السيوطي, عبد الرحمن بن أبي بكر السيوطي, مفتاح الجنة, الطبعة الثالثة,المدينة المنورة: الجامعة الإسلامية, 1399

152. السيوطي, عبد الرحمن بن أبي بكر جلال الدين السيوطي (المتوفى 911 هـ), تنوير الحوالك, القاهرة

153. السيوطي, عبد الرحمن بن أبي بكر جلال الدين السيوطي (المتوفى 911 هـ), تدريب الراوي في شرح تقريب النواوي, مصر: 1379

154. السيوطي, عبد الرحمن بن أبي بكر جلال الدين السيوطي (المتوفى 911 هـ), طبقات الحفاظ, بيروت: 1983/1403

155. الشاطبي , أبو إسحاق إبراهيم بن موسى بن محمد اللخمي الغرناطي المالكي الشهير بالشاطبي (المتوفى : 790هـ) الموافقات في اصول الشريعة, مكة: دار الباز

156. الشافعي, الامام محمد بن إدريس الشافعي رحمه الله, الرسالة, تحقيق أحمد شاكر, القاهرة: مكتبة دار التراث

157. الشنقيطي, الشيخ محمد الأمين بن المختار الشنقيطي رحمه الله, مذكرة أصول الفقه, المدينة: المكتبة السلفية

158. الشيخ زكريا, الأحاديث القدسية الصحيحة, جمع و إعداد الشيخ زكريا, الطبعة الأولى, بيروت-لبنان: دار الكتب العلمية

159. الصابوني محمد علي, صفوة التفاسير, بيروت-لبنان: مكتبة جدة دار القلم

160. الصابوني, محمد علي الصابوني, روائع البيان تفسير ايات الأحكام من القران, الطبعة الأولى , بيروت-لبنان: دار إحياء التراث العربي, 1421 هـ-2001 م

161. الصديقي الشافعي, محمد بن علان الصديقي الشافعي الأشعري المكي المتوفى 1057, كتاب دليل الفالحين لطرق رياض الصالحين, الطبعة العاشرة, بيروت-لبنان: دار الكتاب العربي, 1405هـ-1985م

162. الصفدي, صلاح الدين خليل بن أيبك بن عبد الله الصفدي (ت 1363/764), كتاب الوافي بالوفايات

163. الصنعاني, الشيخ الإمام محمد بن إسماعيل الأمير اليمني الصنعاني المتوفى 1182 هـ, سبل السلام شرح بلوغ المرام من جمع أدلة الأحكام, بيروت-لبنان: دار إحياء التراث العربي, مؤسسة التاريخ العربي
164. الطبراني, أبو القاسم سليمان بن أحمد بن أيوب بن مطير اللخمي الشامي الطبراني (ت 971/360), المعجم الأوسط, تحقيق محمود بن أحمد الطحان, رياض: 1985/1405
165. الطبراني, أبو القاسم سليمان بن أحمد بن أيوب بن مطير اللخمي الشامي الطبراني (ت 971/360), المعجم الصغير, تحقيق محمد شكور محمود أمرير, بيروت: 1985/1405
166. الطبراني, أبو القاسم سليمان بن أحمد بن أيوب بن مطير اللخمي الشامي الطبراني (ت 971/360), جزء فيه طرق حديث من كذب علي متعمدا, تحقيق محمد حسن الغماري, بيروت: 1997/1417
167. الطبري, ابو جعفر محمد بن جرير, تاريخ الرسل و الملوك, تحقيق ابو الفضل إبراهيم, القاهرة: دار المعارف, 1960
168. الطبري, محمد بن جرير بن يزيد بن كثير بن غالب الآملي, أبو جعفر الطبري (المتوفى 310هـ), تاريخ الامم و الملوك, القاهرة: 1358
169. الطبري, محمد بن جرير بن يزيد بن كثير بن غالب الآملي, أبو جعفر الطبري (المتوفى 310هـ), تفسير الطبري (جامع البيان عن تأويل آي القرآن)، مصر: مطبعة مصطفى بابي الحلبي
170. العسقلاني, أبو الفضل أحمد بن علي بن محمد بن أحمد بن حجر العسقلاني (المتوفى 852 هـ), تهذيب التهذيب, حيدر اباد: 1925
171. العسقلاني, أبو الفضل أحمد بن علي بن محمد بن أحمد بن حجر العسقلاني (المتوفى 852 هـ), الإصابة في تمييز الصحابة, مصر: 1907/1325
172. العسقلاني, أبو الفضل أحمد بن علي بن محمد بن أحمد بن حجر العسقلاني (المتوفى 852 هـ), فتح الباري بشرح صحيح البخلري, مصر: 1319
173. العسقلاني, أبو الفضل أحمد بن علي بن محمد بن أحمد بن حجر العسقلاني (المتوفى 852 هـ), هدي الساري مقدمة فتح الباري,

مصر: 1347

174. القاسمي محمد جمال الدين, تفسير القاسمي محاسن التأويل, تحقيق محمد فؤاد عبد الباقي , دار إحياء الكتب العربية, 1376هـ. 1952 م

175. القاسمي, جمال الدين القاسمي, قوائد التحديث, دمشق: 1949

176. القران الكريم بالرسم العثماني, الطبعة الحادية عشرة, دمشق: عنيت بطباعته جمعية دار البر, 1425 هـ.

177. القونوي, قاسم بن عبد الله بن أمير علي القونوي الرومي الحنفي (المتوفى : 978هـ) أنيس الفقهاء, تحقيق أحمد الكبيسي, دار الوفاء

178. الكتاني, أبو عبد الله محمد أبي الفيض جعفر الحسني الإدريسي الشهير بـ الكتاني (المتوفى 1345 هـ), الرسالة المستطرفة لبيان مشهور كتب السنة المصنفة, بيروت: 1332

179. اللالكائي, أبو القاسم هبة الله بن الحسن بن منصور الطبري اللالكائي (ت418ه)، شرح أصول اعتقاد أهل السنة والجماعة، تحقيق أحمد الغامدي، الطبعة الثالثة، الرياض: دار طيبة، 1415ه

180. المزي, جمال الدين ابو الحجاج يوسف بن عبد الرحمن المزي (المتوفى 742 هـ) تهذيب الكمال في أسماء الرجال, تحقيق بشار عواد معروف بيروت: 1996/1413

181. المنجد في اللغة, الطبعة الثامنة و العشرون, بيروت-لبنان: منشورات دار المشرق, 1986

182. النووي, أبو زكريا محي الدين يحيى بن شرف النووي (المتوفى 676 هـ), تهذيب الاسماء و اللغات, مصر

183. الهاشمي, معلم البيان أحمد بن إبراهيم بن مصطفى الهاشمي الأزهري المصري المتوفى 1943, جواهر الادب في ادبيات و إنشاء لغة العرب, الطبعة الأولى, (طبعة جديدة منقحة و مصححة إعتنت بها ريما إبراهيم شجاع) بيروت-لبنان: مؤسسة التاريخ العربي, 1419هـ 1999 م

184. الهيثمي, شهاب الدين أبو العباس أحمد بن محمد إبن حجر الهيثمي(المتوفى 974 هـ) الزواجر عن اقتراف الكبائر، الطبعة الأولى ،

مكة المكرمة: مكتبة نزار الباز، 1417هـ
185. حارث سليمان الداري, محاضرات في علوم الحديث, الطبعة الرابعة, الأردن: دار النفائس, 2000/1420
186. حاسي كوتا, الكبيرة والمذاهب فيه، رسالة ماجستير، بجامعة أم القرى، كلية الشريعة، عام 1401هـ.
187. حسان بن ثابت الانصاري, شرح ديوان حسان بن ثابت الانصاري, ضبط الديوان و صححه عبد الرحمان البرقوقي, بيروت: دار الاندلس للطباعة و النشر و التوزيع, 1980
188. حسن إبراهيم حسن, تاريخ الإسلام السياسي-الديني-الثقافي-الإجتماعي, مصر: 1953
189. حميد الله, محمد حميد الله, مجموعة الوثائق السياسية للعهد النبوي والخلافة الراشدة, الطبعة الثانية, القاهرة: 1376/1956
190. داودي, محمد علي داودي, طبقات المفسرين, قاهرة: 1972/1392
191. سزكين , فؤاد, تاريخ التراث العربي, تحقيق د.محمود فهمي حجازي ود.فهمي أبو الفضل , القاهرة: 1978/1398
192. كحاله, عمر رضا كحاله, معجم المؤلفين تراجم مصنفي الكتب العربية, بيروت

193. كفوري, صفي الرحمن مباركفوري, الرحيق المختوم بحث في السيرة النبوية على صاحبها أفضل الصلاة و السلام, بيروت-لبنان: دار الفكر للطباعة و النشر و التوزيع, 1419 هـ-1998 م
194. محمد فؤاد بن عبد الباقي بن صالح بن محمد (المتوفى 1388 هـ), اللؤلؤ و المرجان فيما إتفق عليه الشيخان, القاهرة: دار إحياء الكتب العربية, 1949
195. محمد فؤاد عبد الباقي, المعجم المفهرس لألفاظ القران الكريم بحاشية المصحف الشريف, انتشارات اسلامي
196. محمد مصطفى محمد, الفهرس الموضوعي لايات القران الكريم, الطبعة الثانية, بغداد: مطبعة الخلود, 1984
197. مرتضى الزبيدي, محمد بن محمد بن عبد الرزاق الحسيني أبو الفيض الملقب بمرتضى, الزبيدي (المتوفى 1205 هـ), تاج العروس

من جواهر القاموس, بيروت: دار مكتبة الحياة
198. مسلم, الإمام أبو الحسين مسلم بن الحجاج بن مسلم القشيري
النيسابوري (821-875 هـ) الجامع الصحيح, مصر: 1955/1373
199. مناع القطان , مباحث في علوم القران, الطبعة الخامسة و
الثلاثون, بيروت-لبنان: مؤسسة الرسالة, 1418 هـ 1998 م
200. ياقوت الحموي, شهاب الدين أبو عبد الله ياقوت بن عبد الله
الحموي (المتوفى 626 هـ), معجم البلدان, تحقيق فريد الجندي، الطبعة
الأولى ، بيروت: دار الكتب العلمية، 1410ه

# ƏLAVƏLƏR



*Əl-Bərdicinin "Təbəqat" kitabının Dəməşqin əz-Zahiriyyə kitabxanasında mühafizə olunan nüsxəsindən götürülmüş, kitabın üz qabığının surəti*



*Əl-Bərdicinin "Təbəqat" kitabının əz-Zahiriyyə kitabxanasında mühafizə olunan nüsxəsindən götürülmüş kitabın birinci vərəqinin ikinci səhifəsinin və ikinci vərəqinin birinci səhifəsinin surəti*



*Əl-Bərdicinin "Təbəqat" kitabının əz-Zahiriyyə kitabxanasında mühafizə olunan nüsxəsi, İbn Bukeyrin müstədrəkinin (əlavələrinin) sonu*



*Əl-Bərdicinin "Təbəqat" kitabının əz-Zahiriyyə kitabxanasında mühafizə olunan nüsxəsindən götürülmüş sonuncu vərəqin surəti və İbn Bukeyrin mustədrəkinin əvvəli*




*Əl-Bərdicinin “Təbəqat” kitabının əz-Zahiriyyə kitabxanasında mühafizə olunan digər nüsxəsindən götürülmüş kitabın üz qabığının surəti*



*Əl-Bərdicinin "Təbəqat" kitabının əz-Zahiriyyə kitabxanasında mühafizə olunan digər nüsxəsindən götürülmüş kitabın birinci vərəqinin ikinci səhifəsinin və ikinci vərəqinin birinci səhifəsinin surəti*



*Əl-Bərdicinin əz-Zahiriyyə kitabxanasında mühafizə olunan “Təbəqat” kitabının digər əlyazma nüsxəsinin sonu. Növbəti səhifələr isə müxtəlif rəvayətləri və İbn Bukeyrin mustədrəkini ehtiva edir.*



[illegible] ابو العبد عمر بن سيار بن صاعد بن سيار قالا انا ابو محمد الحسن
احمد بن محمد السمرقندي اجازة انا ابو نصر الحسن بن عبد الواحد السيرازي
رحمه الله انا ابو العباس الوليد بن بكر بن مخلد بن ابي زياد الغمري قال سمعت
ابا عبد الله الحسين احمد بن عبد الله بن بكير الصيرفي الحافظ البغدادي قال
لم اعرف ان بعض الحفاظ انكر ان يكون احمد بن هرون بن روح بن عيا
الاصبهاني بغيره وسمعت ابا بكر محمد بن علي الصابوني البرذعي يقول سمعت ابو الشيخ
وسالته عن برذعة وبرذعيج قال من برذعة الى برذعيج
اربعة عشر فرسخا وبرذعيج حوالها الماء بالروم من بهر يقال له
الكر وقد كثير مثل الدجلة ببغداد وقد حدثني الثقة انه اصلح ذلك ابو
القسم عمر بن محمد بن سعد بن محمد جعفر بن ابراهيم بن عبد الله بن سليمان
[illegible] الحسين احمد صاحب الروايات نا احمد بن هرون بن روح البرذعي
نا مسلم بن الحجاج النيسابوري نا ابو غسان مالك بن عبد الواحد
المسمعي نا معاذ بن هشام نا ابي عن مطر الوراق عن عمرو بن دينار
وعطاء بن ابي رباح عن جابر بن عبد الله ان النبي صلى الله عليه
[illegible] احدا [illegible] من حديث مطر بن طهمان الوراق
[illegible] عطاء بن ابي رباح وابي الزبير المكي تفرد به عنه هشام
[illegible] الدستوائي لا اعلم رواه عنه غير ابنه [illegible] هشام من
[illegible] ابي غسان المسمعي عنه ولا اعلم رواه عنه غير مسلم بن الحجاج
واخرجه مسلم في الصحيح عن ابي غسان قال [illegible] ذكرت ذكرها
احمد بن هرون البرذعي المعروف بالبرديجي [illegible] ظاهرها
[illegible] لا اساس [illegible] قال البرديجي رحمه الله الاجداد
[illegible] وهو يحيى بن عبد الله الوجيه
[illegible]

صغدي بن سنان الجلي [illegible] وهو عمر بن سنان الحرشي لقبه صغدي
وعمر كثير واخرج فهير بن زياد الرقي واسمه يحيى [illegible] بن ابي زياد
الاسدي مولى بني الاسد [illegible] ولقبه فهير [illegible]
بكير رحمه الله ذكر اسامي مثلها ذكرها البرديجي في هذا الباب [illegible]
انها احاد وهي تصير بذكر بالهاشاني [illegible] واكثر من ذلك
ذلك قال البرديجي منكر [illegible] وروى عنه اسمعيل بن ابي عروبة قال ابن
بكير [illegible] غير منسوب روى عن ابي فزارة راشد بن كيسان
عن ابي زيد مولى عمرو بن حريث عن عبد الله بن مسعود عن النبي صلى الله
[illegible] الوضوء بالنبيذ [illegible] عبد الله
المزني عن نافع عن ابن عمر حدث عن [illegible] عبد الملك الاسدي
الهمداني [illegible] بن يوسف بن حطان [illegible] يروي عن
عبد الله [illegible] بن معاذ الزيات واسرائيل بن يونس
ويحيى بن سعيد الانصاري حدث عنه سليمان بن ابي هوذة وعبد الله
ابن المغيرة النخعي ومسلم بن سالم البلخي وغيره [illegible] يروي عن
عبد الرحمن [illegible] بن عمرو بن حزم حدث عنه ابو كريب محمد بن العلا
ابن كريب الهمداني [illegible] النخعي ابو عبد الله يحدث
عن داود بن [illegible] حدث عن [illegible] الزهري البصري [illegible]
[illegible] البصري [illegible] حدث عن نافع حدث عنه [illegible]
عبد الواحد بن واصل الحداد [illegible] العاقب ابو بكر [illegible]
[illegible] القطعي قاضي [illegible] ابو العباس بن [illegible] المعلى [illegible]
[illegible] الحديث [illegible] بن عمر الزجاج [illegible] الحسن [illegible]
[illegible] قال البرديجي يحيى بن [illegible]
ابن بكير [illegible] بن معاوية [illegible] بن طهمان [illegible]
[illegible] قال البرديجي [illegible] بن هرون قال ابو [illegible]
[illegible] داود بن المحبر [illegible]
[illegible]







قرأت جميع الأسماء المفردة للبرديجي على الشيخ الإمام العالم الحافظ جمال الدين أبي حامد
محمد بن علي بن محمود المحمودي الصابوني عرضا بأصل من جعفر الهمداني بسماعه من السلفي
بسنده فيه فسمع السادة المسمون أبو عبد الله الحجار بن أبي الفتح بن أبي الفضل
البعلي وابن كمال الدين محمد بن عباس بن أبي بكر بن جعوان الأنصاري وعبد الله بن عبد الرحمن
ابن علي المقدسي ومحمد بن السري بن حسن بن المظفر الحسيني المعلاني وبدر الدين بدر بن عبد الله
الآمدي وسابق الدين مثقال بن عبد الله العليمي وصح وثبت في العشر الأول من ذي الحجة سنة
تسع وستين وستمائة بجامع دمشق المحروسة وكتب معاوية أحمد بن علي بن مسعود
ابن نفيس عبد الله الموصلي ثم الحلبي عفا الله عنه وعن والديه حامدا الله ومصليا على نبيه ومسلما



**İLKİN ƏNVƏR oğlu ƏLİMURADOV**

# IX-X ƏSRLƏR AZƏRBAYCANLI HƏDİSŞÜNAS ALİM ƏHMƏD HARUN OĞLU ƏL-BƏRDİCİ (BƏRDƏLİ)

Çapa imzalanmışdır: 18.11.2015
Kağız formatı: 60x84 1/16
Həcmi: 11,25 ç.v.; Sifariş:135
Sayı:200

Kitab "Araz" nəşriyyatının
mətbəəsində hazır diapozitivlərdən
istifadə olunmaqla
ofset üsulu ilə çap edilmişdir.

**Ünvan:** *Bakı, Mətbuat pros. 529-cu məhəllə*
**Tel:** (012) 432-34-82